# KİTABXANAŞÜNASLIQ

# VƏ

# BİBLİOQRAFİYA

№ 2 * 2005

BAKI – 2005

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ
KİTABXANAÇILIQ-İNFORMASİYA FAKÜLTƏSİ

# KİTABXANAŞÜNASLIQ VƏ BİBLİOQRAFİYA

**Elmi-nəzəri, metodik və təcrübi jurnal**

№ 2 (17)* 2005

*1997-ci ilin oktyabrından çıxır*

BAKI – 2005

KVT 78
K 73

**Təsisçi və**
**Baş redaktor:**
**Professor**
**Xəlil İSMAYILOV**

**Məsul redaktor:**
**Dosent**
**Knyaz ASLAN**

**REDAKSİYA HEYƏTİ:**

Professor Abuzər XƏLƏFOV
Professor Zöhrab ƏLİYEV
Professor Bayram ALLAHVERDİYEV
Dosent Əşrəf XƏLƏFOV
Dosent Rasim KAZIMOV
Dosent Nadir İSMAYILOV

**K 73** *Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. – B.: Bakı Universiteti Nəşriyyatı, 2005. - №2.-152 s.*

*Redaksiyanın ünvanı:*
*Az – 1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23,*
*2№-li tədris korpusu, IV mərtəbə, Kitabxanaçılıq-informasiya fakültəsi, «Kitabxanaşünaslıq və biblioqrafiya» jurnalının redaksiyası.*
*Telefonlar: 439-05-47; 439-03-66*

**© «Kitabxanaşünaslıq və biblioqrafiya», 2005**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**БИБЛИОТЕЧНО – ИНФОРМАЦОННЫЙ ФАКУЛЬТЕТ**

# БИБЛИОТЕКОВЕДЕНИЕ И БИБЛИОГРАФИЯ

**Научно-теоретический,**
**методический и практический журнал**

**№ 2 (17) * 2005**

*Выходит*
*С 1997 года*

**Баку - 2005**

## BU NÖMRƏDƏ


**KİTABXANAŞÜNASLIQ**

"İnfornasiya cəmiyyəti və kitabxanaların vəzifələri" mövzusunda ümumrespublika elmi-praktik seminarı

**Abuzər Xələfov.** İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri.

**Земфира Ткаблабзе.** К вопросу истории библиографии детской литературы в Грузии

**Rasim Kazımov.** Pullu kitabxana xidmətləri

**Əli Rüstəmov, Nuriyə Mustafayeva**. Elektron kitabxana problemi (2-ci məqalə).

**Zöhrab Baxşəliyev.** Respublikanın neft emalı və ncft-kimya sənayesi üzrə sahəvi elmi-tədqiqat institutlarında mütəxəssislərə kitabxanainformasiya xidməti.

**Knyaz Aslan.** Nizami Gəncəvi irsində söz, kitab və mütaliə məsələləri

**Akif Cəfərov.** Kəndli-fermer təsərrüfatı işçilərinə kitabxana xidmətinin təşkili xüsusiyyətləri.

**Sevda Xələfova.** 1970-1975-ci illərdə Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı.

**Zəminə İbadova.** Ali məktəb kitabxanalarında oxuculara xidmət işinin xüsusiyyətləri

**Çinarə Məmmədov**a. İnformasiya əsrində mərkəzləşmiş kitabxana sistemlərinin durumu

**Mehri Cəfərova.** İnformasiyalaşdırılmış cəmiyyət və kitabxanalar

## BİBLİOQRAFİYAŞÜNASLIQ

**Zöhrab Əliyev**. Biblioqrafik vəsaitlər sənəd axını və kütləsini inteqral şəkildə əks etdirən biblioqrafik informasiya mənbələridir

**Əşrəf Xələfov.** Arxiv sənədlərinin biblioqrafiyası elmi-köməkçi biblioqrafik vəsaitin bir tipi kimi

**Sima İsmayılova.** Cari biblioqrafik informasiya mənbələri ədəbiyyatşünaslığın biblioqrafik informasiya təminatında

**Xuraman Verdiyeva.** Dahi Azərbaycan alimi Nəsirəddin Tusinin əsərləri biblioqrafik mənbələrdə

**Leyli Abbasova.** Azərbaycan Milli Elmlər Akademiyasının nəşrlərinə dair biblioqrafik informasiya mənbəyi.

## KİTABŞÜNASLIQ

**Seymur Şeydayev.** Orucov qardaşlarının nəşriyyatçılıq fəaliyyəli.

**Zülfiyyə Əsəgərova.** M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının «Elmi əsərləri»nin nəşr tarixi.

## İŞ YOLDAŞLARIMIZIN XATİRƏSİ

Tacəddin Fərhad oğlu Quliyev.

Zöhrab İsa oğlu Baxşəliyev.

# «İNFORMASİYA CƏMİYYƏTİ VƏ KİTABXANALARIN VƏZİFƏLƏRİ» MÖVZUSUNDA ÜMUMRESPUBLİKA ELMİ-PRAKTİK SEMİNARI

*2005-ci il mayın 26-da Azərbaycan Milli Elmlər Akademiyası İnformasiya Texnologiyaları İnstitutunda «İnformasiya cəmiyyəti və kitabxanaların vəzifələri» mövzusunda ümumrespublika elmi-praktik seminarı keçirilmişdir.*

*Seminarın keçirilməsində məqsəd informasiya cəmiyyətinin qurulması istiqamətində respublika kitabxanalarının vəziyyətini dünyada həyata keçirilən informasiyalaşma prosesləri fonunda təhlil və müzakirə etmək, həyata keçirilməsi vacib sayılan tədbirlər, həll olunması zəruri hesab edilən problemlər haqqında fikir mübadiləsi aparmaq, bir sözlə, kitabxana-informasiya fəaliyyəti ilə məşğul olan qurumların İnformasiya Kommunikasiya Texnologiyaları, vasitələrindən istifadə edərək öz xidmətlərini informasiya cəmiyyətinin tələblərini ödəyəcək platformalarda reallaşdırmaq, dünya informasiya məkanına inteqrasiya etmək üçün onların və əlaqədar təşkilatların qarşısında duran vəzifələri müəyyənləşdirmək idi.*

*Seminarın təşkilatçıları Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, MEA İnformasiya Texnologiyaları İnstitutu, Bakı Dövlət Universiteti Kitabxanaçılıq-informasiya fakültəsi və MEA-nın Mərkəzi Elmi Kitabxanası idi.*

*Seminara Rabitə və İnformasiya Texnologiyaları naziri, akademik Əli Abbasov, respublikanın aparıcı kitabxanalarının, həmçinin təhsil müəssisələrinin kitabxanalarının, bəzi ictimai qurumların nümayəndələri və başqaları dəvət olunmuşdular.*

*Seminarı giriş nitqi ilə akademik Əli Abbasov açmış və geniş məruzə ilə çıxış etmişdir. O qeyd etmişdir ki, Azərbaycanda informasiya kommunikasiyası texnologiyaları sahəsi cəmiyyətin demokratikləşməsində, insan hüquqlarının qorunmasında, söz azadlığının təminatında aparıcı rol oynayır. İndi bütün dünyada olduğu kimi Azərbaycanda da təhsil və insan potensmialının inkişafı ön cərgədə çəkilir. Hər iki istiqamət üçün əsas dolğun baza kitabxanaların şəbəkəsidir. SSRİ dağıldıqdan sonra çox təəssüf ki, kitabxanalar şəbəkəsi ciddi zərbə almışdır. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın bir sıra kitabxanaları qarət olunmuş, yandırılmış və dağıdılmışdır. Bir sözlə, müəyyən vaxt ərzində kitabxanalarda problemlər yaranmışdır. Lakin son zamanlar Azərbaycanda aparılan düzgün siyasi, sosial-iqtisadi islahatlar kitabxanaların da inkişafına təkan verir. Hazırda bu sahədə irəliyə doğru mühüm addımlar atılmaqdadır.*

*Sonra AMEA İTİ-nin direktoru Rasim Əliquliyev «İnformasiya cəmiyyəti qurulması istiqamətində elektron kitabxanalar infrastrukturunun yaradılması problemləri», BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, professor Abuzər Xələfov «İnformasiya cəmiyyətinin formalaşmasında kitabxanaların vəzifələri», AMEA MEK-in direktoru, filologiya elmləri namizədi Aybəniz Əliyeva-Kəngərli «Ənənəvi kitabxanadan avtomatlaşdırılmış informasiya mərkəzinə doğru» mövzularında maraqlı məruzələr etmişlər.*

*Naxçıvan Dövlət Universitetinin prorektoru, professor Vəli Hüseynov, BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi Rasim Kazımov, İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, texnika elmləri namizədi İsbəndiyar Əliyev, həmin institutun elmi işçisi Sergey Kondratyev və sektor müdiri Kifayət Qasımova isə öz məruzələrində kitabxana işinin kompüterləşməsi istiqamətində aparılan elmi tədqiqat işlərindən, «AZMARC» formatı ilə əlaqədar görülən işlərdən, elektron kitabxanaların və elektron kitabların yaradılması texnologiyalarından, onların istifadə problemlərindən, informasiya texnologiyalarının tətbiqi ilə müasir kitabxana-informasiya xidmətinin təşkilindən və onun elmi tədqiqatların keyfiyyətinə təsirindən bəhs etmişlər.*

*Çıxışlardan sonra problemlər ətrafında müzakirələr aparılmışdır.*

*Seminarın ikinci hissəsində Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin şöbə müdiri Əflatun Məmmədov çıxış etmişdir.*

*Seminarın sonunda müzakirələrin nəticəsi olaraq tövsiyələrdən ibarət qərar qəbul olunmuşdur.*

*Problemin aktuallığını nəzərə alaraq professor Abuzər Xələfovun məruzəsini tam şəkildə oxucularımızın diqqətinə çatdırırıq.*



**Abuzər XƏLƏFOV**
*Əməkdar elm xadimi,*
*tarix elmləri doktoru, professor*

## İNFORMASİYA CƏMİYYƏTİNİN FORMALAŞMASINDA KİTABXANALARIN VƏZİFƏLƏRİ

Hörmətli cənab sədr!

Hörmətli cənablar və xanımlar! Həmkarlar!

İcazə verin, Sizi müstəqil respublikamızın həyatında çox mühüm hadisə olan "İnformasiya cəmiyyəti və kitabxanaların vəzifələri" mövzüsünda keçirilən Ümumrespublika elmi-praktiki seminarın iştirakçılarını səmimi qəlbdən salamlayım və Sizə "Xoş gəlmisiniz" deyim.

İcazə verin, həmçinin bu seminarın keçirilməsinin təşəbbüskarı, təəssübkeşi və təşkilatçısı, Azərbaycan MEA-nın İnformasiya Texnologiyaları İnstitutunun direktoru, texnika elmləri doktoru Rasim Əliquliyevə bu böyük xeyirxahlığına görə respublikanın böyük kitabxanaçılar ordusu adından təşəkkür edim.

Hörmətli seminar iştirakçıları! İnformasiya əsri olan XXI əsr müstəqil Azərbaycan Respublikası qarşısında çox mühüm, təxirəsalınmaz vəzifələr qoymuşdur. Bu vəzifələr, hər şeydən əvvəl, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafının sürətlə, intensiv surətdə yüksəldilməsini, Azərbaycan milli ideologiyasının, Azərbaycan dövlətçiliyinin təbliğini tələb edir.

İnformasiya cəmiyyətinin qarşıya qoyduğu bu vəzifələrin həyata keçirilməsində bütün xalqımızla, bütün peşə sahibləri ilə yanaşı respublikamızın informasiya mütəxəssisləri və kitabxanaçıları da yaxından iştirak etməli, ölkədə cəmiyyətimizin, xalqımızın informasiyaya artan tələbatını ödəməkdə onların köməkçisi olmalıdırlar.

İnformasiya cəmiyyətində kitabxanaların rolu daha da artmış, informasiya daşıyıcılarını toplayıb saxlayan, qoruyan bir müəssisədən

informasiya istehsal edən, elektron informasiya vasitələri yaradan bir müəssisəyə çevrilmişdir.

Kitabxanaların tarixinə nəzər saldıqda məlum olur ki, bütün dövrlərdə kitabxanalar xalqın yaratmış olduğu elmi, mədəni sərvət kimi həmişə bəşəriyyətin işıqlı gələcəyinə, təhsilinə, maarifinə, mədəniyyətinə, elminə, tərbiyəsinə xidmət etmiş, bilik, elm, informasiya mərkəzi kimi bəşər sivilizasiyasının yüksəldilməsi vasitəs olmuşdur. Hələ Miladdan öncə bəşər mədəniyyətinin beşiyi olan Şumerdə, Assuriyada, Kiçik Asiyada, qədim Misirdə, Romada, ərəb və Avropa ölkələrində informasiya daşıyıcısı olan kitabları və s. yazılı materialları toplayıb qoruyan, onu nəsildən-nəslə ötürən kitabxanalar ən böyük elmi əhəmiyyət kəsb edən mədəni müəssisə olmuşdur.

Ancaq kitabxanaların işində baş verən yeniləşmələr heç də kitabxana işinin özünəməxsus qanunauyğunluqlarının dəyişməsinə təsir edə bilmədiyindən kitabxanaların institut bütövlüyü həmişə qalmışdır.

Kitabxanalar həmişə sosial tələbatı ödəmək üçün yaranmış və onun inkişafı fikir tarixi ilə sıx əlaqədə olmuşdur. Kitabxanalar fəaLiyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır.

Cəmiyyət kitabxanaların hamisi olduğundan kitabxanalar daimi öz fəaliyyəti ilə cəmiyyətin tələbatına cavab vermiş, onu yaratmış olan cəmiyyətə xidmət etmişdir. Kitabxanalar həmişə onu yaratmış cəmiyyətin mühiti ilə, onun mədəni sərvətlər sistemi ilə bağlı olmuşdur.

Kitabxanalar bəşəriyyətin yaratmış olduğu elmi sərvətləri toplayıb, qoruyub, saxlayıb, onları ardıcıl olaraq, təmənnasız insanların istifadəsinə verməklə elmin, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi kəşflərin tərəqqisi və yayılması üçün şərait yaratmışdır.

Kitabxanalar həmçinin elmin, fəlsəfənin, mədəniyyət və ədəbiyyatın, incəsənətin, təhsil sisteminin və ümumiyyətlə, cəmiyyətin mənəvi sərvətlərinə dair çap əsərlərinin, informasiya daşıyıcılarının biliyin yayılmasında fəal iştirak etməklə tərbiyə və təlim prosesinə, bəşəri, əxlaqi biliklərə yiyələnmə prosesinə fəal təsir etməklə cəmiyyətin mənəvi aləminin formalaşmasına, intellektual səviyyəli cəmiyyət üzvlərinin yetişməsində yaxından iştirak etmişdir. Məhz kitabxanaların bəşəriyyətin inkişafındakı bu mühüm tarixi xidməti və müasir cəmiyyətdə onların fəaliyyətinin nəzərə alınması onların statusunu, informasiya cəmiyyətində yerini müəyyənləşdirməyə imkan verir. Bu baxımdan müasir dövrdə kitabxanalar elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi qiymətləndirilir. Sosial institut statusuna malik müəssisə hesab edilir.



Görkəmli rus alimi akademik D.S.Lizaçovun kitabxanaların şan və şərəfinə söylədiyi sözləri xatırlamaq yerinə düşərdi: "Ölkənin mədəniyyətində kitabxanalar birinci yerdədir, ola bilər ki, universitetlər, digər ali təhsil müəssisələri olmasın, lakin kitabxanalar əsl elmi müəssisələr kimi mühafizə olunarsa elm və mədəniyyət bütünlükdə inkişaf edəcəkdir. Kitabxanalar elmə lazımdır, elm kitabxanalara lazımdır.[1]"

Digər bir fikir: "Allah eləməsin, əgər gözlənilməz hadisə nəticəsində bütün muzeylər, teatrlar, konsert zalları məhv olarsa, lakin yer üzərində heç olmazsa bir kitabxana qalarsa, mədəniyyət onsuz da dirçələcək".[2]

Görkəmli akademik Lixaçovun bu fikirləri onların institut statusunu bir daha təsdiq edir.

Cəmiyyətdə yerinə yetirdikləri vəzifələrə görə müxtəlif institutlar (təsisatlar) mövcuddur. Bunların içərisində iqtisadi təsisatlar, siyasi təsisatlar, tərbiyəvi, mədəni təsisatlar və sosial təsisatlar xüsusilə fərqlənirlər. Tərbiyəvi və mədəni təsisatlar sırasına daxil olan kitabxanalar sosial institut kimi cəmiyyətin mədəni sərvətlərini xalqa çatdırmaq üçün mədəniyyətin möhkəmləndirilməsində, gənc nəslin tərbiyəsində və təhsil prosesində yaxından iştirak edir. İnstitutlar öz vəzifələrini yerinə yetirmək üçün tarixi inkişaf prosesində yaranıb, təkmilləşən orqanları yaradır. İnstitutun yaratmış olduğu orqan bilavasitə onun xeyrinə fəaliyyət göstərməklə, onun qarşısında duran vəzifələri yerinə yetirir. Beləliklə, orqan institutun xeyrinə yaranmış sosial vasitədir. Məhz orqanın vasitəsilə institutun hərəkəti meydana çıxır. Misallara müraciət edək: əgər hüquq institutdursa, məhkəmə onun orqanıdır. Din institutdursa, kilsə onun orqanıdır. Təhsil və bilik institutdursa, məktəb, universitet onun orqanıdır.

Bu misalları kitabxanalara da aid etmək olar. Əgər kitabxana institutdursa, kitabxana işi onun orqanıdır. Məlumdur ki, kitabxana işi olmadan kitabxanalar cəmiyyətin onun qarşısında qoyduğu vəzifələri: Kitabla insanlar arasında əlaqə yaratmaq, kitabı təbliğ etmək, cəmiyyətin informasiya tələbatını ödəmək, insanların mədəni, intellektual səviyyəsinin yüksəldilməsində, tərbiyə prosesinin təşkilində yaxından iştirak etmək vəzifələrini həyata keçirə bilməz. Deməli, kitabxana işi Kitabxananın sosial institut kimi yaşamasını, inkişaf edib təkmilləşməsini, cəmiyyətin əsas təsisatlarından biri kimi fəaliyyət göstərməsini təmin edən əsas amildir, orqandır.

---

[1] *Литературная газета, 1989, № 2.*
[2] *Библиотека, 1997, № 1, С. 11-12.*

Sosial institut kimi kitabxanaların funksiyaları kitabxanaçılıq nəzəriyyə və təcrübəsinin çox mühüm problemlərindən biridir. Bu problemin hərtərəfli tədqiqi kitabxananın sosial rolu, kitabxana və cəmiyyət, kitabxana və informasiya, kitabxana və oxucu, kitabxana və kütləvi mütaliə problemlərini dərindən öyrənməyə imkan verməklə yanaşı, müasir cəmiyyətdə kitabxanaların yerini və ictimai rolunu müəyyənləşdirməyə də şərait yaradır.

Beləliklə, bütün cəmiyyətlərdə kitab mədəniyyətin silahı, sivilizasiyanın bünövrəsi, biliyin mənbəyi, təhsil, tərbiyə və informasiyanın əsas aparıcı vasitəsi kimi çıxış etmiş, cəmiyyət üzvlərinin biliyə, zəkAya, müdrikliyə, kamala gedən yolunu işıqlandırmışdır. Məhz buna görədir ki, kitab toplayıb, qoruyub saxlayan onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən kitabxanalar həmişə milli sərvət hesab edilmişdir.

Həmçinin kitabxanalar kitabı ancaq toplamaqla qalmır, zaman keçdikcə onu saf-çürük edir, öz əhəmiyyətini itirən, mənəvi cəhətdən köhnələn, zamanın sınaqlarından çıxa bilməyən kitablardan təmizlənir, saflaşır, durulur, kitab sərvətinin qızıl fondunu yaradır. Ancaq yaşamağa qadir kitabları yaşadır. Kitabxananın bu xidməti okeanı xatırladır. Okean dalğalanaraq lazımsız, zərərli əşyaları sahilə atdığı kimi, kitabxanalar da lazımsız kitablardan xilas olur.

Müstəqillik dövründə respublikamızda oxucuların informasiya təminatında, kitabxana, informasiya xidmətinin yeni mərhələyə qalldırılmasında, informasiya cəmiyyəti quruculuğunda mühüm əhəmiyyət kəsb edən kitabxana işi də mühüm dəyişiklərə və islahatlara məruz qaldı. Sosializm quruculuğu şəraitində kitabxana işi sahəsində formalaşan, əsasən ideoloci xarakter daşıyan prinsiplərdən imtina edilməklə, formAlaşmaqda olan yeni müstəqil Azərbaycan cəmiyyətinin demokratik dünyəvi prinsipləri kitabxana işinə tətbiq edilməyə başlandı. Kitabxana işi ideoloci buxovlardan azad edildi. Kitabxana işinə demokratikləşmə, milliləşmə və Azərbaycançılıq abu-havası gətirildi. Kitabxanalar dövlətçiliyimizin, milli ideologiyamızın təbliğində yaxından iştirak etməyə başladılar.

Müstəqillik illərində respublikamızda kitabxana işinin inkişafı, kitabxana şəbəkələrinin qorunub saxlanılması, kitabxanalara böyük qiymət verən böyük öndər Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev öz əsərlərində kitabxana işinə yüksək qiymət vermiş, onu ölkənin mədəni inkişafının əsas göstəricilərindən biri hesab etmiş, kitabxana haqqında çox böyük elmi-metodoloci əhəmiyyətə malik olan fikirlər söyləmişdir. Mədəniyyət tarixindən məlum olduğu kimi, dünyanın dövlət, elm və mədəniyyət xadimləri kitabxanalar haqqında çox qiymətli fikirlər söyləmiş, onu elm, mədəniyyət, təhsil, tərbiyə və informasiya mənbəyi kimi qiymətləndirmişlər.



Kitabxana haqqında söylənmiş fikirlər içərisində xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi, böyük mütəfəkkir Heydər Əliyevin kəlamları öz mahiyyəti ilə çox yüksəkdə durur.

Heydər Əliyev M.F.Axundov adına Milli Kitabxanada çıxış edərkən demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir.

Mən əvvəllər bu kitabxanaya dəfələrlə gəlmişəm, amma bu gün kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram, kitabxanaya burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm."

Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin böyük fəlsəfi mAhiyyət kəsb edən bu fikirləri dünya mədəniyyət tarixində kitabxanaya verilən ən müdrik kəlam, böyük elmi və mədəni əhəmiyyətə malik olan fikirlərdir.

Prezidentin kitabxananı müqəddəs, toxunulmaz, ilahi qüvvəyə malik bir yer adlandırması kitabxanaların mənəvi tərbiyə işində böyük məsuliyyət daşımasını ön plana çəkir. Həmçinin kitabxanaların mənəviyyat, bilik, zəka mənbəyi kimi xarakterizə edilməsi onun cəmiyyət qarşısındakı elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə kimi sosial funksiyalarını yerinə yetirmək vəzifələrini elmi cəhətdən əsaslandırır.

Məhz prezidentin bu ideyaları 1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda öz həllini tapmışdır.

Qanunda göstərilir: "Kitabxana - elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə müəssisəsi kimi çap əsərlərini və digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların sistemli istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur."

Bu tərifdən göründüyü kimi kitabxana təkcə oxuculara kitabxana və informasiya xidmətini təşkil edən müəssisə deyil, o həm də elmin, mədəniyyətin, təhsilin inkişafına xidmət edən, xalqın mənəvi tərbiyəsində yaxından iştirak edən bir müəssisədir. Qanunda kitabxanaların bu vəzifələri onun beş funksiyası: elm, informasiya, mədəniyyət, təhsil və tərbiyə funksiyası şəklində öz əksini tapmışdır. Kitabxana məhz bu beş funksiyanın cəmi kimi formalaşdıqda kitabxana adını daşıya bilər. Bu funksiyaların hamısı birlikdə, fəaliyyət göstərəndə, biri digərinin yerinə

yetirilməsinə kömək etdikdə kitabxana işi cəmiyyətin əsas atributlarından birinə çevrilir.

Son dövrlərdə kitabxanalar, ümumiyyətlə, kitabxana işinə kompüter texnika və texnologiyasının tətbiqi kitabxanaların bu sosial funksiyalarını daha da artırmışdır. Məhz buna görədir ki, informatika ilə məşğul olan mütəxəssislərin kitabxanalara, kitabxana işinə marağı artmışdır. Qeyd etmək istəyirəm ki, informatika ilə məşğul olan mütəxəssislər kitabxanaların yalnız informasiya funksiyasından doğan istiqamətləri ilə maraqlanırlar.

Bu doğru deyildir. İnformatikadan ancaq kitabxanaların informasiya fəaliyyətini genişləndirmək üçün yox, onların bütün funksiyalarını yerinə yetirməsi, onların yeni keyfiyyətlərlə zənginləşməsi üçün istifadə edilməlidir. İnformasiya kitabxana müstəvisindən üfüqi istiqamətdə keçməli, onun bütün funksiyalarının inkişaf yolunu işıqlandırmalıdır.

Kitabxanaları ona görə qorumaq lazımdır ki, onlar yalnız informasiyanı toplayıb, qoruyub, ötürməklə kifayətlənmir, elm, mədəniyyət, təhsil və tərbiyə işində də yaxından iştirak edirlər.

Artıq müasir informasiya cəmiyyətində kitabxanaların kommunikasiya sistemində rolu və əhəmiyyəti o qədər artmışdır ki, kitabxanalarsız cəmiyyətin informasiya tələbatını ödəmək mümkün deyildir. Kitabxanalar cəmiyyətdə elmin və mədəniyyətin inkişafında, təhsil və tərbiyənin yüksəldilməsində, həmçinin insanların informasiya təminatında mühüm sosial institut kimi yaxından iştirak etməklə ən çox istifadə olunan müəssisəyə çevrilmişdir.

ABŞ prezidenti Corc Buşun belə bir fikri yerinə düşür: "Qüvvətli texnika ilə təchiz edilmiş Amerika kitabxanaları ABŞ-ın iqtisadiyyatında və demokratiyada dünya liderliyinin əsas rəhnidir."

İnformasiya cəmiyyətinin yaradılması və daha da təkmilləşdirilməsi bilavasitə kommunikasiya sistemləri, informasiyanın alınması, işlənməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşısına məqsəd qoyan, informasiya resurslarını qoruyub saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürməklə informasiya daşıyıcısı kimi fəaliyyət göstərən kitabxana sistemləri mühüm vəzifə daşıyır. Ona görə də müasir informasiya cəmiyyətində kitabxana işi ilə informasiya arasında çox sıx, qarşılıqlı əlaqələr meydana çıxıb formalaşmışdır ki, bunları bir-birindən ayrılıqda düşünmək hər iki sahənin ümumi inkişafına mane ola bilər.

Müasir dövrdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi tədqiqatların nəticələrinin cəmiyyət həyatına, praktikaya tətbiq edilməsi, texnologiyanın və texniki proseslərin sürətli inkişafı nəticəsində informasiya axınının artımı, köhnəlməsi və səpələnməsi hədsiz dərəcədə çoxalmış, bu informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətlərə yönəldilməsi insanların imkanları dairəsindən kənara çıxmışdır. Bu proses həm iqtisadi, həm də sosial sahədə baş verdiyindən, daha mürəkkəb xarakter daşımağa başlamışdır.



Məhz belə bir zamanda əsasən XX əsrin ikinci yarısında bir elm kimi formalaşan, cəmiyyətin iqtisadi və sosial həyatında böyük rol oynayan və ciddi dəyişikliklər edən informatika ona qohum olan bir sıra elmlərin, ilk növbədə isə kitabxanaşünaslığın bir humanitar elm kimi yeni metodlar, ideyalar, nəzəriyyələrlə zənginləşməsi, yeni texnologiyalar, texniki vasitələrlə təmin edilməsi üçün şərait və imkanlar yaratmış, kitabxanaşünaslıq və informatika qarşılıqlı şəkildə inkişaf etməyə, təkmilləşməyə başlamışdır.

Kitabxanaşünaslıqla informatikanın inteqrasiyası nəticəsində məlum olmuşdur ki, bu iki elmin əlaqələri olmadan müasir zamanda informasiyalaşdırılmış cəmiyyəti inkişaf etdirmək, bu cəmiyyətin qarşıya qoyduğu vəzifələrə cavab vermək, cəmiyyət üzvlərinin informasiya tələbatını ödəmək mümkün deyildir.

Cəmiyyətdə informasiyalaşdırma prosesi nə qədər tez, nə qədər sürətlə getsə, dövlətimiz və xalqımız dünya dövlətləri və xalqları içərisində bir o qədər geniş inkişaf edər, qabaqcıl dünya sivilizasiyalarına qovuşar.

İnformasiya cəmiyyəti - işçi qüvvəsinin əksər hissəsinin informasiyanın, xüsusilə onun yüksək keyfiyyət səviyyəsi olan biliyin istehsalı, mühafizəsi, emalı və reallaşması ilə məşğul olan cəmiyyətdir.

İnformasiyalaşdırılmış cəmiyyətin özünəməxsus xüsusiyyətləri vardır:

- İnformasiya cəmiyyəti – yeni tipli cəmiyyətdir. Bu cəmiyyət özündən əvvəlki cəmiyyətlərdən öz texnologiyalarına (xüsusilə informasiya texnologiyalarına) görə fərqlənir. Bu cəmiyyət yeni qlobal sosial inqilabın nəticəsi olub, informasiya partlayışından doğan, informasiya və kommunikasiya texnologiyalarının birləşməsi nəticəsində formalaşan yeni tipli cəmiyyətdir;
- İnformasiya cəmiyyəti – bilik cəmiyyətidir. Bu cəmiyyət hər bir insanın, hər bir cəmiyyətin bilik almasını təmin edir, onlara informasiya mənbələrindən manesiz istifadə etmək və təcrübə qazanmaq üçün şərait yaradır;
- İnformasiya cəmiyyəti - qlobal cəmiyyətdir. Bu cəmiyyətdə informasiya mübadiləsinin nə vaxtı, nə məkanı, nə də siyasi sərhədləri var. Bu da cəmiyyətə və insanlara bəşəri sərvətlərdən bəhrələnmək

imkanı verir, mədəniyyətlərin bir-birinə qovuşmasını sürətləndirir, onların qarşılıqlı təsir dairəsini genişləndirir, hər bir cəmiyyətə başqa cəmiyyətlərdən faydalanmaqla yeniləşmək və təkmilləşmək imkanı verir.

İnformasiyalaşdırılmış cəmiyyətin formalaşması üçün əlverişli şərtlərin yaradılması yeni cəmiyyətə keçən ölkənin (şəhərin) informasiya mühitinin baza komponentlərinin sürətli və prioritet inkişafını tələb edir.

Onlardan birincisi texniki-texnoloci proseslərin inkişafıdır. Bura daxildir: informasiyanın yaranması, qorunması, yayılması və əhalinin geniş təbəqələrinin (informasiya və telekommunikasiya şəbəkələrinin, sistemlərinin, müxtəlif təyinatlı informasiyaların emalı mərkəzlərinin və s.) ondan istifadəsini təmin edən informasiya-kommunikasiya infrastrukturunun inkişafı; milli informasiya ehtiyatları sisteminin və onlardan istifadə texnologiyalarının (arxivlər, muzeylər və kitabxana fondları) təkmilləşdirilməsi və inkişafı; informasiyanın toplanması, qorunması, ötürülməsi və çatdırılmasını təmin edən hesablama və telekommunikasiya texnologiyalarının təkmilləşdirilməsi və inkişafı, onun bütövlüyü, səmərəliliyi və məxfiliyi; kütləvi informasiya vasitələrinin texniki baza və texnologiyalarının təkmilləşdirilməsi və inkişafı (elektron və çap nəşrləri, mətbuat üçün kompüter texnikası və s.)

İkincisi, komponent informasiya və kommunikasiya xidmətləri sənayesinin və onun infrastrukturunun formalaşdırılmasıdır. Buraya bunlar daxildir: informasiyalaşdırılmış cəmiyyətə inteqrasiya proseslərinin iqtisadi potensialının gücləndirilməsi və inkişafı; informasiya məhsulları və xidmətlərinin dəstəklənməsi; informasiya texnologiyaları, məhsulları və xidmətləri bazarının iqtisadi tənzimlənməsi üçün tədbirlər; əhalinin inkişaf etmiş informasiya tələbatının və informasiya mədəniyyətinin formalaşdırılması, informasiya məhsulları və xidmətlərinə alıcılıq qabiliyyəti tələbatının stimullaşdırılması; sosial əhəmiyyətli proqramlar üçün informasiya və telekommunikasiya texnologiyalarının, məhsul və xidmətlərinin istehsalçıları ilə istehlakçılarının prioritet himayəsi; kütləvi ev kompüterləşməsinin inkişafı; informasiya və telekommunikasiya sistemlərində işləmək üçün yeni nəsil kadrların kütləvi hazırlanması sisteminin dəstəklənməsi.

Üçüncü komponent iqtisadi, sosial-mədəni, hüquqi və təşkilati şərtlərin formalaşmasıdır. Bura isə bunlar daxildir: ümumi informasiyalaşdırma siyasətinin işlənib hazırlanmasını zəruri edən inteqrasiya problemlərinin həlli; informasiya qanunvericilik sisteminin və onun reallaşması mexanizminin təkmilləşməsi; kütləvi informasiyanın yayılması sisteminin inkişafı və informasiyalaşdırılmış cəmiyyətə keçid üçün



əlverişli ictimai-siyasi mühitin formalaşdırılması; informasiyanın ictimai təhlükəsizliyinin təmin olunması və s.

Görkəmli rus alimi A.İ.Rakitov informasiyalaşdırılmış cəmiyyətin belə bir xarakteristikasını vermişdir:

- hər bir insan, hər bir təşkilat üçün informasiyanın ümumaçıq olması;
- informasiyanın ümumaçıqlığının real təminatı. İlk növbədə texniki informasiyanın, informasiya texnologiyasının müasir səviyyəyə uyğun şəkildə təşkili;
- informasiyanın istehsalı. Cəmiyyətin bütün sahələrində, müxtəlif istiqamətlər üzrə həyat fəaliyyətini təmin etmək və inkişaf etdirmək üçün lazımi miqdarda informasiya istehsal etmək. Bu işin həyata keçirilməsi elmi əsaslara söykənməli, kompüter texnologiyasından geniş istifadə edilməlidir.

Cəmiyyətin informasiyalaşdırılması prosesini yüksək səviyyədə təşkil etmək üçün bu işi ilk olaraq kitabxanalardan başlamaq lazımdır. Daha doğrusu, informasiyalaşdırılmış cəmiyyətin mahiyyəti və xüsusiyyətləri ilə ötəri tanışlıq belə bir qənaətə gəlməyə imkan verir ki, bu cəmiyyət informasiyanın ən mühüm daşıyıcısı olan kitab və kitabxanaLarsız keçinə bilməz. Kitabxana informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından biri, informasiya müəssisələrinin ən mühüm vasitəsidir. Kitabxanalar informasiyalaşdırılmış cəmiyyət üçün əsas müəssisə olduğu kimi müasir kitabxanalar da informasiya texnologiyaları olmadan keçinə bilməz. Müasir kitabxanaların yaşaması, fəaliyyət göstərməsi, cəmiyyətdə kitabxanalara xas olan mühüm sosial funksiyaları yerinə yetirməsi, cəmiyyətin tərəqqi və inkişafının əsas vasitələrindən birinə çevrilməsi üçün onun özünün bütövlükdə informasiyalaşdırılması zəruridir. İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanaların əsas vəzifəsi öz nəzəri və təcrübi səviyyəsinin yüksəldilməsinin daim qayğısına qalmalı, müasir cəmiyyətin, kitabxana oxucularının ən böyük ehtiyac hiss etdiyi informasiya istehsalını genişləndirməlidir.

Bütün bunlar bir daha təsdiq edir ki, digər ölkələrdə olduğu kimi, Azərbaycanda da informasiyalaşdırılmış cəmiyyətə keçid prosesində kitabxanalar yaxından iştirak edir və bu prosesin həyata keçməsini sürətləndirir.

Beləliklə, burada dediklərimi yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olar ki, dünyada bütün dəyişikliklər və yeniləşmələrlə xarakterizə olunan müasir informasiya cəmiyyəti şəraitində kitabxanalar əhaliyə kitabxana - informasiya xidməti təşkil edərkən ancaq ənənəvi xidmət üsulları ilə kifayətlənə bilməz. Kitabxanalar cəmiyyətin tələbatına

müvafiq informasiya texnologiyasına yiyələnməli, informasiyanın son nailiyyətlərindən, elmi-təcrübi nəticələrdən istifadə edərək avtomatlaşdırılmış kitabxana-informasiya sistemlərindən - proqramlarından istifadə etməklə kitabxana işini kompleks halda kompüterləşdirməlidir. Əlbəttə, kitabxana işinin kompüterləşdirilməsi olduqca mürəkkəb bir proses olduğundan onu dərhal həyata keçirmək çox çətindir. Bu çətinlik, hər şeydən əvvəl, özünü maliyyə vəsaitinin azlığında və kadr çatışmazlığında göstərir. Respublikamız keçid dövrü şəraitində yaşadığından kitabxanaların böyük əksəriyyəti maliyyə çətinlikləri ilə üzləşir.

Məhz buna görə kitabxanaların qarşısında duran bu çətinlikləri müvəffəqiyyətlə dəf etmək, daxili imkanlardan istifadə edərək, bu mühüm dövlət əhəmiyyətli bir işi həll etmək üçün daxili imkanlardan istifadə edərək təcili tədbirlər görmək zərurəti qarşıya çıxır. Bu məqsədlə kitabxanaların rəhbərliyi ən optimal variant seçib dünya birliyində, qonşu dövlətlərdə tətbiq edilən avtomatlaşdırılmış kitabxana informasiya sistemlərindən istifadə etməlidirlər. Bu sistemlər seçilib tətbiq edilərkən kitabxanaların tipləri, növləri və oxucu kontingenti nəzərə alınmalı, kitabxanalar qruplaşdırılmalıdır. Kitabxanalar qruplaşdırılarkən, onların maliyyə imkanları, həmçinin kadr potensialı da nəzərə alınmalıdır.

Bu baxımdan şərti olaraq kitabxanaların 3 qrupa bölünməsini təklif edirik:

I qrupa Milli Kitabxana, qanunvericilik və müvafiq icra hakimiyyəti orqanlarının kitabxanaları, respublika əhəmiyyətli elmi-sahəvi kitabxanalar, ayrı-ayrı icra müəssisələrinin, nazirliklərin, cəmiyyətlərin və təşkilatların kitabxanaları və s. daxildir. Sürətlə qurmaqda olduğumuz informasiya cəmiyyəti I qrup kitabxanaların kompüterləşdirilməsini ön plana çəkməyi və onun sürətlə aparılması zərurətini irəli sürür.

Fikrimizcə, I qrup kitabxanalar kompüterləşdirmə işini kompleks halda, əsasən dünya kitabxanalarında tətbiq edilmiş, sınaqdan çıxmış, beynəlxalq avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri proqramlarından istifadə etməklə həyata keçirməlidir.

Sevindirici haldır ki, respublikamızın kitabxanaları beynəlxalq proqramları qismən də olsa tətbiq etməyə başlamış və əhəmiyyətli uğurlar qazanmışlar. Belə kitabxanalara Milli Kitabxananı, AMEA-nın Mərkəzi Elmi Kitabxanasını, Prezident Aparatının Kitabxanasını, BDU-nun Elmi Kitabxanasını misal göstərə bilərik. Bu kitabxanaların hər üçü Rusiya Federasiyasında tərtib edilmiş, İRKİS (İnteqrallaşdırılmış Regional Kitabxana İnformasiya Sistemi) sistemini tətbiq etmişlər.

I qrupa daxil olan digər kitabxanalar da bəhs etdiyimiz kitabxanaların iş təcrübəsindən müvəffəqiyyətlə istifadə edə bilərlər.



II qrupa böyük və zəngin kitab fonduna, informasiya ehtiyatlarına, geniş oxucu kontingentinə malik olan, idarə və müəssisələrin kitabxanaları və mərkəzləşmiş kitabxana sistemlərinin mərkəzi kitabxanalarını, metodik mərkəz statusuna malik kitabxanaları və s. daxil etmək olar. II qrupa daxil olan kitabxanalar ilk mərhələdə kitabxana işinin kompleks halda kompüterləşdirə bilməsələr də, onun hissə-hissə həyata keçirilməsində nail olmalıdırlar.

I və II qrup kitabxanaların İnternetə qoşulması və öz oxucularının tələbatını internet vasitəsilə ödənilməsinə nail olunması zəruri hesab edilməlidir. Bu kitabxanalarda elektron informasiya vasitələrindən: elektron kataloqlardan, elektron kitab fondundan və ümumiyyətlə, kompüter texnologiyasından istifadə etmək üçün oxucuların öyrədilməsinə şərait yaradılmalı, kurslar və yaxud dərnəklər təşkil edilməlidir.

III qrupa kiçik kitab fondlarına malik olan kütləvi kitabxanalar daxildir. Əlbəttə, yaxın gələcəkdə bunların kompüterləşdirilməsi mümkün olmasa da, kitabxanalara fərdi kompüter verilməli böyük kitabxanalarda onların əlaqələri genişləndirilməlidir.

Müstəqillik illərində respublikamızda yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlanması sahəsində də mühüm işlər görülmüşdür. İnformasiya cəmiyyətinin kadr hazırlığı sahəsində qarşıya qoyduğu vəzifələrə müvafiq olaraq Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsinin işində böyük islahatlar aparılmış, yüksək ixtisaslı kadrların peşəkarlıq səviyyəsini yüksəltmək üçün tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə, tədris planının yenidən zamanın tələbinə uyğun tərtibinə ciddi diqqət yetirilmişdir.

Hər şeydən əvvəl, fakültənin adı dəyişdirilmiş, əvvəllər "Kitabxanaçılıq" fakültəsi adlanan fakültə indi "Kitabxanaçılıq-informasiya" fakültəsi adlanır. Sevindirici haldır ki, fakültənin kollektivi fakültənin adına müvafiq fakültənin tədris planına yeni fənlər əlavə etməklə fakültədə tədris edilən bütün fənlər üçün yeni, müasir tələbata cavab verən proqramlar hazırlayıb çap etdirmişdir. Belə proqramların sayı 30-a qədərdir. Fakültənin tədris planına "Kitabxana proseslərinin kompüterləşdirilməsi", "Kitabxana işinin proqram təminatı", "Kitabxanaların fandrayzinq fəaliyyəti", "Kitabxanalar və sosial proseslər", "Kitabxana işinin iqtisadiyyatı" və s. fənlər salınmışdır ki, bu fənlər də bilavasitə kitabxana işinin kompüterləşdirilməsi prosesinə xidmət edir. Fakültədə kitabxana işinin kompüterləşdirilməsinə dair yeni dərs proqramları, dərsliklər və dərs vəsaitləri nəşr edilmişdir.

Fakültədə 1997-ci ildən başlayaraq Avropa standartlarına uyğun iki pilləli təhsilə keçilmiş, təhsilin birinci pilləsində "Bakalavrlar",

ikinci pilləsində isə "Magistrlər" hazırlanır. Fakültənin qəbulu sabitləşmiş, dövlət planına görə hər il fakültənin əyani və qiyabi şöbələrinə 125 nəfər tələbə qəbul edilir. Fakültənin maddi-texniki bazası xeyli möhkəmlənmiş, yeni abad auditoriyalar, laboratoriyalar və avadanlıqlarla təmin edilmişdir. Fakültədə 3 laboratoriya "Kitabxana fondu və kataloqu", "Kitabxana işinin təşkili və idarə olunması", "Biblioqrafik informasiya axtarış sistemləri" tədris laboratoriyaları fəaliyyət göstərir. Fakültədə 1999-cu ildə kompüter mərkəzi yaradılmışdır. Bu mərkəzin tələbələrin kompüter savadına yiyələnməkdə, kompüterdən istifadə işində böyük xidməti vardır.

Azərbaycanda ilk dəfə olaraq Kitabxanaçılıq-informasiya fakültəsinin təşəbbüsü ilə 1999-cu ildə "Kitabxanaların kompüterləşdirilməsi" Elmi Tədqiqat Laboratoriyası yaradılmışdır. Kitabxana işinin kompüterləşdirilməsi kimi çox mürəkkəb bir işlə məşğul olan bu laboratoriya müasir informasiya cəmiyyəti şəraitində kitabxana işinin kompüterləşdirilməsinin məqsəd və vəzifələrini araşdırmış, kompüterləşdirmənin əsas istiqamətlərini müəyyənləşdirmiş, kitabxanaların kompüterləşdirilməsi proqramını hazırlamışdır. Belə ki, laboratoriyanın əməkdaşı tərəfindən qısa müddətdə ilk dəfə olaraq milli Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi (AKİS) - "Kitabxana-1.0" yaradılmış, onun təkmilləşdirilmiş "Kitabxana-2.0" versiyası yaradılmışdır. Bu AKİS-lər 20 minə yaxın biblioqrafik yazı əsasında Azərbaycan dilində kitabların informasiya bazasına malik olub, 13 axtarış göstəricisi və onların kombinasiyasına görə informasiya axtarışını həyata keçirir. Bu AKİS-lər o zaman qüvvədə olan QOST 7.1-84 standartı əsasında hazırlanan biblioqrafik məlumat bazasına əsaslandığından, kitabxanaların müasir problemlərini, o cümlədən beynəlxalq biblioqrafik məlumat mübadiləsini təmin etmədiyi üçün 2003-cü ildən etibarən BDU-nun elektron kAtaloqunun yaradılmasında keçmiş MDB-nin bir sıra qabaqcıl kitabxanalarında uzun müddət tətbiq olunan "Marc-Sql-1,5" AKİS-i ilə iş aparılır. Bu proqram kitabxananın elektron kataloqunun yaradılmasını, kitabxana fondunun komplektləşdirilməsini və uçotunu, abonement, axtarış-məlumat xidmətini avtomatlaşdırır, İnternet/İntranet şəbəkəsi vasitəsilə oxucuların uzaq məsafədən on-line ədəbiyyat axtarışı və sifarişini təmin edir. AKİS biblioqrafik məlumat bazasının UNIMARC və USMARC formatlarında hazırlanmasını təmin edir ki, bu da Elmi Kitabxanaya biblioqrafik məlumat mübadiləsini həyata keçirməyə və bunun əsasında əlavə maliyyə mənbələrinin əldə olunmasına imkan verir. Hazırda bu proqramla yanaşı İRKİS proqramı ilə də informasiya elektron kataloqa daxil edilir. Laboratoriyanın əməkdaşları tərəfindən UNIMARC formatı Azərbaycan dilinə tərcümə olunmuş, onun tətbiqinə kömək məqsədilə nümunələr hazırlanmışdır. Laboratoriyanın əsas fəaliyyət istiqamətlərindən biri elektron dərsliklərin hazırlanmasıdır. Müəllif hüquqlarının qorunması nəzərə alınmaqla BDU-nun aparıcı alimlərinin əsərlərinin elektron kitabları hazırlanır. Həmçinin "Heydər Əliyev. Biblioqrafik məlumat kitabı" və onun Azərbaycan, rus və ingilis dillərində elektron diski (tərtib edənlər A.A.Xələfov, S.A.Sadıqova) hazırlanmışdır.

Müstəqillik illərində fakültədə ilk dəfə olaraq xeyli milli dərsliklər, dərs vəsaitləri, metodik göstəricilər çap edilmişdir. Belə nəşrlərə misal olaraq A.Xələfovun "Kitabxanaşünaslığa giriş" (2 cilddə), "Azərbaycanda kitabxana işinin tarixi", X.İsmayılovun "Kitabxanaların metodiki təminatı", "Kitabxana menecmenti", R.Kazımovun "Kitabxana iqtisadiyyatı", A.Qurbanov və N.Musayevanın "Kitabxana informatikası" (2 cilddə) dərs vəsaitlərini və s. misal göstərmək olar.

Fakültənin nəşr etdiyi "Kitabxanaşünaslıq və biblioqrafiya" adlı elmi-nəzəri, metodik və təcrübi jurnalı mütəxəssislərin yeni məqalələrinin nəşr edilməsində mühüm rol oynayır.

Kitabxanaçılıq-informasiya fakültəsi XX əsrin II yarısından başlayaraq respublikamızda kitabxanaşünaslıq, biblioqrafiya və kitabşünaslıq üzrə elmi-tədqiqat işinin mərkəzinə çevrilmiş, göstərilən sahələr üzrə fundamental elmi tədqiqatlar aparılmış, doktorluq və namizədlik dissertasiyaları müdafiə edilmiş, onlarla elmi məqalələr, monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri çap edilmişdir.

***Абузар Халафов***

## ФОРМИРОВАНИЕ ИНФОРМАЦИОННОГО ОБЩЕСТВА И ЗАДАЧИ БИБЛИОТЕК


***РЕЗЮМЕ***

***Статья содержит полный текст выступления автора на республиканском научно-практическом семинаре, посвященном задачам библиотек в условиях формирования информационного общества в Азербайджане.***

***Особое внимание уделено развитию и совершенствованию информационных функций библиотек, использованного в библиотечной работе современных средство информайионной технологий.***

**Земфира ТКАБЛАДЗЕ**
*Профессор*

# К ВОПРОСУ ИСТОРИИ БИБЛИОГРАФИИ ДЕТСКОЙ ЛИТЕРАТУРЫ В ГРУЗИИ

Грузинская детская литературы насчитывает не одно столетие. По свидетельству специалистов, первое детское произведение относится к V-VI векам. Но первым письменным свидетельством является новелла IX века, посвященная проблеме детского воспитания, ставшая позднее книгой для детского чтения. Примечательно, что первая печатная книга для детей вышла из типографии грузинского царя Вахтанга VI в 1711 году.

Наиболее интенсивно печатание детских книг приходится на начало XIX века, часть этих книг была оригинальной, а часть переводной. Конец XIX и начало XX веков – период наиболее бурного развития грузинской детской литературы, когда известные грузинские общественные деятели, 60-ники, обратили серьезное внимание на проблему детского чтения. Начинают издаваться детские журналы: «Цкаро» («Источник») – 1881, «Нобати» («Дары природы») – 1883, «Джеджили» («Побеги») - 1890, «Накадули» («Ручей») - 1904 и др., на страницах которых печатаются произведения известных грузинских писателей, благодаря которым в грузинскую детскую литературу вошла реальная жизнь с ее острыми социальными проблемами. Одновременно грузинская детская литература обогащалась переводами произведений иностранных авторов, что стало действенным фактором для развития культурных связей с зарубежными странами.

С этого времени возникает повышенный интерес к личности ребенка, проводятся эксперименты для выявления фактора воздействия чтения на психологию ребенка. Печатаются научные, теоретические методические исследования о детской книге и детском чтении. Все это требовало учета и систематизации детской литературы и материалов для детского чтения, критической оценки выходящей продукции, учета, отбора и рекомендаций лучших книг для детского чтения.

Поэтому, когда в конце XIX – начале XX веков началось составление библиографических указателей, то в общую библиографию вошли и книги для детского чтения. Первый такой библиографический указатель был составлен Г.Шаншиашвили – «Хронологический указатель книг и брошюр, вышедших на грузинском языке с 1629 по 1883».- Тф.,1883.-71 с. В предисловии составитель с сожалением отмечал, что литература всех народов имеет свой каталог, а грузинская литература его до сих пор не имела. Поэтому цензурный комитет поручил ему исправить упущение и составить каталог. Материал в каталоге был расположен систематически, а в разделах – хронологически, причем названия книг и брошюр были даны на грузинском и русском языках. Несмотря на то, что в каталоге детская книга не дана отдельной рубрикой, примечательно, что это была первая попытка собрания детской книги воедино.

В 1846 году в Тифлисе была открыта Публичная библиотека, а в 1861 году вышел в свет каталог книг, хранящихся в библиотеке, составленный директором библиотеки Адольфом Берже («Краткий каталог Тифлисской публичной библиотеки: 1846-1861».-Тф.,1861), который издавался с продолжениями.

В 1879 году по инициативе грузинских общественных деятелей было создано Общество по распространению грамотности среди Грузии, а уже в 1881 году Общество основало свой музей и при ней библиотеку, в задачу которой входило собирание и хранение рукописных и печатных книг. Поэтому сразу же возник вопрос о создании каталога, и уже в 1887 году, вышел в свет каталог, составленный Н.Мтварелашвили – «Каталог хранилища книг Общества по распространению грамотности среди Грузии», Тф., 1887., в котором детская книга дана уже обособленно: «Педагогика. Юношеская литература».

Впоследствии это Общество издало несколько каталогов, в которых детская литература была дана также отдельно, хотя и с некоторыми неточностями.

В 1908 году был опубликован каталог грузинских книг Кутаисской городской библиотеки – «Каталог грузинской книги Кутаисского книгохранилища» - Кутаиси, 1908.- 81 с. Детская литература выделена в нем в специальный раздел, а материал расположен в алфавитном порядке.

В 1916 году при Народном доме был издан «Каталог публичной библиотеки им. Зубалашвили».- Тб.,1916, составленный С.Гуджабидзе, в котором книги выделенные для юношества, скорее напоминают список.

В 1919 году был издан «Каталог библиотеки Народного клуба», в котором книги для юношества впервые сгруппированы по возрастам:

а) старший возраст,

б) младший возраст.

В конце XIX – начале XX веков помимо каталогов книгохранилищ и библиотек, печатали каталоги книжных магазинов, т.н. каталоги «книжной торговли», в которых отдельно были даны списки книг для детского чтения. С этой стороны интересны каталоги книжного магазина Гр. Чарквиани (учреж. в 1878 г.). Из печатных каталогов этого магазина до нас дошли каталоги изданные в 1881 и 1888 годах.

Из каталогов книжных магазинов известны каталоги магазина «Алиони» («Рассвет»), владельца В.Гаделиа – Тб., 1909; каталог магазина «Т.Мтавришвили и К» - Кутаиси, 1910 -52 с. Заслуживают внимания подобные каталоги и Общества по распространению грамотности среди грузин, которые печатались систематически с 1889-1914 годы.

Как видно из перечисленных каталогов, составители своеобразное внимание обращали на книги для детского чтения. Но для того, чтобы руководитель детским чтением нужны были специальные библиографические указатели, с помощью которых дети могли бы выбрать подходящую для них книгу. Первой попыткой подобного библиографического труда явился каталог юношеской книги, изданной в Кутаиси в 1905 году по инициативе Кутаисских педагогов. Это была рекомендательная библиография книг для детей всех возрастов.

Педагоги с болью в сердце отмечали, что дети слабо владеют родной речью, обучение родному языку не поставлено на должный уровень. Поэтому они советовали родителям – руководителям чтения – подбирать книги для детей соответствующих возрастов на грузинском языке (как произведения грузинских автором, так и иностранных, переведенные на грузинский язык). По мнению авторов, это должно было способствовать воспитанию чувства патриотизма и гордости за свой язык и литературу. Конечно, знание иностранных языков обогащает человека, но «если у здания нет прочного фундамента, то прочные стены на нем вознести невозможно», утверждали авторы. С современного подхода к требованиям библиографии для детей у каталога много недостатков, но для того времени это было большим шагом вперед в деле составления детской библиографии.

Новый этап в деле составления ретроспективных библиографических указателей начинается с сороковых годов XX столетия, когда вышла в свет ретроспективная библиография «Грузинская книга» («Картули цигни»), 1941, библиография, т.1, 1629–1920. В этой библиографии детская книга тоже не выделена в отдельную рубрику, поскольку материал в ней расположен хронологически, но детскую книгу можно отыскать по предметному указателю. Последующие тома



этой книги составлены по систематическому ряду, где детская книга выделена уже в самостоятельный раздел.

Впервые детская ретроспективная библиография отдельным изданием вышла в свет в 1961 году, составители М.Томадзе и В.Джоджуа (Детская грузинская книга. - Тб., 1963), включающая издания 1860-1960-ых годов. Но детские книги, переведенные и изданные на грузинском языке, также детские энциклопедии, изданные в более ранние годы, в состав этой библиографии не вошли, что конечно, является упущением составителей. Сей факт составители объяснили отсутствием этих книг в фондах библиотек, но, с нашей точки зрения, этот пробел можно было бы восполнить из старых библиографических указателей.

В 1974-1979 гг. вышла в свет ретроспективная библиография грузинской детской книги в двух частях. Первая книга включала в себя грузинскую детскую книгу с 1823 по 1920 годы. Составитель первой части Илья Горгадзе в предисловии отмечает, что книга претендует на исчерпывающее описание книг, изданных за эти годы, но и в этой книге есть некоторые пробелы. Как известно, некоторые детские книги, переведенные на грузинский язык, печатались без указания фамилии автора, только за подписью переводчика. Заслугой Горгадзе можно считать то, что он внес в свою книгу исправления, установленные З.Ткабладзе в отношении авторства многих детских переводных произведений. Библиография в книге дана в дух разделах: художественная литература и научно-популярная литература.

Вторая часть вышеупомянутой книги составлена И.Горгадзе и М.Томадзе (Грузинская советская детская книга, 1921-1970: Аннотированная библиография.- Тб., 1974.- 473 с.) и включает в себя три раздела:

1) художественная литература,
2) научно-популярная литература,
3) литературоведение и языкознание.

Кроме вышеуказанных полных библиографических указателей отдельными лицами были составлены и изданы рекомендательные и ретроспективные библиографические указатели, в которых вошли как оригинальные произведения, так и переводы. К числу таких наиболее фундаментальных библиографических указателей относится составленный нами указатель. (Аннотированный библиографический указатель переводов русской детской литературы с 1739 по 1930 годы (составитель Ткабладзе З.П.- Тб.,1974.) Автор проделал большую работу по установлению авторства русских писателей, произведения которых печатались в Грузии без указаний на автора, а только под фамилией переводчика. Нами были установлены авторы много-

численных детских произведений (110 лиц), и в последующих библиографических изданиях наши изыскания нашли свое отражение.

В настоящее время проводится большая и плодотворная Работа по составлению библиографических указателей последующего периода. Работа ведется как работниками библиографических учреъдений, так и отдельными лицами.

*Zemfira Tkabladze*

## TO THE ISSUE OF HISTORY OF CHILDREN'S LITERATURE BIBLIOGRAPHY IN GEORGIA


### *ANNOTATION*

*In the scientific article of Prof. Zemfira Tkabladze is considered beginnings and development of children's literature in Georgia and associated of compilation of corresponding bibliography.*

*In the beginning children's literature was reflected in General bibliography and catalogs;*

*Afterwards, by initiative of prominent Georgian writers, teachers and educational specialists, who decided to create special bibliography for children's literature, there was compiled the catalog for children's reading taking into account scale of age.*

*Zemfira Tkabladze*


## GÜRCÜSTANDA UŞAQ ƏDƏBİYYATI BİBLİOQRAFİYASININ TARİXİ MƏSƏLƏSİNƏ DAİR


### *XÜLASƏ*

*Elmi məqalədə prof. Z.Tkabladze Gürcüstanda uşaq ədəbiyyatı biblioqrafiyasının meydana gəlməsi və inkişafı, bununla əlaqədar olaraq biblioqrafik göstəricilərin tərtibinin zəruriliyi məsələlərinə aydınlıq gətirir.*

*Burada göstərilir ki, uşaq kitabı əvvəllər ümumi biblioqrafik göstəricilərdə və kataloqlarda öz əksini tapmışdır. Sonralar gürcü yazıçıları, pedaqoqları və uşaq mütaliəsinə rəhbərliyi həyata keçirən şəxslər uşaqlar üçün yaş xüsusiyyətləri nəzərə alınmaqla xüsusi biblioqrafiyanınyaradılması təşəbbüsünü irəli sürmüşlər.*





**Rasim KAZIMOV**

*Pedaqoji elmlər namizədi, dosent*


# PULLU KİTABXANA XİDMƏTLƏRİ

Bazar iqtisadiyyatı şəraitində kitabxanaların marketinq fəaliyyətində müxtəlif fərdi və kollektiv informasiya istehlakçılarına pullu xidmətlərin təşkili mühüm yer tutur.

Hazırda dünya kitabxana-informasiya müəssisələrinin əksəriyyətində oxuculara təqribən 50-dən yuxarı müxtəlif səviyyədə hazırlanmış pullu xidmətlər göstərilir.

Onu da qeyd etməliyik ki, pullu kitabxana xidmətlərinin geniş yayılmasına baxmayaraq, hələ də bu iş kitabxana mütəxəssisləri və oxucular tərəfindən birmənalı qiymətləndirilmir. Yəni bu işin tərəfdarları ilə yanaşı əleyhdarları da vardır.

Pullu xidmətlərin tərəfdarları bu işin zəruri olmasını ilk növbədə dövlətlərin kitabxana işinə vəsait ayırmaq imkanlarının ildən-ilə məhdudlaşdırılmasında görürlər. Bundan başqa, əlavə pullu xidmət tərəfdarları belə hesab edirlər ki, mühüm kitabxana, biblioqrafiya və informasiya xidmətlərinin əmtəə xassəsi alması oxucuları və bütövlükdə informasiya istehlakçılarını cəmiyyətdə kitabxana xidmətinin əhəmiyyətini daha dərindən dərk etməyə sövq edir, kitabxana-informasiya müəssisələrində yüksək keyfiyyətli, optimal və məqsədyönlü xidmət növlərinin formalaşması üçün maddi zəmin və stimul yaradır, kitabxana kollektivlərində təşəbbüskarlıq, yaradıcılıq və novatorluq meyllərinin güclənməsinə səbəb olur.

Nəhayət, pullu xidmət tərəfdarlarının qənaətinə görə belə xidmətlər nəticəsində əldə edilmiş vəsait kitabxanaların maddi-texniki bazasının möhkəmlənməsi, informasiya ehtiyatlarının zənginləşməsi, kitabxanalara daha yüksək ixtisaslı kadrların cəlb edilməsi və kitabxanaçı əməyinin maddi stimullaşdırılması üçün əlavə imkanlar yaradır.

Pullu xidmətin əleyhdarlarının dəlilləri isə belədir: pullu xidmətlər kitabxana işinin tarix boyu formalaşmış maarifçilik və humanistlik ənənələrinə ziddir; pullu xidmətlər əhalinin zəif imkanlı və imkansız təbəqələrini kitabxana xidmətindən tədric edə bilər; pullu xidmətlər kitabxanaları daha çox gəlir əldə etmək məqsədilə ənənəvi iş üsullarından uzaqlaşdırıb, tədricən qeyri-ciddi, əyləncəli tədbirlərə alüdəçilik yoluna istiqamətləndirə bilər.

Göstərilənlərdən başqa pullu xidmət əleyhdarları belə hesab edirlər ki, mühüm kitabxana xidmətlərinin əmtəə xassəsinin verilməsi ilə əlaqədar kitabxanalara yeni texniki vasitələrin alınması yeni işçilərin cəlb edilməsi, marketinq tədqiqatlarının aparılması, kargüzarlıq və s. əməliyyatların həyata keçirilməsinə yönəlmiş əlavə xərclər pullu xidmətlərin iqtisadi səmərəliliyini heçə endirə bilər, yəni xərclər qazancdan çox ola bilər. Biz burada pullu kitabxana xidmətləri haqqındakı mövcud mülahizələri təhlil edib, onların hansının haqlı və haqsız olmasına dair fikirlər söyləmək istəmirik. Lakin bu məsələ ilə əlaqədar təsdiqləməliyik ki, *pullu xidmətlər ətrafında ictimaiyyətcə fikir ayrılığına* baxmayaraq bu prinsip son onilliklər ərzində dünya kitabxanaçılıq təcrübəsində geniş vüsət almış, vətəndaşlıq hüququ qazanmış və hazırda getdikcə genişlənib dərinləşməkdədir.

Müasir dövrdə pullu xidmətlər sistemi respublikamızın kitabxanalarında da tədricən formalaşma mərhələsinə qədəm qoymuşdur. Onu da qeyd edək ki, «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda kitabxanalarda pullu xidmətlər sisteminin tətbiqinin hüquqi bazası yaradılmışdır. «Kitabxana işi haqqında» Qanunun 28-ci maddəsində göstərildiyi kimi, kitabxanalar «nizamnamələrində göstərilən qaydada təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırırlar». Daha sonra Qanunun həmin maddəsində deyilir: «Kitabxanalarda pullu xidmət yalnız əlavə əmək sərfi tələb edən və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən xüsusi xidmət növlərinə aid edilir».

Dünya kitabxanaçılıq təcrübəsində formalaşmış pullu xidmətlər sistemini şərti olaraq 3 növə bölmək olar:

1. İntellektual xidmətlər;
2. Təşkilati xidmətlər;
3. Servis xidmətləri.

İntellektual xidmətlər kitabxanaların marketinq xidmətləri sistemində ən yüksək qiymətləndirilən, onlara daha çox gəlir mənfəət gətirən xidmət növüdür. Buraya fərdi və kollektiv informasiya istehlakçılarının sorğu və sifarişləri əsasında elmi, texniki, texnoloji, sosial-iqtisadi



və humanitar problemlər üzrə informasiya axtarışlarının aparılması, retrospektiv və faktiki biblioqrafik arayışların, referativ bülletenlərin, analitik icmalların hazırlanmasını aid etmək olar.

Son vaxtlar Rusiya və bir sıra MDB ölkələrinin milli və elmi-texniki kitabxanalarında yaradılmış biznes-kabinetlər müxtəlif şirkətlərin, biznes təşkilatlarının istehsalat birliklərinin, səhmdar cəmiyyətlərin və s. qurumların fəaliyyəti ilə əlaqədar dünya istehsalat texnologiyası, biznes əməliyyatları, əmtəə mübadiləsi və s. kimi iqtisadi problemlər üzrə analitik icmallar hazırlayırlar ki, bunlar da sifarişçilər tərəfindən yüksək məbləğdə qiymətləndirilir və nəticədə kitabxanalar xeyli gəlir əldə edirlər.

İntellektual xidmətlər əsasən kollektiv sifarişçilər üçün sövdələşmə əsasında təşkil edilir.

Kollektiv sifarişçilərə elmi-tədqiqat müəssisələri, elmi cəmiyyətlər, istehsalat birlikləri, tədris müəssisələri, firmalar, korporasiyalar, şirkətlər və s. daxildir.

Kitabxanaların intellektual xidmətlərinin qiymətlərinin nisbətən yuxarı olmasına baxmayaraq, onlar cəmiyyətin informasiya bazarında yüksək qiymətləndirilən və iqtisadi baxımdan inkişaf etmiş ölkələrdə intensiv tətbiq edilən pullu xidmət növləri sayılırlar.

Kitabxanaların pullu xidmətlər sistemində təşkilati xidmətlərin xüsusi yeri vardır. Bunların içərisində son vaxtlara qədər kitabxanalararası abonement xidməti üstünlük təşkil edirdi. Hazırda KAA xidmətində İNTERNET sistemindən daha səmərəli istifadə edilir.

Təşkilati xidmətlər kompleksində kitabxanalar tərəfindən müxtəlif oxucu qrupları və kollektivlər üçün təşkil edilən kütləvi tədbirlər mühüm yer tutur. Əmtəə xassəli təşkilati-kütləvi tədbirlərə nümunə kimi kitabxanalarda yeni kitabların, təsviri və tətbiqi sənət əsərlərinin sərgi-satışını, kitabxanaların bazasında pullu peşə klublarının, dərnəklərin (xarici dillər, kompüterləşdirmə, rəsm, musiqi, stenoqram, cildləmə və s.) təşkilini, təlim-tərbiyə müəssisələrində kitab həftələrinin, kitab bayramlarının, elmi-tədqiqat və istehsalat müəssisələrində kitab icmallarının, informasiya və mütəxəssis günlərinin keçirilməsini göstərmək olar.

Avropa ölkələri və ABŞ kitabxanaları tərəfindən yeniyetmələr üçün yay vaxtlarında təşkil edilən səyahətlər, intellektual oyunlar, diyarşünaslıq xarakterli olimpiadalar və s. tədbirlər pullu xidmətlər sistemində əhəmiyyətli yer tutur.

Kitabxanaların pullu xidmətlər sistemində ən çox yayılmış və özünə daha çox istifadəçi cəlb edən iş növü servis xarakterli xidmətlərdir.

60-cı illərdən başlayaraq ABŞ, Avropa, Yaponiya, Skandinaviya ölkələri kitabxanalarında həyata keçirilən pullu xidmətlər kompleksində intellektual xidmət növləri ilə yanaşı, sadə, tələbatçılara olduqca əlverişli qiymətlərlə təklif edilən servis xidmətlərinin xüsusi çəkisi getdikcə artmaqdadır.

Məsələn, ABŞ Konqres Kitabxanası, Britaniya Muzeyi Kitabxanası, Fransa Milli Kitabxanası geniş oxucu kütlələrini olduqca əlverişli qiymətlərlə özündə müxtəlif mövzular üzrə yeni nəşrlərin biblioqrafik yazılarını əks etdirən maqnit lentləri və müxtəlif kompüter proqramları ilə təmin edir.

Bir sıra ölkələrdə müasir kompüter texnikasından istifadə edilməklə kitabxanaların fondunu əks etdirən elektron kataloqların diskləri hazırlanıb ucuz qiymətlərlə oxuculara satılır.

Kitabxanaların servis xidmətlərində sənədlərin surətinin çıxarılması, çoxaldılması, cildlənməsi və bərpa edilməsi, makina və kompüterdə yazılması, tərcümə edilməsi, oxucuların xüsusi marağına səbəb olmuş məşhur kitabların (bestsellərin), filmlərin, videokasetlərin, maqnitofon və videoyazıların, müxtəlif kompakt disklərin evdə istifadə etmək üçün verilməsi, müharibə veteranlarına, mühacirlərə, əlillərə evlərdə xidmət, mehmanxanalarda, pansionatlarda, müalicə müəssisələrində səyyar kitabxana xidmətinin təşkili və s. iş formaları geniş yer tutur. Son illər kitabxanalarda oxuculara müvəqqəti istifadə üçün yazı makinalarının, mikrofonların, hətta şəxsi kompüterlərin belə kirayə verilməsi təcrübəsi də getdikcə genişlənmişdir.

Bir sıra inkişaf etmiş Avropa ölkələri kitabxanaları kabel televiziyasından səmərəli istifadə etməklə ayrı-ayrı şəxslərə, ailələrə evlərdə teleinformasiya, uşaqlar üçün «nağıl saatları» və digər əyləncəli verilişlər təşkil edirlər.

Pullu kitabxana xidmətlərinin tərkibinin, forma və metodlarının ildən-ilə genişlənməsi və təkmilləşməsi onların müasir texnologiyadan istifadə etməklə hazırlanması və satış qiymətlərinin müntəzəm surətdə ucuzlaşdırılması belə xidmətlərlə getdikcə daha çox oxucuları əhatə etmək üçün geniş imkanlar açaraq, kitabxanalara daxil olan əlavə vəsaitin həcmini artırır.

Statistik məlumatlara görə, 2000-ci ildə Rusiya kitabxanalarında pullu xidmətlərdən istifadə edənlərin 62 faizini elm i-tədqiqat və təhsil müəssisələri, 24 faizini şirkətlər, firmalar, səhmdar cəmiyyətləri və s.



sənaye müəssisələri, 14 faizini isə digər idarə və müəssisələr, eləcə də şəxsi istifadəçilər təşkil etmişdir.

Beləliklə, pullu xidmətlər artıq dünya kitabxanaçılıq təcrübəsində formalaşmış marketinq fəaliyyətinin mühüm tərkib hissəsinə çevrilmişdir.

Azərbaycan Respublikasında pullu kitabxana xidmətlərinin təşkili üçün hüquqi bazanın yaradılmasına baxmayaraq, bu iş kitabxanalarımızda hələ sistemli fəaliyyət kimi formalaşmamışdır.

Respublikamızın iri kitabxanalarında həyata keçirilən pullu xidmətlər epizodik olub, əsasən xırda servis xarakteri daşıyır (surətçıxarma, çoxaltma, cildləmə və s.) , kitabxana xidmətinin mühüm istiqamətlərini əhatə etmir.

Respublika Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən kitabxanalarda pullu xidmətlərin təşkilinə dair heç bir normativ sənəd, metodik tövsiyələr hazırlanmamış, kitabxana işçiləri üçün müşavirə, seminar və ya praktikumlar təşkil edilməmişdir.

Zənnimizcə, bu gün kitabxanalarımızın maddi-texniki bazasının yarıtmaz vəziyyətə düşməsinin bir səbəbini də burada axtarmaq lazımdır.

Kitabxanalarda pullu xidmətlərin həyata keçirilməsində optimal qiymətqoyma siyasətinin formalaşıb həyata keçirilməsi olduqca vacib şərtlərdən biridir.

Məlumdur ki, marketinq fəaliyyətində qiymətqoyma siyasəti özündə bazis qiyməti, müqavilə qiyməti, dəyişkən qiymət, sövdələşmə qiyməti, cari qiymət, güzəştli qiymət və s. qiymətqoyma metodlarını birləşdirir.

Kitabxanalarda informasiya bazarının ümumi mühitindən asılı olaraq qiymətqoyma mexanizminin bütün metodlarından istifadə edilə bilər.

Pullu kitabxana-informasiya xidmətlərinin qiymətləri ilk növbədə müvafiq xidmətlərə olan tələbatın həcmi və intensivliyi, xidmətlərin keyfiyyəti və səmərəliliyi (operativliyi, dolğunluğu, relevantlığı və s.), onların hazırlanmasına sərf edilmiş vəsait, reklam xərclərinin ümumi məbləği, xidmət bazarının xüsusiyyətləri, digər rəqabət bazarlarındakı qiymətlər, əməyin stimullaşdırılmasına yönəlmiş xərclər, avadanlığın amortizasiyası, nəhayət, gəlir, mənfəət və s. amillər nəzərə alınmaqla müəyyənləşdirilir.

Şübhəsiz ki, qiymətlərin əmələ gəlməsi hər bir kitabxanada və kitabxana sistemində müvafiq xidmətlərin hazırlanması texnologiyasından, işçilərin peşə səviyyəsindən və kitabxananın maddi-texniki bazası-

nın ümumi vəziyyətindən də xeyli asılıdır. Bu səbəblərdən bütün kitabxanalarda eyni xidmətə vahid qiymətin müəyyən olunması hələlik mümkün deyil.

Hazırda dünya kitabxanalarında geniş tətbiq edilən qiymətqoyma metodu «orta xərclər + mənfəət» metodudur. Bu qiymətqoyma metodu üzrə mənfəətin məbləği orta xərclərin 20 faizindən 50 faizinə qədər hesablana bilər.

Cəmiyyətdə kitabxanaçılıq fəaliyyətinin humanitar, maarifçilik, mədəni xarakter daşıdığını nəzərə alsaq, «orta xərclər + mənfəət» metodunu qiymətqoyma siyasətində ən xeyirxah və ədalətli metod saymaq olar. Bu metod başqa qiymətqoyma metodlarından fərqli olaraq xidmət bazarında qiymətlərin sabitliyini və oxuculara ziyan vurmadan mənfəət götürmək prinsipini bərqərar edir.

Dünya təcrübəsi göstərir ki, iqtisadi baxımdan inkişaf etmiş ölkələrin kitabxanalarının marketinq fəaliyyətində güzəştli qiymətqoyma metodu da ildən-ilə genişlənir. Belə ki, hazırda ABŞ və Avropa ölkələrinin əksəriyyətində uşaqlara, tələbələrə, mühacirlərə, 65 yaşından yuxarı oxuculara, turistlərə, əlillərə, müharibə veteranlarına, milli azlıqlara, sosial müdafiəsi zəif olan əhali təbəqəsinə aid olan bütün oxucu qruplarına əmtəə xassəli kitabxana-informasiya xidmətləri çox geniş güzəştlərlə və bir sıra hallarda isə pulsuz göstərilir.

Qeyd etmək lazımdır ki, 90-cı illərdən başlayaraq ABŞ, İngiltərə, Fransa, Almaniya, Yaponiya və digər ölkələrin kitabxana-informasiya müəssisələrində maşınla oxunan məlumat bazalarının, inteqral avtomatlaşdırılmış informasiya sistemlərinin inkişaf etməsi, kitabxana xidmətində İNTERNET sistemindən fəal istifadə edilməsi, CD-ROM, elektron poçtu və s. müasir informatika texnologiyasına əsaslanan xidmət növlərinin meydana gəlməsi, eləcə də informasiyanın hazırlanması və satışı ilə məşğul olan xüsusi korporasiyaların təşkil edilməsi pullu xidmətlərin maya dəyərinin aşağı düşməsinə səbəb olmuş, nəticədə həmin xidmətlərin satış qiymətlərinin ucuzlaşması meylləri güclənmişdir.

Qiymətlərlə əlaqədar onu da qeyd etmək lazımdır ki, bir çox ölkələrdə pullu xidmətlərlə məşğul olan kitabxana-informasiya müəssisələrində bu və ya digər xidmət növünün müəyyənləşdirilməsi mexanizminə çox ciddi yanaşır. Məsələn, ABŞ-da yeni işlənib hazırlanmış pullu xidmət növünün satış qiymətini müəyyənləşdirmək üçün kitabxanalara xüsusi ekspertlər qrupu dəvət olunur. Ekspertlər müvafiq xidmət növünün qiymətini müəyyənləşdirmək üçün mürəkkəb iqtisadi təhlil və hesablaşmalar aparırlar. Onlar konkret bir xidmət növünün işlənib hazırlanmasında istifadə edilən avadanlığın, kapital qoyuluşunun, kitabxana materialları və sənədlərin, məlumat bazalarının amortizasiya həcminin, eləcə də iş vaxtının, əmək haqqının, inzibati və digər xərclərin dəqiq hesablanması yolu ilə həmin xidmət növünün bazar qiymətini müəyyənləşdirirlər



Son illər bu təcrübədən Avropa ölkələri kitabxanalarında da geniş istifadə edilir.

## ƏDƏBİYYAT

*1. Kitabxana işi haqqında Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya.-1999.-№1.- S.3-16.*

*2. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik: H.I-II.- B., 2001.-395 s.*

*3. Kazımov K. Bazar iqtisadiyyatı və kitabxanalar.-B.,1996.-36 s.*

*4. Katler F. Marketinqin əsasları.-B., 1993.-559 s.*

*5. Проблемы экономической деятельности библиотек в условиях рыночной экономики. -М., 1999.-131 с.*

***Расим Кязимов***

## ПЛАТНЫЕ БИБЛИОТЕЧНЫЕ УСЛУГИ

### *РЕЗЮМЕ*

***В статье рассмотрены принципы и методы организации платных услуг в крупных научных библиотеках. Особое внимание уделено опыту библиотек зарубежных стран по внедрению системы оплачиваемых услуг для различных групп индивидуальных и коллективных читателей.***

**Əli RÜSTƏMOV**
*Pedaqoji elmlər namizədi, dosent*
**Nuriyə MUSTAFAYEVA**

# ELEKTRON KİTABXANA PROBLEMİ

*2-ci məqalə*

## Elektron kitabxana resurslarının qısa xarakteristikası

Məqalənin əsas məzmununu aydın başa düşmək üçün əvvəlcə mövcud standartlara [1-2] əsasən üç baza anlayışının tərifini verək.

**Elektron informasiya resursları** - bütünlükdə elektron məlumatlar (rəqəm, hərf, simvol və onların kombinasiyası), elektron proqramlar (məlumatın emalı da daxil olmaqla müəyyən vəzifələri yerinə yetirən operator qrupları, yaxud altproqramları), yaxud onların bir resursda əlaqəli birliyidir.

Elektron informasiya resursları məntiqi quruluşu baxımından elektron sənədlərə və elektron nəşrlərə bölünür.

**Elektron sənəd**-məzmun cəhətdən bitgin (tam) olan və maşınla-oxunan formada müəyyən tip maddi daşıyıcıya yazılmış informasiyadır. Başqa sözlə, elektron sənəd dedikdə maşınlaoxunan (elektron) daşıyıcıya yazılmış sənəd başa düşülür.

**Elektron nəşr** - müraciət (axtarış, istifadə) vasitələrilə təmin edilmiş qeyri-məhdud sayda istifadəçilərin tanış olması (oxuması) üçün məqsədli şəkildə (əsasən biznes məqsədilə) maşınlaoxunan daşıyıcıya yazılmış informasiyalardır. Nəşriyyatlarda, peşəkar elmi cəmiyyətlərdə, elmi-tədqiqat idarələrində yaradılan elektron resurslar elektron nəşrlərə misal ola bilər. Elektron nəşrlər həm resurs kimi (məs: məlumat bazaları), həm də ayrıca elektron sənəd kimi (məs.: CD-ROM kitablar, Jurnallar, soraq nəşrləri və s.) hazırlana bilər. Tarixi ardıcıllığına görə elektron kataloqlar - biblioqrafik və referativ məlumat bazaları - tammətnli və multimedia materialları elektron sənədlərin müxtəlif növləridir. Elektron resurslar və sənədlər bazasında, həmçinin vacib, lazımlı çap əsərləri əsasında elektron nəşrlər hazırlanır. Onlar çap əsərləri kimi, redaksiya-nəşriyyat prosesləri keçir, buraxılış məlumatları ilə təmin olunur. Elektron nəşrlər çap əsərləri kimi abunə yolu ilə kitabxanalara



alınır və onların elektron kitabxanasına daxil edilir. Bir sıra hallarda elektron nəşrlər əlaqədar çap əsəri (kitab, jurnal və s.) ilə birlikdə hazırlanır və birlikdə də yayılır. Elektron nəşrlərin müasir təsnifatı aşağıdakı cədvəldə qısaca olaraq verilmişdir.

| Təsnifat əlaməti | Növləri |
|---|---|
| Çap ekvivalentinin olmasına görə | Çap əsərinin elektron analoqu<br>Müstəqil elektron nəşrlər |
| Əsas informasiyanın təbiətinə görə | Mətni elektron nəşrlər<br>Təsviri elektron nəşrlər<br>Səs elektron nəşrlər<br>Proqram elektron nəşrlər<br>Multimediya elektron nəşrlər |
| Məqsəd təyinatına görə | Rəsmi elektron nəşrlər<br>Elmi elektron nəşrlər<br>Elmi-kütləvi elektron nəşrlər<br>İstehsalat-təcrübi elektron nəşrlər<br>Normativ elektron nəşrlər<br>Tədris elektron nəşrlər<br>Kütləvi-siyasi elektron nəşrlər<br>Soraq elektron nəşrləri<br>Asudə vaxtda istifadə üçün elektron nəşrlər<br>Reklam elektron nəşrlər<br>Bədii elektron nəşrlər |
| Yayılma texnologiyasına görə | Lokal elektron nəşrlər<br>Şəbəkə elektron nəşrlər<br>Loka və şəbəkə elektron nəşrləri |
| Dövriliyinə görə | Qeyri-dövri (birdəfəlik) elektron nəşrlər<br>Seriyalı elektron nəşrlər<br>Dövri elektron nəşrlər<br>Davam edən dövri nəşrlər<br>Yeniləşdirilən elektron nəşrlər |
| Quruluşuna görə | Bircildli elektron nəşrlər<br>Çoxcildli elektron nəşrlər<br>Elektron seriyalar |

Elektron nəşrlər elektron sənədlərin müəyyən hissəsini təşkil edir. Elektron sənədlər kompüterin sərt diskində (serverdə), uzaqlaşdırılmış şəbəkə resurslarında (veb-saytlarda), müxtəlif qurumların elektron məlumat bazalarında və elektron kitabxanalarda mühafizə edilə bilər. Onlar ümumi informasiya məhsullarının təqribən üçdə bir hissəsini təşkil edir. Elektron sənədlər İnternet şəbəkəsinin, xüsusilə Veb texnologiyalarının yaradılması ilə əlaqədar olaraq sürətlə inkişaf edir. Lakin elektron sənədlərin yaranması və inkişafı kağız sənədlərin, yəni çap əsərlərinin getdikcə yox olması, azalması demək deyildir. Sosial informasiya məqsədləri, konkret istifadəçi təyinatları müxtəlif olsa da, onları bir-birinə qarşı qoymaq olmaz və onlar bir formadan digərinə asanlıqla çevrilə bilər. Hazırda dünya nəşriyyat məhsullarının təqribən 70-80%-ni çap əsərləri təşkil edir. Lakin elektron sənədlər də onlara paralel olaraq sürətlə inkişaf edir. Bu isə tamamilə qanunauyğun prosesdir. Digər sahələrdə də belə paralel inkişaf mövcuddur. Məsələn, dram, opera, komediya teatrı, kabel və rəqəmli televiziya və s. paralel olaraq inkişaf edir. Onların hər birinin öz məqsəd və təyinatı vardır. Eləcə də vaxtilə atlar əksər təsərrüfat və nəqliyyat işlərində yeganə vasitə kimi istifadə edilirdi. Yol, hava və su nəqliyyat vasitələrinin yaranması və inkişafı atların məhv edilməsi ilə nəticələnmədi. Sadəcə olaraq onların üzərinə düşən yük, ağırlıq azaldı.

Kağız sənədlərin ləng hazırlanması, meşələrin qırılmasına səbəb olması, mühafizəsi üçün nisbətən çox bina sahəsi tutması, nisbətən az müddətdə fiziki cəhətdən korlanması, kitabxanalarda mühafizə xərclərinin çox olması, məkan etibarilə gec və məhdud dairədə yayılması və s. faktiki göstəricilər elektron resursların və sənədlərin hazırlanmasına səbəb olan obyektiv amillərdir. Məsələn, elektron sənədlər eyni ölçüdə olan çap əsərlərinə (kağız sənədlərə) nisbətən 30-40 min dəfə az yer tutur. Şəbəkə elektron kitabxanaları vasitəsilə istənilən şəxs, istənilən vaxtda və ölkədə, hətta öz mənzilindən də onları istifadə edə bilər. Lakin elektron sənədlərin mənfi cəhətləri də yox deyildir. Məsələn, onların hazırlanması nisbətən baha başa gəlir, qiymətləri bahadır, kağız sənədlərə nisbətən 25-30% ləng oxunur, elektromaqnit təsirləri nəticəsində informasiya itirilə bilər, viruslara yoluxma ehtimalı vardır və s.

Çap analoqu olan elektron sənədlər (nəşrlər) burada yuxarıda deyildi. Lakin çap analoqu olmayan və elektron kitabxana fondları üçün vacib olan elektron sənədlər də vardır. Bunlardan aşağıdakılar daha xarakterikdir [3].



1) web-saytlar, İnternetdə diskusiya siyahıları, məlumat bazaları, multimediya materialları, viruslar və s.;

2) axtarış imkanları, hiperəlaqələri (hiperisnadla) aqreqasiya* edilmiş sənədlər və elektron jurnallar;

3) məlumatın emalı üçün genişləndirilmiş funksiyaları olan və nəticələrin nümayişinə imkan verən cədvəllər;

4) axtarış vasitələri olan biblioqrafik məlumat bazaları, müxtəlif tipli kitabxana elektron kataloqları və biblioqrafik göstəricilər;

5) ölçülərinə, rənglərinə və məkan parametrlərinə görə çoxölçülü təsvirləri qurmaq üçün faylların emal edilmək imkanları olan rəsm və təsvirlər;

6) audioyazılar, musiqi, video və kompüter animmasiyaları (hərəkət edən kadr roliki);

7) kompüter proqramları, o cümlədən birbaşa icra edilən proqramlar və əmrlər;

8) kompüter proqramlarının xüsusi tipi kimi viruslar;

9) multimediya materialları (müxtəlif tip resursları bir yerdə, birləşmiş halda verilməsi. Məsələn, mətn və səs; mətn, təsvir, səs; mətn və animasiya və s.);

Nəhayət, mühafizə və axtarış imkanlarına görə onlayn və offlayn resursları və sənədləri fərqləndirilir. Onlayn informasiya resurslara lokal və qlobal (İnternet) şəbəkələrinin serverlərində, məlumat bazalarında mühafizə edilən resurslardır. Onların hər birinini axtarış ünvanları vardır və şəbəkəyə birbaşa müraciət etməklə axtarılır və istifadə edilir. Məsələn, web-səhifələr, elektron kataloqlar və s. onlayn resurslardır. Offlayn resursları (sənədləri) lokal istifadə üçün müxtəlif optik disklərdə buraxılan elektron nəşrlər, məlumat bazaları və s.-dir. Kitabxanaların komplektləşdirilməsində onlar geniş istifadə edilir (məs, CD-ROM-da elektron kitablar, elektron jurnallar və s.)

Təbii ki, bütün deyilən elektron sənəd növlərini bir məqalə əhatəsində təsvir etmək çətindir. Buna görə də elektron kitabxanalar üçün daha əhəmiyyətli olan sənəd növlərinin qısa xarakteristikasını verək. Bunlar elektron jurnallar, elektron kitablar və soraq nəşrləridir.

Tarixən dövri nəşrlərin komplektləşdirilməsi, mühafizəsi və onlarla oxuculara xidmət edilməsi kitabxanaların ən vacib və sabit funksiyalarından biri olmuş və hazırda da olmaqdadır. Əgər nəşr edilmiş mü-

* ***Aqreqasiya*** *- müəyyən istifadəçi marağına və sorğusuna uyğun olaraq elektron resurslar içərisindən seçilən sənədlərdir ki, həmin istifadəçinin elektron ünvanına göndərilir.*

əyyən kitabı mağazadan almaq mümkündürsə, maraq dairənizə aid olan jurnalları müntəzəm almaq üçün çox zaman nə vaxt, nə də vəsait çatır. Bəzi məlumatlara görə hazırda dünyada 140 min adda elmi jurnal nəşr edilir [4]. Məsələn, Rusiya Federasiyasında 30 min adda kütləvi informasiya vasitəsi qeydə alınmışdır və onlardan 12 min yaddası müntəzəm nəşr edilir [5, s.15]. Məlumdur ki, elmi konfranslar, seminarlar və peşəkar görüşlər mütəxəssislər və alimlər üçün əsas informasiya mübadiləsi kanallarıdır. Digər mübadilə kanalı elmi jurnallardır ki, mütəxəssislər və alimlər yeni biliklərlə tanış olurlar. Lakin məhz dövri elmi nəşrlər sahəsində son illərdə böhran xüsusilə kəskinləşmişdir. Belə ki, dövri elmi nəşrlərin ənənəvi texnologiyası etibarlı olsa da ləng işləyir. Dövri elmi nəşrlərin çeşidi çox böyükdür: abunə qiyməti yüksəkdir və hər il orta hesabla 8% artır. Bahalı dövri elmi nəşrlərə abunə üçün pulödəmə düzgün paylanmamışdır. İmkanlı universitetlərin kitabxanaları əksər profil jurnalları ala bilir, digər kitabxanalar və istifadəçilər isə abunə yazıla bilmir. Buna görə də surətçıxarmadan, yaxud çox ləng işləyən kitabxanalararası abonementdən istifadə edirlər. Jurnallar bahalaşdıqca abunəçilərin miqdarı da azalmağa başlayır. Əgər müəyyən şəxsə hər hansı jurnaldan bir məqalə lazımdırsa, o bütün jurnalı almalıdır, yaxud onu haradansa tapıb məqalənin surətini çıxarmalıdır. Digər vacib cəhət jurnallarda məqalələrin orta hesabla 11-12 ay müddətində çap edilməsidir, yəni ləng olmasıdır. Elmi jurnalların yayılma kanalları da ləng işləyir. Məsələn, BDU-nun Elmi Kitabxanası 2005-ci ilin aprel ayında «Научные и технические библиотеки» jurnalının ancaq həmin ilin yanvar ayında nəşr edilmiş nömrəsini almışdır. Bütün bunlar onu ifadə etmir ki, təqribən 200 ildən artıq dövrdən başlayaraq çap edilmiş elmi jurnalları ləğv etmək, çapını dayandırmaq lazımdır. Deyilən fikirlər onu ifadə edir ki, müasir çap jurnalları üçün yaranmış bu xarakterik problemlərin elektron jurnalların hazırlanması ilə aradan qaldırmaq lazım gəlir. Müasir informasiya texnologiyaları deyilən problemlərin aradan qaldırılmasına tam imkan verir.

İlk növbədə qeyd etməliyik ki, son onillikdən başlayaraq məqalələri də referatlaşdırılan elektron jurnalların hazırlanmasına başlanmışdır. 2003-cü ilin məlumatına görə dünyada 12 min adda tammətnli elektron jurnal buraxılır. Dünyanın 50 iri nəşriyyatlarının 90 %-i elektron jurnalların yaradılmasında iştirak edir.

Son 4-5 ilə qədərki dövrdə elektron jurnallar yığcam disklərdə CD-ROM, CD-R və s.) buraxılırdı. Məqalələr müəyyən jurnala təqdim edildikdən sonra bir həftə müddətində jurnalın əlaqədar nömrəsi nəşriyyatda yığcam diskə yazılırdı, çoxaldılırdı, satışa və kiabxanalara



verilirdi. Konkret abunəçilərin jurnalın çap formatına əvvəlcədən qeyd edilmiş sifarişinə əsasən bir ay müddətində əlaqədar mövzuda məqalənin, yaxud bütünlükdə jurnalın çap versiyası hazırlanıb abunəçiyə göndərilirdi. Kitabxanalar və digər qurumlar CD-ROM nəşrlər əsasında öz elektron kitabxanasını, çap versiyası əsasında isə öz ənənəvi jurnal fondunu formalaşdırırdı. Lakin deyilən prosesin baha və ləng olması müşahidə edildiyindən son 4-5 ildə yeni texnologiyaya keçid də baş verir. Nəşriyyatlar elmi jurnalların abunəçilərinin miqdarını nəzərə alaraq onları iki kateqoriyaya bölür: çap versiyasını almaq istəyən abunəçilər; elektron versiyanı almaq istəyən abunəçilər. Sonuncu deyilən versiya əlaqədar nəşriyyatın elektron kitabaxanasına daxil edilir və buradan da abunə lisenziyası əsasında bir həftədən çox olmayan müddətdə abunəçi tərəfindən alınır və öz elektron kitabxanasına daxil edilir. Hər hansı abunəçi bütün jurnalı deyil, müəyyən mövzuda məqaləni istəsə, həmin məqalə də müvafiq qiymətə verilir. Əlbəttə, uzunmüddətli mühafizə, ehtiyat surəti yaratmaq istəyən abunəçi jurnalın CD-ROM variantını da abunə, yaxud nəğd pulödəmə yolu ilə ala bilər.

Elektron jurnallar sisteminin inkişafının perspektivliyi digər səbəblərlə də bağlıdır. Bu səbəblər qısaca olaraq aşağıdakılardır:

1) kitabxanalarda onlar çox yer tutmur;

2) kommunikasiya təminatı asandır, informasiya operativ şəkildə istifadəçinin iş yerinə verilə bilir;

3) güclü elektron axtarış aparatı ilə təmin edilmişdir;

4) elektron mətn inteqrasiya edilə bilir, yəni mətn, səs, qrafika ilə birlikdə verilir;

5) pulödəmə yolu ilə (lisenziya) çoxlu istifadəçilərin eyni zamanda müəyyən bir jurnala, yaxud müəyyən bir məqaləyə müraciəti təmin edilir;

6) sutkanın istənilən vaxtı mənzildən və ya iş yerindən müraciət etmək və alıb istifadə etmək olar.

Yüzlərlə istifadəçinin istənilən vaxtda paralel olaraq operativ müraciətinə imkan verməsi müəyyən məqalənin, hətta abzasın da istifadə qiymətinin olması (bir məqalə orta hesabla 50 sent, bir abzas 2 sent) elektron jurnalların əsas üstünlükləridir. Xüsusilə çap jurnallarının qiyməti baha, özləri isə çətin və xeyli müddət axtarış tələb etdiyindən elektron jurnallara ehtiyac artmalıdır. Müqayisə üçün belə bir fikir söyləyək. Təsəvvür edək ki, komplektləşdirmə üçün ayrılan maliyyə vəsaitinin azlıq etdiyi indiki vəziyyətdə hər hansı kitabxana müəyyən bir jurnaldan iki nüsxə almışdır, 10-15 oxucu isə eyni gündə onu istifadə etmək istəyir. Əgər jurnalın, istifadəsi üçün hər bir oxucuya minimum

iki saat vaxt hesab etsək, təbii ki 15-ci oxucu onu 28-30 saatdan sonra, yəni 3-4 iş günündən sonra istifadə edə bilər. Əgər jurnalın, məsələn, əlaqədar nəşriyyatda elektron versiyası vardırsa yüzlərlə minlərlə oxucu tərəfindən eyni vaxtda, paralel istifadəsi həmin kitabxanada kompüterlərin lisenziyalaşdırılmış IP-ünvanının sayından asılıdır.

Elektron jurnalların tətbiqinin çətinlikləri və maneələri də vardır:

1) keçmiş illərdəki nömrələrə müraciət vacibliyi;

2) uzunmüddətli mühafizə, yəni arxivləşdirmə problemi;

3) abunə lisenziyası üçün saziş (kontrakt) hazırlanmasının mürəkkəb bürokratik əngəlləri;

4) lisenziyanın real işləməsi problemi, yəni elektron jurnallara müraciətin əvvəlcə razılaşdırılmış yerdə İnternetdən müəyyən kitabxananın fiziki ünvanı ilə əlaqələndirilməsi probleminin olması.

İndiki elektron jurnallar çap jurnallarının analoqudur. Yəni eyni ilə həmin jurnalların elektron versiyalarıdır. Burada müəyyən bir sahənin (Məs., kitabxana işi, nəzəri fizika, üzvi kimya və s.) müxtəlif məsələlərinə dair məqalələr dərc edilir. İndi tutaq ki, kitabxanaşünas bir mütəxəssisin kitabxana işinin bütün məsələləri deyil, ancaq «kitabxana kataloqları» maraqlandırır. Belə olduqda indiki vəziyyətdə o bir neçə ixtisas jurnalına abunə yazılmalıdır. Bu isə baha başa gəlir. Son illərdən elektron jurnalların abunəçinin verdiyi mövzuya uyğun olaraq müxtəlif məqalələr toplusundan hazırlanması nəzərdə tutulur.

İndi qısaca olaraq elektron kitablar barədə danışaq.

Dünyanın bir sıra qabaqcıl nəşriyyatları kiçik ölçüdə 20 q ağırlığında oxu aparatı ilə birlikdə CD-ROM-a yazılmış elektron kitablar buraxır. Aparatın ölçüsü A5 formatlı kitab qədərdir və batareya ilə fasiləsiz olaraq 100 saat işləyir, sonra batareya elektrik şəbəkəsinə birləşdirilir və yenidən istifadə edilir. Bir elektron kitaba 100-ə qədər orta həcmli (300 səh.) sənəd yazmaq olar. Məsələn, Roket nəşriyyatının elektron kitab sistemi Microsoft Reader kompaniyası *(www. microsoft.com)*, Adobe kompaniyası *(www.adobe. com)* deyilən üsuldan istifadə edirlər.

Elektron kitabların hazırlanmasının və yayılmasının dünyada müşahidə edilən vacib istiqamətlərindən biri də nəşriyyatların, abunə agentliklərinin, kitab mağazalarının satış məqsədilə bir neçə il əvvəl və cari dövrdə nəşr edilmiş çap kitablarının tammətnl elektron kitabxanasının yaradılmasıdır. ABŞ-ın Elzevir, Almaniyanın Şpringer, İngiltərənin Makmillan-Press kimi iri nəşriyyatları buna misal ola bilər. Deyilən nəşriyyatlar kitabları həm çap formatında buraxır, həm də elektron versiyada hazırlayıb əlaqədar elektron kitabxanaya daxil edirlər. Əgər hər hansı kitabxana çap formatını almaq istəyirsə abunə haqqını ödəyir



və müəyyən nüsxədə kitab sifarişə əsasən göndərilir. Əgər kitabxana və ya hər hansı şəxs nəşriyyatların çap və ya elektron kataloqlarından müəyyən kitabı, yaxud onun bir hissəsini (fəslini, paraqrafını) almaq istəyirsə İnternet vasitəsilə əlaqədar nəşriyyatla müqavilə bağlayır, pul ödəyir və kitabın elektron versiyası onun kompüterinə ötürülür. Elektron versiya çap versiyasına nisbətən bahadır. Lakin operativ surətdə verilir və kompüteri şəbəkəyə qoşulmuş və abunə haqqını ödəmiş hər bir istifadəçi (o, cümlədən kitabxana) onu saat və dəqiqələr ərzində alıb istifadə edə bilər, lakin çoxaldıb yaya bilməz.

Kitab biznesi ilə məşğul olan bir sıra nəşriyyatlar və kompaniyalar çap kitabının satışında olan maneələri azaltmaq üçün daha yeni bir yol da seçməyə başlamışlar. Onlar görürlər ki, kitab mağazalarında illərlə yatıb qalan, alınmayan kitablar getdikcə artır. Bu prosesdə onlar qazanclarını itirirlər və getdikcə müflis olurlar. Kitab mağazalarının tərkibində kiçik lakin texniki cəhətdən yaxşı təchiz olunmuş mətbəələr təşkil edirlər. Əgər alıcı mağazadakı müəyyən nümunəyə əsasən əlaqədar kitabı almaq istəyirsə, onu bir sutka ərzində çap, yaxud elektron versiyada hazırlayıb oxucuya verirlər. Alınan nüsxələrin sayı artdıqca qiymət də müvafiq olaraq aşağı düşür.

Deyilənlərdən aydın olur ki, çap və elektron kitablar paralel surətdə inkişaf edir və mütəxəssis-ekspertlərin ümumi fikrinə görə həmişə belə olacaqdır. Onların fikrinə görə heç də bütün kitabları elektron və ya çap formasında hazırlamaq olmaz. Digər tərəfdən, onlar asanlıqla bir formadan digərinə çevrilə bilər. Heç kim kitabxanaları məcbur etmir ki, ancaq elektron formatda olan kitablar alsın. Elektron kitablar çap kitablarına nisbətən bahadır. Lakin ilbəil onun elektron komponentləri ucuzlaşır (Fərdi kompüterlərin qiymətləri son 10-15 ildə 20 dəfə ucuzlaşmışdır). Elektron kitabların uzaq məsafədən axtarış imkanları (internet şəbəkəsi vasitəsilə), kiçik tutumu və portativliyi onun qiymətinin istifadəçi üçün əlverişli olmasına əsas yaradır. Lakin elektron kitab vacib olduğu sahələrdə çap kitabını əvəz edə biləcəyi yollar axtarılmalıdır. Məhz hansı növ və tip kitabların elektron, hansıların isə çap formasında hazırlanması məqsədəuyğunluğu araşdırılmalıdır.

Beləliklə, müasir dunyada kitabın məzmununu yazmaq üçün formalar artıq mövcuddur. Bunlar aşağıdakılardır.

1) çap;

2) optik diskdə kitab (oxumaq üçün CD-ROM disk ötürücüsü olan kompüter lazımdır);

3) audiokitablar (zəif görənlər və uşaqlar üçün) və Brayl sistemi (korlar üçün)

4) portativ informasiya daşıyıcılarına yazılan və oxu qurğusu ilə birlikdə satılan kitablar («elektron kitab» adlanan xüsusi qurğular);

5) İnternet-kitab (istifadəçi üçün İnternetə qoşulmuş kompüter lazımdır).

Bir qədər də elektron–soraq nəşrləri barədə danışaq.

CD-ROM-da və İnternetdə olan soraq kitabları (справочник, руководство və s.) və ensiklopediyalar (yaxud onların kombinasiya edilmiş nəşrləri) digər növ sənədlərə nisbətən axtarış imkanları daha üstün olan rəqəmləşdirilmiş, yəni elektron formata keçirilmiş sənədlərdir. Azərbaycan Respublikasının nəşriyyatları və kitabxanaları tərəfindən hazırlanmış belə elektron sənədlər bizə məlum deyil. Buna görə də yaxın qonşumuz olan Rusiyadan son illərdə hazırlanmış belə elektron sənədlərin bir neçəsinin adlarını qeyd edək [7, s.28]:

1) «Большая Российская Энциклопедия» (Böyük Rusiya Ensiklopediyası) elektron nəşri 5 ədəd CD-ROM-da buraxılmışdır.-100 min məqaləni, 3 min portreti, 500 rəngli xəritəni əhatə edir.

2) «Большой Энциклопедический словарь» - 85 min məqaləni əhatə edir.

3) «Рубрикон» *(www. rubricon.ru)* adlanan layihə əsasında İnternetdə dərc edilmiş 32 adda ensiklopediya və lüğət, o cümlədən «Большая Российская Энциклопедия»-nın 30 cildliyi, «Малая Русская Энциклопедия» («Kiçik Rus Ensklopedciyası») 6 cildliyi, «Энциклопедический словарь Брокгауза и Ефрона» (Brokhauz və Efronun ensiklopedik lüğəti), «Всемирный биографический энциклопедический словарь» (Ümumdünya bioqrafik ensiklopedik lüğət), Статистический сборник ООН «Страны мира» (BMT-nin statistik məcmuəsi «Dünya ölkələri») və s. İnternetdə hər bir nəşr üzrə ayrıca və bütün nəşrlər üçün (477 min məqalə, 63 min illüstrasiya) axtarış aparmaq olar: (İnternet ünvanı: *(www. rubricon.ru)*)

4) Promt (Rusiya) Peterburq kompaniyasının yüzlərlə adda elektron informasiya məhsulları, həm CD-ROM-da ayrıca nəşr kimi buraxılır, həm də İnternetdə dərc edilir [8]. Bu məhsullar içərisində geniş oxucu marağına uyğun olan rusca-ingiliscə-fransızca, yəni üçdilli lüğətlər kolleksiyasını (fondunu) göstərmək olar. Lüğətlər adi və avtomatik tərcümə (maşın tərcüməsi) üçündür və 6 seriyadan ibarətdir. Məsələn, «Домашная» (Məişət) (12 iri həcmli lüğət), «Наука» (Elm) (10 lüğət), «Texnika» (14 lüğət), «Тяжелая промышленность» (ağır sənaye) (12 lüğət), «Легкая промышленность» (Yüngül sənaye) (10 lüğət), «Коммерсия» (13 lüğət). Hər il lüğətlərin məzmununun orta hesabla 20-30%-i yeniləşdirilir və 25-30% əlavələr edilir. Lüğətləri ayrılıqda, seriyalarla və bütünlükdə İnternet vasitəsilə almaq olar. Bütünlükdə aldıqda satış qiyməti 20-30% aşağı salınır. Bütün lüğətlərin tərkibinə 2 tərcümə bazası da (ingilis-rus, rus-ingilis) daxildir ki, bu da «Деловая переписка» (İşgüzar yazışma) adlanır. Onların hər biri minə qədər (hər fraqmentdə bir-iki standart cümlə vardır) ibarətdir. Bu cümlələri işgüzar məktubların tərtibində və tərcüməsində istifadə etmək olar.



Xarici ölkələrin nəşriyyat və kitabxanalarında ensiklopediya və lüğətlərin CD-ROM nəşrlərinin və şəbəkə (İnternet) versiyasının hazırlanması, xüsusilə XX əsrin 90-cı illərindən başlayaraq kütləvi şəkil almışdır.

1) «Britanica 2002» ensiklopediyası (3 disk). 32 cildlik çap ensiklopediyasının tam elektron versiyasıdır. 83 mindən çox məqalə, İnternet-materiallara 125 min istinadı əhatə edir.

2) «Microsoft Encarta» ensiklopediyası (5 disk) ABŞ-dakı proqram təminatı üzrə məşhur korporasiyanın (Microsoft-un) CD-ROM nəşri və İnternet resursudur. CD-ROM versiyası 5 diskdən ibarətdir. Burada 42 min məqalə, 270 video və annimasiya (baxdıqda hərəkət edən kadrlar roliki), 7 min fotoqrafiya, dünyanın rəqəmləşdirilmiş xəritələri, orta təhsilə dair interaktiv materiallar (İnternet şəbəkəsinə birbaşa müraciət etməklə istifadə edilən materiallar), dərsliklər, kompüteri öyrənmək üçün işgüzar oyunlar verilmişdir.

Elektron kitablar, jurnallar və soraq nəşrləri ilə yanaşı, kitabxana xidməti üçün vacib olan milyonlarla adda musiqi əsərləri (səs yazıları), videoqramlar, yeniliklər, kütləvi informasiya vasitələri (qəzetlər), kompüter oyunları və digər növ elektron sənədlər vardır. Onlar həm CD-ROM-larda, həm də DVD-disklərdə (musiqi yazılmış disklər) hazırlanır, həm də İnternetdə dərc edilir. Onlar barəsində burada geniş bəhs etməyə imkan yoxdur. Lakin onlar da elektron sənədlərdir və kitabxanaların maraq dairəsinə aid edilə bilər.

Elektron nəşrlərin, sənədlərin və ümumiyyətlə elektron resursların maddi daşıyıcıları müxtəlifdir. Çap əsərlərinin maddi daşıyıcıları yalnız kağızdırsa, elektron resursların maddi informasiya daşıyıcıları kompüterdə olan sərt disk, optik disklər, maqnit-optik və lazer diskləri, maqnit lentləri (strimmerlər) və müxtəlif İnternet serverləridir. Onların informasiya tutumu kağız sənədlərə nisbətən xeyli çoxdur. Elektron sənədlər elektron kitabxanaların başlıca informasiya resurslarını təşkil edir.

## ƏDƏBİYYAT


1. *ISO 2211-96. Электронные коллекции и документы. Основные термины. Перев. с англ. -М., 1997.-16 с.*
2. *ГОСТ 7.83.2001. Электронные издания. Основные виды и выходные сведения.-М., 2000.-9 с.*
3. *Шрайберг Я.Л. Электронные ресурсы и публикации Росии и европейских стран: основные свойства и типологии // www.gpntb.ru*
4. *Гайсельман Ф. Библиотека электронных журналов: концепции стратегии меъдународного опыта // Труды Меъдународн. Крымской конф., 2002.-Т.1.-С.203-206 // www.gpntb.ru*
5. *Антопольский А.Б.Информационные ресурсы Росии // Научн. и техн. библиотеки, 2000.-№1.-с.14-16*
6. *Rocket electronics Book // www.rocket-ebook.com*
7. *Ильинский А.М. Книгоиздание в контексте новой информационной технологии в современной Росии.-М., 2002.-216 с.*
8. *Информационные продукции «Промт» // www.promt.ru*



***Али Рустамов,***
***Нурия Мустафаева***


## ПРОБЛЕМЫ ЭЛЕКТРОННЫХ БИБЛИОТЕК

*Статья 2-я*

### *Краткая характеристика ресурсов электронных библиотек*


### *РЕЗЮМЕ*

***В статье излагаются основные типы и виды электронных изданий и документов, их современное состояние и тенденция развития. Приводится статистические показатели ресурсов Интернета. Как документальный источник формирования электронной библиотеки - обсуждаются вопросы организации выпуска электронных изданий издательствами республики.***

*Zöhrab BAXŞƏLİYEV*
*Tarix elmləri namizədi, dosent*

# RESPUBLİKANIN NEFT EMALI VƏ NEFT-KİMYA SƏNAYESİ ÜZRƏ SAHƏVİ ELMİ-TƏDQİQAT İNSTİTUTLARINDA MÜTƏXƏSSİSLƏRƏ KİTABXANA-İNFORMASİYA XİDMƏTİ

Azərbaycan iqtisadiyyatının və sənaye kompleksinin sürətli inkişafında, ölkənin sosial-mədəni tərəqqisində və digər infrastrukturların inkişafında böyük rolu olan neft-qazçıxarma sənayesi XIX əsrin sonu XX əsrin əvvəllərində olduğu kimi, əsrin 90-cı illərində də dünyanın iri neft şirkətlərinin diqqətini özünə cəlb etmişdir.

Məlum olduğu kimi, 1994-cü il sentyabrın 29-də Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın 11 iri şirkəti arasında «Əsrin müqaviləsi» adlanan saziş imzalanmışdır[1].

Artıq 2004-cü ilin sentyabrında «Əsrin müqaviləsi»nin 10 illik yubileyi qeyd edilərkən müqavilədə iştirak edən dövlətlərin sayı 15-ə və şirkətlərin sayı 33-ə çatmışdır[2].

Hesablamalara görə 2010-cu ildə neft müqavilələrinin həyata keçirilməsi çərçivəsində neft hasilatının ümumi həcmi ildə 60 milyon tona, təbii qaz hasilatı isə ildə 30 milyard kubmetrə çatmalıdır[3]. Bu da müvafiq olaraq Azərbaycanın gəlirini artıracaq, yaxın illərdə bir çox sosial problemləri həll etməyə, xalqın rifahının yüksəldilməsinə, ölkənin bütün vətəndaşlarını layiqli işlə, təhsillə, tibbi və sosial zəmanətlə təmin etməyə, uğurlu fəaliyyət göstərən bazar iqtisadiyyatı, inkişaf etmiş və demokratik ölkəyə çevrilməyə imkan verəcəkdir.

Ölkədə iqtisadi islahatların normal gedişi və xarici investorların iştirakı üçün əlverişli mühitin yaradılması, ildən-ilə Ümumi Daxili Məhsul istehsalın sürətini yüksələn xətlə inkişafını təmin edir. Bu zaman dövlət sektoruna nisbətən qeyri-dövlət sektorunun xüsusi çəkisi üstün inkişaf edir. Belə ki 2003-cü ildə ölkənin ÜDM-nin real artım tempi 11,2 faiz təşkil edərək 35,1 trilyon manata çatmış, ÜDM-in formalaş-

ması prosesində qeyri-dövlət sektorunun xüsusi çəkisi 73,3 faiz təşkil etmişdir[4].

Şübhə yoxdur ki, ölkə sənaye iqtisadiyyatının stabil inkişafı neft-qazçıxarma sənayesinin inkişafı ilə birbaşa bağlıdır. Belə ki neft-qazçıxarma sənayesinin inkişafı tarixən respublikada iqtisadi yüksəlişə səbəb olmuş və digər sənaye sahələrinin inkişafına da təkan vermiş və hazırda da bu belədir. Bu na Neft Emalı və Neft-Kimya sənayesinin inkişafını əyani misal göstərmək olar. Respublikada bir sıra sənaye sahələri kimi bilavasitə neftçıxarma sənayesinin sürətli inkişafı nəticəsində intişar etmiş bu sənaye sahəsi hazırda iri sənaye kompleksi olub ildə 20 milyon tondan çox xam neft emaletmə gücünə malik olan iri zavodlardan və yardımçı müəssisələrdən ibarətdir.

XX əsrin 80-cı illərinin sonlarında və 90-cı illərin əvvəllərində Respublika Neft Emalı və Neft-Kimya Sənayesi Nazirliyi ləğv edilənə qədər tərkibinə daxil olan 10-dan çox idarə və müəssisədə zəngin sənəd-informasiya ehtiyatlarına malik elmi-texniki kitabxanalar fəaliyyət göstərmişdir. Bu kitabxanalar hər bir idarə və müəssisənin tərkib hissəsi kimi yaradılmış və onunla bərabər inkişaf etmişdir. Sənaye sahəsində fəaliyyət göstərən elmi-texniki kitabxanaların bir çoxu ləğv edilən və bağlanan idarələrlə, müəssisələrlə birlikdə ştat vahidi kimi ləğv edilmiş və fondlarında olan qiymətli kitabların bir qismi digər kitabxanalara verilmiş, çoxu isə itib-batmışdır.

90-cı ilin əvvəllərinə qədər neft emalı və neft-kimya sənaye sahəsində iki elmi-tədqiqat institutu və sənaye sahəsi üzrə rəhbər işçilərin və mütəxəssislərin ixtisasartırma institutu fəaliyyət göstərmişdir. Bu institutlardan ikisi ittifaq miqyaslı biri isə respublika əhəmiyyətli olmuşdur. Bu institutların hamısında elmi-texniki kitabxana fəaliyyət göstərmişdir.

Bu institutların zəngin sənəd-informasiya ehtiyatlarına malik olan elmi-texniki kitabxanaları xidmət etdikləri yüksək kateqoriyalı mütəxəssis oxucuların məşğul olduqları elmi-istehsalat xarakterli problemlərə dair tələbatlarının və sorğularının tam, dolğun ödənilməsi üçün mütərəqqi kitabxana-informasiya xidməti formalarından geniş şəkildə istifadə edirdilər.

Bu kitabxanaların 80-ci illərə dair göstəricilərindən məlum olur ki, onların mənsub olduqları elmi-tədqiqat institutlarının işçiləri tam şəkildə kitabxana xidməti ilə əhatə olunmuş və kitabxana fondu müntəzəm şəkildə yeni ədəbiyyatla zənginləşdirilmişdir və s.



*Cədvəl 1.*

| Elmi-tədqiqat institutlarının adı | 1980 | | 1987 | | 1980 | 1987 |
|---|---|---|---|---|---|---|
| | *Ümumi fond* | *Ümumi veriliş* | *Ümumi fond* | *Ümumi veriliş* | *Oxucular* | *Oxucular* |
| Azərb. Döv. «Olefin» İnst.-nun ETK | 79431 | 75371 | 78666 | 90176 | 650 | 657 |
| Azər. Döv. Neft-Kimya Layihələşdirmə İnstitutunun ETK | 72216 | 71918 | 33292 | 20121 | 574 | 503 |
| SSRİ Neft-Kimya Sənay.Nazirl. rəhbər işçilər və mütəxəssislərin ixtisasartırma İnstitutunun Bakı filialı | 7741 | 2519 | 9919 | 2060 | 95 | 352 |

Elmi-tədqiqat və ixtisasartırma institutları elmi-texniki kitabxanalarının hesabat materialları əsasında tərtib olunmuş cədvəldən məlum olur ki, Sovetlər Birliyində 80-ci illərin ortalarından başlamış yenidənqurma prosesi elmi-tədqiqat institularının və onların elmi-texniki kitabxanalarının da fəaliyyətinə mənfi təsir etmişdir. Bunun nəticəsində 80-ci illərə qədər kitabxanaların əsas xidmət göstəriciləri dinamik inkişaf etdiyi halda, sonrakı illərdə həmin göstəricilər aşağı düşməyə başlamışdı. 90-cı illərdə bu prosesin daha da güclənməsi kitabxanaların fəaliyyətinin ümumiyyətlə dayandırılması ilə nəticələnmişdir. Belə ki, sənaye sahəsinin aparıcı elmi-tədqiqat insitutu olan «Azqiproneftexim» (Azərbaycan Dövlət Elmi-Tədqiqat Neft-Kimya Layihələşdirmə İnstitutu) Azərbaycan Dövlət Neft Şirkətinin tabeliyində olan Dövlət Elmi-Tədqiqat Dəniz Neft-Qaz Layihə İnstitutuna və Azərbaycan Elmi-Tədqiqat Neft-Mədən Geofizika İnstitutuna birləşdirilmişdir. Təbii olaraq onların elmi kadr potensialı ilə birlikdə kitabxanaları da birləşdirilmiş, üçünün bazasında vahid bir elmi-texniki kitabxana yaradılmışdır.

Beləliklə, neft emalı və neft-kimya sənaye sahəsində 2 institut və onların elmi-texniki kitabxanaları qalmışdır. Bu sənaye sahəsinə məxsus Ümumittifaq Elmi-Tədqiqat Olefinlər İnstitutu və SSRİ Neft-Kimya Sənayesi Nazirliyinin rəhbər işçilərin və mütəxəssislərin ixtisasartırma institutunun Bakı filialı 1992-ci ildə «Azərkimya» Dövlət Şirkətinin tərkibinə yeni adla - Azərbaycan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutu və «Azərkimya» ixtisasartırma institutları kimi daxil olmuşdur[5].

2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında sərəncamı olmuşdur. Respublikada dövlət əmlakının özəlləşdirilməsinin II dövlət proqramına uyğun olaraq «Azərkimya» İxtisasartırma İnstitutu və Azərbaycan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutlarının da özəlləşdirilməsi məsələsi bu sərəncamda öz əksini tapmışdır.

Beləliklə, 90-cı illərin əvvəllərinə qədər Respublika Neft Emalı və Neft-Kimya Sənayesi Nazirliyi sistemində fəaliyyət göstərən 2 elmi-tədqiqat və 1 ixtisasartırma institutundan biri sənaye sahəsindəki struktur dəyişikliklərindən sonra başqa institutlarla birləşmiş, ikisi isə özəlləşdirilməsi haqqında prezident sərəncamına uyğun olaraq İqtisadi İnkişaf Nazirliyinin tabeliyinə keçmişdir. Bu institutlar bu günə qədər özəlləşdirilməmişdir. Formal olaraq onlar «Azərkimya» Dövlət Şirkətinə və İqtisadi İnkişaf Nazirliyinə tabe olsalar da, hər iki rəhbərlik bu institutlarla lazımi səviyyədə iş aparmırlar. İnstitutlarda aparılan elmi işlərə dövlət sifarişləri və yardımı olmadığı üçün onların elmi potensial güclərinin yarıdan çoxu istifadəsiz qalmışdır.

90-cı illərə qədər isə bu institutların apardıqları elmi-tədqiqat işləri, elmi-texniki işləmələri, layihə-konstruktor işləri təkcə Azərbaycanın deyil, Sovet İttifaqının müvafiq sənaye sahəsinin sifarişlərini yüksək səviyyədə ödəyirdi. Bu elmi-tədqiqat və ixtisasartırma institutlarında çalışan yüzlərlə yüksək ixtisaslı mütəxəssisin, elmi və mühəndis-texniki işçilərin informasiya tələbatını tam və dolğun ödəmək qabiliyyətinə malik elmi-texniki kitabxanalar fəaliyyət göstərmişdir.

Hazırda bu elmi-texniki kitabxanalardan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutunun elmi-texniki kitabxanası 1 nəfər ştatlı işçi ilə öz fəaliyyətini davam etdirir. «Azərkimya» İxtisasartırma İnstitutunda gedən ixtisarlarla əlaqədar orada çalışan işçilərin sayı 10-15 nəfərə enmiş, ETK-ya ehtiyac azaldığına və onu saxlamaq üçün vəsait ayrılmadığına görə kitabxana fəaliyyətini on ildən çoxdur dayandırmışdır.

Beləliklə, respublikada neft emalı və neft-kimya sənayesi üzrə bilavasitə əsaslı surətdə elmi-tədqiqat işləri aparan Azərbaycan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutudur; həmçinin sənaye sahəsinin elmi-texniki kitabxanaları arasında az-çox fəaliyyət göstərən də bu institutun elmi-texniki kitabxanasıdır.

Qeyd edək ki, respublikamızda, eləcə də SSRİ-də neft-kimya sənayesi sahəsi üzrə ilk və qabaqcıl elmi-tədqiqat instiutlarından biri olan «Olefin» İnstitutu əsası hələ 1936-cı ildə qoyulmuş Azərbaycan Sintetik Kauçuk Zavodunun bazasında 1962-ci ildə yaradılmışdır.[6] İnstitut öz təcrübə bazası olan zavodda kiçik molekullu olefinlərin alınması, işlənməsi və üzvi sintezinin yeni proseslərinin işlənməsi, hazırlanması ilə məşğul olur. Təcrübə bazasına malik olması kifayət qədər böyük miqyaslı bir çox texnoloji prosesləri həyata keçirməsinə imkan vermişdir.



1992-ci ildə «Azərkimya» Dövlət Şirkətinin tərkibinə daxil olduqdan sonra institutda ənənəvi elmi-tədqiqat işləri ilə yanaşı, şirkət müəssisələrinin aktual problemlərinin həllinə yönəldilmiş elmi-istehsalat xarakterli işlər də aparılır. İnstitutda hazırda şirkətin tərkibindəki zavodların qurğularının modernləşdirilməsi və səmərililiyinin artırılması, texniki-iqtisadi göstəricilərinin yaxşılaşdırılması, tullantısız ekoloji təmiz proseslər yaratmaq məqsədilə bir sıra problemlərin, eyni zamanda mütərəqqi proseslər üçün səmərəli katalizatorların işlənməsi və Azərbaycan sənayesi üçün xüsusi əhəmiyyət kəsb edən yerli xammallara əsaslanan yeni texnoloji proseslərin yaradılması üzrə işlər aparılır.[7]

80-ci illərin sonu və 90-cı illərdən başlayan iqtisadi islahatlar, elmi-tədqiqat institutunun Sovetlər Birliyi dövründə yerinə yetirdiyi funksiyanı respublika daxilində məhdudlaşdırılması və digər səbəblərdən onun kadr potensialının axıcılığı və azalması ilə müşahidə olunmuşdur. 2001-ci ildə 65 illik yubileyi qeyd edilərkən «Olefin» İnstitutunda 300 nəfər çalışırdı ki, onlardan 8-i elmlər doktoru və 50-i elmlər namizədi idi.[8] Artıq 2004-cü ildə intstitutda çalışanların sayı 200-ə enmişdi, onlardan 9 nəfəri elmlər doktoru, 45 nəfəri elmlər namizədi idi.[*]

Hazırda institutda yüksək kimyəvi, fiziki-kimyəvi analizlər, riyazi modelləşdirmə, məhsulların standartlaşdırılması və sertifikatlaşdırılması və s. kimi xidmətlər göstərən 14 elmi-tədqiqat və funksional laboratoriya fəaliyyət göstərir. İnstitutun böyük tutumlu təcrübi istehsalat bazası, 1937-ci ildən rəsmi fəaliyyət göstərən, elmi-texniki jurnalları, ensiklopediyaları, az tapılan jurnal, kitab və topluları qoruyub saxlayan əsaslı elmi-texniki kitabxanası var.[9] İnstitutda 1942-ci ildən elmi əsərlərin toplusu nəşr olunmuş, 1999-cu ildən isə «Kimya və neft ktimyası» adlı rüblük elmi-texniki və istehsalat jurnalı nəşrə başlamışdır. İnstitut əməkdaşlarının xarici ölkə və daxili nəşrlərdə 3000-dən çox məqaləsi, o cümlədən 20 monoqrafiyası çap olunmuş, 1000-dən çox müəlliflik şəhadətnaməsi və patent müdafiə olunmuş, 2 lisenziya satılmışdır.[10]

Elmi-Tədqiqat İnstitutunun çoxtərəfli fəaliyyətində, neft-kimya sənayesinin elmi-texniki tərəqqisində, institut alimlərinin və mütəxəssislərinin apardıqları elmi-tədqiqat işlərinin yüksək keyfiyyətlə yerinə

---

*[*] Azərbaycan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutunun patent-informasiya şöbəsi müdirinin məlumatı-2004.-İyul.*

yetirilməsində elmi-texniki kitabxananın və bilavasitə onun daxil olduğu patent və informasiya şöbəsinin də xidmətləri vardır.

Elmi-texniki kitabxana təşkil olunduğu dövrdən institut kollektivinin və təcrübə sınaq bazası olan Sintetik Kauçuk Zavodunun neft emalı və neft kimyasının texnoloji proseslərinin təşkili və idarə olunması ilə bağlı, istehsalat xarakterli və institut alimlərinin apardıqları elmi-tədqiqat işlərinin problemlərinə uyğun elmi texniki ədəbiyyatı, normativ-texniki sənədləri və digər vacib materialları müntəzəm öz fonduna almışdır. ETK-nın məqsədyönlü fəaliyyəti nəticəsində 60-70-ci illərdən sənaye sahəsinin zəngin və qiymətli ədəbiyyat fonduna malik ən qabaqcıl kitabxanası olmuş və onun mütərəqqi iş üsulunun Sovetlər Birliyi miqyasında yayılması və öyrənilməsi məqsədəuyğun hesab edilmişdir.[10]

Hazırda «Olefin» İnstitutunun Elmi Texniki Kitabxanası özünün çox gərgin dövrünü yaşayır. 15-20 il öncə ittifaq miqyasında sənaye sahəsində ən qabaqcıl kitabxanalardan biri olmuş bu kitabxanaya 1992-ci ildən başlayaraq fondun komplektləşdirilməsi üçün institut rəhbərliyi heç bir vəsait ayırmır. Əvvəllər «Книга - почта» vasitəsi ilə SSRİ-nin ixtisaslaşdırılmış «Химия» «Недра», «Мир» «Наука», «Политиздат» və s. nəşriyyatlarından göndərilən tematik planlar əsasında institutun elmi-tədqiqat problemlərinə uyğun sifariş verilmiş onlarla qiymətli kitab alınıb oxucuların istifadəsinə verilirdi. ETK elmi-texniki kitablardan əlavə ölkənin sahəvi mərkəzi elmi-tədqiqat və informasiya institutlarının elmi-texniki informasiya materiallarını, o cümlədən sənaye sahəsinin profilinə dair ölkənin müxtəlif sahəvi və ittafaq miqyaslı informasiya institutlarına daxil olmuş informasiya nəşrlərindən tərcümə olunmuş materialları da öz fonduna alaraq oxucuların istifadəsinə verirdi.

«Olefin» İnstitutunun ittifaq miqyaslı olması və geniş spektrli problemlər üzərində elmi-tədqiqat işləri aparması, orada çalışan elmi işçilərin və mütəxəssislərin ona uyğun olaraq informasiya tələbatının və sorğularının elmi-texniki kitabxanalar tərəfindən dolğun ödənilməsini zəruri edirdi. Ona görə də kitabxana fondunu təkcə vətən ədəbiyyatı ilə deyil, xarici dövri nəşrlərlə də müntəzəm şəkildə komplektləşdirirdi. Baxmayaraq ki, sovet dövründə yalnız milli kitabxanlar və Elmlər Akademiyası mərkəzi kitabxanasına, ittifaq və respublika miqyaslı iri kitabxanalara xarici nəşrlər almasına icazə və valyuta verilirdi. «Olefin» İnstitutunun kitabxanası da istisna olaraq ona qədər sənaye sahəsinin aktual probleminə dair xarici dövri nəşrlər alırdı. Hazırda ETK fondunun əsas hissəsini təşkil edən bu nəşrlərdən təkcə elmi-tədqiqat institutunun, onun təcrübə bazalarında çalışan əməkdaşlar deyil, KAA vasitəsi ilə respublikanın və ittifaqın da ayrı-ayrı ETK-ları istifadə etmişlər.



Geniş komplektləşdirmə mənbələri əsasında daim öz fondunu zənginləşdirən ETK-nın fondunda hazırda 80 min nüsxəyə qədər qiymətli elmi texniki kitab, normativ-texniki sənədlər, dövri nəşrlər və digər materiallar vardır.

Kitabxana 10-15 il bundan əvvəl olduğu kimi Azərbaycan Dövlət «Olefin» Elmi-Tədqiqat İnstitutunun yerləşdiyi binanın 3-cü mərtəbəsində 196 kv.m. sahədə yerləşir. Otaqlar geniş və səliqəli olub oxucuların rahatcılığı üçün minimal şəraitə malikdir. Kitabxana 4 otaqdan ibarətdir. Ən iri otaqda kitabxananın sənəd fondu yerləşir, 1 otaq 25-30 nəfərlik oxu zalı üçün ayrılmış, təzə olmasa da istifadə üçün yararlı olan stol və stullarla təmin edilmişdir. Təxminən oxu zalı həcmində olan girişdə yerləşən otaqdan sərgi salonu kimi istifadə edilir. Burada Azərbaycan Respublikası Prezidentinin şəkli asılmış, kitabxanaya sonuncu dəfə daxil olmuş ədəbiyyatın sərgisi təşkil edilmişdir. Dördüncü otaq kitabxana işçiləri üçün nəzərdə tutulmuşdur. 90-cı illərə qədər kitabxananın 4 nəfər əməkdaşı vardı, onlardan biri ETK-nın müdiri, 3 nəfər isə kitabxançı-biblioqraflar olmuşdur. Sonrakı illərdə institutda çalışanların sayı sürətlə azaldığından oxucuların sayı da azalmışdır. İqtisadi çətinlik, ayrılan vəsaitin kəskin azalması və digər səbəblərdən işçilər ixtisar edilmiş və hazırda cəmi 1 kitabxanaçı ştatı qalmışdır.

Kitabxananın fondunu əks etdirən kataloq-kartoteka sistemi təşkil olunmuş, onun və fondun düzülüşündən universal onluq təsnifat cədvəlinin qısaldılmış variantından istifadə edilir.

Elmi-texniki kitabxana əvvəlki illərdə olduğu həcmdə fonduna kitab almasa da və o miqdarda oxuculara xidmət göstərməsə də institut kollektivinin sənaye sahəsinin müasir aktual problemlərinə dair apardıqları elmi işləmələrin və tədqiqatların səmərəli təşkili üçün bütün lazımi informasiya təminatını əsasən yaradır.

ETK fondunda olan ədəbiyyatın orta hesabla 16 min nüsxədən çoxunu kitablar, 50 min nüsxəyə qədəri dövri və ardı davam edən nəşrlər (onların çox hissəsini əvvəlki illərdə alınmış xarici jurnallar, referativ jurnallar, sovet ittifaqında buraxılmış ixtisas jurnalları və s. təşkil edir), normativ-texniki sənədlər və s. informasiya nəşrləri təşkil edir.

Qeyd edək ki, ETK-nın fondu 10 ildən çoxdur ki, yararsız hala düşmüş və öz aktuallığını itirmiş ictimai-siyasi, elmi-texniki ədəbiyyatdan və dövri nəşrlərdən təmizlənməmişdir. Ona görə də fondun yarıdan çox hissəsi istifadəsiz qalmışdır. Kitabxanada xidmət əsasən abonementdə və oxu zalında həyata keçirilir. Əsas xidmət göstəricilərinin - kitabxanaya gəliş, kitab verilişi və s. xidmət formalarının ilkin uçotu

aparılmadığından hazırda onun fəaliyyətini bütün parametrlər üzrə təhlil etmək mümkün deyildir.

Kitabxana demək olar ki, 1992-ci ildən Respublika Kitabxana Kollektoru vasitəsilə heç bir kitab almamışdır. Ondan bir neçə il öncə də sovet, sonralar da Rusiya nəşriyyatlarından kitab ala bilmirdi. Beləliklə, kitabxanaya xaricdə və respublikada nəşr edilən ədəbiyyatın daxil olmaması nəticəsində fond öz informativliyini xeyli itirmiş və fondun çox hissəsi mənəvi cəhətdən köhnələrək yararsız hala düşmüşdü.

Kitabxana fondu hazırda institut əməkdaşlarının hədiyyə etdikləri kitablar və kitabçalar, sənaye sahəsi üzrə respubliukada müdafiə edilən dissertasiyaların avtoreferatları və s. informasiya nəşrlərinin hesabına cüzi sürətdə yeniləşir və artır. Kitabxana fonduna hazırda respublikada nəşr olunan onlarca adda qəzet və jurnallardan yalnız «Azərbaycan Neft Təssərrüfatı» jurnalını, «Эхо», «Вышка», «Azərbaycan» qəzetlərini və həmçinin institutun öz nəşri olan «Kimya və neft kimyası» jurnalını alır.

Kitabxana müdirinin dediyi kimi, qeydiyyat vaxtaşırı aparılmAdığından oxucuların sayı dəqiq deyildir. Lakin təxminən 200 nəfərə qədər elmi işçiyə, mühəndis-texniki işçiyə və başqa oxucu qruplarına xidməti gösitərilir. Bunlardan 9-u elmlər doktoru, 45-i elmlər namizədi, 12-si isə aspirantdır. Kitabxana fondunun əsas hissəsini öz aktuallığını itirmiş ədəbiyyat tutur. Lakin fondun institut alimlərinin nəşr etdirdikləri və kitabxanaya hədiyyə etdikləri kitablarla, kitabçalarla və elmi məqalələrinin dərc olunduğu dövri nəşrlərlə az da olsa yeniləşməsi oxucuların informasiya sorğularının ödənilməsinə müəyyən təminat verir. Hələlik ETK-da xidmətin təkmilləşdirilməsinin başqa yolu mövcud deyildir, ona görə ki, elmi-tədqiqat institutunun zəif maliyyə təminatı və özəlləşdirilməsi haqqında prezident fərmanınının hələ də icra olunmaması institutu və onun kollektivini gözləmə mövqeyində qoymuşdur.

ETK üçün vacib olan ən zəruri şeylərin alınması üçün vəsaitin ayrılması mümkün olmadığından o, yalnız mövcud maddi-texniki baza və sənəd-informasiya ehtiyatları əsasında fəaliyyət göstərməyə məcburdur. Ona görə də ETK-da müasir yeni informasiya texnologiyasının tətbiqinin heç bir əlaməti gözə dəymir və onun haqqında söhbət getmir. Kitabxananın daxil olduğu patent-informasiya şöbəsində yalnız bir kompüter vardır ki, bu da şöbənin özünün bilavasitə yerinə yetirdiyi işlərin təşkilində istifadə edilir.

Respublikanın neft emalı və neft-kimya sənayesinin elmi əsasda inkişafında əvəzsiz rolu olan Azərbaycan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutunun hazırkı zəif maddi-texniki bazası institut kollektivinin elmi potensialından tam və səmərəli istifadəsinə imkan verməməsi faktı



birbaşa ETK-nın normal və işgüzar fəaliyyətinə də təsir edir. İstitutun tərkib hissəsi kimi onun sənəd-informasiya ehtiyatlarını toplayan, saxlayan, mühafizə edən və istifadəsini təşkil edən ETK-nın normal fəaLiyyəti və onun yeni informasiya texnologiyalarından istifadəsi məsələləri və s. problemlərin həlli məxsus olduğu elmi-tədqiqat institutunun özünün maddi-texniki durumundan çox asılıdır. Bu məsələlərin həlli isə dövlətdən və müvafiq sənaye sahəsinin rəhbərliyindən asılıdır.

Qeyd edək ki, son 10-15 ildə Azərbaycanda kitabxana işinin böhran vəziyyətinə düşməsi islahatlarla əlaqədar olsa da, bu prosesdə bilavasitə kitabxana işinə rəhbərlik edən dövlət məmurlarının və kitabxanaların da «xidməti» az olmamışdır. Belə ki, kitabxana işinə rəhbərlik edən ayrı-ayrı müvafiq icra orqanları kitabxana işini ölkədə gedən ictimai-siyasi proseslərə və yeni iqtisadi münasibətlərə uyğun istiqamətləndirə bilməmişlər. «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş əsas müddəaların reallaşdırılmasına və kitabxana işinin inkişafına dair dövlət proqramının hazırlanmasına dair vacib müddəaların yerinə yetirilməsi sahəsində əməli işlər həyata keçirilməmişdir. Nəticədə ölkənin bütün kitabxana şəbəkələri, o cümlədən texniki kitabxana şəbəkəsi qarşılaşdığı ciddi çətinlikləri aradan qaldırmaq iqtidarında deyil. Belə gedərsə, yaxın gələcəkdə elmi-texniki kitabxana şəbəkəsi respublikanın vahid kitabxana sistemində öz yerini birdəfəlik itirə bilər.

Belə bir meyl neft emalı və neft kimya sənayesində fəaliyyət göstərən elmi-tədqiqat institutlarının uzun illər müvəffəqiyyətlə fəaliyyət göstərmiş elmi-texniki kitabxanalarının acı təcrübəsində özünü aydın büruzə verir. Belə vəziyyət Azərbaycanın sənaye kompleksində fəaliyyət göstərən bütün idarə, müəssisə və təşkilatların nəzdində olan ETK-ların hamısına xarakterikdir. Ona görə də ayrı-ayrı kitabxanaların deyil, bütövlükdə respublikanın bütün kitabxana şəbəkələrinin məqsədəuyğun təşkilini və normal fəaliyyətini təmin edən dövlət proqramının işlənib həyata keçirilməsi olduqca vacibdir.

## ƏDƏBİYYAT


1. *Əliyev İ. Müstəqil Azərbaycan Dövlətinin yeni neft strategiyası ucurla həyata keçirilir: Respublika Sarayında «Əsrin müqaviləsi»nin 5-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə məruzə // Azərbaycan.-1999.-21 sentyabr.*
2. *Yeni neft strategiyasının uğurları // Azərbaycan. - 2004. - 19 sentyabr.*

3. Azərbaycan.-1999.-22 sentyabr.
4. Nazirlər Kabineti parlament qarşısında hesabat verdi // Azərbavycan.-2004.-17 mart.
5. Kimya sənayesi müəssisələrinin və təşkilatlarının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı // Azərbaycan.-2001.-23 mart.
6. Azərbaycan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutu.-Bakı: Elm, 2001.-S.7-8. (158 s.)
7. Yenə orada.-S.15.
8. Yenə orada.-S.21.
9. Yenə orada.
10. Информационное обслуживание научных работников в ВНИИ Олефине // Организация справочно-информационной работы технических бибилиотек: Метод. Пособие / ГПНТБ СССР.-М., 1971.-С.22-25
11. Azərbaycan Dövlət Elmi-Tədqiqat «Olefin» İnstitutu ETK-nın 1980-2004-cü illər hesabatı.

*Зохраб Бахшалиев*

## БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННОЕ ОБСЛУЖИВАНИЕ СПЕЦИАЛИСТОВ ОТРАСЛЕВЫХ НАУЧНО-ИССЛЕДОВАТЕЛЬСКИХ ИНСТИТУТОВ НЕФТЕ ПЕРЕРАБАТЫВАЮЩИХ И НЕФТЕ ХИМИЧЕСКОЙ ПРОМЫШЛЕННОСТИ РЕСПУБЛИКИ

### *РЕЗЮМЕ*

*В статье рассматривается деятельность НТБ отраслевых научно-исследовательских институтов за последние годы, осуществляющие библиотечно-информационное обслуживание ученых и специалистов работающих в научных учреждениях нефтеперерабатывающей и нефтехимической промышленности. Освещена роль этих библиотек в обслуживающих специалистов отраслевых научных учреждений в удовлетворении их информационных потребностей характеризуется деятельность этих учреждений повышению информационных потребностей в современных условиях. В статье даны также ряд научно обоснованных рекомендаций по усовершенствованию деятельности НТБ.*

**Knyaz ASLAN**
*Pedaqoji elmlər namizədi, dosent*

# NİZAMİ GƏNCƏVİ İRSİNDƏ SÖZ, KİTAB VƏ MÜTALİƏ MƏSƏLƏLƏRİ

İnsanın kamil şəxsiyyət kimi yetişdirilməsi, gənc nəslin gələcək həyata hazırlanması, cəmiyyətin hər bir üzvündə müsbət əxlaqi keyfiyyətlərin inkişaf etdirilməsi problemi Azərbaycan ədəbiyyatı klassiklərini həmişə düşündürmüşdür. Dahi sənətkarlarımız cəmiyyətin inkişafında şəxsiyyətin müsbət rolunu yüksək qiymətləndirmiş, həyatı gözəlləşdirmək, zülmün, əsarətin kökünü kəsmək üçün yetkin insanlara böyük ümidlər bağlamış, hər bir kəsin yüksək mənəvi dəyərlərə malik olmasını arzu etmiş, bu məqsədlə bir sıra faydalı tövsiyələr vermişlər.

XII əsr dünya poeziyasının günəşi sayılan böyük Azərbaycan mütəfəkkiri Nizami Gəncəvinin fikrincə, üstün məziyyətlərə malik olan insan həyatda öz şərəfini, öz mövqeyini qorumağı bacarmalıdır. O, insanı əsl şəxsiyyət kimi yetkin, hərtərəfli, kamil görmək istəyir, davranışına və digər əməllərinə görə öz yerini bilən şəxsləri yüksək qiymətləndirir, yüngüllüyü, boşboğazlığı, özyndənrazılığı naqislik hesab edir.

*Bilikli adamlar uzağı görər,*
*Cahilin zəhməti hədərdir, hədər.*
*İnsana arxadır onun kamalı,*
*Ağıldır hər kəsin dövləti, malı (15, s.44),* -

deyə arxanın kamalda, var-dövlətin isə ağılda olduğunu söyləyən böyük sənətkar haqlı olaraq insanlara tövsiyə edir ki, hər bir kəs cəmiyyət arasında öz sanbalını qorumaq, ağır oturub batman gəlmək, hörmət qazanmaq üçün mədəsini doldurmaqla deyil, biliyini, təfəkkürünü, idrakını zənginləşdirməyə çalışmalıdır.

*Bir elmi öyrənmək istədikdə sən,*
*Çalış ki, hər şeyi kamil biləsən.*
*Kamil bir palançı olsa da insan,*
*Yaxşıdır yarımçıq hər papaqçıdan (14, s.65).*

Yaxud:

*Ucalmaq istəsən bir kamala çat,*
*Kamala ehtiram göstərər həyat (14, s.64),* -

deyən humanist şair ağlı, kamalı şəxsiyyətin ucalığı hesab edir.

Nizami insanın böyüklüyünü, gücünü, qüdrətini onun biliyində, söylədiyi qiymətli sözlərdə, yadigar qoyub getdiyi kitablarda görür:

*Tanrı yaratmışsa hər nə, yaxşı bax,*
*Sözdən başqa bir şey yaşamayacaq.*
*İnsanın qalacaq sözü yadigar,*
*Yeldir yerdə qalan başqa hər nə var (15, s.43).*

"Sözdür həm təzə şey, həm də köhnə şey», deyən, «Varlığın anasının sözdən gözəl övlad doğmadığını" söyləyən dahi sənətkarın fikrincə, mənəvi zənginliyi, əxlaqi saflığı və fiziki kamilliyi özündə ahəngdar şəkildə birləşdirən kamil şəxsiyyətin formalaşmasına təsir göstərən amillər sırasında kitabın, kitabxananın və mütaliənin müstəsna yeri vardır.

Şair haqlıdır: qədim dövrlərdən kitablar və kitabxanalar xalqın mühüm mədəniyyət mənbəyi və qüdrətli tərbiyə vasitəsi kimi qiymətləndirilmişdir. Çünki faydalı kitab sədaqətli dost və məsləhətçi, hami və tərbiyəçiidir.

Yarandığı gündən insanların həmdəminə çevrilmiş kitab tarixin müxtəlif dövrlərində bəşəriyyətin xidmətində dayanmışdır. İnsanlar məhz kitab vasitəsilə həyatı və dünyanı öyrənmiş, təlim, təhsil və tərbiyə almış, təbiətin və cəmiyyətin qanunauyğunluqlarını öyrənərək dərk etmiş, öz mənəvi aləmlərini zənginləşdirmiş və mədəni səviyyələrini yüksəltmişlər. Bir sözlə, kitab ən mühüm məlumat mənbəyi kimi tarixin fəal daşıyıcısı rolunda çıxış edir.

Görkəmli kitabxanaşünas alim, Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, tarix elmləri doktoru, professor Abuzər Xələfov haqlı olaraq yazır: "Dünyanın görkəmli alimləri, mütəfəkkirləri, filosofları, şairləri və yazıçıları kitabın və kitabxananın şəninə, şöhrətinə qiymətli fikirlər irəli sürmüş, söz söyləmiş, kəlamlar yaratmışlar. Ancaq dahi Nizaminin kəlamları bunların içərisində ən yüksək zirvə kimi parlayır və əsrlər keçdikcə öz parlaqlığını artırır" *(10, s.156.).*

Mütəfəkkir şairin əsərlərinin dərindən araşdırılması təsdiqləyir ki, Nizami dil, ədəbiyyat, tarix, fəlsəfə, poetika, astronomiya, coğrafiya, təbiətşünaslıq, ilahiyyat, musiqi, təbabət və s. kimi bəşəri elmlərə dərindən bələd olmuş, antik dünya mədəniyyəti haqqında yazılmış saysız-hesabsız əsərləri diqqətlə oxumuş, geniş dünyagörüşə və güclü məntiqə malik bir şəxsiyyət kimi böyük hörmət qazanmışdır. Bunu onun "Yeddi gözəl" poemasındakı etirafı da sübut edir:



*Dedim ki, bir əsər yaradım gərək,*
*İncə naxışlarla kəsilsin bəzək.*
*Dünyada nə qədər kitab var belə,*
*Çalışıb, əlləşib gətirdim ələ.*
*Ərəbcə, dəricə, yeri düşərkən,*
*Buxari, Təbəri əsərlərindən.*
*Oxudum, oxudum, sonra da vardım,*
*Hər gizli xəznədən bir dürr çıxardım.*
*Əlimə yetişən hər bir varaqdan*
*Nüsxələr bağladım mən zaman-zaman.*
*Onda ki, fikrimi saldım səhmana,*
*Dedim ki, qoy onu düzüm dastana.*
*Oxuyan bəyənib afərin desin,*
*Ariflər, alimlər mənə gülməsin (15, s. 30-31).*

Dahi şair müdrik sözə, müdrik sözləri toplayıb nəsildən-nəslə çatdıran kitaba və bu kitabları qoruyan, saxlayan, oxucuların istifadəsinə verən kitabxanaya hörmət və ehtiramını dəfələrlə bildirmiş, onların əhəmiyyətini yüksək dəyərləndirmişdir. O yazır ki, yaxşı kitabın hər misrası öz müəllifini tanıtdırar, əsrlərlə yaşamasına zəmin yaradar:

*Şeri oxunanda bu Nizaminin,*
*Özü də hər sözdə görünər yəqin.*
*Gizlənib özünü verməzmi nişan,*
*Sənə hər beytində bir sirr danışan?*
*Yüz il sonra sorsan: "Bəs o hardadır?"*
*Hər beyti səslənər: "Burda, burdadır!" (13, s. 305).*

"Dil acizdir deməyə, tərif sözün şəninə" – deyən Nizami sözü dünyanın ən böyük sərvəti və ən gözəl naxışı adlandırır:

*Şairi şah elədi şah əsərləri sözlə,*
*Möhürlədi məsləki məslək ərləri sözlə.*
*Sözü – qızıl yatağı altunla tutdu qoşa,*
*Dedi söz sərrafına: «De, hansı gəlir xoşa?*
*Səncə Köhnə qızılmı, təzə sözmü yaxşıdır?*
*Söz sərrafı söylədi: Söz dünyanın naxşıdır!*
*Söz hər yerdə hakimdi, hamıdan baş da odur,*
*Dünyanın sərvətidir, inci qaş-daş da odur (12, s. 48).*

Bu da bəllidir ki, qədim dövrlərdən başlayaraq "şeir", "söz", "nəzm", "kitab" eyni mənada işlənmişdir. Yəni "şeir", "söz", "nəzm" dedikdə "kitab", əksinə, "kitab" dedikdə "söz", "şeir", "nəzm" nəzərdə tutulmuşdur.

Professor A.Xələfov "Azərbaycanda kitabxana işinin tarixi" adlı dərsliyində yazır ki, XII əsrdə Gəncədə "Dar-əl kitab" adlı böyük bir kitabxana fəaliyyət göstərmiş və bu kitabxanaya Həddad ibn Asim ibn Bəkran Əbülfərələn Naxçıvani başçılıq etmişdir. Bu tarixi faktı o zaman Azərbaycanda olmuş Yaqut Həməvi də "Məcməul Huldan" əsərində təsdiq etmişdir (10, s.148).

Kitabşünas alim İ.Zəkiyev isə "Azərbaycan kitabının inkişaf yolu" adlı əsərində Gəncə kitabxanasında 10-dan çox xarici dildə əlyazma kitabının saxlanıldığı haqqında məlumat verir. Ölkədə mədəniyyətin inkişafına qayğı göstərən Atabəylərin hakimiyyəti dövründə Gəncədə böyük saray kitabxanası (kitab evi) zəngin və nadir kitab fonduna malik bir kitabxana kimi şöhrət tapmışdı. Bu kitabxana demək olar ki, bütün Şərq ölkələrindən ən qiymətli əlyazma kitabları alır, eyni zamanda burada kitabların üzü köçürülüb çoxaldılırdı.

Qeyd edək ki, sarayda şairlər məclisi fəaliyyət göstərsə də, Nizami bu məclisdə iştirak etmirdi. Lakin onun dayısı Xacə Ömər saray kitabxanasına rəhbərlik etdiyindən bu zəngin kitabxananın qapısı onun üzünə açıq idi. Şair dayısı öləndən sonra bu əlaqənin zəifləməsini təəssüf hissi ilə bildirir:

*Xacə Ömər dayım ölüb gedəndə,*
*Düşdüm müsibətə, bəlaya mən də.*

Nizami Gəncə kitabxanaları ilə yanaşı, Bərdə şəhərində olan zəngin kitabxanalardan da istifadə etmişdir. "Xosrov və Şirin" poemasında şair bu barədə müəyyən məlumat da verir:

*Məlum hekayədir "Xosrov və Şirin",*
*Dastan yoxdur əsla bu qədər şirin.*
*Ruhu oxşasa da bu gözəl dastan,*
*Pərdədə qalmışdı bu gəlin çoxdan,*
*Tanıyan yoxdu bu gözəl alması,*
*Bərdədə var idi bir əlyazması;*
*O ölkənin qədim tarixlərindən*
*Bu dastanı tamam öyrənmişəm mən.*
*O yerdə yaşayan qoca adamlar*
*Təşviq etdi, işə mən verdim qərar (13, s. 48).*

Buradan belə qənaətə gəlmək olar ki, birincisi, Bərdə şəhəri həmin dövrdə xeyli inkişaf etmiş, mədəni həyatı ilə məşhurlaşmış, zəngin kitab sərvətinə malik olmuşdur; ikincisi, şairin mütaliə dairəsi çox geniş olmuş və o, hər bir əsərini yazarkən xeyli axtarışlar aparmış, bir fikir götürmək üçün yüzlərlə kitab oxumuşdur.



Tarixi qaynaqlardan məlumdur ki, XI-XII əsrlərdə Bərdədə Cümə məscidinin yanında böyük bir kitabxana fəaliyyət göstərirdi. Bu kitabxanada qədim dini və dünyəvi əlyazmaların saxlanılması haqqında məlumat vardır. Bu kitabxanadan başqa, Bərdədə zəngin saray kitabxanası da olmuşdur. Nizamanin yazdıqları bir daha təsdiq edir ki, şair o dövrdə Bərdədə də olmuş və bu ktabxanalardan istifadə etmişdir.

Onu da deyək ki, görkəmli şərqşünas, professor Y.Bertelsin "dünya ədəbiyyatında misli görünməmiş mükəmməl bir əsər" kimi qiymətləndirdiyi "Xosrov və Şirin" poemasında Nizami digər məsələlərlə yanaşı söz sənəti haqqında da maraqlı mülahizələr söyləyir. Şairlər və şeirlər barədə düşüncələrini oxucusu ilə bölüşən mütəfəkkir bədii əsərə gözəllik, təravət gətirən, onu oxunaqlı, yaddaqalan edən mühüm xüsusiyyətləri nəzərə çatdırır, sözə yüksək qiymət verir. Onun fikrincə, sənətkar mənasız sözlərdən qaçmalı, özünü gözdən salmamalı, öz dəyəri ilə hətta qızıldan da qiymətli olan sözləri seçib nəzmə çəkməlidir:

*Polad kimi bərkit qızıl sözü sən,*
*Salsın söz sikkəsi pulu qiymətdən…*
*Boş, mənasız sözlər kimə gərəkdir?*
*Kim belə sözləri dinləyəcəkdir? (13, s.46).*

Şair burada eyni zamanda sənətkarın məsuliyyətini də müəyyənləşdirir, onun yaradıcı ömrünün məhz yazdığı əsərlərin dəyəri ilə ölçüldüyünü vurğulayır. O deyir ki, əsl sənətkar gecə-gündüz çalışıb min bir əziyyət bahasına ipə-sapa düzdüyü sözləri zərgər dəqiqliyi ilə seçməli, sözün qədrini bilməli, sözçülüyə yol verməməli, az sözlə daha dərin fikirlər ifadə etməyə çalışmalıdır:

*Sözə nəzmə çəkmək asandır, asan,*
*Gərək söz üstündə sən can qoyasan.*
*Sözündə çoxluğa qoyma yer olsun,*
*Birin yüz olmasın, yüzün bir olsun (13, s.46).*

Sözün ucalığını, ülviliyini dərindən dərk edən şair qələmdaşlarını ayıq olmağa, ruha mənəvi qida verən sözün ecazkar gücünü düzgün qiymətləndirməyə çağırır:

*Söz ruhdur, can üçün ruh bir dərmandır,*
*Cantək əzizliyi bəlkə bundandır…*
*Söz deyən qəvvasdır, söz isə gövhər,*
*Bu gövhər çox çətin əmələ gələr (13, s.47).*

Nizamini bir sənətkar kimi ucaldan cəhətlərdən biri də budur ki, o, öz yaradıcılığında uydurmaçılığa deyil, həyat həqiqətlərinə əsaslanır, mövzularını real həyatdan seçir, başqalarını da yalan yazmamağa, sözü qiymətdən salmamağa səsləyir:

*Söz canlı olanda abi-həyattək,*
*Hər bir mümkün şeyi caizdir demək.*
*Var doğru yazmağa, madam ki, imkan,*
*Neçin gəlsin gərək ortaya yalan?!*
*Qiymətdən salmışdır sözü yalanlar,*
*Doğrunu danışan möhtəşəm olar (13, s.47).*

Yalnız gerçəkliyi əks etdirən əsərlərin əbədi yaşarılığını təsdiqləyən şair iftixarla özünün birinci poemasını – "Sirlər xəzinəsi"ni xatırladır, həqiqi dünya hadisələrini real bədii obrazlarla oxuculara çatdıran bu sənət əsərinin heç vaxt solmayacağı qənaətinə köklənir:

*Sərv də qaldırmış düzlük bayrağı,*
*Onunçün həmişə göydür yarpağı.*
*Mənim xəzinəm var "Məxzənül-əsrar",*
*Boş zəhmət çəkməyin nə mənası var? (13, s.47).*

Nizami "Xosrov və Şirin" poemasının mövzusunu da həyatdan aldığını söyləyir, bu mövzunun şifahi xalq yaradıcılığında, tarixi mənbələrdə və yazılı bədii ədəbiyyatda müəyyən qədər öz əksini tapdığı barədə məlumat verir, bu dastanın gerçəkliyini sübuta yetirən tarixi abidələri, o cümlədən Bisütun dağında daşyonan Fərhada aid edilən naxışları xatırladır. O, eyni zamanda bu məhəbbət mövzusunu ilk dəfə yazılı ədəbiyyatda işləyən Firdovsini yada salır, onun "Şahnamə"sində Xosrovun şahlıq dövrünün işıqlandırıldığını qeyd edir. Lakin Nizaminin qənaətinə görə:

*Söylərkən o həkim bu xoş dastanı,*
*Çıxarıb içindən eşqi, fəğanı.*
*Altmış yaşındaydı yazanda bunu,*
*Saxlaya bilmirdi yayda oxunu!..*
*Altmışda sevginin, eşqin həycanı*
*Titrədə bilməzdi yorğun qocanı (13, s.48).*

Göründüyü kimi, mütaliə dairəsi çox geniş olan Nizami Firdovsinin yaradıcılığına dəqiq qiymət verməklə yanaşı, oricinal sənət əsəri yaradacağını qarşısına məqsəd qoyur və buna tamamilə nail olaraq şair sələfindən daha uca zirvədə dayanır.

Maraqlıdır ki, Nizami öz poemasının əsas qəhrəmanlarından biri olan Xosrov obrazını mənəvi inkişaf prosesində təsvir edərək, sözün qüdrətini, söz sənətinin tərbiyəvi gücünü çox böyük ustalıqla əks etdirir. Uşaqlıqdan eyş-işrət içərisində böyüyən, hər cür qayğı və diqqətlə əhatə olunun Xosrov aşiq olduğu Şirini əsl məhəbbətlə sevməyə başlayandan sonra məhz sevgilisinin təsiri ilə özünü və dünyanı dərk etməyə başlayır, onun tövsiyəsi və təklifi ilə elm-bilik öyrənməyə çalışır. O, Şirinin öyüdü nəticəsində məşhur alim Büzürgümidi yanına çağırır, ona həyat, dünya, yaşayış, olum, ölüm, axirət və s. haqqında suallar verir, aldığı cavablardan mütəəssir olur. Büzürgümidin "Kəlilə və Dimnə"dən danışdığı qırx əhvalat Xosrovu tamamilə dəyişir və o, əsərin sonunda əxlaqi cəhətdən yetkin bir şəxsiyyət mərtəbəsinə yüksəlir. Elə bu faktın özü böyük Nizaminin sözə, kitaba, mütaliəyə nə qədər üstünlük verməsinin əyani sübutudur.



Bu da xoşdur ki, dahi şair "Xosrov və Şirin" poemasının axırlarında yeddi yaşlı oğlu Məhəmmədə nəsihət verərək yazır:

*Bilik kəsb etməklə dünyanı qazan,*
*Əsmanı oxu ki, məna alasan.*
*Qaç o sözlərdən ki, mənasız, boşdur,*
*İlahi elmlər öyrənmək xoşdur.*
*Elə namuslu ol, desin hər görən:*
*"Ağıllı oğluna, Nizami, əhsən!" (13, s.349).*

Ulu mütəfəkkirin bu qiymətli nəsihəti bu gün də olduqca aktualdır və əslində hər bir Azərbaycan övladına ünvanlanmış ağsaqqal öyüdü kimi qəbul edilməli və həyata keçirilməlidir.

Nizami öz əsərini yazmamışdan öncə oxucusunu düşünür, bu kitabı oxuyacaq hər bir şəxsin zövqunu oxşamağa çalışır. Tələbkar oxucunun görüşünə uzuağ-alnıaçıq çıx-maq uçun yaradana üz tutur, ulu Tanrıdan kömək diləyir:

*Kömək qapısını aç, ey yaradan,*
*Göstər Nizamiyə düz yolu hər an...*
*Davudtək könlümü təzələ hər an,*
*Qalxsın Zəburumun şöhrəti haman (13, s.21).*

Məlum olduğu kimi, dini tarixə görə Davud peyğəmbərlərlən biridir. O, "Zəbur" adlı müqəddəs kitabın ehkamlarını məlahətlə oxuyarmış. Bədii ədəbiyyatda "ləhni-Davud" (Davudun səsi) gözəl səsə nümunə kimi göstərilir. Burada Nizami "Davud" dedikdə özünü, "Zəbur" dedikdə isə öz əsərini, daha dəqiq desək, "Xosrov və Şirin" poemasını nəzərdə tutmuşdur.

Dahi şair insanların ürəklərini şadlandıran, gözlərinə nur verən, onlara həyat yollarında düzgün yol göstərən, çətin işlərini asanlaşdıran qiymətli bir kitab yazmağı sənətkar ömrünün mənası hesab edir və onu "şadlıq kitabı" adlandırır:

*Təbimin bakirə gəlini ancaq*
*Bu dünya üzünə gəlsin üzü ağ.*
*Onu oxuyanda ürək şadlansın,*
*Müşk səpdiyi yer Xəllux adlansın (13, s.21).*

İnsanı daim öyrənməyə, dünyanın sirlərindən agah olmağa, özünü və kainatı dərk etməyə çağıran böyük sənətkar çox düzgün qeyd edir ki, əgər insan şüuru, insan zəkası elmlə, biliklə, hikmətlə nurlanmasa, yeni mətləblər, yeni ideyalar, yeni fikirlər yaratmaq mümkün olmaz:

*Kainat özü də belə dövr edir,*
*Gövhər tanıyana aydındır bu sirr.*
*Qüdrətdən dünyaya buyruq olmasa,*
*Şüura hikmətin nuru dolmasa,*
*Bil, nə qələm yeni bir mətləb yazar,*
*Nə də dırnaq tikər yeni bir paltar (13, s.21).*

Başqa bir parçada:

*Söz deyən qəvvasdır, söz isə gövhər,*
*Bu gövhər çox çətin ələ gələr (13, s.25-26),-*

qənaətini öz yaradıcılıq təcrübəsində bir daha təsdiqləyən şair yazır:

*Bu qara sədəfə diqqət verirkən,*
*Çox məna dürrünə rast gələcəksən.*

Nizami burada "qara sədəf" dedikdə yazını nəzərdə tutur. O, öz tələbkar oxucusuna "Sən bu əsərdə çoxlu məna incəlikləri ilə qarşılaşacaqsan" demək istəyir.

Tamamilə təbii olaraq Nizami əsərlərinin qəhrəmanları da sözü uca tutan, kitaba hörmət edən, kitabxananı yüksək qiymətləndirən, məşhur şair, alim və filosofların kitablarını mütaliə edən şəxsiyyətlərdir.

Bu baxımdan İsgəndər surəti diqqəti daha çox cəlb edir. "İsgəndərnamə" poemasının başlanğıcında bu kitabın başqa kitablardan üstünlüyü haqqında söz açan şair ən mahir kitab təbliğatçısı kimi əsərin diqqətlə oxunmasını oxuculardan xahiş edir. Nizami bu kitabın insan səadəti naminə xidmət göstərəcəyinə ümid bəsləyir.

Maraqlıdır ki, həmişə tanınmış alimlərin əhatəsində olan, mütaliəyə ciddi fikir verən İsgəndər uzaq səfərlərə çıxarkən özü ilə kitablar aparır, işğal etdiyi ölkələrdən qiymətli kitabları toplayıb gətirir, onları tərcümə etdirir, yeni kitabxanaların yaradılmasına xüsusi diqqət yetirir.

Bu cəhətdən İsgəndərin İrandan Ruma qayıdarkən kitablar aparmasını Nizami belə təsvir edir:

*İsgəndər ağlıyla tökdü bir tədbir,*
*Əmr etdi: tez gəlsin, atlansın vəzir.*
*Orda kitabxana varsa nə qədər,*
*İşarə elədi, tez gətirsinlər.*
*Hər çeşid elmdən dəyərli sözlər,*
*Hər incə hikmətdən açdı bir dəftər.*
*Yunana göndərdi tərcüman ilə*



*Çevirsin bir dildən başqa bir dilə.*
*Padşahın əmriylə gəldi Ərəstu,*
*Durmadan at çapsın Yunana doğru.*
*Rövşənək xanımı alsın bərabər,*
*Götürsün xəzinə, kitab və dəftər.*
*İranı tərk etdi şahın əmriylə,*
*Yunanın yolunu keçirdi ələ (16, s.196).*

Beləliklə, İsgəndər kitabı xəzinə ilə, qızılla bərabər tutur, onu layiqincə dəyərləndirməyi bacarır.

Poemanın başqa bir hissəsində Nizami yazır:

*Ağıl hər bir sirrə yol tapsın deyə,*
*O verdi fikrini elmə, biliyə.*
*Xəyalı göyləri gəzdi, dolaşdı,*
*Bağlı qapıların sirrini açdı.*
*Bəyəndi pəhləvi, yunan və dəri*
*Dilində yazılmış bir çox əsəri.*
*Bir də fars dilində şahanə dəftər*
*Olmuşdu dilində su kimi əzbər.*
*İstər Rum elində, istər Yunanda,*
*Dünya dillərində nə var cahanda,*
*Buyurdu tərcümə edilsin bütün*
*Bilik xəznəsini doldurmaq üçün.*
*Dürr yığdı elm üçün bir-bir hər yandan,*
*Bunlardan yaratdı böyük bir ümman (16, s.430).*

Buradan da görünür ki, Nizami kitabı "dürr", kitabxananı isə "dürr ümmanı", "bilik xəzinəsi" adlandırır.

Professor A.Xələfovun yazdığı kimi, "təkcə elə bu parçanın təhlili çox aydın göstərir ki, böyük Nizaminin kitab və kitabxana haqqında fikirləri, onun yaşadığı dövrün çox yüksək zirvəsi olmaqla yanaşı, müasir dövrümüzdə də çox yüksəkdə duran bir fikir, dünyabaxışı kimi öl-məzliyini saxlamış, kitabı və kitabxananı bəşəri mədəniyyətin zirvəsinə çevirmişdir" *(10, s.156).*

Nizami yazır:

*İsgəndər haqqında heç bir əsərdə*
*Məlumat görmədim yığcam bir yerdə.*
*Sözlərlə dolmuşdu xəzinə içi,*
*Ancaq hər nüsxə bir dağınıq inci.*
*Hər köhnə nüsxədən əsas alaraq,*
*Onu öz şerimlə bəzədim ancaq,*
*Ən qədim tarixi əsərlərdən mən,*

*Yəhudi, nəsrani, pəhləvilərdən*
*Ən incə sözləri əlimə saldım,*
*Qabığı atıraq, məğzini aldım.*
*Müxtəlif dillərdən yığdım çox sözlər,*
*Bunlardan düzüldü yazdığım əsər (16).*

Bu parçadan göründüyü kimi, şair türk, ərəb, fars mənbələri ilə yanaşı, yəhudi, nəsrani, pəhləvi dilində olan kitabxanalardan istifadə etmiş və bir neçə xarici dilləri bilmişdir. Əsərdən gətirdiyimiz bu parça tarixi qaynaqlarda Gəncə kitabxanalarında bir çox xarici dillərdə kitabların olması haqqında fikirləri də təsdiq edir. Nizamişünaslar belə hesab edirlər ki, şairin özünün də zəngin şəxsi kitabxanası da olmuşdur.

Professor A.Xələfov yazır: "Tarixi qaynaqlarla yanaşı, Nizaminin şəxsi ktabxanasının olması haqqında məlumata M.S.Ordubadinin "Qılınc və qələm" romanında da rast gəlirik. Romanda göstərilir ki, Sultan Toğrul Gəncəyə gəldiyi zaman Nizamiyə məktubla müraciət etmişdir. Məktubda oxuyuruq:

*"Böyük və möhtərəm şair!*

*Mən Gəncəyə gələn gün Sizin ziyarətinizə gəlməli idim. Qardaşım Qızıl Arslanın getdiyi yolu davam etdirməli idim. Lakin səhətimin pozulduğu və gündəndiyimiz xalqdan gördüyümüz etinasızlıq, mənim vəzifəmi vaxtında bitirə bilmədiyimə səbəb oldu. Buna görə də böyük şairin kitabxanasına baxmaq üçün icazə versəydiniz, mən özümü tarixi bir şərəfə nail olmuş hesab edərdim"* (10, s.152-153).

Bütün bunlar bir daha təsdiqləyir ki, dahi şairimizin XII yüzillikdə kitaba və kitabxanaya verdiyi yüksək qiymət öz elmi və mədəni əhəmiyyətinə görə çox ucada durur. Nizami öz əsərlərində ardıcıl mütaliəni, təkrar mütaliəni elm, bilik qazanmağın əsas vasitəsi sayır, mütaliə dairəsi geniş və hərtərəfli olan insanın kamil şəxsiyyət kimi formalaşmasından ümidlə söhbət açır, çox oxuyub az yazmağın, çox bilib az danışmağın faydasından danışır.

Şairin fikrincə, şəxsiyyəti hər hansı bir rütbə yox, yalnız elm, bilik, tərbiyə ucalda bilər. Yüksək dövlət vəzifəsi tutan adam sabah həmin vəzifədən düşərsə, əvvəlki möv-qeyini də itirər, lakin elm, bilik sahibi həmişə ən ülvi yüksəklikdə dayanar. Onu saymamaq, məğlub etmək mümkün deyil. Məhz buna görə də Nizami "İsgəndərnamə" poemasında yazır:

*O böyük, ağıllı, ayıq hökmdar*
*Öz şahlıq taxtında tutarkən qərar,*
*Əmr etdi, verildi belə bir fərman:*
*"Alimdir gözümdə ən əziz insan!*



*Elmlə, hünərlə! Başqa cür heç kəs*
*Heç kəsə üstünlük eləyə bilməz!*
*Kütbələr içində seçilir biri -*
*Hamıdan ucadır alimin yeri!"* (16, s. 430).

Bir sözlə, böyük hikmət sahibi və alim olan Nizami insanın kamilləşməsində elmə, biliyə, kitaba, kitabxanaya, mütaliəyə, tərbiyəyə yüksək yer vermək ə yanaşı, özü də qiymətli kitablardan və zəngin kitabxanalardan istifadə edərək yetkin şəxsiyyət kimi formalaşmış, eyni zamanda bunlarla bağlı öz əsərlərində irəli sürdüyü nəzəri fikirlərini oğlu Məhəmmədin təlim-tərbiyəsi ilə məşğul olarkən tətbiq etmiş, onu bilikli, ləyaqətli, ağıllı-kamallı şəxsiyyət kimi tərbiyələndirmişdir.

Beləliklə, mövzunu yekunlaşdıraraq qeyd etməliyik ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və bir sıra rayonlarımızın azğın erməni işğalçılarının tapdağı altında qaldığı və təcavüzə məruz qalmış yurdlarımızın xilası uğrunda mübarizənin gündən-günə gücləndiyi indiki şəraitdə gənc nəsildə doğma torpağa və xalqa məhəbbət, Vətənin ərazi bütövlüyünə və müstəqilliyinə sədaqət, cəsarət və hünər kimi hisslər və yüksək ideyalar aşılanmasında kitabxanalar ön sırada getməli, oxucuların tələbatlarını ödəməyə çalışmalıdırlar. Şübhəsiz, bu mühüm işdə Nizaminin əsərləri vacib rol oynaya bilər. Çünki əsl poeziya nümunələri öz ideya-əxlaqi zənginliyi ilə müasir gənclərin mənəvi aləmini düzgün formalaşdırmağa qadirdir.

Azərbaycanın xalq yazıçısı Mirzə İbrahimov yazır: "Nizaminin ölməz bəşəri səadət ideyaları dünyanı gəzmişdir. Qabaqcıl xalqların ədəbiyyat və sənət bağçasında onun gülüstanından gətirilmiş solmaz çiçəklərin ətri duyulmuşdur. Nizami süjetləri xalq arasında yayılmış, dildən-dilə, ağızdan-ağıza gəzmiş, uzaq ölkələri dolaşaraq, müxtəlif hakimanə əhvalatlar, dərin mənalı hekayələr doğurmuşdur" *(12, s.5).*

Ümumiyyətlə, dahi şairin bütün əsərlərini bir qayə birləşdirir: insanı insanlığa dəvət etmək, onda insanlıq hiss və duyğularını tərbiyələndirmək mümkündürmü? Dahi şairin özünün də yazdığı kimi, sağlam tərbiyə və şəxsi məsuliyyət hissini oyatmaq ancaq şəxsi mənəvi təmizlənmə və təkmilləşmə yolu ilə mümkündür.

Bütün bu cəhətlərinə görə kitabxanalarımız Nizami əsərlərini gənc oxucular arasında səmərəli təbliğ etmək məqsədi ilə kütləvi işin forma və üsullarından müntəzəm olaraq istifadə etməlidirlər. Məhz bunun nəticəsində kitabxana ilə sıx əlaqə yaradan gənclər Nizami irsi ilə daha yaxından tanış olmaq imkanı qazana bilirlər. Ona görə də dahi şairin yaradıcılığını daha məqsədyönlü təbliğ etmək üçün kitabxanalarımız bir sıra tövsiyələrə əməl etməlidirlər. Onları bu cür qruplaşdırmaq olar:

- Nizaminin yaradıcılığına yalnız yubileylər ərəfəsində müraciət olunmamalı, şairin əsərləri həmişə diqqət mərkəzində saxlanılmalıdır;

- Nizami əsərlərini oxuculara sevdirmək məqsədi ilə uşaq, gənclər, kütləvi və digər kitabxanalarda əyləncə xarakterli sual-cavab gecələri, viktorinalar keçirilməlidir;

- dahi şairin öz əsərləri ilə yanaşı, həm də onun həyat və yaradıcılığı barədə yazılmış tədqiqat əsərləri də oxuculara tövsiyə olunmalıdır;

- Nizami mövzularına müraciət edən və onun poemalarının motivlər əsasında yeni əsərlər yazan şair və yazıçılarla görüşlər keçirilməlidir;

- Nizaminin söz, kitab və mütaliə ilə bağlı fikirləri ayrıca kitabça şəklində nəşr olunsa, çox faydalı olar.

Əlbəttə, araşdırdığımız mövzu çox genişdir və onu bir elmi məqalədə işində əhatə etmək mümkün deyil. İnanırıq ki, böyük şairimizin söz, kitab və mütaliə ilə bağlı mülahizələri gələcəkdə daha geniş araşdırılacaqdır.

## ƏDƏBİYYAT


*1. Araslı H. Şairin həyatı.-B.: Gənclik, 1967.-187 s.*

*2. Azadə R. Nizami poetikası.-B.: Elm, 1981.-250 s.*

*3. Allahverdiyev B. Nizami Gəncəvi kitab və mütaliə haqqında // Elmi əsərlər: "Kitabxanaşünaslıq və biblioqrafiya" seriyası.-B.: ADU, 1971.-S.31-39.*

*4. Aslan K. Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında kitab və mütaliə məsələləri // Elturan (Milli məsələlər).-2002-2003.-S.57-62.*

*5. Aslan K. Gənclərin bədii zövqünün formalaşmasına Nizami gəncəvi irsinin təsiri // Kitabxanaşünaslıq və biblioqrafiya.-1998.-№2.-S.56-65.*

*6. Babayev S.Nizami irsinin orta ümumtəhsil məktəblərində təbliği məsələləri // Azərbaycan müəllimi.-1985.-12 avqust.*

*7. Bertels E. Böyük Azərbaycan şairi Nizami.-B.: Elm, 1981.-45 s.*

*8. Cəfərov M. Estetik tərbiyə, ailə və məktəb.-B., 1967.-95 s.*

*9. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən (Ən qədim dövrlərdən başlamış XVIII əsrin sonlarınadək).-B.: Bilik,1986.-96 s.*

*10. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi (Ən qədim dövrlərdən XX əsrə qədər): Dərslik. I hissə.-B.: Bakı Universiteti Nəşriyyatı, 2004.-328 s.*

*11. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik.-B.: BDU, 2001.-400 s.*

*12. Gəncəvi N. Sirlər xəzinəsi. –B.: Yazıçı, 1981.-196 s.*

*13. Gəncəvi N. Xosrov və Şirin.-B.: Yazıçı, 1982.-402 s.*

*14. Gəncəvi N. Leyli və Məcnun.-B.: Yazıçı, 1983.- 303 s.*

*15. Gəncəvi N. Yeddi gözəl.-B.: Yazıçı, 1983.- 356 s.*

*16. Gəncəvi N. İsgəndərnamə (Şərəfnamə; İqbalnamə).-B.: Yazıçı, 1982.- 692 s.*

*17. Nizaminin hikmət və nəsihətləri.-B.: Azərbaycan EA nəşriyyatı, 1966,120 s.*

*18. Nizami Gəncəvi: Məqalələr məcmuəsi.-B.: Elm, 1981.-267 s.*



**Князь Аслан**


## ПРОБЛЕМЫ СЛОВА, КНИГ И ЧТЕНИЯ В НАСЛЕДИИ НИЗАМИ ГЯНДЖЕВИ

### РЕЗЮМЕ


***В данной статье кратко изложены взгляды классика всемирной поэзии Низами Гянджеви на значение роли художественной литературы в формировании личности.***

***Автор освещает эту актуальную тему основываясь на творчестве и жизненном пути великого азербайджанского поэта.***

***Здесь же обобщены мысли известного поэта к вопросам слова, книг, библиотек и чтения.***

**Akif CƏFƏROV**
*Baş müəllim*

# KƏNDLİ-FERMER TƏSƏRRÜFATI İŞÇİLƏRİNƏ KİTABXANA XİDMƏTİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

Müstəqil Azərbaycan Respublikası sosializmin mərkəzləşdirilmiş planlı inzibati-amirlik sistemindən demokratik prinsiplər əsasında qurulan və azad bazar münasibətlərinə söykənən yeni iqtisadi sistemə keçməyə qədəm qoymuşdur. İqtisadiyyatı bazar münasibətləri əsasında qurmaq, cəmiyyətin demokratik əsaslarla inkişafını təmin etmək məqsədilə bir çox qanun və qərarlar qəbul edilmişdir. Kənd təsərrüfatında həyata keçirilən iqtisadi islahatların hüquqi əsasını Azərbaycan Respublikası Milli Məclisinin 1991-1995-ci illərdə və sonrakı dövrlərdə qəbul etdiyi «Torpaq məcəlləsi», «Mülkiyyət haqqında», «İcarə haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Torpaq vergisi haqqında», «Aqrar islahatların əsas istiqamətləri haqqında», «Kəndli (fermer) təsərrüfatları haqqında», «Kolxoz və sovxozların islahatı haqqında» qanunları, «Kolxoz və sovxozların əmlakının bölüşdürülməsi, satılması və bələdiyyə mülkiyyətinə verilməsi» qaydası və digər normativ hüquqi sənədlər təşkil edir (7, s.3). Bu qanunlara isnad edərək aqrar sahədə iqtisadi bazanın əsası olan mülkiyyət üzərində yeni təsərrüfatçılıq formalarının yaradılması, torpağın və əmlakın onun ideyaçıları arasında bölüşdürülməsi; istehsal sahələrinin struktur quruluşunun daxili və xarici bazarın tələblərinə müvafiq surətdə təkmilləşdirilməsi; aqrar bölməyə sərmayə qoyuluşu: elmi texnoloji yeniliklərin istehsala tətbiqi; stimullaşdırıcı qiymətqoyma; çevik vergi və kredit siyasəti mexanizminin işlənilməsi; iqtisadi idarəetmə üsuluna üstünlük verilməsi; stimullaşdırıcı tədbirlər sistemindən səmərəli istifadə edilməsi və s. kimi proseslərin həyata keçirilməsinə cəhd göstərilir.

Qeyd etmək lazımdır ki, iqtisadi islahatların uğurla həyata keçirilməsi aqrar sənaye kompleksinin o cümlədən onun mənəvi özəyi sayılan kitabxana problemlərinin də dərindən öyrənilib dərk edilməsindən çox-ukladlı təsərrüfatçılıq şəraitində işləyə bilən yüksək ixtisaslı kitabxanaçı kadrların hazırlığından çox asılıdır. Lakin bu asılılığı izah etməzdən qabaq kəndli fermer təsərrüfatının təşkili qaydası haqqında ümumi məlumat vermək daha məqsədəuyğun olardı.

8 mart 1992-ci ildə qəbul edilmiş «Kəndli (fermer) təsərrüfatı haqqında» qanuna görə, 18 yaşına çatmış bütün vətəndaşlar kəndli təsərrüfatı yaratmaq və həmin məqsəd üçün torpaq sahəsi almaq hüququna malikdir. Torpaq islahatı haqqında Qanunda göstərildiyi kimi, «Torpaq payı naturada paylamaq hüququ olan şəxslərin (ailənin xüsusi mülkiyyətinə verilir)» (8, s.395). Torpaq sahəsi almaqda ərazidə daimi yaşayan kənd təsərrüfatında ən azı üç il işləyən və lazımi peşə vərdişləri olan vətəndaşlara üstünlük verilir. Kəndli təsərrüfatının üzvləri daimi bir yerdə yaşayan və təsərrüfatda işləyən ər, arvad, onların valideynləri, 14 yaşından yuxarı uşaqları və könüllülük əsasında birləşmiş digər şəxslər hesab edilir. Təsərrüfatda hər bir şəxsə çatacaq fərdi əmlakın payını hesablamaq üçün əvvəlcə hər bir nəfərin ictimai islahatda iştirakı müəyyənləşdirilir (5, s.6). Kəndli təsərrüfatının üzvlərindən biri təsərrüfata başçı seçilir. Təsərrüfat başçısı dövlət, kooperativ, ictimai və digər müəssisələrlə danışıqlar aparır, münasibətlərdə təsərrüfatın mənafeyini təşkil edir, müqavilələr bağlayır, etibarnamə verir, əmlak və vasitələrdə sərəncam hüququndan istifadə edir.

Azərbaycan Respublikasının təbii, iqtisadi şəraiti nəzərə alınmaqla fermer təsərrüfatları ABŞ, Fransa, Türkiyə modelləri əsasında 3 müxtəlif variantda yaradılır. 1-ci variantda rayon, xalq, deputatları soveti tərəfindən kəndli (fermer) təsərrüfatının yaradılması üçün xüsusi torpaq sahəsi ayrılır. Kənd təsərrüfatının yaradılmasının 2-ci variantı zərərlə işləyən, aşağı rentabelli kolxoz və sovxozların bazası əsasında yaradılan təsərrüfatlardır. Kolxoz və sovxozların torpaqlarında yaradılmış kəndli təsərrüfatları istehsalın səmərəliliyini təmin edən 3-cü varianta aiddir. Sovxozun bazası əsasında yeni yaradılan təsərrüfatın hər bir uzvünün iki şəxsi hesabı olmalıdır. Bu hesabda əmlakın baza dəyərində və əmlakın artan hissəsində payı göstərilir (1, s.15).

Bir məsələni də qeyd etmək lazımdır ki, 1999-cu ilin məlumatına görə respublikamızda 44, 8 min kəndli təsərrüfatı olmuşdur. Lakin orta hesabla bir kəndli (fermer) təsərrüfatına düşən torpaq sahəsi azalaraq 23 hektardan 4 hektara enmişdir. Torpaq sahəsinin azalmasına baxmayaraq, fermer təsərrüfatlarının dinamik inkişafı islahatların sürətlə aparılmasını şərtləndirməklə onun informasiya bazası kimi kitabxanaların da üzərində çox ciddi vəzifələr qoyur. Belə ki, MKS-in fəaliyyəti respublikamızda formalaşmış və müvəffəqiyyətlə fəaliyyət göstərən elmi-texniki məlumat sistemindən ayrı şəkildə inkişaf edə bilməz.

Kütləvi kitabxanaların yerini hər bir ərazidə onların məlumat biblioqrafiya işinin istiqamətlərini düzgün müəyyənləşdirmək üçün müəssisə və təşkilatlarda çalışan mütəxəssislərin məlumatlandırılmasının bütün kanallarını həmçinin onlara daxil olan məlumatların xarakterini diqqətlə öyrənmək lazımdır. Bu öz işinin xarakterinə görə daim yeni ədəbiyyatla tanış olmağı tələb edən, lakin digər kanallarla lazımi məlumatı ala bilməyən mütəxəssis kateqoriyalarına mərkəzi kitabxananın daha çox fikir verilməsi üçün əsas rolu oynayan mühüm cəhətdir.

Qeyd edək ki, mərkəzləşmiş kitabxana sistemlərində kitab fondlarının yeni tələbatına uyğun olaraq formalaşması universal fondlar kimi onların əhəmiyyətini artırmış, rayon mərkəzində yaşayan bütün ziyalılara, mütəxəssisələrə xidmət etmək imkanı verilmişdir (11, s.9).

Kitabxananın fərdi abonentləri ola biləcək mütəxəssislər dairəsinin daha dəqiq şəkildə müəyyənləşdirilməsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. «Mütəxəssis» anlayışı ixtisas ədəbiyyatında və bir çox digər mənbələrdə göstərildiyi kimi çox geniş anlayışdır. Buna görə də mərkəzləşdirmə şəraitində mütəxəssislərə kitabxana ximədtinin təşkili zamanı birinci növbədə kitabxananın xidmət edəcəyi mütəxəssislərin tərkibini müəyyənləşdirmək lazımdır. Bu məqsədlə mərkəzi kitabxana xüsusi oxuculara profil kartotekası tərtib edir.

Mərkəzi kitabxana tərəfindən göstərilən təsərrüfat rayonlarının iqtisadi profilləri eyni olmağına görə hər bir mərkəzi kitabxananın fəaliyyət göstərdiyi ərazidə çalışan mütəxəssilərin miqdarı və onların maraq dairələri də eyni olmayacaqdır. Bu zaman eyni tipli müəssisələrdə çalışan şəxsləri istisna etmək lazımdır. Təbii ki, belə olan şəraitdə hər bir mərkəzi kitabxana yerləşdiyi təsərrüfat rayonunun xüsusiyyətlərini nəzərə alaraq mütəxəssislərə kitabxana xidmətini təşkil edəcəkdir. Daha dəqiq desək, mərkəzi kitabxananın yerləşdiyi rayonun təsərrüfat profili mütəxəssislərə, o cümlədən fermerlərə kitabxana xidmətinin əsas xüsusiyyətlərini müəyyənləşdirən mühüm və birinci dərəcəli amil kimi çıxış edir. Məsələn, respublikamızın müxtəlif zonalarında yerləşən Tovuz və Lənkəran rayonlarının təsərrüfat fəaliyyəti və profili bir-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Buna görə də həmin rayonların MKS-lərinin mütəxəssisələrə, o cümlədən fermer işçilərinə kitabxana xidmətinin xüsusiyyətləri də bir-birindən fərqlənəcəkdir.

Qeyd etmək lazımdır ki, mərkəzləşmə şəraitində mütəxəssislərə kitabxana xidməti dedikdə əsasən MKS-in məlumat biblioqrafiya işi nəzərdə tutulur. Bu sahədə mərkəzləşdirilmiş kitabxana sisteminin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:



- Məlumat biblioqrafiya aparatının (kataloqların, kartotekaların, məlumat və biblioqrafiya nəşrləri fondunun ödənilmiş arayışlar arxivinin) yaradılması;
- Məlumat biblioqrafiya xidmətinin, daha doğrusu bu və ya digər məsələ, (mövzu, predmet) üzrə ədəbiyyatın üzə çıxarılması ilə bağlı olan oxucu sorğularının ödənilməsi;
- Ayrı-ayrı oxucu qruplarının, təşkilat və müəssisələrin onları maraqlandıran mövzular üzrə ədəbiyyat haqqında məlumatla təmin edilməsi;
- Oxucular arasında biblioqrafik biliklərin təbliğ edilməsi (4, s.37).

Ümumiyyətlə, mərkəzləşdirmə şəraitində mütəxəssislərə kitabxana xidmətinin təşkil edilməsinin nəzəri əsasları ixtisas ədəbiyyatında kifayət qədər işıqlandırılmışdır. Lakin bu nəzəri əsasların müəyyən iş təcrübəsində olduğu kimi istifadə edilməsi tamamilə qeyri-mümkündür. Hər bir rayonun özünəməxsus təsərrüfat profili MKS-in mütəxəssislərinə, o cümlədən fermer mütəxəsislərinə məlumat-biblioqrfiya xidmətinin spesfik xüsusiyyətini yaradır. Bu Tovuz rayon MKS-in fəaliyyətində və topladığı iş təcrübəsində bir daha özünü büruzə verir.

Respublikamızın inzibati təsərrüfat rayonlarından biri olan Tovuz rayonunun əhalisi əsas etibarı ilə üzümçülük, taxılçılıq, maldarlıq və əkinçiliklə məşğul olurlar. Rayonda bir sıra zavodlar, fabriklər, ali və orta ixtisas təhsili müəssisələri, tikinti idarələri, toxuculuq idarəsi (2, s.203), 131 fermer təsərrüfatı fəaliyyət göstərir. Bu təsərrüfatların 26-sı rəsmi dövlət qeydiyyatına alınmış, 105-i isə alınmamışdır. Hazırda bu təsərrüfatlarda 745 nəfər mütəxəssis çalışır ki, bunun da 602 nəfərinin ali və orta ixtisas təhsili vardır (9).

Tovuz rayon MKS-nin gündəlik fəaliyyəti rayonun qarşısında duran iqtisadi ixtisasların yerinə yetirilməsi istiqamətində qurulmuşdur.

Mütəxəssislərə, o cümlədən fermer təsərrüfatı işçilərinə kitabxana xidmətində biblioqrafik xidmət aparıcı rol oynayır. MKS-də mütəxəssislərə məlumat-biblioqrafiya xidməti metodika-biblioqrafiya şöbəsi tərəfindən həyata keçirilir. Tovuz rayon MKS-də kəndli (fermer) təsərrüfatı mütəxəssislərinə göstərilən biblioqrafik xidmət öz xarakterinə görə müxtəlifdir. Çünki kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsi nəticəsində hər bir oxucuya daha rəngarəng formada, səmərəli işə kənddə biblioqrafik xidmət üçün əsl şərait yaradılmışdır. Öz ideya və məzmununa görə fondu çox zəngin olan Rayon MKS-in işi mütəxəssislərə biblioqrafik xidmət işinin təkmilləşmiş müxtəlif üsullarından istifadə olunmasını tələb edir. Rayon MKS-də oxuculara məlumat-biblio-

qrafiya xidməti məsələsi çoxcəhətli və rəngarəngdir ki, bu da oxucu tərkibinin müxtəlifliyindən irəli gəlir. Ona görə də MKS-də biblioqrafik xidmət sistemi yaratmaq lazımdır ki, təhsilindən və ixtisasından asılı olmayaraq, bütün oxucu qrupları ondan istifadə edə bilsinlər. Bu zaman mütəxəssis oxuculara məlumat-biblioqrafiya xidmətinin təşkilinə xüsusi fikir vermək lazımdır.

Tovuz rayon MKS-də metodika biblioqrafiya şöbəsi mütəxəssislərə məlumat-biblioqrafiya xidmətini iki başlıca istiqamət üzrə:

a) Mütəxəssislərə soraq-biblioqrafiya xidməti (kitabxana və ya biblioqrafiya xarakterli sorğulara cavab verməsi);

b) Biblioqrafik informasiya işi (ən yeni və aktual ədəbiyyat haqqında oxuculara, müəssisə və təşkilatlara verilən informasiya) həyata keçirilir.

Kitabxana müəssisələrə biblioqrafik-xidmət göstərməzdən əvvəl onun sorğu və marağının xarakterini öyrənir. Buna görə də Tovuz rayonu MKS-də fermer mütəxəssisləri sorğularının dəqiq öyrənilməsi, onların kitaba olan tələblərinin hərtərəfli ödənilməsi və mütaliəyə rəhbərlik məsələsi həmişə diqqət mərkəzindədir. Kitabxana yalnız mütəxəssisin hansı kitablarla maraqlandığını öyrənməklə kifayətlənmir, sorğularının xarakterini müəyyənləşdirən əsas səbəb və amilləri də öyrənir.

Müasir dövrdə elmin sürətlə inkişafı ilə əlaqədar gedən inteqrasiya və diferensiasiya nəticəsində bir çox mütəxəssislər eyni kitabdan, eyni mənbədən istifadə etməli olurlar. Lakin bu o demək deyil ki, hamı eyni kitabdan istifadə etdiyi üçün sorğuları da eyni olmalıdır. Oxucular eyni kitabdan müxtəlif məqsədlər üçün istifadə etdiklərinə görə onların sorğuları da müxtəlif və çoxcəhətlidir. Buna görə də Tovuz rayon MKS-də mütəxəssis sorğularının müxtəlifliyə malik olan xüsusiyyətləri ayrı-ayrı qruplar üzrə öyrənilir. Buna uyğun olaraq, kitabxananın xidmət etdiyi mütəxəssis oxucu kontingenti aşağıdakı qruplara ayrılmışdır.

a) Mühəndis və texniki işçilər

b) Kənd təsərrüfatı mütəxəssisləri

c) Həmkarlar və tibb işçiləri

ç) Müəllimlər.

Ümumiyyətlə, kitabxanalarda mütəxəssislərə və digər oxucu qruplarına verilən arayışların aşağıdakı tipləri vardır.

1. Mövzu arayışı
2. Biblioqrafik arayış
3. Kitabxana arayışı
4. Faktik arayış



Tovuz rayon MKS-də mütəxəssislərə verilən arayışların bu tiplərindən istifadə olunur. Kitabxananın əməkdaşları oxucuların sorğularına düzgün və dolğun cavab vermək üçün arayışlardan geniş istifadə edilir. İşini öyrəndiyimiz MKS-də mütəxəssislərə verilən arayışlar şifahi və yazılı şəkildə yerinə yetirilir. Kitabxana şifahi arayışları operativ olaraq dərhal, oxucunun bilavasitə iştirakı ilə verir. Bəzən isə şifahi sorğular telefon vasitəsilə verilir.

Tovuz rayon MKS-də fermer mütəxəssislərin sorğularına verilən arayış tiplərindən biri mövzu arayışıdır. İşini öyrəndiyimiz kitabxana sistemində hər gün onlarca mütəxəssis müxtəlif məzmunlu sorğularla kitabxanaya müraciət edirlər. Kitabxana bu sorğuları ödəmək üçün müxtəlif biblioqrafik mənbələrdən, məlumat-biblioqrafiya fondundan, kataloq və kartotekalardan səmərəli şəkildə istifadə edir.

Yeni təsərrüfat foramalarının yaranması və inkişafı ilə əlaqədar olaraq kitabxanaya daxil olan kənd təsərrüfatı ilə bağlı mövzu sorğularının sayı ildən-ilə artır. Belə ki, 1997-ci ildə 110, 1998-ci ildə 122, 1999-cu ildə isə 137-ə yaxın mövzu arayışı verilmişdir (12).

Tovuz rayon MKS-də mütəxəssislərə kitabxana xidmətinin təşkilində biblioqrafik arayışların digər tiplərindən də geniş şəkildə istifadə etməyə çalışırlar. Fermer mütəxəssislərə göstərilən kitabxana xidmətini yüksək səviyyədə təşkil etmək məqsədilə sorğu-biblioqrafiya xidməti ilə yanaşı, məlumat işinin uğurla həyata keçirilməsinə də səy göstərilir.

Rayon MKS-də məlumat xidmətinin mühüm formalarından biri olan məlumat bülletenlərini buraxmaq üçün heç bir imkan yoxdur. Buna görə də kitabxana fermer mütəxəssislərə məlumat xidmətində ədəbiyyat siyahılarından geniş istifadə edir. Bu siyahılarda kitabxanaya daxil olan ədəbiyyat bilik sahələri üzrə qruplaşdırılır, kitabxananın görkəmli yerindən asılır. Bəzən kitabxana bu siyahının üzünü çıxarıb ayrı-ayrı fermer təsərrüfatının, idarə və müəssisələrin ünvanına göndərir.

Mütəxəssislərə məlumat işinin təşkilində əyani şəkildə məlumat verilməsi də xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə kitabxanada təşkil olunmuş mövzu kartotekaları, kitab sərgiləri, baxışlar və s. əyani məlumat vasitələrindəndir. Kitabxanada vaxtaşırı təşkil olunan yeni ədəbiyyata baxış müxtəlif bilik sahələri üzrə qruplaşdırılan yeni ədəbiyyatla oxucuları əyani şəkildə tanış edir. Mütəxəssis oxucular belə baxışlara gələrək onları maraqlandıran mövzular üzrə yeni ədəbiyyatı sistemli qaydada izləmək imkanı qazanır. Tovuz rayon MKS-də yeni ədəbiyyata baxış əvvəllər ildə 2-3 dəfə keçirilirdisə, bazar iqtisadiyyatına keçdikdən sonra ildə bir dəfə ancaq keçirilir. Çünki kitabxana əvvəlki miqdarda yeni kitab almaq imkanına malik deyil. Baxışa müxtəlif

sahələrdə çalışan mütəxəssislər dəvət olunurlar. Onlar maraqlandıqları kitabı özləri üçün qeyd edir və sonra onu mütaliə üçün alırlar.

Tovuz rayon MKS-də qrup halında məlumatdan da istifadə olunur. Qrup halında məlumat fermer mütəxəssisləri oxucu qruplarına, onları maraqlandıran mövzular üzrə ən yeni seçmə ədəbiyyatdan istifadə etmək imkanı verir. Məsələn, rayon mərkəzi kitabxanasında bu məqsədlə mütəxəssislərə-mühəndislərə, kənd təsərrüfatı işçilərinə, aqronomlara, zootexniklərə, mexanizatorlara, müəllimlərə və başqa mütəxəssis oxucu qruplarına qrup halında məlumat xidməti göstərilir.

Kitabxana mütəxəssislərə məlumat xidmətində konkret mövzunun təbliğini əsas götürür. Ədəbiyyat siyahılarının düzgün tərtib olunmasını təmin etmək məqsədi ilə kitabxana xidmət göstərdiyi kollektivlərlə sıx əlaqə saxlayır.

Məlumdur ki, mərkəzləşdirmə şəraitində mütəxəssislərə kitabxana xidmətlərinin təşkilində texniki kitabxanalarda və məlumat orqanlarında həyata keçirilən «İnformasiya günü», «Mütəxəssis günü», «Biblioqrafiya günü» və s. istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Lakin rayon MKS-də mütəxəssislərə məlumat xidmətinin bu səmərəli formasından çox az istifadə edilir.

Tovuz rayon MKS-də mütəxəssislərə kitabxana xidmətinin xüsusiyyətindən danışarkən, səyyar xidmət şöbəsinin fəaliyyətini də qeyd etmək lazımdır. Rayon ərazisində fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatı mütəxəssislərinin çoxusu mərkəzi kitabxana filialları ilə daimi əlaqə saxlaya bilmirlər. Belə ki, fermer təsərrüfatı mütxəssisləri-nin əsas hissəsi çox zaman təssərüfatlarda olur. Buna görə də mərkəzi kitabxana səyyar kitabxana xidmətlərindən son illər maddi çətinlik ucbatından demək olar ki, çox cüzi şəkildə isitfadə edir.

Bunlar aydın şəkildə göstərir ki, Tovuz rayon MKS-də mütəxəssislərə kitabxana xidmətinin təşkili sahəsində görülən işlər heç də qənaətbəxş deyildir. Bir cəhəti də qeyd etmək lazımdır ki, MKS-də məlumat-biblioqrafiya xidmətinin təşkili xüsusiyyətləri ixtisas ədəbiyyatında, demək olar ki, işıqlandırılmışdır. Buna görə də mərkəzləşmə şəraitində mütəxəssis oxuculara məlumat-biblioqrafiya və məlumat xidmətinin təşkili, onun nəzəri əsasları haqqında məlumat vermək və bununla da Tovuz rayon MKS-in mütəxəssislərə, o cümlədən fermer mütəxəssislərə kitabxana xidmətinin təşkili sahəsində qarşısında duran vəzifələri göstərmək məqsədəuyğun olar.

Məlumdur ki, mütəxəssis oxuculara məlumat-biblioqrafiya xidməti kütləvi kitabxanaların fəaliyyətinin ənənəvi istiqamətlərindən biridir. Mərkəzləşdirmə bu proseslərin təkmilləşdirilməsi üçün əlverişli



şərait yaratmışdır. MKS-də kitabxana biblioqrafiya aparatları, o cümlədən də məlumat-biblioqrafiya aparatı birləşir. Bir çox mərkəzi kitabxanalarda məlumat-biblioqrafiya işi birləşdirilir.

Qeyd etmək azımdır ki, mərkəzləşdirmə şəraitində mütəxəssislərə o cümlədən kəndli (fermer) təsərrüfatı mütəxəssislərinə, məlumat xidmətinə nisbətən məlumat-biblioqrafiya xidmətini daha ətraflı şəkildə işlənilmişdir. Lakin rayon MKS-də fermer mütəxəssislərə məlumat xidmətinin təşkili haqqında bunu demək olmaz. Buna görə də mərkəzləşmə şəraitində mütəxəssislərə məlumat xidmətinin və onun nəzəri əsasları haqqında daha ətraflı məlumat vermək məqsədəuyğun olar.

Məlumat fəaliyyətini kütləvi kitabxanaların işində ən mühüm istiqamətlərindən biri kimi nəzərdən keçirərkən, MKS-in qarşısında duran vəzifələri aşağıdakı kimi göstərmək olar. Bu, əhalinin politexnik, peşə, istehsalat, estetik və digər məlumat tələbatlarını ödəməkdən ibarətdir (6, s.7-30). Bununla belə MKS-nin məlumat işinin elə qurmaq lazımdır ki, o, bütün oxucu kateqoriyalarının hərtərəfli maraq və sorğularını ödəyə bilsin.

Mərkəzləşmiş sistemin məlumat fəaliyyəti praktik təkmilləşmələr tələb edir. MKS şəraitində məlumat xidmətinin yüksəldilməsi, onların işinə mütəxəssislərin kompleks məlumatlandırılması sisteminin tətbiq edilməsi vasitəsilə həyata keçirilə bilər. Məlumata olan maraq və tələblərin ödənilməsi yalnız mərkəzləşmiş sistemin oxucuları haqqında deyil, həm də öz kitabxanaları olmayan istehsalat kollektivləri haqqında məlumatın əldə edilməsinə şərait yaradır.

MKS təcrübəsində məlumat xidmətinin bütün forma və metodları kompleksi: yeni daxil olan ədəbiyyat bülletenləri, daimi fəaliyyət göstərən kitab və dövri nəşrlər sərgiləri, tematik sərgilər, məlumat günləri, mütəxəssis günləri, fərdi və qrup məlumatı istifadə olunmalıdır.

Respublikamızda MKS-in iş təcrübəsinin öyrənilməsi göstərir ki, mərkəzləşmə şəraitində mütəxəssislərə məlumat xidməti işində tematik siyahıların tərtib olunmasına xüsusi fikir verilir. Bunların 3 tipini ayırmaq olar:

-yazılı biblioqrafik arayışlar kimi hazırlanan siyahılar;
-ayrı-ayrı mütəxəssislərin profili üzrə tematik siyahılar;
-diyarşünaslıq xarakterli siyahılar.

Qeyd edək ki, bu siyahıların hər birinin hazırlanmasının müəyyən spesifik xüsusiyyətləri və mürəkkəblikləri vardır.

Kənd təsərrüfatına aid ədəbiyyatın təbliğində Tovuz rayon MKS-də və filiallarda ən çox sərgilərdən istifadə olunur. Bu kitabxanada 1997-1999-cu illər arasında 10-a yaxın sərgi təşkil edilmişdir.

Sərginin əhəmiyyəti yalnız oxucunu cəlb etmək deyildir, həmçinin kitabı sərgidən götürüb, onun illüstrasiyaları, sərlövhəaltı məlumatı, giriş və ayrı-ayrı fəsilləri ilə tanışlıq çox vaxt oxucu marağını istiqamətləndirir. Nümayiş olunan kitablar bəzən elm sahələri üzrə qruplaşdırılır. Bu cür sərgilər Tovuz rayon MKS-də bir-iki rəf daxilində tərtib edilir. Bu kitabxananın abonement şöbəsində «Kənd təsərrüfatına aid yeni ədəbiyyat» sərigisi var. Kitabxananın əməkdaşları yeni ədəbiyyatla yanaşı, kənd təsərrüfatına aid yeni alınmış jurnalları da daxil edirlər.

Tovuz rayon mərkəzi kitabxanasında və onun filiallarında hər bir sərgi təşkil olunduqda kitabdan əlavə kənd təsərrüfatına aid dövri nəşrlər, ixtiraçı və səmərələşdiricilər üçün mövzular, kənd təsərrüfatına dair biblioqrafik göstəricilər də verilir.

Mövzu sərgilərinin vəzifəsi yalnız mövzuya dair ən qiymətli kitabları oxucular üçün nümayiş etdirmək deyil, həmçinin müəyyən məsələyə dair oxucuya dərin və sistemli öyrənmə imkanı verməkdir. Ona görə də sərgidə nümayiş etdirilən hər bir kitab mövzusuna görə ondan əvvəl gələn kitaba uyğun olmalıdır. Mövzu sərgisinə Tovuz rayon MKS-də geniş yer verilir. Kitabxananın əməkdaşları rayonun əsas profilini nəzərə alaraq onlara aid ədəbiyyatı təbliğ etməkdən ötrü aşağıdakı mövzularda kənd təsərrüfatına aid sərgilər tərtib etmişlər:

1. Kənd təsərrüfatı və bazar iqtisadiyyatı
2. Kəndli (fermer) təsərrüfatı ərzaq bolluğunun təminatçısıdır.
3. Heyvandarlıqda konveyer sistemi və s.

Nəticədə qeyd etmək olar ki, dövlət kütləvi kitabxanalarının mərkəzləşdirilməsi fermer mütəxəssislərə kitabxana xidmətinin həyata keçirilməsi sahəsində də əsaslı keyfiyyət dəyişiklikləri yaradılmışdır. Mütəxəssislərə kitabxana xidmətinin səviyyəsi, ilk növbədə kənd təsərrüfatı ədəbiyyatının nə dərəcədə komplektləşdirilməsi onun təbliği səviyyəsindən asılıdır. Bu zaman rayonun təsərrüfat profili, MKS-in oxucu tərkibi, kitabxananın mütəxəssis oxucularının peşə xüsusiyyətləri və miqdarı nəzərə alınmalı və kənd təsərrüfatı ədəbiyyatını komplektləşdirərkən məhz bu faktlara əsaslanmalıdır.

## ƏDƏBİYYAT

*1. Aqrar-Sənaye Komitəsinin müəssisə və təşkilatlarda mülkiyyətinin dövlətsizləşdirilməsinə və özəlləşdirilməsinə dairt tövsiyələr.-B ., 1992.-35 s.*

*2. Azərbaycan şəhər və rayonlarının qısa telefon məlumat kitabı.-B., 1993.-247 s.*



*3. Библиография. Общий курс.-М., 1981.-с.581.*

*4. Ким М. Информационная работа массовой библиотеки в современных условиях. –В. кн. В помощь массовым библиотекам.-М., 1975.-85 с.*

*5. Kolxoz və sovxozların səhmdar cəmiyyətə çevrilməsinin təşkilinə dair tövsiyələr.-B., 1996.-32 s.*

*6. Михеева Л.Н. О некоторых вопросах информационной работы городских УБС в помощь производству.- В.кн.: Массовая библиотека и научно технических програм. –М., 1976, вып. 2.-С. 7.-30.*

*7. Niftullayev V. Kənd təsərrüfatının iqtisadiyyatı.-B.: Elm, 1996.-359 s.*

*8. Prezident imzası - Prezident qayğısı .-B., 1998.-493 s.*

*9. Tovuz rayon statistika idarəsinin 1999-cu il məlumatı.*

*10. «Xalq qəzeti».- 1999. - 26 oktyabr.*

*11. Xələfov A.A. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsinin bəzi yekunları və təkmilləşdirilməsi məsələləri // Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri: Elmi əsərlərin tematik məcmuəsi.-B., 1986.-S. 9.*

*12. Tovuz rayon MKS-in 1997-1999-cu illər üzrə hesabatları.*

*Акиф Джафаров*

## ОСОБЕННОСТИ ОРГАНИЗАЙИИ БИБЛИОТЕЧНОГО ОБСЛУЖИВАНИЯ СЕЛЬСКИХ ФЕРМЕРСКИХ ХОЗЯЙСТВ

### *РЕЗЮМЕ*

*Статья посвящена современным проблемам организации специалистов и других работников деятельность которых связана с фермерскими хозяйствами сельских районов республики.*

*Особое внимание в статье уделено проблемам комплектования фондов, специфике организации обслуживания различных групп специалистов сельского хозяйства в условиях рыночной экономики.*

Sevda XƏLƏFOVA

*Kitabxana fondu və kataloqların*
*təşkili kafedrasının müəllimi*

# 1970 – 1975-Cİ İLLƏRDƏ AZƏRBAYCANDA DÖVLƏT KÜTLƏVİ KİTABXANALAR ŞƏBƏKƏSİNİN İNKİŞAFI

1969-cu ildən başlayaraq Azərbaycanın son otuz ildən artıq bir dövrünü əhatə edən tarixi taleyi Heydər Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində xalqımızın ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi həyatının bütün sahələrində əldə edilmiş nailiyyətlər onun fəaliyyətinin nəticəsidir. Keçən əsrin 70-ci illərinin əvvəllərində iqtisadiyyatımızın dinamik inkişafı ilə yanaşı elm və mədəniyyətimiz də böyük inkişaf yoluna qədəm qoymuşdu. Bu inkişafı elm, mədəniyyət və təhsilin mühüm göstəricilərindən biri olan kitabxana işində də görmək olardı.

Əməkdar elm xadimi, professor Abuzər Xələfov haqlı olaraq qeyd edir ki, «Kitabxana fəaliyyət göstərdiyi məkan daxilində sosial vasitə kimi həmişə sosial mühitdən asılı olaraq formalaşmışdır. Kitabxanalar tarixi inkişaf prosesində öz hamisi olan cəmiyyətə xidmət etmişlər, onun tələbatını ödəmiş, sifarişini yerinə yetirmişdir. Beləliklə, kitabxanaların yaranması, formalaşması, inkişafı, fəaliyyəti və cəmiyyətdə tutduğu mövqe bilavasitə onu yaradan cəmiyyətlə bağlıdır» (1, s. 9).

Bu baxımdan 1970-1975-ci illərdə respublikada kitabxana işinin ümumi inkişafı ölkədə gedən sosail-iqtisadi proses ərlə bağlı idi.

Azərbaycanda kitabxana işinin tarixindən məlumdur ki, ölkəmizdə kitabxana sisteminin yaradılması əsasən XX əsrin 20-ci illərindən başlamış və sovet sosialist ideologiyasının tələblərinə uyğunlaşmış bir sistem kimi formalaşmışdı. 1970-ci ildə bu sistem özündə 7551 kitabxananı birləşdirdi. Bu kitabxanalarda cəmləşdirilmiş kitab, dövri nəşrlər və digər informasiya daşıyıcılarının ümumi sayı 54 mln.300 min nüsxə idi (2, s. 298). 1970-ci ilin sonunda respublikanın ümumi kitabxana sistemində 2513 dövlət kütləvi kitabxanası fəaliyyət göstərirdi ki, bu kitabxanaların ümumi fondu 29 mln. 217 min nüsxədən ibarət idi. Bununla yanaşı həmin il respublika kitabxana sistemində ümumi fondu 17



mln. çap vahidindən ibarət 3749 təhsil müəssisələri kitabxanaları və 21 mln. kitab fonduna malik 879 digər nazirlik və müəssisələrin, həmçinin ictimai təşkilatların, elmi-təşkilatların elmi, texniki və xüsusi kitabxanaları fəaliyyət göstərirdi (1, s. 273).

Keçən əsrin 70-ci illərində Azərbaycanda formalaşmış çoxsahəli kitabxana sisteminin aparıcı tərkib hissəsini dövlət kütləvi kitabxanalar şəbəkəsi təşkil edirdi. Respublika Mədəniyyət Nazirliyi tərəfindən idarə edilən bu kitabxana şəbəkəsinə 1970-ci ildə 60 rayon mərkəzi kitabxanası, 155 şəhər kitabxanası, 2187 müstəqil kənd kitabxanası, 94 müstəqil uşaq kitabxanası, 14 klub müəssisələri nəzdindəki kitabxanalar daxil idi (2, s. 298). 1970-ci ildə Azərbaycan Respublikasının əhalisinin hər 100 nəfərinə 440 kütləvi kitabxana kitabı düşürdü (3, s. 30).

Ölkədə dövlət kütləvi kitabxanalar şəbəkəsinin tarixi təcrübəsinə və müvafiq nəzəri müddəalara əsaslanaraq bu kitabxana şəbəkəsinin tədqiqat dövründə həyata keçirdiyi sosial funksiyalarının mahiyyətini belə xarakterizə etmək olar:

- maksimum dərəcədə əhaliyə yaxınlaşdırılmış, əməli olaraq bütün xalq təbəqələrinin asanlıqla istifadə etdiyi ümumaçıq olması;
- geniş oxucu kütlələrinin siyasi və elmi dünyagörüşü, politexnik və bədii-estetik biliklərə malik olması üçün zəruri olan universal kitab fonduna malik olması;
- kitab fondunun formalaşmasında əhalinin ümumtəhsil mütaliəsinin tələblərinin nəzərə alınması;
- kitabxananın xidmət etdiyi ərazinin sakinlərinin (oxucuların) peşə səviyyəsinin yüksəldilməsi üçün zəruri ədəbiyyatın fondda cəmləşdirilməsi;
- kitabxananın yerləşdiyi ərazinin təsərrüfat mədəni və demoqrafik xüsusiyyətlərini özündə əks etdirən çap əsərlərindən ibarət fonda malik olması;
- mütəxəssislərin müvafiq ixtisaslarla əlaqədar yeni problemlərə dair operativ və dolğun informasiyanı əldə etməsi məqsədilə biblioqrafik informasiya bazası və xidmətinin təşkil edilməsi;
- oxucuların ahəngdar və hərtərəfli inkişafı, onların mütaliə mədəniyyətinin formalaşmasına xidmət edən əyani və şifahi təbliğatın bütün forma və metodlardan, həmçinin texnik vasitələr və müasir informasiya texnologiyasından istifadə edilməsi;
- elmi işçilər, mütəxəssis oxucularla elmi-sahəvi və xüsusi kitabxanalar arasında fəal vasitəçi funksiyalarının yerinə yetirilməsi;

Beləliklə, dövlət kütləvi kitabxanalar cəmiyyətdə əhalinin harmonik inkişafı, peşə, təhsil və ümummədəni səviyyəsinin yüksəlməsi

məqsədilə çap əsərləri və müxtəlif informasiya daşıyıcılarından ictimai istifadəni məqsədyönlü şəkildə təşkil edən sosial institut funksiyalarını yerinə yetirən mədəni-maarif və informasiya müəssisələri kimi fəaliyyət göstərirdilər. Kütləvi kitabxanaların ən mühüm tipoloji əlamətlərindən biri, demək olar ki, birincisi onların sənəd fondlarının universal məzmunlu olmasıdır. Onu da qeyd etməliyik ki, «universal» ifadəsi bu müstəvidə müəyyən qədər şərtilik daşıyır. Yəni kütləvi kitabxananın fondunun universallığı heç də onların bütün bilik sahələri üzrə çap məhsuluna eyni dərəcədə komplektləşdirilməsini nəzərdə tutmur.

Ümumi kütləvi kitabxananın kitab fondu sözsüz ki, onun xidmət etdiyi ərazidə təsərrüfat və mədəniyyətin inkişafının səviyyəsi, həmin regionun əhalisinin milli tərkibi, nəhayət, orada fəaliyyət göstərən ixtisaslaşdırılmış kitabxanaların fondunun məzmununa uyğun olaraq müəyyənləşdirilir, profilləşdirilir, fondun tematik-tipoloji tərkibinin nisbəti dəqiqləşdirilir. Bu baxımdan 1970-1975-ci illərdə respublika dövlət kütləvi kitabxanaların fondu 4 mln. 100 min nüsxə artaraq 19 mln. 625 min nüsxədən 23 mln. 180 min nüsxəyə çatmışdır ki, bu da ümumi fondun hər il orta hesabla 800 min nüsxədən artıq inkişaf etməsini göstərirdi. Rəsmi statistik göstəricilər sübut edir ki, həmin dövrdə şəhər və kənd əhalisinə xidmət edən kitabxanaların fondu əsasən bərabər surətdə, yəni hərəsi təqribən 2 mln. nüsxəyə yaxın artmışdır. Nəticədə əhalinin hər 100 nəfərinə 1970-ci ildə 487 kütləvi kitabxana kitabı düşdüyü halda, 1975-ci ildə bu rəqəm 520 kitab təşkil edirdi.

Eyni zamanda məlumdur ki, hər bir kitabxana fondunun mühüm xarakteristikası yalnız fondun kəmiyyət göstəriciləri ilə müəyyənləşdirilə bilməz. Kütləvi kitabxananın fondunun optimal formalaşması və istifadəsini şərtləndirən ən mühüm amillərdən biri onun sahəvi strukturu və sahəvi fondların məqsədyönlü nisbətidir.

Dövlət kütləvi kitabxanalar fondunun uçot və hesabat materiallarının təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, bu dövrdə kitabxanalarda formalaşmış sənəd fondunun sahəvi tərkibi belə idi:

1. Sosial-iqtisadi və siyasi ədəbiyyat – 20-22 %;
2. Kənd təsərrüfatı və texniki ədəbiyyat – 3-5 %;
3. Elmi-təbii ədəbiyyat – 8;
4. Bədii ədəbiyyat və incəsənət nəşrləri – 60-65 %.

Kütləvi kitabxanaların fondlarından ictimai-siyasi ədəbiyyat, xüsusən marksizm-leninizm banilərinin əsərlərinin köhnəlmiş nəşrlərinin çıxarılması demək olar ki, qadağan idi. Bu səbəbdən kitab fondlarında oxucular tərəfindən zəif istifadə edilən, eyni zamanda fondların dövriyyə səviyyəsinə mənfi təsir göstərən amillər getdikcə güclənirdi. Ölkədə



hələ depozitar fondların olmaması, həmçinin kitabxanalararası kitab mübadiləsinin bir sıra əngəllərə üzləşməsi kütləvi kitabxanalarda informasiya sərvətlərinin məqsədyönlü formalaşması və səmərəli istifadəsinə mənfi təsir göstərirdi.

Bütün bunlara baxmayaraq dövlət kütləvi kitabxana şəbəkəsinin informasiya ehtiyatları əsasən optimal sürətdə inkişaf edirdi. Ümumilikdə kitab fondu bütün kəmiyyət göstəriciləri üzrə əsasən dinamik inkişaf edərək respublikanın sosial-iqtisadi və mədəni inkişafı, bu zəngin informasiya sərvətlərindən əhali tərəfindən səmərəli istifadə edilməsi üçün geniş imkanlar yaratmışdı. Bu isə əhalinin bütün təbəqələrinin kütləvi kitabxanalardan müntəzəm istifadə etməsi, müxtəlif oxucu qruplarının kitaba marağı və tələbatını təmin etmək üçün etibarlı zəmin idi.

İnkaredilməz faktdır ki, tədqiqat dövründə əhalisi 6 milyon nəfərə malik olan Azərbaycan Respublikasında zəngin kitab fonduna malik bu geniş dövlət kütləvi kitabxana şəbəkəsi artıq bütün xalqa bilik və informasiya verən, onların mütaliə mədəniyyətini formalaşdırmaqda mühüm vasitə olan ümumaçıq mədəni-maarif təhsil və tərbiyə müəssisələrinə çevrilmişdilər. Dövlət tərəfindən idarə olunan bu kitabxana şəbəkəsinin fəaliyyətinin əsas prinsipini onun bütün əhali üçün ümumaçıq olması idi. Bu prinsipi şərtləndirən əsas amillər aşağıdakılar idi:

- Kitabxanalardan istifadə edilməsinin pulsuz olması. Məlumdur ki, dövlət kütləvi kitabxanaları yarandıqları ilk dövrlərdən bütün oxuculara həmişə pulsuz xidmət göstərmişdir. Olduqca müsbət haldır ki, müasir dövrdə bazar iqtisadiyyat şəraitində də, əhalinin vəsaitini müəyyən qədər kitabxanaları cəlb etmək zərurəti meydana gəldiyi bir şəraitdə də respublikamızın dövlət kütləvi kitabxanaları «pulsuz xidmət» prinsipini qoruyub saxlaya bilmiş və buna dövlət tərəfindən təminat verilmişdir;
- Kitabxanaların əhalinin yaşadığı yerlərə yaxın yerləşdirilməsi. Bu prinsip 70-ci illərdə Azərbaycanda dövlət kütləvi kitabxanalarının sayının dinamik inkişaf etdirilməsi və məqsədyönlü yerləşdirilməsi yolu ilə həyata keçirilirdi. Bu dövrdə respublikada 516 yeni kütləvi kitabxana açılmış, və bunlar əsasən stasionar kitabxanası olmayan kənd, qəsəbə və digər yaşayış məntəqəsində yerləşdirilmişdir.
- Əhaliyə kitabxana xidməti və ədəbiyyat təbliğində geniş, rəngarəng və çevik təbliğat formalarından, o cümlədən yazılı və şifahi təbliğat üsullarından istifadə edilməsi. Bu işdə Sovet rejiminin ideoloji dəyərlərinin üstünlük təşkil etməsinə baxmayaraq, kütləvi kitabxanaların fəaliyyət arsenalında olan xidmət üsulları hər bir oxucunun elmi dünyagörüşünün, peşə səviyyəsinin və ümumtəhsil, ümummədəni səviyyəsinin, onun mütaliə vərdişlərinin inkişafına səmərəli təsir göstərirdi. Bu

məqsədlə dövlət kütləvi kitabxanaları hər bir oxucuya evdə kitabdan istifadə etmək, qiraət salonlarında işləmək, biblioqrafik informasiya almaq, kitabxanalararası və qiyabi abonement vasitəsilə digər kitabxanaların fondundan istifadə etmək, kitab təbliğinə xidmət edən mədəni-kütləvi tədbirlərdə iştirak etmək imkanları yaratmışdı. Bütün bunlar ölkədə dövlət kütləvi kitabxana şəbəkəsinin fəaliyyətinin ali ümumaçıqlıq prinsipinin həyata keçirilməsini təmin edən amillər idi.

Məlum olduğu ki, dövlət kütləvi kitabxana şəbəkəsinin ümumaçıq olmasının səmərəliliyi son nəticədə əhalinin bu kitabxanalardan istifadəyə nə dərəcədə cəlb edilməsi və onlara göstərilən xidmətin keyfiyyət səviyyəsi ilə ölçülür. Bu haqda professor A.Xələfov yazır: «Oxuculara xidmətin təşkili kitabxana işinin inkişafının bütün mərhələlərində öz təbiəti və struktur quruluşu etibarilə mürəkkəb, çoxcəhətli və geniş məzmunlu anlayış olub, həmişə kitabxananın əsas vəzifəsini və bütövlükdə kitabxana işinin inkişafının bütün mərhələlərində öz təbiəti və struktur quruluşu etibarilə mürəkkəb, çoxcəhətli və geniş məzmunlu anlayış olub, həmişə kitabxananın əsas vəzifəsini və bütövlükdə kitabxana işinin mahiyyətini ifadə etmişdir. Cəmiyyətdə kitabxanaların rolu və əhəmiyyəti həmişə oxuculara kitabxana xidmətinin təşkili səviyyəsi, onun keyfiyyəti və əhatə dairəsi ilə ölçülmüşdür» (1, s. 179).

Təsadüfi deyildi ki, bu dövrdə respublika əhalisinə kitabxana xidmətinin təşkilində rayon, kənd və şəhər dövlət kütləvi kitabxanaları aparıcı yer tuturdular. Belə ki, 1970-ci ildə Azərbaycanda əhaliyə 60 rayon, 155 şəhər, 2187 müstəqil kənd, 91 müstəqil uşaq və 41 mədəniyyət evləri nəzdindəki dövlət kütləvi kitabxanalar şəbəkəsi xidmət göstərirdi (2, s. 320). 5 il ərzində, yəni 1975-ci ilin əvvəlinə olan məLumata görə Azərbaycanda artıq 61 rayon, 205 şəhər, 2756 müstəqil kənd, 98 müstəqil uşaq kitabxanası var idi ki, bunlardan 1970-ci ildə 1 mln. 578 min 100 nəfər oxucu istifadə etdiyi halda, 1975-ci ildə artıq 1 mln.787 min 200 oxucu istifadə edirdi (3, s. 323).

Beləliklə, 5 il ərzində dövlət kütləvi kitabxanalardan istifadə edən oxucuların sayı 209 min 100 nəfər artmışdı. Bu artım oxucular tərəfindən istifadə edilən ədəbiyyatın da inkişafına səbəb olmuşdu. Belə ki, həmin kitabxanalar tərəfindən oxuculara verilən çap əsərlərinin ümumi həcmi 1970-ci ildə 42 mln. 980 min nüsxədən, 1975-ci ildə 44 mln. 663 min nüsxəyə çatmışdı (4, s. 298).

Respublikada bu kitabxanaların sayı 2187-dən 2658-ya çatmışdı (5, s. 302). 1975-ci ildə ümumi kitab fondu 12 mln. nüsxədən artıq olan müstəqil kənd dövlət kütləvi kitabxanaları kolxozçulara və sovxoz fəhlələrinə, kənd təsərrüfatı mütəxəssislərinə kitabxana xidməti sisteminin



də əsas yer tutmuşdu. Bu dövrdə dövlət kənd kitabxanaları nəinki kənd təsərrüfatı sahəsində çalışanlar üçün, eyni zamanda kənd yerlərində çalışan ziyalıların böyük təbəqəsi üçün (müəllimlər, həkimlər, aqronomlar və s.) yeganə mədəni-maarif və informasiya müəssisəsi idi. Bu kitabxanalar o dövrdə xalq deputatları sovetlərinin rayon icraiyyə komitələrinin qərarı ilə kənd sovetləri nəzdində yaradıldı. O dövrdə qüvvədə olan əsasnaməyə görə müstəqil dövlət kənd kitabxanası min cilddən az olmayan kitab fondu, ayrıca bina və lazımi avadanlıq olduqda açılırdı. Onlar bir çox hallarda xidmət etdikləri ərazilərin kənd təsərrüfatı istehsalının xüsusiyyətlərinə uyğun olaraq oxuculara bilavasitə briqadalarda, fermalarda, otlaqlarda, sovxoz bölmələrində xidmət etmək sahəsində müsbət təcrübə toplamışdılar. Bu məqsədlə 70-ci illərdə respublikanın 600-dək çox yaşayış məntəqəsində vahid plan üzrə yerləşdirilmiş səyyar kitabxanalar və kitab verilişi məntəqələri fəaliyyət göstərirdi.

Qabaqcıl kənd kitabxanaları bütün kənd əhalisini öz oxucuları sırasına cəlb etmək məqsədilə səmərəli iş aparırdılar. Belə kitabxanaLardan Salyan rayonu Azbatan kənd kitabxanası, Oğuz rayonu Dəhnə kənd kitabxanası, İsmayıllı rayonu İvanovka kənd kitabxanası, Naxçıvan MR Cəhri kənd kitabxanası, Culfa rayonu Bəhməniyar kənd kitabxanası, Ordubad rayonu Düyulun kənd kitabxanası və s. kitabxanalar xüsusi fərqlənirdilər (1, s. 28).

Əhaliyə kitabla xidmətin məzmununa və miqyasına görə mərkəzi rayon kitabxanaları universal profili digər kənd kitabxanaları ilə müqayisədə öz rayonunda ən iri kütləvi dövlət kitabxanaları olub müvafiq rayon əhalisinin bütün təbəqələrinə xidmət edirdilər. Bu kitabxanaların fəaliyyəti heç də rayon əhalisinin ümummədəni səviyyəsinin yüksəlməsinə xidmət etməklə məhdudlaşdırılmırdı. Onlar eyni zamanda hər bir rayonda kənd təsərrüfatı istehsalını inkişaf etdirmək məqsədilə kitab və informasiyadan istifadə edilməsini təşkil edən mərkəzi kitabxana-informasiya müəssisələri rolunda çıxış edirdilər.

Tədqiqat dövründə mərkəzi rayon kitabxanalarının səciyyəvi xüsusiyyətlərindən birini diyarşünaslıq işləri təşkil edirdi. Diyarşünaslıq işi yerli diyarın (rayonun, şəhərin, kəndin və s.) onun məhsuldar qüvvələrinin öyrənilməsinə, təbii ehtiyatlarının aşkara çıxarılmasına kömək edir, diyarın tarixi, ictimai və mədəni həyatı, iqtisadiyyatı, görkəmli şəxsləri haqqında müxtəlif sənədlərin toplanması və təbliğində rayon kitabxanalarının fəaliyyətinin mühüm tərkib hissəsinə çevrilmişdi. Bu məqsədlə respublikanın bütün mərkəzi rayon kitabxanalarında əlifba və sistemli kataloqlarla yanaşı əsaslı diyarşünaslıq kartotekaları yaradılmış, diyarşünaslıq mövzusunda sərgilər, ədəbi-bədii gecələr, diyarın gör-

kəmli şəxsiyyətləri ilə görüşlər, diyarşünaslıq ədəbiyyatının icmalları təşkil edilirdi. Bu illərdə Ağdam, Şəki, Zərdab, Qəbələ, Şamaxı, Füzuli, Şəmkir, Sabirabad, Zəngilan, Ordubad, Qax, Mirbəşir, Yardımlı, Qazax və s. rayonların mərkəzi kitabxanalarında diyarşünaslıq mövzusunda orta hesabla hər il 14-16 kütləvi tədbir təşkil edilmişdi. (1, s. 28).

1970-1975-ci illərdə respublikanın mərkəzi rayon kitabxanalarından istifadə edən oxucuların ümumi sayı 1970-ci ildə 141 min 500 nəfərdən, 1975-ci ildə 156 min 800 nəfərə çatmışdı (2, s. 301). Bu dövrdə mərkəzi rayon kitabxanalarından istifadə edən mütəxəssis oxucuların xüsusi çəkisi ildən-ilə artaraq 1970-ci ildə 14 faizdən, 1975-ci ildə 22 faizə çatmışdır (3, s. 301). Rayon kitabxanalarından istifadə edən oxuculara verilmiş ədəbiyyatın ümumi həcmi 1970-ci ildə 4 mln. 657 min nüsxədən, 1975-ci ildə 4 mln. 789 min nüsxəyə qalxmışdı (4, s. 301).

70-ci illərin birinci yarısında dövlət kütləvi kitabxana şəbəkəsi Azərbaycanın şəhərləri və fəhlə qəsəbələrində yaşayan çox böyük əhali kütləsinə xidmət göstərirdi.

Respublikanın iri şəhərlərində, xüsusən Bakı və Sumqayıtda kitabxana şəbəkəsinin nizama salınması istiqamətində xeyli iş görülmüşdü. Həmin şəhərlərdə iri miqyaslı yaşayış massivlərinin yaradılması nəticəsində Bakının Yasamal, Yeni Yasamal, Əhmədli, Günəşli, Yeni Günəşli, mikrorayonlar kimi ərazi bölgələrində, Gəncə şəhərinin Yeni Gəncə yaşayış massivində, Sumqayıtın yeni mikrorayonlarında dövlət kitabxanalarının yaradılması şəhər əhalisinə kitabxana xidmətinin səviyyəsinə olduqca müsbət təsir göstərmişdi. Belə ki, 1970-1975-ci illərdə Azərbaycanın iri şəhərlərində 41 yeni dövlət kütləvi kitabxanası yaradılmışdı (1, s. 298). Bu kitabxanalar əsasən Bakıda, Sumqayıtda, Mingəçevirdə, Əli Bayramlıda yaradılmışdır. Şəhər kitabxanalarının kitab fondu 887000 nüsxə, onlardan istifadə edən oxucuların sayı isə 12 min nəfərə yaxın artmışdır. Hər bir şəhər kitabxanasında bir oxucuya düşən kitabxana kitabının miqdarı 13 nüsxədən, 15 nüsxəyə, bir oxucuya verilmiş ədəbiyyatın sayı isə 23 nüsxədən 25 nüsxəyə qalxmışdır.

Bütün bunlar müvafiq illərdə şəhər əhalisinə xidmət edən dövlət kütləvi kitabxana şəbəkəsinin fəaliyyətində baş verən mütərəqqi dəyişikliklərdən xəbər verirdi. Şübhəsiz ki, bu kəmiyyət dəyişiklikləri onların oxuculara xidmət işindəki keyfiyyət dəyişikliklərin nəticəsi idi. Belə ki, respublikada artıq elə bir şəhər və ya fəhlə qəsəbəsi yox idi ki, orada əhaliyə xidmət edən dövlət kitabxanası olmasın. Kütləvi şəhər dövlət kitabxanaları bu dövrdə bütün şəhər əhalisinin, o cümlədən hazırlıqlı oxucuların əsasən ümumtəhsil tələblərini və maraqlarını təmin edən universal profilli kitabxanalar kimi inkişaf edirdilər. Oxucuların sosial-



siyasi və estetik tərbiyəsində, çoxsahəli politexnik biliklərin, kütləvi peşə biliklərinin və xüsusən bədii ədəbiyyatın təbliğində şəhər kitabxanalarının fəaliyyəti getdikcə genişlənirdi. Bu dövrdə iri şəhər kitabxanalarının, o cümlədən mərkəzi şəhər kitabxanalarının əksəriyyətində notmusiqi şöbələri yaradılmışdı. Bu şöbələrdə çap əsərləri ilə yanaşı qrammofon yazıları, musiqili maqnit lentləri toplanılır, şəhər kitabxanalarında gənclər şöbələri fəaliyyət göstərməyə başlamışdılar.

Bu dövrdə Azərbaycanda kitabxanaçılıq fəaliyyətinin prioritet istiqamətlərindən biri uşaqlara kitabxana xidmətinin təşkili idi.

Respublika uşaq kitabxanaları şəbəkəsi məhz keçən əsrin 20-ci illərindən formalaşmağa başlamış və yeniyetmələrin mütaliə mədəniyyətinin inkişafında, onların təhsili və tərbiyəsində çox mühüm rol oynamışdır. Uşaq mütaliəsi və uşaq kitabxanalarının fəaliyyətinin tədqiqatçısı tanınmış kitabxanaşünas, dosent Sahib Rzayev yazır: «Məlum həqiqətdir ki, tərbiyə işində öyrətmək başlıca vasitədir. Ona görə də kitabxanaların üzərinə düşən vəzifə daha böyük məsuliyyət tələb edir. Bu baxımdan mütaliə vasitəsilə öyrətmək, öyrətməklə tərbiyə etmək vəzifəsini üzərinə götürən uşaq kitabxanalarının işi daha rəngarəng və çoxcəhətlidir» (1, s. 61-69).

Uşaqlar arasında kitabla iş aparan kitabxanalar sistemində vəzifələrin mürəkkəbliyi və çoxcəhətliyinə, kitab fondlarının həcmi və tərkibinə, uşaq mütaliəsinə rəhbərlik sahəsində formalaşdırdığı təcrübəyə görə sadaladığımız kitabxana şəbəkələri içərisində müstəqil uşaq kitabxanaları xüsusilə fərqlənirlər. 1970-ci ildə Azərbaycanda 94 müstəqil uşaq kitabxanası var idi. Onların fondunun ümumi miqdarı 2 mln. 459 min nüsxə idi (2, s. 29). Bunlarla yanaşı, təqribən 100-dən yuxarı şəhər, rayon və kənd kitabxanalarında uşaq şöbələri fəaliyyət göstərirdi.

1970-1975-ci illərdə respublikanın uşaq kitabxanaları bütün kəmiyyət və keyfiyyət göstəriciləri baxımdan sürətlə inkişaf edib uşaq oxucuları arasında təlim-tərbiyə işləri aparmaq üçün lazımi kitab fondlarına, kataloq-kartoteka sisteminə və kütləvi tədbirlər təşkil etmək üçün ixtisaslı kadrlara malik olan kitabxana-biblioqrafiya müəssisələrinə çevrilmişdilər. Uşaq kitabxanalarının fəaliyyətində kütləvi tədbirlərin təşkilinə xüsusi diqqət yetirilir və bu istiqamətdə aparılan işlər ildən-ilə təkmilləşir, daha rəngarəng və cəlbedici olurdu. Belə ki, «Kitab bayramları», «Uşaq kitabı həftələri», «Sual-cavab saatları», «Səhərciklər», «Kitab sevərlər klubları», «Nağıl saatları», «Viktorinalar», «Təbiəti sevənlər» klubları, «Ədəbi-bədii gecələr», həmçinin şəkilli plakatlar və s. tədbirlərin təşkili artıq ənənə xarakteri almışdı (1, s. 46-49). Belə tədbirlərin məktəb kitabxanaları, pionerlər evləri, digər ictimai təşkilat-

larla, həmçinin yerli müəllimlərin, elm adamlarının, əmək və müharibə veteranları ilə əlaqəli şəkildə təşkili getdikcə genişlənirdi.

Statistik göstəricilərdən məlum olur ki, 1965-1975-ci illər ərzində respublikada 10 yeni müstəqil uşaq kitabxanası açılmış, onların fondunun ümumi həcmi 1 mln. nüsxəyə yaxın artmış, bu kitabxanalardan istifadə edən yeniyetmələr 1965-ci ilə nisbətən 25 min çox olmuşdur. Bunlardan əlavə 1975-ci ildə 1965-ci illə müqayisədə bir kitabxana fondunun orta həcmi 8 min nüsxə, bir oxucunun öhdəsinə düşən kitabxana kitabı 4 nüsxə artıq olmuşdur.

Beləliklə, 1970-1975-ci illərdə dövlət kütləvi kitabxanaları respublikanın kitabxana sisteminin aparıcı tərkib hissəsi kimi oxucuların hərtərəfli inkişaf etməsində, onların elmi, mədəni və peşə səviyyəsinin yüksəlməsi sahəsində qiymətli təcrübə və nailiyyətlər əldə etmişdi.

Eyni zamanda bu dövrdə dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafı və onların fəaliyyətində bir sıra nöqsanlar da özünü göstərirdi. Belə ki, oxucuların kitabxanalara cəlb edilməsi işi bir sıra regionlarda qənaətbəxş deyildi. Elə rayon və şəhərlər var idi k , kitabxanalara cəlb edilən oxucuların sayı 15-20 faizdən artıq deyildi. Dövlət kitabxanalarının ancaq 10 %-nin qiraət zalları var idi. Rayon kitabxanalarından Lerik, İmişli, Noraşen, Zəngilan, Yevlax, Dəvəçi, Daşkəsən, Şuşa, Bakı şəhər kitabxanalarından M.Ə.Sabir, A.Səhhət, Qırmızı Oktyabr, Korolenko, Puşkin, A.Şaiq və xeyli digər kitabxanalar, Gəncə mərkəzi şəhər kitabxanası ağır bina şəraitində işləyirdilər.

Bir çox rayonlarda müstəqil kənd və uşaq kitabxanaları şəxsi evlərdə yerləşirdi. Kitabxanalarda müasir avadanlıq (kitab rəfləri, kataloq qutuları, sərgi vitrinləri və s.) və texniki vasitələr çatışmırdı. Kitabxanaların idarə edilməsi, metodik təminatı dövrün tələblərindən hələ də geri qalır, operativ, çevik və müvafiq elmi-təşkil səviyyədə deyildi. Kitabxanalararası əlaqələr, KAA xidməti, əlaqəli planlaşdırma, dövlət kitabxanalarının digər kitabxana şəbəkələri ilə birgə fəaliyyəti zəif idi.

Göstərilən nöqsanlara baxmayaraq, 1974-1975-ci illərdə dövlət kütləvi kitabxanaların fəaliyyətində xeyli canlanma başlanmışdı. Bu, ilk növbədə 1974-cü ilin mayında Sov İKP MK-nın «Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında» qəbul etdiyi qərarla əlaqədar idi (6). Bu qərar bütövlükdə kitabxana sisteminin, o cümlədən dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişafında yeni mərhələnin - kitabxanaların mərkəzləşdirilməsi mərhələsinin başlanğıcını qoydu, onların sosial vəzifələri və funksiyalarının daha da təkmilləşdirilməsi üçün əsaslı zəmin yaratdı.



## ƏDƏBİYYAT

1. *Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik. III hissə: Kitabxana işi haqqında təlim.-B., 2003.- 450 s.*

2. *Народное хозяйство Азерб. ССР за 60 лет: Статистич. сб.-Б.: Азернешр, 1992.- с.298*

3. *Народное хозяйство Азерб. ССР в 1970 году. Статистич. сб.-Б., 1972.-271 с.*

4. *Народное хозяйство Азерб. ССР к 60 летию Великого Октября. Статистич. сб.-Б., 1977.-320 с.*

5. *Rzayev S. Kiçik məktəbyaşlı uşaqların mütəxəssislərinə fərdi rəhbərliyin pedaqoci və psixoloji əsasları // Azərbaycanda əhaliyə kitabxana xidmətinin təşkili (tematik məcmuə).-B., 1983.-s. 61-69.*

6. *Zəhmətkeşlərin kommunist tərbiyəsində və elmi-texniki tərəqqidə kitabxanaların rolunun artırılması haqqında // Kommunist.- 1974.-28 may*

7. *ARDƏIA. F. 501, s. 5, saxlanma vahidi 128, səh. 36.*

***Севда Халафова***

## РАЗВИТИЕ СЕТИ ГОСУДАРСТВЕННЫХ МАССОВЫХ БИБЛИОТЕК АЗЕРБАЙДЖАНЕ В 1970-1975 гг.

### *РЕЗЮМЕ*

***В статье рассматривается важнейшие аспекты развития массовых библиотек в первой половине 70-х годов XX века. Особое вниманиии уделено развитию фондов, совершенствовано системы обслуживания в районных и сельских библиотек, дислокации сети.***

***В статье рассмотрены, также состояние подготовки кадров, развитие научно-исследовательской работы и методического обеспечения библиотек.***

*Zəminə İBADOVA*
*Laborant*

# ALİ MƏKTƏB KİTABXANALARINDA OXUCULARA XİDMƏT İŞİNİN XÜSUSİYYƏTLƏRİ

Cəmiyyətimizin bütün sahələrində yeniləşmə prosesinin getdiyi bir zamanda, respublikamızın iqtisadi-siyasi süverenlik və müstəqillik yolu ilə inamla irəlilədiyi bir dövrdə Azərbaycan vətəndaşlarının maddi və mənəvi tələbatının geniş təmin olunması, yeni azad cəmiyyətin fəal qurucuları kimi yetişib formalaşması, milli vətənpərvərlik ideyalarına yiyələnməsi, zəruri elmi dünyagörüşlə silahlanması dövrümüzün ən mühüm tələblərindəndir. Ona görə də insanların hərtərəfli inkişafına, müasir cəmiyyətdə özünün layiqli yerini tutmasına, kamil şəxsiyyətlər kimi formalaşmasına xüsusi diqqət yetirilməli, bu sahədə təxirəSAlınmaz tədbirlər həyata keçirilməlidir.

Müasir dövrdə müstəqillik yolu ilə addımlayan Azərbaycan Respublikasının bazar iqtisadiyyatı şəraitində yaşaması mürəkkəb və çətin sosial-iqtisadi problemlərlə üzləşməsi xeyli çətinliklər meydana çıxartmışdır. Bu problemlərin həllini daha da mürəkkəbləşdirən başqa bir ağır vəziyyətin müharibə şəraitinin mövcudluğu ölkəmizin ağır sınaqlar qarşısında qoymuşdur.

Məhz buna görə də indiki şəraitdə cəmiyyətimizin qarşısında duran təxirəsalınmaz vəzifələr insan amilinin düzgün formalaşmasını ön plana çəkir. Nəzərə almaq lazımdır ki, yalnız yaxşı düşünülmüş və düzgün nizamlanmış siyasi diplomatiya, diqqətlə planlanlaşdırılmış hərbi-iqtisadi strategiya, güclü sosial siyasət və məqsədyönlü ideya-tərbiyə işi əsasında,həm də bunların hamısı vəhdət halında götürüldükdə milli dövlətçilyimizə sədaqətlə xidmət göstərən əsl vətəndaşlar yetişdirmək mümkün ola bilər. Şübhəsiz ki, bütün bu problemlər hazırda sosial institut kimi formalaşan, elm, təhsil, mədəniyyət, tərbiyə və informAsiya müəssisəsi olan Azərbaycan kitabxanalarının qarşısında ciddi vəzifələr qoyur. Cəmiyyətdə mühim sosial funksiyaları həyata keçirən kitabxanalar elmi-texniki tərəqqinin sürətləndirilməsində, insan amilinin formalaşmasında, ölkəmizin iqtisadi, sosial və mədəni inkişafında yaxından iştirak etməli, müstəqil dövlətimizin əsas ideyalarının həyata keçi-



rilməsi və bu ideyaların qidalandığı milli ideyalarımızın geniş xalq kütlələri arasında yayılması üçün böyük təbliğat-təşviqat və təşkilatçılıq işi aparmalıdırlar. Görkəmli kitabxanaşünas alim, professor A.Xələfovun dediyi kimi, "Kitabxana işi dövrlə, zamanla ayaqlaşmalı, həmişə canlı və dinamik olmalıdır" (1).

«Başqa sözlə desək, sosial institut kimi kitabxanaların fəaliyyəti də yaşadığı ictimai mühitin, cəmiyyətin sosial qanunlarına tabe olmalı və bu qanunların yerinə yetirilməsinə yönəlməlidir. Hazırda yalnız bir istiqamət tam mənası ilə aydındır. Azərbaycanda müstəqil dövlətlərə xas olan kitabxana işi inkişaf edib formalaşmalı, kitabxanaşünaslıq elmi isə bəşəri və milli dəyərlər əsasında kitabxana işi təcrübəsini zənginləşdirməlidir» (2).

Əlbəttə, bu fikirlər eyni zamanda Azərbaycanda fəaliyyət göstərən ali məktəb kitabxanalarına da aiddir. Mütəxəssislərin qeyd etdiyi kimi, «Gələcək inkişafını düşünən hər bir cəmiyyət, hər bir dövlət gənc nəslin öz məqsəd və ideyaları yönümündə təlim-tərbiyəsini təşkil etməli, bunun üçün ən bəşəri və ən demokratik üsulları təbliğ etməklə heç bir maddi- mənəvi vəsait, sərvət əsirgəməməlidir. Keçmiş SSRİ-nin təcrübəsi parlaq şəkildə göstərdi ki, belə bir yoldan kənara çıxan cəmiyyət və dövlət quruluşu gec-tez süquta uğramalıdır» (3).

Təbiidir ki, ali məktəblərin bazar iqtisadıyyatı dövründə necə çıxmaları həm onların özlərinin fəaliyyətinin düzgün təşkilindən, həm də ölkədə təhsil sisteminin dəqiq qurulmasından daha da çox asılıdır.

Məlum olduğu kimi, müstəqil Azərbaycan Respublikasında geniş və çoxpilləli təhsil sistemi vardır. Əsasən Sovet İttifaqından miras qallmış dövlət təhsil sistemi çox- güclü elmi potensiala malikdir. Respublikamız öz müstəqilliyini elan etdiyi dövrdə Azərbaycanda 17 ali məktəb və hər bir təhsil ocağının öz kitabxaansı fəaliyyət göstərirdi (4).

Sonrakı illərdə ali məktəblərin və onların filiallarının sayı sürətlə artmağa başlamışdır. Belə ki, artıq 1994-cü ildə respublikamızda 18 dövlət ali məktəb və onların 6 filialları fəaliyyət göstərmiş (5), 1998-ci ildə isə dövlət ali təhsil müəssisələrinin sayı 28-ə, özəl ali təhsil ocaqlarının sayı isə 17-ə çatmışdır (6).

1993-cü ildə qəbul olunmuş Təhsil Qanununun əsasında işləyən ali məktəblər öz fəaliyyətlərini müstəqil dövlətimizin müasir tələblərinə uyğun şəkildə qurmağa çalışırlar. Alə məktəb kitabxanaları isə öz işlərini 1999-cu ildən qüvvəyə minmiş «Kitabxana işi haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən tənzimləyirlər.

Respublikamızda yaranıb formalaşmış kitabxana şəbəkələri içərisində ali məktəb kitabxanaları özünəməxsus yer tutur. Təhsil Nazirliyi

sistemində fəaliyyət göstərən ali təhsil müəssisələri kitabxanaları öz istiqamətlərinə görə digər kitabxanalardan əhəmiyyətli dərəcədə fərqlənirlər. Elmi kitabxanalar tipinə daxil olan ali məktəb kitabxanaları ölkədə elm və mədəniyyətin, xalq təsərrüfatının müxtəlif sahələri üçün yüksək ixtisaslı kadrlar hazırlanmasına kömək edən, ali məktəbin struktur bölməsi kimi fəaliyyət göstərən kitabxana şəbəkəsidir. Ali məktəb kitabxanaları öz fondunu ali məktəbin probleminə uyğun komplektləşdirir, professor-müəllim heyətinin tələbə kollektivini elmi ədəbiyyatla, dərslik və dərs vəsaitləri ilə təmin edir, ali məktəbin illik elmi tədqiqat işi haqqında hesabatlarına, elmi və elmi-metodik konfranslların materiallarını, ali məktəbdə hazırlanan metodik materialları, habelə burada müdafiə olunmuş dissertasiyaları toplayıb hazırlayır və mühafizə edir (7).

Ali məktəblərin kitabxanaları xalq təsərrüfatının və mədəniyyətin bütün sahələri üçün yüksək ixtisaslı kadrların formalaşmasında böyük rol oynayırlar. Ali məktəb kitabxanası oxuculara fərqli xidmət edir, geniş və operativ şəkildə müvafiq profil üzrə elm və texnikanın son nailiyyətlər haqqında məlumat verir, kitabxana-biblioqrafiya biliklərini (kitabxana və informasiya mənbələrindən istifadə, biblioqrafik nəşrlərin sərgisi, məlumat nəşrlərinin xülasəsi və s.) təbliğ edir. Ölkənin ən böyük ali məktəb kitabxanaları öz problemlərinə uyğun biblioqrafik və məlumat materialları çap etdirir.

Elmi tədqiqatlara kömək göstərməsində və elmi kadrların hazırlanmasında ali məktəb kitabxanalarının rolu elmi-tədqiqat institutlarının kitabzanalarının rolu ilə uyğun gəlir. Bu kitabxanalar ali məktəbin əsas ixtisası üzrə, onun elmi tədqiqatlarının mövzuları üzrə elmi ədəbiyyatın daha tam fondunu cəmləşdirir. Ali məktəb dairəsində onlar kafedralar, laboratoriyalar və bütün kollektiv üçün ən yeni ədəbiyyat haqqında informasiyanı təşkil edən mərkəzlərdir. Bu kitabxanalar xüsusi biblioqrafik arayışlar tərtib edirlər.

Ali məktəb kitabxanaları içərisində universitet kitabxanaları xüsusi yer tutur. Bu kitabxanalar ali məktəb kitabxanalarına xas olan vəzifələri yerinə yetirməklə bərabər universitet təhsilinin xüsusiyyətlərinə, birinci növbədə tələbələrin ümumi elmi hazırlığına, onlarda elmi-tədqiqat fəaliyyəti vərdişlərinin yaradılmasına, ali məktəbin tarixinə, müəllimlərin elmi və pedaqoji fəaliyyətinin biblioqrafik vəsaitlərdə əks etdirilməsinə xüsusi diqqət yetirir (8). Başqa sözlə, universitet kitabxanasının iş planları universitetin tarixinə dair ədəbiyyat göstəricilərinin yaradılmasını, onun alim və müəllimlərinin əsərlərinin göstəricilərinin buraxılmasını nəzərdə tutur (9).



Ali məktəbin, xüsusilə də universitet kimi iri və soxsahəli ali məktəb kitabxana xidmətinin təşkili mürəkkəb vəzifədir. Kitabxana xidmətinin fakültələrin, kafedraların, laboratoriyaların, kabinetlərin tələblərinə yaxınlaşdırılması ali məktəblərdə sanki kitabxanalar şəbəkəsinin meydana gəlməsinə gətirib çıxarmışdır. Bunlarla əlaqədar olaraq belə bir sual yaranır: Bəs bu kitabxanalar öz aralarında nə qaydada qarşılıqlı ədaqədə olmalıdırlar?

Məlum olduğu kimi, Sovetlər Birliyində ali məktəbə kitabxana xidmətinin mərkəzləşdirilmiş sistemi qəbul edilmişdi. Ali mətəbin bütün kitabxanaları mərkəzi komplektəlşdirmə, kataloqlaşdırma və s. ilə birlikdə vahid bir tam təşkil edirdilər. Ali məktəbin bütün bölmələrinin kitabxanaları mərkəzi kitabxananın filialları hesab olunurdular. Bu sistemin üstünlüyü bundan ibarətdir ki, o, ali məktəbin tələbələrinə və müəllimlərinə kitabxana xidmətinin vəhdətini təmin edir, maddi vəsaitlərdən səmərəli və daha faydalı şəkildə istifadə etməyə imkan verir, kitabxanaların işində paralelçiliyi və təkrarlamaları aradan qaldırır. Məhz buna görə də müstəqil Azərbaycan Respublikasının ali məktəb kitabxanalarında da əsasən bu sistem saxlanılmışdır.

Qeyd ed ki, Azərbaycanda ali və orta ixtisas təhsili məktəbəlrinin kitabxanalarına elmi-metodik və əlaqələndirmə mərkəzi fuksiyasını Bakı Dövlət Universitetinin Elmi Kitabxanası yerinə yetirir.

Bu kitabxananın əsas fuksiyasına bunlar daxildir:

a) Respublikanın ən böyük tədris kitabxanası kimi professor-müəllim-tələbə aə işçi heyətini kitabxana-biblioqrafiya xidmət ilə təmin eir;

b) Tədris ədəb yyatı üzrə ən böük dövlət kitabsaxlayıcısıdır;

c) xarici ölkələrin ali məktəb kitabxanaalrı ilə kitab mübadiləsi aparan sosial institutdur;

ç) Respublikanın ali və orta ixtisas təhsili məktəbləri kitabxanalarının elmi-metodik və əlaqələndirmə mərkəzidir (10).

Bir cəhəti də xüsusi qeyd etmək lazımdır ki, professor A.Xələfovun Azərabycan ktabxanalarının tarixi ilə bağlı tədqiqatlarını və azsaylı müəlliflərin bir sıra elmi məqalələrini çıxmaq şərti ilə respublika kitabxana şəbəkələri arasında özünəməxsus yeri olan ali məktəb kitabxanalarının uzun dövrə malik zəngin fəaliyyəti ayrı-ayrılıqda geniş şəkildə araşdırılmışdır. Halbuki yüksək ixtisaslı mütəxəssis hazırlığının və həyata keçirilmsi prosesində ali məktəb kitabxanalarının müstəsna xidməti vardır. Onlar mənsub olduqları ali təhsil müəssisələrinin soraq-informasiya və tədris bazası kimi çıxış edərək, gənc mütəxəssis hazırlığında, ali

məktəb elminin inkişafında iştirak edən ğütün struktur bölmələrə yaxından kömək göstərirlər.

Ölkəmizdə aparılan təhsil islahatları ali məktəb kitabxanalarının qarşısına da ciddi vəzifələr qoymuşdur. Müasir dövrün tələbləri baxımından oxucu maraqlarının öyrənilməsi və onların mütaliəsinin istiqamətləndirilməsi əsasında ali mətəbin bütün kontingentinə səmərəli kitabxana-informasiya xidməti həyata keçirən ali mətkəb kitabxanaları bu sahədə aşağıdakı vəzifələri həyata keçirilrər:

1. Qrup və fərdi xidmət metodlarından istifadə edərək oxu zallarında, abonementdə və kitab verilişi məntəqələrində oxuculara kitabxana xidmətinin təşkilidir. Oxucuların kitabxana fondundan açıq istifadəsini təşkil edir;

2. Vahid kitabxanalararası abonement (KAA) sistemində iştirak edir. Bu istiqamətdəki işini regionun digər kitabxanaları ilə əlaqələndirir. Kitabxanada olmayan ədəbiyyata oxucu sorğularını KAA vasitəsi ilə ödəyir;

3. Ali məktəbin mütəxəssis və tələbələrinin informasiya təminatları tam şəkildə ödəmək məqsədi ilə oanları müntəzəm şəkildə öyrənir;

4. Fərdi, qrup və kütləvi informasiya xidmətinin müxtəlif forma və metodlarından istifadə edərək, oxucuların informasiya sorğularının operativ şəkildə ödəniləmsini təşkil edir. Oxucuları lazımi mterialların surətləri ilə təmin edir;

5. Ali əktəb kitabxanaları və elmi bölmələrinin i timai informatorların işini təşkil edir və onlara metodik köməklik göstərir;

6. Elmi-texniki təbliğat üzrə ali məktəbin təşkil etdiyi tədbirlərin hazırlanması və keçirilməsində iştirak edir;

7. Ali mətkəbin profili üzrə planlaşdırılmış və keçirilmiş elmi-texniki tədbirlər haqqında ali məktəb rəhbərlərini və bölmələrini informasiya və materillarla təmin edir;

8. Elmi-tədqiqat və təcrübi-konstruktor işlərinin nəticələri üzrə müəyyən edilmiş qaydada informasiya hazırlayır və təqdim edir;

9. Ali təhsi müəssisəlirinin nəşriyyat planına müvafiq olaraq biblioqrafik göstəricilər tərtib edir və onları nəşrə hazırlayır;

10. Tələbələr üçün informatika, kitabxanaşünaslıq və biblioqrafiyanın əsasları üzrə məşğələlər təşkil edir. Ali məktəbin aspirantları, professor-müəllim heyəti, mühəndis-texniki işçiləri və tədris işinə kömək edən əməkdaşları arasında kitabxana-biblioqrafiya və informasiya biliklərini təbliğ edir.



## ƏDƏBİYYAT

*1. Xələfov A. Azərbaycanda kitabxana işinin tarixindən.-B., 1986.-S.6.*

*2. İsmayılov X. Kitabxana işinin idarə edilməsinin metodik və təşkilati məsələləri.-B., 1995.-S.3-4.*

*3. İsmayılov X., Baxşəliyev Z. Respublikada kitabxana işi yeniləşəcəkmi // Həyat.-1991.-21 dekabr.*

*4. Alıyev T. Tələbə gənclərin kommunist tərbiyəsində ali məktəb kitabxanalarının rolu // Zəhmətkeşlərin kommunist tərbiyəsi.-B.,1998.-S.89.-95.*

*5. Bütün imkanlar təhsilin yüksəlişinə yönəldilməlidir.// Azərbaycan.-1994.-1 sentyabr.*

*6. Azərbaycan Respublikasında milli təhsilin inkişafı sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr: respublika təhsil naziri Misir Mərdanovun Azərbaycan müəllimlərin qurultayında məruzəsi // Azərbaycan müəllimi.-1998.-1 oktyabr.*

*7. Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı.-B., 1986.-S.91.*

*8. Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı.-B., 1986.-S.92.*

*9. Ümumi kitabxanaşünaslıq.-B., 1982.-S.251*

*10. Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı.-B., 1986.-S.93.*

***Замина Ибадова***

## ОСОБЕННОСТИ ОБСЛУЖИВАНИЯ ЧИТАТЕЛЕЙ В ВУЗОВСКИХ БИБЛИОТЕК

### *РЕЗЮМЕ*

***В статье рассматрены вопросы организации обслуживания читателей, применительно к специфике вузовских библиотек Азербайджана. Особое внимание в работе уделено совершенствованию системы вузовских библиотек в условиях реформ высшего образования в республике.***

***Статья содержит ряд научно-обоснованных рекомендаций по улучшению методического обеспечения деятельности вузовских библиотек Азербайджана в современных условиях.***

Çinarə MƏMMƏDOVA
*Magistrant*

# İNFORMASİYA ƏSRİNDƏ MƏRKƏZLƏŞMİŞ KİTABXANA SİSTEMLƏRİNİN DURUMU

*(Bakı Şəhər Xətai Rayon MKS-in timsalında)*

Siyasi, iqtisadi və ideoloji sahədə ciddi dəyişikliklərin baş verdiyi bazar iqtisadiyyatı şəraitində cəmiyyətdə informasiyanın rolu getdikcə artır. Cəmiyyətin informasiya tələbatının ödənilməsi kitabxanaların işinin yeni siyasi, iqtisadi və ideoloji proseslərə tabe edilməsini və demokratik proseslərə xidmət etməsini irəli sürür. Bəşəriyyət tarixinə nəzər salarkən belə bir qanunauyğunluq aşkar olunur ki, hər bir əsr özünəməxsus inkişaf prosesi ilə xarakterizə olunduğu kimi XXI əsr də informasiya əsri hesab olunur. Bunun əsas səbəbi sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçidlə informasiyanın cəmiyyətin əsas aparıcı qüvvələrindən birinə çevrilməsi ilə əlaqədardır. Müstəqillik şəraitində Azərbaycan kitabxanaları, xüsusən də MKS-ləri qarşısında duran ən ümdə vəzifə müasir Azərbaycan cəmiyyətini informasiyalaşdırmaqdır.

İnformasiyalaşdırma anlayışı «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikası Qanununda (3 aprel 1998-ci il) belə açıqlanır: «İnformasiyalaşdırma informasiya ehtiyatlarının formalaşması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir».

Müasir şəraitdə MKS-lərin başlıca vəzifələrindən birini onlarda informasiya texnologiyasının inkişafı tutur. Müasir, inkişaf etmiş, təkmilləşmiş informasiya texnologiyası olmadan, bütövlükdə informasiya işini avtomatlaşdırmadan, yüksək texnologiyaya malik mərkəzlər yaratmadan, hər cür informasiya mərkəzi və saxlayıcısı olan kitabxanaları kompüterləşdirmədən informasiyalaşdırılmış cəmiyyətdən danışmaq olmaz. Məhz bu vəzifənin layiqincə yerinə yetirilməsinə xidmət etmək məqsədilə Xətai rayon MKS ilə yanaşı bütün Azərbaycan kitabxanaları



qarşısında onların informasiya texnologiyasının inkişaf etdirilməsi dayanır. Kitabxanaları avtomatlaşdırmadan və kompüterləşdirmədən informasiyalaşdırılmış cəmiyyətdən danışmağın lüzumsuz olduğu haqqında təsəvvür yaratmaq olar.

Respublikamızın bütün MKS-ləri kimi Xətai rayon MKS də əsrin sürətli inkişafı ilə ayaqlaşmaq üçün yeni texnologiyaların tətbiqi prosesində ön cərgədə getməlidir. Gələcəyin qlobal informasiya məkanında MKS-in yeri indiki şəraitdə atılacaq addımlardan çox asılıdır. MKS hazırda yeni elektron nəşrlər və elektron daşıyıcılar vasitəsilə informasiya mübadiləsi qarşısında böhran dövrünü yaşayır. Azərbaycanın müasir iqtisadi vəziyyətini, müharibə şəraitinin mövcudluğunu nəzərə alaraq bu problemin aradan qaldırılması üçün böyük zaman intervalının mövcudluğu şübhəsizdir.

Məlum olduğu kimi, nəinki kitabxanalar, hətta istənilən müəssisə öz inkişafını tənzimləmək və yüksəltmək üçün ilk növbədə özünün iqtisadi inkişaf proqramının hazırlanmasını həyata keçirməlidir. Belə bir vəziyyətdə bütün kitabxanalarla yanaşı Xətai rayon MKS-in də informasiya mühitində rolunu müəyyən edəcək öz gələcək inkişaf proqramının hazırlanması məqsədəuyğundur. Məhz bu proqramın aparıcı bölməsini kitabxananın kompüterləşdirilməsi təşkil etməlidir.

Qeyd etmək lazımdır ki, Xətai rayon MKS-də son on ildə bu dəyişikliklər o qədər də əsaslı və çevik olmayıb, kitabxana xidmətinin əvvəlki ənənəvi formaları dəyişməz olaraq qalmışdır. MKS-ə istifadə üçün müasir elektron hesablama maşınlarının verilməsinə baxmayaraq onlardan yalnız müxtəlif kompüter oyunlarından istifadə etməklə istifadə edilir. Müasir dövrdə MKS qarşısında duran başlıca vəzifə kimi kompüter texnologiyasının köməyi ilə kitabxanaya qlobal informasiya mühiti olan İnternetin tətbiq edilməsinə başlamaq durur.

İndi elm və mədəniyyətin inkişafını İnternetsiz təsəvvür etmək qeyri-mümkündür. Məhz İnternet ümumdünya informasiya məkanından səmərəli istifadə etmək üçün əvəzolunmaz və unikal vasitə hesab olunur. XXI əsrin informasiya texnologiyalarının xarakterik inkişaf istiqamətləri içərisində müxtəlif növlü, tipli və məzmunlu sənədləri mühafizə edən elektron informasiya daşıyıcılarının hazırlanması, sistemləşdirilməsi, mühafizəsi və şəbəkə rejimində uzaq məsafədən istifadəsi vacib yer tutur. Bütün bu istiqamətlər kompleks şəkildə elektron kitabxanaların yaradılmasında və elektron kitabxana-informasiya təminatının təşkilində istifadə olunur. Məhz elektron kitabxanalar bütün tip kitabxanalar tərəfindən yaradılan və şəbəkə xidməti imkanlarını xeyli genişləndirən informasiya sistemləridir.

Elektron kitabxanaların yaradılmasının bir sıra müsbət cəhətləri vardır. Belə ki, oxucu bunun vasitəsilə istənilən kitabxananın informasiya resurslarından istənilən vaxt və istənilən yerdə istifadə etmək imkanı əldə edir. Müasir dövrdə nəinki Xətai rayon MKS-in, bütün Azərbaycanın kitabxana şəbəkəsi qarşısında elektron kitabxana şəbəkəsinin yaradılması problemi durur. Elektron kitabxanaların yaradılmasına bayağı yanaşmaq olmaz. O, böyük maliyyə vəsaiti və yüksək ixtisaslı kadrların hazırlanmasını tələb edir ki, buna da dövlətin təşkilati, texniki və normativ-hüquqi dəstəyinin verilməsi vacib şərtlərdəndir.

Xətai rayon MKS-inüzləşdiyi ən çətin məsələlərdən biri də maliyyə problemidir. Maliyyələşdirmə mənbələri olmadan yeni layihələrin, strateji planların həyata keçirilməsi qeyri-mümkündür. Bu gün kitabxanalara maliyyə yardımı göstərən fondlar mövcuddur. Onlardan Soros fondu, Avroasiya fondu və digərlərinin adını çəkmək yerinə düşər. Xətai rayon MKS bu fondların imkanlarından bacarıqla istifadə etməlidir. MKS belə fondların yardımı nəticəsində kitabxananın strukturunda dəyişikliklər aparmaqla yeni iş yerlərinin və bölmələrinin təşkilində, oxucuların İnternetdən sərbəst istifadəsini təşkil etməkdə, məlumat-informasiya xidmətində kompüterlərdən istifadə edilməsinin təşkilində və digər bu problemlərin həll edilməsində müsbət nəticə əldə edə bilər.

Elmi-texniki tərəqqinin sürətlə inkişaf etdiyi müasir dövrdə cəmiyyət üzvlərinin texniki yeniliklərə, elmi kəşflərə və bunları özündə əks etdirən kitablara marağı gündən-günə artdığı üçün müasir oxucu dünyada baş verən ictimai-siyasi hadisələrlə maraqlanır, beynəlxalq hadisələri izləyir, elm və texnikanın son nailiyyətlərini öyrənməyə səy göstərir. Belə bir şəraitdə kitabxanaların, xüsusən də mərkəzləşmiş kitabxana sistemlərinin öhdəsinə düşən vəzifələr də qat-qat artır. İndi kitabxanalar elmi nailiyyətlərin, qabaqcıl təcrübənin yayılmasında daha fəal rol oynamalı, mütəxəssislərə fəal surətdə elmi-texniki məlumatları çatdırmaq kimi çox mühüm vəzifəni yerinə yetirməlidirlər.

## ƏDƏBİYYAT


*1. «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan Respublikasının qanunvericilik toplusu. – 1998. - №6. – s.1215.*

*2. Kazımov R. Kitabxana işinin iqtisadiyyatı: Dərs vəsaiti. – B.: Bakı Universiteti Nəşriyyatı, 2004. – 88 s.*

*3. Bakı Şəhər Xətai Rayon MKS-in 1990-2004-cü illər hesabatları.*

**Mehri Cəfərova**
*Magistrant*

# İNFORMASİYALAŞDIRILMIŞ CƏMİYYƏT VƏ KİTABXANALAR

Bazar iqtisadiyyatına keçid şəraiti cəmiyyətin informasiyaya münasibətini dəyişmişdir. Bu ilk növbədə hər hansı bir səviyyədə qəbul edilən qərarlara görə məsuliyyətin artmasından irəli gəlir. Yeni şəraitdə informasiya yalnız biliyin səviyyəsinin artırılması vasitəsi deyil, həm də qərarların qəbulu üçün real vasitədir.

Yaşadığımız informasiyalaşdırılmış cəmiyyət elə bir cəmiyyətdir ki, onun inkişaf səviyyəsi həlledici dərəcədə toplanmış və istifadə olunmuş informasiyanın həcmi və keyfiyyəti onun sərbəstliyi və istifadə əlverişliliyi ilə ölçü ür. Belə cəmiyyətdə birincilik informasiya sənayesinə mənsub olur. Elə bir vahid informasiya sistemi yaradılır ki, o bəşəriyyət tərəfindən toplanmış və istifadəçiyə lazım olan bütün informAsiyaların əldə edilməsini təmin etsin. Belə şəraitdə informasiya dövlətin əsas ehtiyat mənbəyi olur. Eyni zamanda informasiya bazarı, o cümlədən informasiya təfəkkürü, informasiya davranışı, informasiya mədəniyyəti, informasiya həyat tərzi və s. yaranır

Qeyd edək ki, informasiyalaşdırılmış cəmiyyət insanların sosial-iqtisadi aktivliyinin bütün növlərindən üstün olan informasiya məhsulu istehsal edən və informasiya xidməti göstərən cəmiyyətdir. Bu cəmiyyət dünyada baş verən sosial inqilabın və informasiya texnologiyasının birləşməsi nəticəsində meydana gəlmişdir.

İnformasiyalaşdırılmış cəmiyyəti müəyyən edən termin 1966-cı ildə Yaponiyada bir qrup elmi mütəxəssislər tərəfindən işlənilmişdir. Bundan başqa informasiyalaşdırılmış cəmiyyət anlayışına bir çox dünya alimləri və mütəxəssisləri müraciət edirlər. Bu da informasiyalaşdırılmış cəmiyyət anlayışını müəyyən edən amilin mövcud olduğunu göstərir. Bu anlayışlardan daha yığcam, lakin kifayət qədər həcmli olanı İ.A. Rakitova məxsusdur:

-Hər bir insan, hər bir təşkilat üçün informasiyanın ümumaçıq olması;

-İnformasiyanın ümumaçıqlığının real təminatı. İlk növbədə texniki informasiyanın, informasiya texnologiyasının müasir səviyyəyə uyğun şəkildə təşkili;

-İnformasiyanın istehsalı. Cəmiyyətin bütün sahələrində müxtəlif istiqamətlər üzrə həyat fəaliyyətini təmin etmək və inkişaf etdirmək üçün lazımı miqdarda informasiya istehsal etmək. Bu işin həyata keçirilməsi elmi əsaslara söykənməli, kompüter texnologiyasından istifadə edilməlidir.

Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi «İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Qanunda informasiyalaşdırılmış cəmiyyət anlayışına belə tərif verilir: «İnformasiyalaşdırılmış cəmiyyət işçi qüvvəsinin əksər hissəsinə informasiyanın, xüsusilə onun yüksək keyfiyyət səviyyəsi olan biliyin istehsalı, mühafizəsi, reallaşdırılması ilə məşğul olan cəmiyyətdir» (1).

Qeyd edək ki, informasiyalaşdırılmış cəmiyyətin yaradılması cəmiyyətin informasiyalaşdırılmasından başlayır. İnformasiyalaşdırma dünyanın vacib elmi-texniki prosesi olub, müasir cəmiyyətin inkişaf faktoruna çevrilməkdədir. İnformasiyalaşdırma hüquqi şəkildə obyektiv olaraq bizim ölkəmiz üçün də zəruridir. Azərbaycan Respublikasının informasiya haqqında qanununda informasiyalaşdırılma anlayışına belə tərif verilir: «İnformasiyalaşdırma - informasiya ehtiyatlarının formalaşdırılması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünü idarə orqanlarının təşkilati-hüquqi və mülkiyyət formalarından asılı olmayaraq, bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədə hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir» (1).

İnformasiyalaşdırılmış cəmiyyətin yaradılması və daha da təkmilləşdirilməsi və verilməsi prosesi ilə əlaqədar olduğundan müasir cəmiyyətdə hər cür informasiyanı cəmiyyət üzvləri arasında yaymağı qarşına məqsəd qoyan, informasiya resurslarını toplayıb saxlayan, onu əsrdən-əsrə, nəsildən-nəslə ötürən informasiya müəssisələrinin ən böyük vəsiləsi kitabxana sistemləridir.

Bizə məlumdur ki, kitabxanalar informasiyalaşdırılmış cəmiyyətin əsas atributlarından biri hesab olunur. Kitabxanaların əsas məqsədi əsrlər boyu cəmiyyətin informasiya tələbatını ödəmək olmuşdur. Lakin informasiyalaşdırılmış cəmiyyətdə artıq bu proses mürəkkəbləşmişdir. Başqa sahələrdə informasiyalaşdırma ilə bağlı yaranan problemlər cəmiyyətdə fəaliyyət göstərən kitabxanalar qarşısında də həllini gözləyən problemlər yaratmışdır.



Məlumdur ki, gündəlik həyatımızda kompüter texnologiyasının sürətlə daxil olması hər bir şəxsin informasiyanı tez əldə etmək imkanı yaratmışdır. Tez və sərfəli informasiyanı almaq və ötürmək informasiya bolluğu və informasiyanın tez köhnəlməsi bir çox kitabxanalar qarşısında xoşagəlməz vəziyyət əmələ gəlməsinə səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, bir çox xarici ölkə kitabxanaları informasiyalaşdırılmış cəmiyyətə keçidlə əlaqədar öz strategiyasını hazırlayırlar. İnformasiyalaşdırılmış cəmiyyətin inkişafı artıq elektron kitabxanaların yaranmasına gətirib çıxarmışdı. İntenrent beynəlxalq şəbəkə texnologiyasının sürətli inkişafı kitabxanaların qarşısında böyük perspektivlər yaradır. İnternet xidmətindən istifadə informasiyalaşdırılmış cəmiyyətdə kitabxanaların rolunu daha da genişləndirir. Buna görə də müasir dövrdə kitabxanalar kompleks şəkildə informasiyalaşdırılmalıdır. Bunu dünya təcrübəsi göstərir.

İnkişaf etmiş bir çox ölkələr kitabxanaların informasiyalaşdırma işinin ilkin mərhələsini kompüterləşmədə görürlər. Yəni kitabxana prosesləri bütünlükdə kompüterləşdirilməlidir. Kompüterləşdirmədə əsas bunlar nəzərə alınmalıdır:

- informasiyalaşdırmanın strategiyasının seçilməsi (məqsəd, məsələr, vasitə, mərhələ və s.)
- kompleks yanaşma (bütün göstərilən prosesləri kompüterləşdirmək);
- istifadəçilərin tələbatının orientasiyası;
- internetə çıxış üçün telekommunikasiya imkanlarından istifadə;
- kitabxanaçı kadrların elektron vasitələrdən istifadə üçün professional və psixoloci hazırlığı.
- əməyin yüksək səviyyəli təşkili üçün sanitar-gigiyenik normalara əməl olunması.

Kitabxanalarda kompüterləşdirmə işi ilə texniklər və proqramçılar yox, məhz kitabxanaçılar bu işi həyata keçirmək qabiliyyətinə malik olmalıdırlar. Ümumilikdə respublikamızda yeni cəmiyyətə keçidlə əlaqədar kitabxana işi informasiyalaşmalıdır. Lakin respublikada bu sahədə politoloq şəxslərin olmaması və dövlət vəsaitinin aşağı olması bu işin real təminatına imkan vermir. Respublikada kitabxanaların dövlət səviyyəsində informasiyalaşdırılması bu şərtlərlə həyata keçirilə bilər:

- kitabxanalarda informasiyalaşdırmanın vəziyyətinin öyrənilməsi;
- informasiyalaşdırma təcrübəsini genişləndirmək və yaymaq;
- kitabxanalarda informasiyanın professional standart modelinin hazırlanması;

-Azərbaycanda informasiyalaşdırma məqsədilə dövlət səviyyəli proqramın hazırlanması.

Bu cəmiyyətdən kitabxanalar fəaliyyətsiz nə isə gözləyə bilməz, onlar məhz öz fəaliyyətləri nəticəsində inkişaf edə bilərlər. Kitabxanaların gələcək perspektiv inkişafı bu göstərilən şərtlər əsasında reallaşa bilər.

## ƏDƏBİYYAT

1. *«İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu // Azərbaycan.-1998.-23 iyun.*

2. *Xələfov A.A. İnformasiyalaşdırılmış cəmiyyətin xüsusiyyətləri və problemləri // Respublika.-2002.-17 apr.*

3. *Колин К.К. Информационная цивилизация - какой она будет? // Библиотековедение.-2001.-№5.-149 с.*

4. *Коробкина Г.Е. Информатизация как необходимое условия организации информационного обслуживание пользователей. http://www.rda.ru.8100/ or/com; tet/14/2-4html/*

*Мехри Джафарова*

## ИНФОРМАТИЗИРОВАННОЕ ОБЩЕСТВО И БИБЛИОТЕКИ

### *РЕЗЮМЕ*

*Современное общество называется информатизированным обществом.*

*Информатизированное общество возникает в результате синтезе новой социально-глобальной револьюции и телекоммуникационной технологии.*

*В данной статье характеризованы место библиотек их преспективные направление в информатизированном обществе.*

**Zöhrab ƏLİYEV**
*Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, professor*

## BİBLİOQRAFİK VƏSAİTLƏR SƏNƏD AXINI VƏ KÜTLƏSİNİ İNTEQRAL ŞƏKİLDƏ ƏKS ETDİRƏN BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİDİR

Biblioqrafik inforomasiya ümumi informasiya sistemində ikinci hesab edilən informasiya kimi mühüm yer tutur və sənəd kommunikasiyaları sistemində vasitəçilik edən sosial institutlarla bir sırada durur. Bu vasitəçilər həmin sistemin optimal inkişafını təmin etməkdən, sənədlərlə informasiya istifadəçiləri arasında tarixən mövcud olan və formalaşan müxtəlif qrup ziddiyyətləri (müvafiq maneələri) aradan qaldırmaqdan və beləliklə də uyğunluqları həyata keçirməkdən ibarət olan funksiyasını yerinə yetirirlər. Onların hər biri bu funksiyanı özlərinə məxsus səciyyəvi formalarla, üsullarla və vasitələrlə həyata keçirirlər. Biblioqrafik informasiya biblioqrafik fəaliyyətin sənəd kommunikasiyaları sistemindəki vasitəçiliyinin müxtəlif mövcudluq formalarına malik olan əsas üsulu və vasitəsidir.

Müxtəlif formalarda mövcud olan biblioqrafik informasiya mənbələri (ənənəvi biblioqrafik göstəricilər nəzərdə tutulur) sənədlərin özlərini deyil, onların eyniləşdirilmiş və axtarışları üçün kifayət edən standart modellərini (biblioqrafik əlamətlər toplusunu) əks etdirir (4,5,9,). Nəticə etibarilə onlar, ilkin informasiya mənbəyi hesab edilən sənədlərin özlərini deyil onların haqqında biblioqrafik hesab edilən informasiyanı cəmiyyət üzvlərinə çatdırır. İstifadəçilər biblioqrafik informasiya mənbələrindən sənədlərsiz istifadə etmək imkanına malik olurlar. Burada Azərbaycan milli biblioqrafik fəaliyyətinin məhsulu olan və

Azərbaycan sənəd axınını və kütləsini forma və məzmunlarına görə inteqral şəkildə əks etdirən (modelləşdirən) biblioqrafik vəsaitlər sisteminin bəzi mühüm tərkib hissələrinin funksiya mahiyyətlərinə görə təhlili, elmi şərhi, məqsədi qarşıya qoyulmuşdur.

Aydındır ki, biblioqrafik informasiyanın mahiyyətinin daha ümumi, əsaslı, sadə və ilkin şərhini onun əsas sosial funksiyaları səviyyəsində aparmaq olar. İctimai funksiyalar isə əsas uyğunluq tiplərinə (formal, məzmun və dəyərləndirmə) görə müəyyənləşdirilir. Uyğunluğun birinci tipinin biblioqrafik baxımdın həyata keçirilməsi və birinci əsas tələbatın (axtarış tələbatının) təminatı biblioqrafik informasiyadan sənədlərin identifikasiyası və onların müəyyən fonda görə yerinin müəyyənləşdirilməsi məqsədilə istifadə olunması deməkdir və biblioqrafik vəsaitlər sisteminin tərkibinə daxil olan mənbələrin bir qismi bu nöqteyi-nəzərdən yararlı olmalıdır.

Biblioqrafik informasiyanın köməkliyi sayəsində ikinci əsas uyğunluq tipinin, yəni müəyyən formaya və məzmuna malik sənədlərin mövcudluğu haqqında məlumata olan tələbatın həyata keçirilməsi nəticəsində məkana görə sənədlərin müəyyənləşdirilməsi təmin olunur və sənədlərdə işıqlandırılan informasiyanın inkişafı haqqında təsəvvür yaradılır. Bu məqsədə biblioqrafik informasiya özünün sənəd axınını və kütləsini vaxta görə, yəni cari və retrospektiv baxımdan əks etdirən mənbələri vasitəsilə nail ola bilər.

Daha mürəkkəb olan üçüncü uyğunluq tipinin və bununla sənədlərin dəyərləndirilməsindən irəli gələn üçüncü əsas tələbatın biblioqrafik informasiya vasitəsilə həyata keçirilməsi cəmiyyətin ayrı-ayrı üzvlərinin sənəd tələbatı ehtiyaclarına, onun təminatı prosesinə biblioqrafın fəallıqla nüfuz etməsi deməkdir.

Məqsədyönlü seçim, səciyyələndirmə aparılmaqla o sənədlərin tövsiyəsi, çatdırılması məsləhət görülür ki, onlar müəyyən tələbatçıların səviyyəsinə, məşğuliyyətinə, ədəbiyyatdan müstəqil istifadə etmək bacarığına, yaş xüsusiyyətlərinə, həmçinin biblioqrafik təsir üçün əvvəlcədən planlaşdırılmış məqsədlərinə tamamilə uyğun gəlir.

Aparılan fərqli şərhin ümumiləşdirilməsi əsasında biblioqrafik informasiyanın üç əsas ictimai funksiyası müəyyən edilir: axtarış, kommunikativ və dəyərləndirmə (qiymətləndirmə). Həmin funksiyalar ayrı-ayrı biblioqrafik informasiya mənbələrinin funksiya mahiyyətlərinə görə təhlilində mühüm əhəmiyyət kəsb edir. Konkret bir biblioqrafik hadisənin (göstəricinin) həmin funksiyaların əməl olaraq həyata keçirilməsindəki rolu əsasında onun əsl mahiyyəti müəyyənləşdirilir. Azərbaycan biblioqrafiyası tarixində xüsusi yeri olan və biblioqrafik vəsaitlər sistemində sabit və uzunmüddətli tərkib hissəsi kimi diqqəti cəlb edən biblioqrafik əsərlərə bu baxımdan yanaşılacaq və şərhi veriləcək.



Biblioqrafiyanın vasitəsilə sənədlər informasiya kommunikasiyaları sisteminə daxil edilir. Belə vasitəçiliyin ictimai mənası ondan ibarətdir ki, «sənəd - informasiya istifadəçisi» sisteminə müəyyən şəkildə təsir göstərsin, həmin sistemdə baş verən çətinlikləri aradan qaldırsın, sənədlə insan arasındakı uyğunluqların həyata keçirilməsini təmin etsin.

Biblioqrafiya bu funksiyaları həyata keçirmək üçün özünün sənədlərlə əlaqədar olan daxili əsasını yaradır. Bunun mahiyyəti sənədlərin standartlaşmış simvolla əvəz olunması və real səpələnmə xaosuna, sənədlərin mühafizəsində, yayılmasında baş verən təsadüflərə qarşı qoyulması imkanı ilə əlaqədardır. Bu səviyyədə sənədin kənardan biblioqrafik sistemə daxil edilməsi, forma və məzmunu ilə bağlı ünsürlərinin xüsusi biblioqrafik qayda ilə müşayiət olunan qeydi baş verir. Biblioqrafiyanın erkən tarixi məhz həmin səviyyənin formalaşması ilə başlayır.

Biblioqrafik informasiyanın ilk ünsürləri çox qədim dövrə təsadüf edir, kitabların ən çox yığıldığı yerlərdə baş verir (10, s.22-25). Kitabxanaların kataloqları biblioqrafik informasiyanın tarixən ilkin nümunələri üçün olduqca səciyyəvidir. Ona görə də biblioqrafik vəsaitlər sisteminin ayrı-ayrı tərkib hissələrinin funksiya mahiyyətlərinə görə şərhinə ilk növbədə kitabxana kataloqlarından başlamaq lazımdır. Kataloqlar biblioqrafik informasiya mənbəyi kimi kartotekalar əsasında yaradılır, xüsusi kataloq yeşikləri vasitəsilə informasiya istifadəçilərinə çatdırılır, bəzi hallarda müəyyən bir kitabxana fondunu əks etdirməklə kitab şəklində çap olunur. Hazırda onun ən səmərəli forması yaranmaqdadır və buna elektron kataloq adı verilir. Elektron kataloqları axtarış funksiyasını əməli olaraq yerinə yetirən ən mütərəqqi, operativliyinə, səmərəliliyinə və keyfiyyətinə görə fərqlənən biblioqrafik axtarış mənbəyidir.

Lakin burada Azərbaycanan müxtəlif kitabxanalarının ənənəvi kataloqlarının (həm də çap olunmuş), cari və retrospektiv xarakterli ən mühüm biblioqrafik vəsaitlərin biblioqrafik informasiyanın əsas ictimai funksiyalarının əməli olaraq həyata keçirilməsində tutduqları mövqeyə görə şərhi veriləcək.

Azərbaycan milli biblioqrafiyası çox zəngin vəsaitlər sisteminə malikdir və bu sistem xalqımızın mədəni- mənəvi sərvəti olan müxtəlif növ məqsəd və oxucu istiqamətli çap əsərlərini özündə əks etdirir. Azərbaycan biblioqrafik vəsaitlər sisteminin tərkib hissələrini biblioqrafiyalaşdırma prosesinin bilavasitə obyekti kimi götürülən sənədlərin forma və məzmun əlamətinə, mövzu və əhatə dairəsinə görə qruplaş-

dırsaq, biblioqrafik informasiyanın əsas ictimai funksiyalarına görə fərqləndirsək belə bir mənzərə alınar:

- Bilavasitə axtarış funksiyaları və konkret bir kitab saxlayıcısının fondunu əks etdirən kartoteka formalı biblioqrafik informasiya Vasitələri – kataloq və kartotekalar.
- Sənəd (çap əsərləri) axınını və kütləsini məkana və dövrə görə əks etdirən ümumi cari və retrospektiv xarakterli, kommunikativ funksiyalı biblioqrafik nəşrlər; o cümlədən dövlət biblioqrafiyası orqanları, repertuar tipli biblioqrafik göstəricilər.
- Xüsusi xidmət sahələrinə, konkret məqsəd və oxucu istiqamətlərinə malik xüsusi biblioqrafik nəşrlər. Belə göstəricilər biblioqrafik informasiyanın dəyərləndirmə funksiyasını həyata keçirirlər, elmi köməkçi və tövsiyə xarakterli olmalarına görə fərqlənirlər.
- Biblioqrafik vəsaitlər sisteminin sabit və uzun müddətli tərkib hissələrindən biri də şəxsi biblioqrafik informasiya mənbələridir və onlar müvafiq seriyalarla, o cümlədən, «Dünyanın görkəmli dövlət xadimləri», «Elm və mədəniyyət xadimləri» seriyası ilə çap edilirlər.
- Təzkirə xarakterli biobiblioqrafik nəşrlər Belə mənbələr görkəmli adamların həyat və yaradıcılıqları haqqında qısa bioqrafik və əsərləri haqqında biblioqrafik informasiyanı əks etdirirlər.

Məlumdur ki, ayrı-ayrı biblioqrafik informasiya nəşrlərinin funksiya mahiyyətlərinin elmi şərhinə iki mövqedən yanaşılır. Birinci genetik, ikincisi isə məntiqi mövqedir. Genetik mövqe ilə hər hansı biblioqrafik hadisənin genetik funksional quruluşu açılır, biblioqrafik informasiyanın əsas ictimai funksiyalarının tarixən inkişafı prosesinin ən ümumi və sadə formada qanunauyğunluğu aşkar edilir. Lakin bununla kifayətlənmək olmaz. Ona görə ki, genetik mahiyyət quruluşu ilə konkret biblioqrafik informasiya obyektinin funksiya mahiyyətindəki çox cəhətlilik müəyyən edilmir. Bu və ya digər biblioqrafik obyektin mahiyyəti, cəmiyyətin informasiyalaşdırılmasına təsir dairəsi əsas funksiyaların uzlaşması ilə səciyyələndirilə bilər. Yəni biblioqrafik mənbələrin birində əsas funksiyalardan hansısa üstünlüyə malik ola bilər, digəri müşayiətedici funksiya kimi özünü göstərər. Biblioqrafik mənbələrin funksiya mahiyyətlərinə görə müxtəlifliklərinin üzə çıxarılması üçün onların şərhinə məntiqi mövqedən yanaşmaq lazım gəlir və bu zaman ictimai funksiyalar arasında mövcud olan münasibətlər tipi mühüm əhəmiyyət kəsb edir. Belə münasibətlər tipi ikidir: 1) Üstünlük münasibət tipi; 2) Bərabərlik münasibət tipi. Bunu şərti olaraq nisbi eynilik və ekvivalentli münasibət adlandırmaq olar (5, s.18-26).



Azərbaycanda formalaşmış biblioqrafik informasiya mənbələri sistemində özünəməxsus yeri olan mənbələrdən bir qrupu əsasən axtarış funksiyasını əməli o araq həyata keçirir, kommunikativ funksiya müşayiətedici əhəmiyyətə malik olur (AB). Belə mənbələrə sənəd kommunikasiyaları sistemində vasitəçilik funksiyasını yerinə yetirən sosial institutların, xüsusən kitabxanaların, kitab ticarəti müəssisələrinin kataloq və kartotekalarını aid etmək olar. Biblioqrafik proseslərin avtomatlaşdırılması şəraitində elektron biblioqrafik məlumat bazaları və elektron kataloqlar da bu funksiyanı daha operativ, səmərəli və yüksək keyfiyyətlə həyata keçirən informasiya mənbəyi kimi nəzərə alınmalıdır. Hələlik respublikamızın kitabxanalarında, istəsək də, istəməsək də, ənənəvi kataloq və kartotekalar üstünlük təşkil edir.

Azərbaycan biblioqrafiyasının tarixində XIX əsrin axırlarında və XX əsrin əvvəllərində ayrı-ayrı ictimai kitabxanaların və kitab ticarəti müəssisələrinin fondlarını əks etdirən çap kataloqları da meydana gəlmişdir (5). Məsələn, 1870-ci ildə əsası qoyulmuş kitabxananın (Xeyriyyə cəmiyyətinin) 1837-ci ildə, həmin ildə Bakı İctimai Məclis Kitabxanasının, 1911-ci ildə Rusiya Texniki Cəmiyyətinin Bakı Şöbəsi Kitabxanasının, 1913-cü i də Mühasiblər Cəmiyyəti Kitabxanasının və başqa kitabxanaların kataloqları çap olunmuşdur. Müvafiq kitabxananın fondunu əks etdirən belə kataloqların nəşri o dövr oxucularının geniş dairədə biblioqrafik informasiya almalarına, kiabxanaya cəlb olunmalarına təsir göstərir. Bu kataloqların əsasən axtarış funksiyasını əməli olaraq həyata keçirmələri onunla əlaqədardır ki, onlar yalnız bir fondun ünvanını göstərir və həmin fondlarda mövcud olan, müxtəlif bilik sahələrinə məxsus kitablarla bərabər dövri mətbuat üzrə istiqamətlənməyə imkan yaradırlar. Qeyd edək ki, bu kataloqlar dəfələrlə təkrar çap olunmuşdur.

Bakı ictimai məclis işçilərinə məxsus kitabxananın kataloqu 1896-cı ildə yenidən nəşr edilir. («Каталог библиотеки Бакинского общественного собрания»). Bu nəşrin vasitəsilə oxucu kitabxananın fondunda mühafizə edilən 12 dini ədəbiyyat, 74 fəlsəfə, etika, psixologiya, tarix, ədəbiyyat və pedaqogika, 34 siyasi, iqtisadi və hüquqşünaslıq elmləri, statistika və sosiologiyaya, 122 tarix, coğrafiya və səyahətnamə, 46 təbiət elmləri, 665 rus nəşri, tənqid, rus və xarici yazıçıların tərcüməyihalları, 419 xarici nəşr və tənqid, 84 uşaq kitabları, 322 müxtəlif kitablar haqqında biblioqrafik informasiyaya malik ola bilirdilər. (Kitabxana kataloqları rus dilində çap olunmuşdur).

XX əsrin əvvəllərində kitab mağazalarının kitab kataloqları da çap olunmuşdur. Bunlardan Mirzağa Əliyevin tərtibi ilə 1913-cü ildə Orucov qardaşlarının elektrik mətbəəsində çap edilmiş «Ziya» kitabxanası-

nın Əsamil Kütübü»nü (Əliyevin kitab mağazası) (1, s.121), həmçinin «Orucov qardaşları kitabxanasının Əsamil Kütübü»nü (1912-1914) qeyd etmək olar. Bu nəşrlər də axtarış funksiyalıdırlar və konkret kitab ticarəti müəssisələrində satışda olan kitablar haqqında biblioqrafik informasiya vermək məqsədinə xidmət etmişlər. Bununla bərabər həmin biblioqrafik informasiya mənbələri Azərbaycan dilində kitab nəşri ilə məşğul olan, orijinal və tərcümə əsərlərinin nəşrində xüsusi xidmət göstərən Orucov qardaşlarının elektrik mətbəələrinin əldə etdiyi nailiyyətlər haqqında lazımi təsəvvür yaradırlar.

Axtarış funksiyalı biblioqrafik mənbələr zəminində yaranan kommunikativ funksiyalı biblioqrafik nəşrlərin meydana gəlməsinə XX əsrin əvvəllərindən təsadüf edilir. Bunların ilk nümunələri məhdud əhatəli (məkana görə) olsalar da müəyyən dövr nəşrləri haqqında forma və məzmun vəhdətində biblioqrafik informasiya əldə edilməsində xeyli əhəmiyyətə malik olurlar. Belə nəşrlərdən biri Bakı mətbuatına həsr olunmuş və üç buraxılışda (1907-1909) çap edilmiş biblioqrafik göstəricidir. («Бакинская печать», tərtib edəni N.A.Boqoslovski).

Birinci buraxılış (1907) 1905-ci il oktyabr ayının 17-dən 1907-ci il iyul ayının 1-ə, ikinci buraxılış (1908) 1907-ci il iyul ayının 1-dən dekabr ayının 31-ə, üçüncü buraxılış (1909) 1908-ci ildə çıxan dövrü mətbuatı əks etdirir. Hər üç buraxılışda nəzərdə tutulan illərin qəzet və jurnalların biblioqrafik təsvirləri qısa annotasiya ilə müşayiət olunur. Annotasiyaların vasitəsilə, xüsusilə üçüncü buraxılışda jurnal və qəzetin nəşrə başlaması tarixi, onların nəşrlərinin dayandırılması səbəbləri haqqında lazımi təsəvvür yaradılır. Bu cəhətdən fərqlənən üçüncü buraxılışda Bakı şəhərində o illər fəaliyyət göstərən 24 mətbəə haqqında da məlumat verilir. Haqqında bəhs olunan həmin biblioqrafik vəsaitin hər üç buraxılışında Bakıda çap olunmuş kitabların siyahısı da öz əksini tapmışdır. Birinci buraxılışda 21, ikincidə 51, üçüncüdə isə 182 kitabın adı çəkilir. Üçüncü buraxılışda kitabların məqsəd və oxucu istiqamətinə görə qruplaşdırılması (9 şöbədə) onun kommunikativ funksiyalı olmasını təsdiq edən amillərdəndir.

XX əsrin əvvəllərində meydana gələn və kommunikativ funksiya baxımından diqqəti cəlb edən biblioqrafik göstəricilərdən ikisi jurnal və ardı davam edən nəşrin tərkibini əks etdirir. Onlardan birincisi «Rus imperator texniki cəmiyyətinin Bakı şöbəsinin (1879-cü il mart ayının 13-də yaradılmışdır)» «Əsərləri»nə həsr olunmuş və «1886-1904-cü illərdə Rus Texniki cəmiyyətinin Bakı şöbəsi «Əsərləri»ndə dərc olunmuş məqalə və qeydlərin göstəricisi» (tərtib edəni Y.M.Pitirski) adı ilə çap olunmuşdur (1904). İkinci analitik biblioqrafik vəsait «Neft işi»



(«Нефтяное дело») jurnalının məzmununu əks etdirir. İki buraxılışdan ibarət olan bu göstəricidə 1899-1909-cu illərin nəşrlərində dərc olunan məqalələr haqqında biblioqrafik informasiya verilir.

XX əsrin 20-ci illərinin əvvəllərindən kommunikativ funksiyalı biblioqrafik nəşrlərin funksional məqsəd əhatəliyi dairəsi xeyli genişlənir. Milli cari biblioqrafik nəşrlər sistemi formalaışr, daha böyük dövrü, məzmun müxtəlifliyinə görə fərqlənən ədəbiyyatı əks etdirən iri həcmli biblioqrafik əsərlər meydana gəlir.

Milli cari biblioqrafik nəşrlər dedikdə dövlət biblioqrafiyası orqanları nəzərdə tutulur. Respublika Dövlət Kitab Palatasının yaradılması ilə milli cari biblioqrafiyanın əsası qoyulur. 1926-cı ildən «Kitab salnaməsi»nin, 1938-ci ildən isə «Azərbaycan jurnal məqalələri salnaməsi»nin və «Azərbaycan qəzet məqalələri salnaməsi»nin nəşri başlayır. Bu dövlət biblioqrafiyası orqanları Azərbaycan ərazisində çap olunan kitablar, kitabçalar, qəzet və jurnal məqalələri haqqında dolğun, ardıcıl və operativ biblioqrafik informasiya verən ilk əsaslı və mükəmməl biblioqrafik nəşrlərdir.

XX əsrin 20-ci illərində retrospektiv xarakterli biblioqrafik nəşrlərə də təsadüf edilir. Məsələn, A.İ.Baqrinin tərtibi ilə «Azərbaycan biblioqrafiyası üçün materiallar» (1924-1925), «Qafqaz xalq ədəbiyyatı. Biblioqrafik göstəricisi üçün materiallar» (1926) belə mənbələrdəndir və yüz ilə yaxın bir dövrün nəşrlərini formalarına və məzmunlarına görə əks etdirirlər. Bunlar diyarşünaslıq-ölkəşünaslıq və sahəvi xarakterli olub kommunikativ funksiyanın əməli olaraq həyata keçirilməsində əhəmiyyətlidirlər. «Qafqaz xalq (şifahi) ədəbiyyatı biblioqrafik göstəricisi üçün materiallar» adlı göstəricidə qiymətləndirmə funksiyasının əlamətləri də var. Belə ki, onun konkret məqsəd və oxucu istiqaməti əvvəlcədən müəyyən olunmuş və uyğun gələn ədəbiyyatın biblioqrafik təsvirlərinin əks edilməsinə səy göstərilmişdir. Fikrimizi tərtib edənin müqəddimədə dedikləri tamamilə təsdiq edir: «Qafqaz Universitetinin şifahi xalq ədəbiyyatı müəllimləri yerli folkloru öyrənmədən keçinə bilməzlər. Bu sahədə mənim qruplarla məşğələm bir şeyi aydınlaşdırdı ki, tələbələr üçün layiqli biblioqrafik vəsait yox dərəcəsindədir və ya olanlar tamamilə köhnəlmişdir» (7, s.3).

Qiymətləndirmə funksiyasını əməli olaraq həyata keçirən biblioqrafik informasiya vəsaitləri dedikdə elmi-köməkçi və tövsiyə xarakterli biblioqrafik informasiya mənbələri nəzərdə tutulur. Elmi-köməkçi biblioqrafik vəsaitlərdən «İqtisadi xəbərlər» jurnalının 1921-1925-ci illərdəki saylarının tərkibini açan biblioqrafik vəsaiti, tanınmış tibb alimi M.E.Əfəndiyev tərəfindən tərtib olunmuş üç adda biblioqrafik məlumat

vəsaitlərini, o cümlədən «Azərbaycanın iqlim və balneoqrafiyası haqqında biblioqrafik məlumat» (1932), «Azərbaycanın tropik xəstəlikləri üzrə biblioqrafik məlumat» (1936), isitmə xəstəliyi ilə əlaqədar vəsaitini (1941) qeyd etmək olar.

Qiymətləndirmə funksiyalı tövsiyə xarakterli biblioqrafik informasiyanın ilk nümunələri XX əsrin 20-ci illərinin axırlarından meydana gəlir və 50-60-cı illərdən daha geniş miqyasda inkişaf etməyə başlayır. Məsələn, 1928-ci ildə M.Qorkiyə həsr olunmuş «Oxucuya yaddaş», 1929-cu ildə «Mülahizəli kataloq», 1940-cı ildə «Uşaq ədəbiyyatı» adlı vəsaitlər beləlerindəndir. 1940-cı illərin sonlarından M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası tövsiyə biblioqrafiyası ilə intensiv məşğul olur, müxtəlif mövzulu, məqsəd və oxucu istiqamətli xeyli tövsiyə biblioqrafik vəsaitlərini buraxır. Təkcə 1947-1958-ci illərdə kitabxana təxminən 45 adda tövsiyə vəsaiti çap etdirmişdir.

Qeyd etmək lazımdır ki, tövsiyə vəsaitlərinin özlərində də axtarış funksiyasının imkanları mövcud olur. Onlara verilən yardımçı aparat buna sübutdur. Lakin tövsiyə biblioqrafik fəaliyyətin məhsulu hesab olunan vəsaitlərin bir tipi kimi mövcud olmuş nümunəvi kataloqlarda axtarış funksiyası daha qabarıq şəkildə özünü göstərir. Doğrudur, bunlarda axtarış bir qədər şərti xarakter daşıyır. Belə ki, həmin kataloqlar şəhər, rayon və kənd kitabxanalarında olması məsləhət görülən kitabların biblioqrafik yazısını əks etdirirdi və yazıda müvafiq kitabxanada tətbiq olunan təsnifat sxeminin indeksi də qeyd olunurdu.

Azərbaycan Mədəniyyət Nazirliyinin mədəni-maarif işləri üzrə metodkabinəsi 1948-1949-cu illərdə sosial-siyasi, bədii və uşaq ədəbiyyatına dair nümunəvi katalonqların nəşrini planlaşdırır və bədii ədəbiyyat üzrə nümunəvi kataloqun (rayon, kənd və uşaq kitabxanaları üçün) birinci və ikinci buraxılışlarını 1948 və 1949-cu illərdə çap etdirir.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası (indi Milli Kitabxana) 1954-cü ildə rayon və kənd kitabxanaları üçün kənd təsərrüfatına dair kitabların, 1955-ci ildə ədəbiyyatşünaslıq və bədii ədəbiyyat kitablarının kataloqunu («Kitab kataloqu» adı ilə) çap etmişdir.

Bunlar açıq şəkildə göstərir ki, Azərbaycanda da biblioqrafik təhsilin inkişafı ardıcıllığı genetik mövqeyə tamamilə uyğun gəlir və əsas ictimai funksiyaların tarixən inkişafının qanunauyğunluğu pozulmur.

Beləliklə, əsas funksiyalar arasında münasibətlər tipi onların əsaslı və müşayiətedici olmalarına görə fərqləndirilməsinə səbəb olur və bunlardan da həm əsas funksiyaların quruluş təhlilində, həm də biblioqrafik fəaliyyətin konkret obyektlərində istifadə etmək olar.



İctimai funksiyalar arasında ikinci münasibət tipinə görə isə tamamilə başqa mənzərə ilə qarşılaşırıq. Belə ki, müəyyən biblioqrafik fəaliyyət obyektində müxtəlif ictimai funksiyalar təxminən eyni əhəmiyyət kəsb edə bilər, yəni həmin obyekt onların əməli olaraq eyni səviyyədə həyata keçirilməsini təmin edir.

Məlumdur ki, axtarış funksiyası informasiya mənbələrinin diskret (fasiləli) material obyektləri kimi məkana görə səpələnmələri və onların axtarışı, Kommunikativ funksiya sənədlərdə qeydə alınmış ilkin informasiyanın məzmun (semantik) tərkibini və zamana görə inkişafını əks etdirməklə, qiymətləndirmə funksiyası sənədləşdirilmiş informAsiyanı müxtəlif keyfiyyət meyarlarına görə qiymtləndirilməsi ilə əlaqədardır. Konkret bir biblioqrafik əsərdə bunların qarşılıqlı əlaqəsini və həyata keçirilmələri səviyyələri aşkar edilməklə həmin əsərin funksiya çoxcəhətliliyi haqqında aydın təsəvvür əldə etmək mümkündür. Bununla əlaqədar olaraq Azərbaycan biblioqrafik vəsaitlər sisteminin mühüm tərkib hissələrindən olan «Azərbaycan kitabı» adlı repertuar tipli biblioqrafik göstəricinin I (1963) və II cildinin birinci kitabı (1982), həmçinin «Azərbaycan dövri mətbuatı» adlı vəsaitlərin (1965, 1987, 1979 və 1993) üzərlərində dayanmaq məqsədə müvafiqdir. Adları çəkilən biblioqrafik informasiya mənbələri haqqında çox bəhs olunub və biblioqrafiyaşünaslıq baxımından təhlil ediliblər (2, 3, 6, 8, 11, 12, 13). Burada isə onların əsas ictimai funksiyalarının əməli olaraq həyata keçirilməsindəki əhəmiyyətlərinə görə qiymətləndirmələri nəzərdə tutulur.

İlk növbədə milli kitablarımıza dair repertuar tipli biblioqrafik əsərə nümunə olan «Azərbaycan kitabı» göstəricisi haqqında. Göstəricinin bu cildi 1963-cü ildə çap olunmuş və orada 1780-ci ildən 1920-ci ilə qədər dünyanın müxtəlif ölkələrində, şəhərlərində meydana gəlmiş, çox geniş miqyaslı axtarış nəticəsində müəyyən edilmiş 1329 adda kitabın biblioqrafik təsviri öz əksini tapmışdır. Onun yardımçı aparatının «Coğrafi adlar göstəricisi»ndən (IX) məlum olur ki, həmin dövrdə Azərbaycan müəlliflərinin kitabları Həştərxanda, Bombeydə, Varşavada, Venada, Daşkənddə, İstanbulda, Kazanda, Kəlküttədə, Krımda, Leypsikdə, Londonda, Sankt- Peterburqda, Simferopolda,Teymurxanşurada, Tehranda, Təbrizdə, Tiflisdə və başqa şəhərlərdə çap edilmişdir. Məsələn, Bombeydə Nizami Gəncəvinin «Xəmsə»si (1265 h.i., 1848-ci ildə), Xacə Nəsirəddin Tusinin «Əxlaqi Nasiri» əsəri (1268 h.i., 1851-ci ildə), Nizami Gəncəvinin «Məxzənül əsrar» əsəri (1272 h.i., 1855-ci ildə), Leypsikdə «İncili Şərif» (1892), Tehranda Nizami Gəncəvinin «Xəmsəyi Nizami» (1301 h., 1883), Cavanşir Qarabağinin «Tədbirülhəvamil» («Hamilə qadınlara məsləhət») (1311 h., 1893) əsəri çap olunub. Bunlar

sübut edir ki, həmin göstəricinin coğrafi əhatəlik dairəsi də nə qədər genişdir. Bu həm də təsdiq edir ki, biblioqrafik informasiyanın mövcudluq formalarından olan biblioqrafik vəsait üçün nə xronoloji, həm də coğrafi baxımdan məhdudiyyət yoxdur. Bunu 1993-cü ildə çap olunmuş və 1875-1990-cı illərdə ərəb əlifbası ilə buraxılan mətbuatı əhatə edən «Azərbaycan dövri mətbuatı» adlı biblioqrafik göstəriciyə də (tərt. ed.: tarix elm. nam. Solmaz Rüstəmova-Tohidi) aid etmək olar. Sənəd kommunikasiyaları sistemində vasitəçilik edən sosial institutlar içərisində yalnız biblioqrafik vəsaitlər üçün məkan və xronoloji məhdudiyyət yoxdur. Onlar nəşr ilindən, yerindən və mühafizə ünvanlarından asılı olmayaraq sənədləşdirilmiş bütün informasiya mənbələrini əks etdirmək iqtidarındadırlar. Bu biblioqrafiyaya xas olan xüsusi bir keyfiyyətdir və biblioqrafik proseslərin avtomatlaşdırılması sayəsində daha da yüksəlir.

Ümumiyyətlə, üç əsas funksiyalardan biri əslində konkret biblioqrafik informasiya mənbəyinin əsas funksiyası əhəmiyyətinə malik olur və özünün tarixi inkişafı prosesində başqa funksiyaların səciyyəvi anlarını qismən də olsa əks etdirir. Bəzi hallarda isə funksiyalardan ikisi eyni əhəmiyyətə malik olur.

«Azərbaycan kitabı» göstəricisinin birinci cildi (1963) bu cəhətdən xüsusilə səciyyəvidir. İlk baxışda belə nəzərə çarpır ki, o axtarış funksiyasının ilkin mərhələsini əməli olaraq həyata keçirən bir biblioqrafik əsərdir. Bu onun biblioqrafik mətninin doğurduğu təsəvvürdür. Çünki həmin hissədə nəzərdə tutulan dövrdə dünyanın müxtəlif ölkələrində meydana gəlmiş kitabların eyniləşdirmə modeli (biblioqrafik təsviri) verilir və bununla da mövcud olan kitablar müəyyənləşdirilir, informasiya istifadəçiləri maraqlandıqları Azərbaycanlı müəlliflərin dünyanın müxtəlif ölkələrində işıq üzü görmüş kitabları haqqında axtarışın ilkin mərhələsinə uyğun biblioqrafik informasiya ala bilərlər. Kommunikativ funksiya da əsas mətnə görə bir tərəfli yerinə yetirilir.

«Azərbaycan kitabı» göstəricisinin biblioqrafik mətni ilə yardımçı aparatı kompleks şəkildə təhlil olunduqda funksiyaların əməli həyata keçirilməsi ilə əlaqədar vəziyyət xeyli dəyişir. Məlum olur ki, o, iki əsas funksiyanı (axtarış və kommunikativ)bərabər səviyyədə həyata keçirmək imkanına malik olan əsaslı biblioqrafik informasiya mənbəidir.

Məlumdur ki, axtarış funksiyasının icrası iki mərhələlidir. İlkin və qəti mərhələ. İlkin mərhələdə haqqında axtarış aparılan sənədin (kitabın) biblioqrafik əlamətləri müəyyən edilir. Adı çəkilən göstəricinin əsas mətni isə həmin əlamətləri müəyyən standartla əks etdirən biblioqrafik təsvirlərin müvafiq prinsiplə əks olunan toplusundan ibarətdir və ilkin mərhələ də bununla həll edilir. Sual olunur, bəs göstərici qəti mərhələni nə ilə və hansı səviyyədə həll edə bilər? Suala cavab yardımçı aparatın axırıncı X göstəricisində verilir. Bu yardımçı göstəricidə haqqında biblioqrafik informasiya verilən kitabların mühafizə olunduğu kitabxanaların adları çəkilir. Aydın olur ki, sovet məkanının mühüm kitabxanaları göstəricidə əks olunan kitabların mühafizə olunduğu ünvandır və bununla da axtarış aparan informasiya istifadəçisi maraqlandığı kitabın ünvanını, hansı kitabxanada olduğunu müəyyənləşdirir. Məsələn, oxucu müəyyən edə bilir ki, M.Füzulinin «Divanı»nın 1850-ci il nəşri M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında, Bakı Dövlət Universitetinin kitabxanasında, Əbülqasim Nəbatinin «Müntəxəbati-Nəbati» əsərinin 1850-ci il Təbriz nəşri Azərbaycan MEA Əlyazmaları İnstitutunun fondunda, S.Ə.Şirvaninin «Divan»ının 1895-ci il Tiflis nəşri Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasında mühafizə olunur. Bir cəhəti də qeyd edək ki, qəti mərhələ tam mənada həll olunmur. Çünki kitabların saxlandığı kitabxananın fondunda tətbiq olunan təsnifat sxeminə görə indeks və müəllif işarəsi burada qeyd olunmayıb.

Kommunikativ adlanan ikinci funksiyanın biblioqrafik baxımdan mənası sənədlərin, o cümlədən kitabların nəşr dövrünə görə formak və məzmun vəhdətində mövcudluqlarını informasiya istifadəçilərinə bildirməkdən ibarətdir. Haqqında bəhs olunan göstəricilərdə, həmçinin «Azərbaycan kitabı» əsərinin birinci cildində müvafiq çap əsəri formasının 150 ilə qədər mövcudluğu xronoloji prinsiplə öz əksini tapmışdır. Burada məzmun və məkan müəyyənliyi yenə yardımçı apparat vasitəsilə mümkün olur. Yardımçı aparatın «Mövzu göstəricisi» və «Coğrafi adlar göstəricisi» adlanan göstəriciləri bu cəhətdən səciyyəvidir. Məsələn, «Mövzu göstəricisi» vasitəsilə müəyyənləşdirmək mümkündür ki, əhatə olunan illərdə sosial-siyasi elmlərə dair 41, Azərbaycanın neft sənayesinə dair 3, kənd təsərrüfatına dair 16, coğrafi məzmunda 7 adda kitab işıq üzü görmüşdür.

«Azərbaycan kitabı» adlı göstəricinin 2-ci cildinin 1-ci kitabı (təəssüf ki, sonuncu) (1920-1940) «Yazıçı» nəşriyyatı tərəfindən Azərbaycan Dövlət Kitab Palatasının əməkdaşları V.C.Mirzəyevanın, M.Ə.Zavalovanın, N.A.İsmayılovanın tərtibi ilə, H.Araslı və Ə.Mirəhmədovun redaktələri ilə 1982-ci ildə çap olunmuşdur. Bu cild haqqında çox bəhs olunmuşdur (2, 13). Burada onun biblioqrafik informasiyanın sosial funksiyalarını həyata keçirməsilə əlaqədar cəhətlərinə münasibət bildiriləcək. İkinci cildin bu kitabı sosial-siyasi, hərbi elm, bədən tərbiyəsi, humanitar elmlər üzrə kitablar, həmçinin biblioqrafik vəsaitlər, ümumi soraq kitabları, ensiklopediyalar, təqvimlər, qarışıq məzmunlu məcmuələr əks olunmuşdur. O, kommunikativ funksiyalı biblioqrafik infor-

masiya mənbəidir və əsasən həmin funksiyanın əməli olaraq həyata keçirilməsinə xidmət edir. Burada axtarış funksiyasının da əlamətləri yardımçı aparatının «Müəlliflərin əlifba göstəricisi»ndə və «Fərdi müəllifsiz kitabların əlifba göstəricisi»ndə özünü büruzə verir və yalnız əsas mətndə axtarışa xidmət edir. Qiymətləndirmə funksiyasının əlamətlərinə də təsadüf edilir. Belə ki, «Tərtibçilərdən» adlanan giriş məqaləsində bildirilir ki, göstəriciyə siyasi, tarixi və bədii əhəmiyyətini itirmiş kitablar daxil edilməmişdir. Beləliklə, onun funksional mahiyyətinin simvolik işarəinin ardıcıllığı bu cür qeyd oluna bilər: BAC. Oxucular Azərbaycanın milli-mənəvi sərvətinin mühüm tərkib hissəsi olan və 1920-1940-cı illərdə respublikamızın ərazisində onun sərhədlərindən kənarda, o cümlədən Tiflisdə, Dağıstanda əlaqədar sahələr üzrə çap olunmuş 7063 kitab haqqında biblioqrafik informasiya almaq imkanını bu biblioqrafik göstərici vaitəsilə əldə edə bilərlər.

Funksiya mahiyyətinin müxtəlifliyini, məkan və dövri əhatəliyini açıqlamaq üçün ənənəvi biblioqrafik mənbələrin sayını xeyli artırmaq olar. Lakin indi zaman və informasiya ehtiyaclarının məzmunu, onu doğuran səbəblər xeyli dəyişmişdir. İnformasiya əsr hesab olunan XXI yüzilliyin qarşıya qoyduğu tələblər informasiyanın çatdırılmasının sürətləndirilməsi və beynəlxalq miqyaslı komplektliyi ilə təmin oluna bilər. Beynəlxalq miqyasda informasiya ənənələrinin əhəmiyyətli dərəcədə artması, çoxsaylı problemlərin qlobal, ümumibəşəri xarakter olması buna sübutdur. Elmi-texniki tərəqqi, o cümlədən kompüter texnikasının dünyada geniş miqyaslı tətbiqi dövlətlər və xalqlar arasında əlaqələrin genişlənməsinə səbəb olur. İnformasiyalaşma prosesində geri qalmamaq üçün insan fəaliyyətinin bütün sahələrində, o cümlədən biblioqrafik fəaliyyət proseslərində informasiya texnikasının tətbiqi təxirə salınmaz vəzifə kimi qarşıda durur. Bunsuz informasiyalaşmanı müasir dövrün tələbləri səviyyəsinə qaldırmaq, beynəlxalq səviyyədə təşkil etmək, beynəlxalq standartlara uyğunlaşdırmaq mümkün deyil.

Dünyada yeni informasiya texnikasının işlənməsi və tətbiqi prosesi o qədər sürətlə və geniş miqyaslı xarakter almışdır ki, bu da sənəd kommunikasiyaları sisteminin yeniləşməsi istiqamətində dəyişiklik baş verməsinə gətirib çıxarmışdır. Heç olmasa onu qeyd etmək lazımdır ki, internet şəbəkəsi müxtəlif növ sənədlərin qeydə alınmasında məkana görə sərhədi tamamilə aradan qaldırmış, informasiya istifadəçilərinin istədikləri sənədlər, onların məzmun tərkibi, mətnləri haqqında informasiya almaq imkanı əldə etmişlər.

Biblioqrafik fəaliyyət həyata keçirən bütün müəssisələr, xüsusilə mühüm kitabxanalar biblioqrafik informasiya axtarışı və xidməti sistemi



üçün müvafiq proqramların işlənməsinə və ya dünyada mövcud olan proqramları əldə etməyə, yerli variantını işləyib tətbiq etməyə diqqəti artırmalıdırlar. Bu istiqamətdə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının və Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının təşəbbüsləri təqdirə layiqdir. Kitabxanalarımız zamanın tələblərini nəzərə alaraq iri avtomatlaşdırılmış biblioqrafik informasiya sistemlərinin yaradılmasını sürətləndirməli, oxucuların öz fondlarından istifadə etmələrini təmin etməli, heç olmasa respublikanın başqa kitabxanaları ilə müvafiq əlaqə yaratmalı və tədricən dünya miqyasına çıxmalıdırlar. İlkin mərhələdə kitabxanaların biblioqrafik məlumat bazaları və elektron kataloqlarla qarşılıqlı əlaqədə avitomatlaşdırılmış soraq-biblioqrafiya aparatını yaratmaq lazım gəlir.

Kitabxanalarda yaradılan elektron məlumat bazaları həm biblioqrafik vəsaitləri, həm də yeni sənədləri əks etdirməlidir. Belə olan halda biblioqrafik məlumat bazaları bir tərəfdən keçmiş ədəbiyyatı əks etdirən ənənəvi biblioqrafik vəsaitlərin, onlarda əks olunan ədəbiyyatın, digər tərəfdən yeni sənəd axınının operativ axtarışı təmin oluna bilər. Biblioqrafik məlumat bazalarını elektron kataloqa çevrilməsi oraya sənədin saxlandığı yerin daxil edilməsi ilə təmin olunur. Biblioqrafik məlumat bazalarının və elektron kataloqların məhəlli dairədə, o cümlədən rayon MKS-lərdə yaradılması da yerinə düşər. Bu ölkə prezidentinin respublikanın ayrı-ayrı məhəllələrinin sosial-iqtisadi proqramının həyata keçirilməsində mühüm addım olar.

Elektron biblioqrafik məlumat bazalarının və kataloqların yaradılmasının həyata keçirilməsi iki əsas şərtlə mümkündür:

1. Kitabxanalarımızın maddi-texniki bazasının möhkəmləndirilməsi, onların internet və kompüter texnologiyası ilə təchizatı.

2. Yeni informasiya texnikasından və texnologiyasından başı çıxan, onun əməli olaraq tətbiqi və proqram təminatı səriştəsi olan kadrlarla təminatı.

Kitabxanaçılıq-informasiya fakültəsində tədris prosesinin təşkilində gedən islahatlar kitabxanaçı-biblioqraf kadrların hazırlanması istiqamətində böyük dönüşün baş verməsi üçün lazımi zəmin yaradacaq.

## *ƏDƏBİYYAT*

**Azərbaycan dilində**


*1. Azərbaycan kitabı: (biblioqrafiya).- Üç cilddə:1780-1920 / Tərtib edəni Ə.Y.Əliyev.- B.,1963.- 218 s.*

*2. Bədəlov E.M. Azərbaycan kitabı: (ikinci cildin birinci kitabı haqqında) // Bakı.-1982.-19 iyun.*

3. Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərs vəsaiti.- B.:ADU nəşri,1978.-78 s.

4. Əliyev Z.H. Biblioqrafik informasiya və onun elmi mahiyyəti // Kitabxanaşünaslıq və biblioqrafiya:elmi-nəzəri və təcrübi jurnal.-1998.-№1.-S.17-25.

5. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.- Bakı:Universitet nəşriyyatı, 2001.- 143 s.

6. Məhərrəmli C. Dövri mətbuatımıza dair // Ədəbiyyat və incəsənət.-1965.- 30 oktyabr.

Rus dilində

7. Багрий А.В. Народная словесность Гавгаза: Материалы для библиографического указателя.-Б.,1926.

8. Веревкина А.М., Керимова З.А. Библиография до революционной Азербайдъанской книги: 1780-1920 //Сов. Библиография.-1966.-№2.-С.90-97.

9. Коршунов О.П. Библиография: Теория, методология, методика.- М.: Книга,1986.- 286 с.

10. Коршунов О.П. Библиографоведение. Общий курс.- М.: Книжная палата,1990.- 232 с.

11. Кязимов Р.А. Первая библиография Азербайдъанской книги //Бакинский рабочий.-1964.-23 июля.

12. Мирзоева В.Д. Опыт составления библиографии «Азербайдъанская книга» // Сов.библиография.-1966.-№1.- С.19-23.

13. Халафов А.А. и Кязимов Р.А. Богатство мудрости и добры // Бак.рабочий.-1983.- 8 февраля.

**Зохраб Алиев**

## БИБЛИОГРАФИЧЕСКИЕ ПОСОБИЕ, ИСТОЧНИКИ ИНТЕГРАЛЬНОГО ОТРАЖЕНИЕ ДОКУМЕНТАЛЬНЫХ ПОТОКОВ И МАССИВОВ

### *РЕЗЮМЕ*

*Система библиографических информационных изданий национальной библиографии Азербайджана отражает огромное число документов по отдельным отраслям науки, культуры и народного хозяйства. В этой статье раскрывается сущностно-функциональные структуры отдельных более крупных библиографических информационных источников.*

*Əşrəf XƏLƏFOV*
*Pedaqoji elmlər namizədi,*
*dosent*

# ARXİV SƏNƏDLƏRİNİN BİBLİOQRAFİYASI ELMİ-KÖMƏKÇİ BİBLİOQRAFİK VƏSAİTİN BİR TİPİ KİMİ

Ədəbi biblioqrafiyanın xüsusi tiplərindən biri də arxiv sənədlərinin biblioqrafik göstəriciləridir. Azərbaycanda 1950-ci illərdən tərtib edilib nəşr olunmaqdadır. Bu biblioqrafik göstəricilər tərtibi metodikasına, məqsəd və oxucu istiqamətinə görə təzkirə və mətn biblioqrafik vəsaitlərin tərtibi metodikasından fərqlənir. Bunsuz yazıçının əsərlərinin şəxsi biblioqrafiyası tam hesab edilmir. Arxiv sənədlərinin biblioqrafik vəsaitlərinə dair ilk nümunə 1950-ci ildə çap olunmuş «M.F.Axundov arxivinin təsviri» adlı həm rus, həm də Azərbaycan dilində çap olunmuş göstəricidir. Göstəricinin müəllifi A.Ə.İbrahimovdur.

1961-ci ildə müəllifi M.Paşayeva olan «Cəlil Məmmədquluzadə arxivinin təsviri» 1962-ci ildə müəllifi C.Nağıyev olan «S.S.Axundov arxivinin təsviri», «C.Cabbarlı arxivinin təsviri», 2004-cü ildə müəllifi A.Xəlilov, A.Musayeva olan «Xacə Nəsirəddin Tusi» adlı vəsaitlər çapdan çıxmışdır. Yazıçı və şairlərin həyat və yaradıcılığını tədqiq edən professional oxuculara kömək məqsədilə tərtib olunan bu vəsaitlər mətn biblioqrafiyasını tamamlayır. Çünki sənətkarın yaradıcılığını təkcə çap əsərləri vasitəsi ilə öyrənib tədqiq etmək birtərəfli olar. Çap əsərləri, zənqin arxiv sənədləri ilə bərabər muzey eksponatları, şəxsi muzeylərin materialları araşdırılır. Məhz bu məqsədlə Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar Elmi Tədqiqat İnstitutunda, C.Məmmədquluzadə, Ə.Əzimzadə ev muzeylərində, ədəbiyyat və incəsənət arxivində mühafizə edilməklə ondan istifadə edilməsini asanlaşdıran arxiv sənədlərinin biblioqrafik göstəricilərinin tərtib və çap edilməsi ilə də məşğul olunmalıdır. Bu elmi müəssisələrdə yazıçıların əsərlərinin avtoqrafları, külli miqdarda məktubları və başqa şəxslərin yazıçılara göndərdikləri məktubları, foto sənədləri, vəsiqə və təliqələri, şəxsi kitabxanaları və s. vardır. Bu sənədlər yazıçı və şairlərin nə kimi şərait-

də yazıb-yaratdıqlarını, mütaliə mədəniyyətlərini öyrənmək baxımından da vacib və zəngin mənbələrdir.

M.F.Axundov arxivində 1300-dən artıq material, o cümlədən müxtəlif şəxslərə yazdığı 154 məktubun surəti, ona göndərilən 124 məktubun orijinalı saxlanılır. C.Məmmədquluzadənin arxivində «Ana-mın kitabı» pyesinin 4, «Ər» pyesnin 3, «Dəli yığıncağı» pyesinin 6, «Kamança» hekayəsinin 3 və s. variantı vardır. S.S.Axundovun arxivində «Laçın yuvası»nın 7, «Səadət zəhmətdədir»in 4, «Şeytan»ın 3 variantı vardır.

Bu və başqa yazıçıların əsərlərinin variantları göstərir ki, ədiblər öz əsərləri üzərində çox məsuliyyətlə çalışmış, onları yenidən işlərkən mühüm təchih və dəyişikliklər etmişlər. Bu təchihlər onların yazı ÜSU-lunu, sənətkarlıqlarını açıqlamaq nöqteyi-nəzərindən böyük elmi əhəmiyyətə milikdir.

Bu biblioqrafik vəsaitlərdə materialların qruplaşdırılmasında və strukturunda demək olar ki, ciddi dəyişikliklər yoxdur. Bir qayda olaraq bu vəsaitlərdə sənədlər iki hissədə təqdim edilmişdir. Birinci hissədə yazıçının öz qələmindən çıxan əsərləri, məktubları ədəbi janra görə daxilən əlifba ilə verilmişdir. İkincidə yazıçıya göndərilən məktublar və sənədlərin biblioqrafik təsvirləri əks olunmuşdur.

Məsələn, «M.F.Axundovun arxivinin təsviri» biblioqrafik göstəricisinin birinci hissəsində şeirləri, nəsr əsərləri, dram əsərləri, fəlsəfi əsərləri, tarixi əsərləri, tənqidi əsərləri, yeni əlifba layihələri, M.F.Axundovun müxtəlif şəxslərə və yerlərə yazdığı məktubların surətləri, şəxsən ona və ailəsinə aid sənədlərin və təlqələrin surətləri, ona göndərilən təliqələr, ikinci hissədə müxtəlif şəxslərdən M.F.Axundova göndərilən məktublar, naməlum şəxslərə onun göndərdiyi məktublar, müxtəlif şəxslərlə məktublaşmaları, M.F.Axundovun arxivində saxlanılan kitablar öz əksini tapmışdır.

Əgər arxivdə eyni əsərdən bir neçə nüsxə varsa, onlar rum rəqəmi ilə göstərilərək daxili xronologiya ilə, tarixi məlum olmayanlar isə sonra verilmişdir. Biblioqrafik təsvirdə hər bir materialın ölçüsü, həcmi, yazılış tarixi, yazıldığı yer, kağızının növü, mürəkkəbi, xətti, avtoqraf olub-olmaması, vəziyyəti, başlandığı və bitirdiyi cümlə, inventar nömrəsi, vahid bir sistem üzrə təsviri verilmişdir. Məsələn, S.S.Axundovun «İki yol» pyesinin təsvirini misal göstərək:

*«İki yol» (Bir pərdəli facia). Harada və nə vaxt yazıldığı qeyd edilməmişdir. Azərbaycan dilində, latın əlifbası ilə yazılmışdır. Pyes əlyazmasında tam deyil, ağ, saya vərəqlərdə maşında çap edilmişdir.*

*Başlanır: səhnə Mir Kazım ağanın otağını göstərir...*



*Bitir: dayı, mən də yalvarıram Qönçəni əmindən ayırma Molla Fəttah...*

*Ölçüsü 21, 5*30 sm, həcmi 27 vərəqə, inv.№ 153/6346 və s.*

Bir neçə mövzüya aid olan əsərin başqa bölmələrdə təkrarən təsviri verilmişdir, yaxud isnad təsviri vardır. Sonra məlumat aparatı da verilmişdir.

Məlum bir həqiqətdir ki, biblioqrafiyanın obyekti uzun müddət çap əsərləri hesab olunurdu. Kitab-oxucu münasibəti biblioqrafik informasiya, sənəd-tələbatçı sistemində vasitəçi olduğundan sonra onun obyekti genişlənir. Çünki sənəd-kommunikasiya sistemi də bütövlükdə sənədlərin cəmiyyətdə istifadə və yayılmasını təmin edir. Bədii ədəbiyyatşünaslığın biblioqrafiyasında arxiv sənədləri biblioqrafik vəsaitin obyekti həsab olunmurdu. Buna baxmayaraq əlyazmalar fondunun təşkili prosesi təcrübədə bu fikrin həqiqətə uyğun və elmə zidd olduğunu göstərdi. Əlyazmalar fondunun kataloq-kartoteka sisteminin yaradılması və ondan istifadənin təcrübəsi, əlyazmalar fondunun elmi-tədqiqat institutuna çevrilməsi, onun zənqin fondundan professional tələbatçıların elmi-tədqiqat işində istifadə etməsi prosesininsonrakı mərhələsi elmi-köməkçi biblioqrafik vəsaitinin bir tipi kimi meydana gəlməsinə səbəb oldu. Əlyazmalar fondunun ikicildlik kataloqunun tərtib edilib nəşr olunması cüng və bəyazların tərkibi və məzmunu açan göstəricilərin yaranması, ayrı-ayrı görkəmli sənətkarların yaradıcılığının tam və həm də elmi cəhətdən işıqlandırılmasının mümkün olmadığını irəli sürdü. Sənətkarların əlyazmalarından istifadə üçün «Arxiv sənədlərinin təsviri» adı ilə onların analitik biblioqrafik göstəricisini tərtib və nəşr edib oxucuların istifadəsinə təqdim etdilər. Arxiv səndlərinin biblioqrafiyası bədii əsər sənətkar və oxucu münasibətlərinin öyrənilməsi üçün də zəngin biblioqrafik mənbədir.

İndiyə kimi C.Məmmədquluzadənin, Ü.Hacıbəyovun mütaliə mədəniyyəti, M.Qorkinin mütaliə mədəniyyəti mətbuatda işıqlandırılmışdır. Görkəmli sənətkarların mütaliə mədəniyyətinin öyrənilməsi oxucular üçün bir örnəkdir. Bunu yazmaq isə biblioqrafın gündəlik yaradıcılıq vəzifələrindən biridir.

Bədii ədəbiyyat öz problem məzmununa, janrlarına, ifadə imkanlarına görə çoxcəhətli və mürəkkəb olduğu kimi onun oxucuları da yekcins deyildir. Onlar sosial-mədəni meyli, maraq, zövq və tələbatı, mənəvi estetik inkişafı cəhətincə bir birindən fərqlənirlər, sosial təcrübəni müxtəlif səviyyədə mənimsəyirlər. Bütün bunlar mütaliə mədəniyyətinin inkişaf etdirilməsini tələb edir, böyük təcrübə və elmi əhəmiyyət kəsb edir, ancaq biblioqrafları deyil, kitab nəşri işçilərini, psixoloqları,

sosioloqları, ədəbiyyatşünasları və başqa elm sahələri alimlərini düşündürür. Onların bədii tələbat və zövqünün formalaşmasında mütaliə mədəniyyəti həlledici rol oynayır.

M.F.Axundov adına Respublika Dövlət Kitabxanası tədqiqatın nəticəsi olaraq «Azərbaycanın həyatında kitab və mütaliənin yeri» əsərini çap etdirmişdir (1983). Mütaliənin təhlili göstərir ki, mütaliə mədəniyyətinin səviyyəsində ədəbi-bədii maraqda müəyyən keyfiyyət dəyişiklikləri baş verir. Mütaliə mədəniyyətinin inkişafında maraq şəxsiyyətin sosial təcrübəsi ilə, onun ümumi mədəniyyətinin səviyyəsi ilə əlaqələndirilir. Məhz maraq mütaliə mədəniyyətinin mühüm göstəricisi kimi çıxış edir, professional oxucuların sənətkarların əsərləri ilə ünsiyyətdə olmaları barədə geniş təsəvvür yaradır, onların necə mütaliə etməsini öyrənməyə imkan verir. Təsadüfi deyil ki, mütaliə mədəniyyətin inkişafında professional oxucu marağının öyrənilməsinə xüsusi yer verilir. Əlyazma variantının seçilməsinə, ona müraciət etməyin motivinə, mətnin qiymətləndirilməsinin meyarına üzvi şəkildə baxılır. Onların marağı sabit və davamlıdırsa, qeyri-adi oxucular sayılır, tədqiqat maraqlarının hərtərəfli, harmonik olmaları ilə adi oxuculardan fərqlənirlər.

Bədii əsəri qiymətləndirərkən kriteriyaya isnad edilir, yazıçının sənətkarlarlığını, əsərin janr, dil və üslubunu qiymətləndirmək, ideya-estetik bütövlüyünü qavramaq bacarığına malikdirlər. V.A.Asmisin təbirincə desək: «Bədii əsərin əsl mütaliəsi yaradıcılıq hesab olunur». Mütaliə mədəniyyəti sənətkar mədəniyyətinin tərkib hissəsidir, o, şəxsiyyət mədəniyyətin zənginləşdirilməsi ilə səciyyələnir, adi oxucular üçün örnək mənbələrinə çevrilir. Arxiv sənədlərinin biblioqrafiyası ancaq sənətkarın yaradıcılıq xüsusiyyətlərini araşdırmaq baxımından deyil, həm də onların mütaliə mədəniyyətini bu və ya digər əsərə münasibətini, mütaliə dairəsini öyrənmək, apardığı qeydləri bilmək baxımından da zəngin material verir, mütaliə mədəniyyətinin formalaşdırılmasını, onun inkişafını izləməyə kömək edir.

Sənətkarın öz əsərlərinin oxucusu olduğunu, ona necə redaktə etdiyini öyrənmək üçün hər bir əsərin variantlarını nəzərdən keçirmək lazım gəlir. Bu variantlarda yazıçının əlavələr etdiyini, yaxud ilk variantda olan çıxardığını, bir sözlə, sənətkarın yaradıcılıq manerasının xüsusiyyətlərini öyrənməyə imkan verir. Bu variantları öyrənmədən yazıçının yaradıcılığını tam, mükəmməl işıqlandırmaq mümkün deyildir. Oxucu və yazıçı münasibətlərinin öyrənilməsi əsasında bədii əsərlərdə edilən dəyişikliklər, əlavələrin və onun səbəblərinin öyrənilməsi professional tələbatçılar üçün tədqiqat əsəri yazılmasının əsas mənbələridir. Məsələn, Ə.Haqverdiyevin kiçik hekayələrindən biri sövdəgər Məşədi



Qulamın sərgüzəştindən, onun həyat tərzinə münasibətindən bəhs edir. Bu hekayənin variantlarına nəzər yetirdikdə sənətkarın hekayənin mətn üzərində necə diqqət və özünə tələbkarlıqla yanaşmasına heyran qalırsan. Oxucunun görə bilmədiyi artıq, təkrar sözləri redaktor kimi necə aradan qaldırdığını, mətnə xələl gətirmədən sözləri ixtisar etdiyini görürük. Yazıçı Məşədi Qulamın obrazını təqdim edərək yazır: «Məşədi Qulam rus dilini bilməsə də az-çox bəzi sözləri anlaya bilirdi». O, bu sözün üstən qələm çəkir, onu artıq hesab edir. Niyə? Ona görə ki, məşuqəsi Nataşadan məktub gətirən oğlana deyir: Get denən «xərəşo», çünki «xoroşo» sözünü «xərəşo» deyən şəxsin məntiqi olaraq savadı ola bilməzdi. Yaxud yazır: «Məşədi Qulam şəhadət barmağını iki əlinə birləşdirib çırtıq çaldı. Sonrakı variantda «iki əlinin barmağını» sözünü pozmuşdur. Çünki bir əldə bir şəhadət barmağı olur.

Daha bir misal. M.İbrahimovun «Gələcək gün» romanının ilk çap mətnində əsərin qəhrəmanı Gülnaz intihar edir. Sonrakı nəşrdə Gülnazın sağ olduğu göstərilir. Çünki oxucular bunu müəllifdən tələb etmişlər. Hətta əsərə ayrı-ayrı fəsillər də əlavə edilmişdir.

Bütün bunlar sənətkarın yaradıcılığının səciyyəvi cəhətlərinin işıqlandırılması üçün əvəzsiz biblioqrafik məxəzi təşkil edir. Sənətkarın öz əsərlərinin oxucusu olduğunu, onu necə redaktə etdiyinin öyrənmək üçün hər bir əsərin variantlarının nəzərdən keçirmək lazım gəlir. Bu variantlarda yazıçının əlavələr etdiyini, yaxud ilk variantda olan bəzi hissələri çıxardığını, bir sözlə, sənətkarın yaradıcılıq manerasının xüsusiyyətlərini öyrənməyə imkan verir. Bu variantları öyrənmədən yazıçının yaradıcılığını elmi, tam, mükəmməl işıqlandırmaq mümkün deyildir. Oxucu və yazıçı münasibtələrinin öyrənilməsi əsasında bədii əsərlərdə edilən dəyişikliklər, əlavələr və onun səbələrinin öyrənilməsi professional tələbatçıların tədqiqat əsəri yazmasının əsas mənbələridir.

«Arxivin təsviri» termini «Arxiv sənədlərinin bibiloqrafik göstəricisi» kimi verilməli, nəşr olunmuş vəsaitlərin təkmilləşdirilmiş nəşri çap edilməlidir. Çünki yazıçının arxivində olan, lakin vəsaitə düşməyən, yaxud sonradan tapılan sənədlər də mövcud olur. Məsələn, M.F.Axundov arxivinin təsvirində onun oğluna yazdığı və oğlunun cavab məktubları rus dilində biblioqrafik vəsaitdən sonra çap edilmişdir. Yaxud da C.Cabbarlının bir çox çap edilməmiş əlyazma əsərləri oxucuların ixtiyarına verilmişdir. Bu əsərlərin çap edilməməsinin səbəbini bilmədən onun yaradıcılığını elmi şəkildə öyrənmək mümkün deyildir.

M.Müşfiqin, M.İbrahimovun, S.Vurğunun, R.Rzanın, H.Mehdinin və başqalarının arxiv sənədlərinin biblioqrafik göstəriciləri tərtib olunmalıdır. Arxiv sənədlərinin araşdırılmasına və belə biblioqrafik göstəri-

cilərin nəşrinə böyük ehtiyac vardır. Arxiv sənədlərinin biblioqrafik göstəricisinin elmi-köməkçi vəsaitin bir tipi kimi bundan sonra da inkişaf etdirilməsi böyük sənətkarların mütaliə mədəniyyətinin araşdırılmasına, öyrənilməsinə təkan verən bir vasitədir.

## ƏDƏBİYYAT


*1. Ədəbi məlumat cəbvəli (10 məşhur şərq mənbəyi əsasında) Tərd. ed. Pənahi Makulu; Red. M.Sultanov; Azərbaycan EA Respublika Əlyazmaları Fondu. – B. Azərbaycan EA Nəşriyyatı, 1962 .- 572 s.*

*2. Əlyazmalar kataloqu. 1 c. Tarix, coğrafiya, ədəbiyyat, bədii ədəbiyyat nəzəriyyəsi, təzhirələr və münşəat, Tərd. ed. M.Sultanov; Azərbaycan EA Əlyazmalar İnstitutu.-B, Azərbaycan EA Nəşriyyatı 1963.- 516 s.*

*3. Əlyazmalar kataloqu. 2 c. Cünglər / Tərt. ed. Sultanov; Azərbaycan EA Respublika Əlyazmaları Fondu.-B.: Azərbaycan EA Nəşriyyatı, 1977.-191 s.*

*4. Paşayeva M. Cəlil Məmmədquluzadə (Molla Nəsrəddin) arxivinin təsviri / Red: M.S,Sultanov; Azərbaycan EA Əlyazmalar fondu.-B.: Azərbaycan EA Nəşriyyatı, 1961.-156 s.*

*5. Nağıyeva G. S.S.Axundov arxivinin təsviri / Red: F.Seyidov; Azərbaycan EA Əlyazmalar Fondu-B.: Azərbaycan EA Nəşriyyatı, 1962.-91 s.*

*6. Paşayeva M. Cəfər Cabbarlı arxivinin təsviri / Red: Ə.Məmmədov; Azərbaycan EA Əlyazmalar Fondu-B.: Azərbaycan EA Nəşriyyatı, 1965.-257 s.*



***Ашраф Халафов***


## БИБЛИОГРАФИЯ АРХИВНЫХ ДОКУМЕНТОВ КАК ОДИН ИЗ ВИДОВ НАУЧНО-ВСПОМОГАТЕЛЬНОЙ БИБЛИОГРАФИИ


***РЕЗЮМЕ***

*В статье анализируется библиография архивных документов как один из важных видов научно-вспомогательной библиографии и обосновываются их отличительные черты.*

**Sima İSMAYILOVA**
*Müəllim*

# CARİ BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏLƏRİ ƏDƏBİYYATŞÜNASLIĞIN BİBLİOQRAFİK İNFORMASİYA TƏMİNATINDA

Cari biblioqrafiya yeni meydana gələn sənədlər haqqında ardıcıl məlumat vermək (və onların biblioqrafik qiymətləndirilməsi) funksiyasını yerinə yetirir, daha doğrusu tələbatçılara öz sahələrində sənəd axınını daim izləmək və bu axında hərtərəfli istiqamətləndirmək imkanı yaradır. Bu vəzifə xüsusiyyəti cari biblioqrafik informasiyanın dolğunluğuna və operativliyinə, sənədin meydana gəlməsi ilə informasiya çatdırılması arasındakı fasilənin minimuma endirilməsinə səy göstərilməsini tələb edir. Biblioqrafik informasiyada carilik onun tələbatçıya qısa vaxt ərzində və ardıcıl çatdırılması ilə ölçülür.

Cari biblioqrafik informasiya dövri biblioqrafik nəşrlər formasında və ya fərdi biblioqrafik xidmət (məs., inforomasiyanın seçilib yayılması sistemi üzrə) üsulları ilə həyata keçirilə bilər (2.-S.98). Cari biblioqrafik informasiya mənbələrinin yaradılmasının və tələbatçıya çatdırılmasının dövriliyi məsələsi böyük əhəmiyyətə malikdir. Cari biblioqrafik məlumatvermə gündəlik, həftəlik, aylıq və ya rüblük ola bilər.

Müasir mərhələdə biblioqrafiya sosial-iqtisadi inkişafın ən mühüm cəhətlərini əks etdirir və bununla da elmin, mədəniyyətin və istehsalın bütün sahələrinin biblioqrafik informasiya ilə təminatına şərait yaradır. İnformasiyanın formalaşdırılması və ehtiyacı olanlara çatdırılması vasitələri onun təsbit olunduğu mənbələrdir. Deməli, informasiya kommunikasiyaları sistemi cəmiyyətin informasiyalaşdırılmasında əsas amildir.

Biblioqrafiyanın xidmət sahələri müxtəlifdir. Hər xidmət sahəsinin məqsəd və vəzifələri, spesifik cəhətləri var və onlar biblioqrafiyalaşdırma və biblioqrafik xidmət proseslərinin həyata keçirilməsinə təsir göstərir. Biblioqrafik informasiya xidmətinə ehtiyacı olan ən mühüm sahələrdən biri elmi-tədqiqat fəaliyyətidir. Əgər biblioqrafik informAsiya tələbatçılarını ən fəal, fəal və fəal olmayan qruplara bölmək müm-

kün olsa, onda elmi-tədqiqat işçiləri ən fəallardan hesab edilə bilər. Həm də bu fəallıq bir neçə cəhətdən səciyyəvidir. Birincisi ona görə ki, elmi-tədqiqat işi ilə məşğul olanlar həmişə axtarışdadırlar, sənəd axınını ardıcıl izləməyə və mövcud sənəd toplusunu araşdırmağa məcburdurlar. İkincisi, onları təkcə yerli nəşrlər deyil, həm də dünya elminin nailiyyətlərini işıqlandıran sənədlər maraqlandırır. Üçüncüsü, onlar ən yeni materiallar haqqında daha dolğun, ardıcıl və operativ biblioqrafik informasiya almaq marağındadırlar (2.-S.120).

Müasir elmi-tədqiqat fəaliyyət sahələri, o cümlədən hümanitar elmlər sistemində ədəbiyyatşünaslıq çoxşaxəli bir elm sahəsi kimi formalaşmış və inkişaf etməkdədir. Bu elm sahəsinin elmi-tədqiqat fəaliyyəti ildən-ilə genişlənir və yeni məzmun kəsb edir.

Azərbaycan ədəbiyyat tarixinin, tədqiqi müasir ədəbi prosesin işlənilməsi baxımdan çoxşaxəli tədqiqatlar apararaq elmin bu sahəsi üzrə olan biblioqrafik informasiya mənbələrinin ən fəal istifadəçilərinə çevrilmişlər.

Məlumdur ki, ədəbiyyatşünaslıq sahəsi üzrə istər retrospektiv, isərsə də cari xarakterli biblioqrafik informasiya mənbələri mövcuddur. Təbiidir ki, ədəbiyyatşünaslıq elmi ilkin mənbələr haqqında bibiloqrafik informasiya olmadan həmin mənbələrdən mütəxəssislərin səmərəli istifadə etmələri mümkün deyil. Biblioqrafiyalaşdırma prosesində biblioqrafik informasiya mənbələri yaradılır və biblioqrafik xidmət üçün lazımi biblioqrafik baza (ehtiyat) yaratmaqla onu müşayiət edir. Ədəbiyyatşünaslıq sahəsində çalışan mütəxəssislərin biblioqrafik informasiya təminatında biblioqrafik fəaliyyət prosesləri olan biblioqrafiyalaşdırma və biblioqrafik xidmət mühüm rol oynayır. Ədəbiyyatşünaslığın elmi-tədqiqat fəaliyyət sahəsinin biblioqrafik informasiya təminatında Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının fəaliyyəti təqdirəlayiqdir.

Mərkəzi Elmi Kitabxananın çap etdirdiyi cari biblioqrafik vəsaitləri fonda daxil olan yeni ədəbiyyat haqqında məlumat vermək məqsədi güdür. Məlumdur ki, kitabxananın fonduna xarici ədəbiyyat da alınır. Ona görə də bu vəsaitlər bir tərəfdən yeni çıxan vətən, digər tərəfdən isə kitabxananın fonduna daxil olan xarici ölkə ədəbiyyatını əks etdirir. Deməli, kitabxananın hazırlayıb çapdan buraxdığı vəsaitləri ədəbiyyat əhatəliyinə görə iki qrupa bölmək olar:

1. Yeni daxil olan ölkə ədəbiyyatı haqqında;
2. Xarici ölkələrdən daxil olan yeni ədəbiyyat haqqında.

Qeyd olunduğu kimi, kitabxananın birinci qrup cari biblioqrafik vəsaitləri ölkə nəşrlərini əhatə edir. Məlumdur ki, kitabxana şəraitində



operativ cari biblioqrafik məlumatvermə iki istiqamətdə aparıla bilər. Birincidə məqsəd oxucuları ümumən yeni, onlar üçün maraqlı nəşrlərdən xəbərdar etməkdir, ikincidə isə yalnız məlum kitabxananın fonduna daxil olan əsərlər haqqında oxuculara biblioqrafik məlumat verməkdir. Mərkəzi Elmi Kitabxanasında hazırlanan cari vəsaitlər bir qayda olaraq fonda daxil olan yeni ədəbiyyatla əlaqədardır. Biblioqrafik informasiya xidmətinin fərqləndirilməyən formasına aid olan kitabxana fonduna daxil olan yeni ədəbiyyatın məlumat bülletenləri kitabxananın biblioqrafiya şöbəsinin əməkdaşları tərəfindən tərtib edilib çap olunur. Məlumat bülletenlərini tərtib edərkən aşağıdakı tələblərə riayət edirlər:

a) məlumatın tamlığı;
b) dəqiq seçmə meyarı ;
c) materialların düzülüşündə sistemlilik;
ç) dəqiq və vahid biblioqrafik təsvir;
d) məlumat annotasiyasının yazılması.

Bütün bu tələblərə 70-80-ci illərdə tərtib olunmuş məlumat bülletenlərində tam əməl olunub. Təəssüflə qeyd edək ki, tədqiqat zamanı məlum oldu ki, son dövrlərdə tərtib olunan məlumat bülletenlərində bu tələblərə tam əməl olunmamışdır. Belə ki, Mərkəzi Elmi Kitabxananın 2001-ci ildə Azərbaycan və rus dillərində kitabxana fonduna yeni daxil olan biblioqrafik informasiya mənbəyi 4 buraxılışda olmuşdur. Biblioqrafik informasiya mənbəyində materiallar elmlər təsnifatına uyğun, daxildə isə müəlliflərin əlifba sırası ilə verilmişdir (7).

Məlumat bülletenlərindən 2000-2001-ci il buraxılışlarında nə ön söz, tərtibçilərdən, nə də məlumat annotasiyası verilmişdir. Bəzi buraxılışlarda əvvəlki illərdə verilmiş ədəbiyyatın təkrar biblioqrafik təsvirinin verilməsinin buraxılışın dəyərini müəyyən qədər aşağı salır.

Sevindirici haldır ki, biblioqrafik informasiya bülletenin 2003-cü il III–IV buraxılışında yuxarıda qeyd olunan nöqsanlar aradan qaldırılmış, nəşrin əvvəlində ön söz, tərtibçilərdən adlı bölmələr verilmişdir.

2004-cü ildə çapdan çıxmış bu informasiya bülletenində Mərkəzi Elmi Kitabxanaya daxil olan yeni ədəbiyyat haqqında biblioqrafik informasiya verilmişdir. Azərbaycan, rus, Şərq və Qərbi Avropa dillərində kitablar və dövri və nəşri davam edən ədəbiyyat kitabxana-biblioqrafiya təsnifatı əsasında elmlər və daxili əlifba üzrə, Şərq dillərində isə ölkələr üzrə qruplaşdırılmışdır. Nəşrdə verilmiş Şərq və Qərbi Avropa dillərində dövri və nəşri davam edən ədəbiyyat ölkələr üzrə düzülmüşdür.

Ədəbiyyatşünaslığa dair ədəbiyyat :

- Filologiya elmləri başlığı altında, daxildə müəlliflərin əlifba sırası ilə materiallar qruplaşdırılmışdır.

Kitablara verilən şifrələr oxuculara kataloqa müraciət etmədən lazım olan ədəbiyyatı qiraət zalları, fərdi abonement və kitabxanalararası abonement vasitəsilə sifariş etmək imkanı yaradır. Məsələn:

*Az –1* *Abdulla Kamal. Sirr içində dastan*
*və yaxud gizli Dədə Qorqud.- B.: Elm, 1999.- 288 s.*

Bu biblioqrafik informasiya mənbəyində ədəbiyyatşünaslığın müxtəlif aktual sahələrinə dair 153 adda ədəbiyyatın biblioqrafik təsviri verilmişdir. Bu materiallardan 31-i rus dilində olan materiallardır.

Müsbət hal kimi qeyd edək ki, bu materiallar içərisində biblioqrafik göstəricilər də öz əksini tapmışdır. Belə ki, görkəmli ədəbiyyatşünas A.Rüstəmovaya həsr edilmiş göstərici diqqəti cəlb edir:

*Az –1* *Azadə Cəfər qızı Rüstəmova. Biblioqrafik göstərici*
*/ Tərt.ed.: Z.Əliyeva: Red.: Ə.Əfəndiyev.-*
*9873* *B.: Elm, 2003.-154 s.*

Kitabxananın elmi-köməkçi xarakterli cari biblioqrafik vəsaitləri içərisində xaricdən gələn kitablara və dövri mətbuata aid biblioqrafik informasiya bülletenləri mühüm yer tutur.

İnformasiya texnologiyalarının geniş tətbiq olunduğu informasiyalaşdırılmış cəmiyyətdə informasiya tələbatı sənədlərə marağı əmələ gətirir və bu da öz növbəsində biblioqrafik məlumat tələbatını doğurur, çünki biblioqrafik məlumat məhsulu olmadan indiki, elmi informasiyanın gur axını dövründə keçinmək mümkün deyil. Tələbatçılar müvafiq ədəbiyyatın mövcudluğu haqqında məlumat aldıqdan sonra onların dəqiq ünvanları, hansı kitabxanada qorunub saxlandıqları ilə maraqlanırlar. Ona görə də ayrı- ayrı kitabxanaların fondlarına daxil olan yeni xarici ədəbiyyat haqqında vəsaitlərin hazırlanıb çap edilməsi lazımdır.

Azərbaycan MEA Mərkəzi Elmi Kitabxanasının 1980-ci ildən tərtib edib çap etdirdiyi «Kataloqlar» da bu məqsədi güdür. Həmin kataloqlarda həm təbiət, həm də ictimai elmlər üzrə yeni daxil olan xarici kitablar və dövri nəşrlər nəzərə alınır. Bu məqsədlə onlar təbiət və humanitar elmləri əhatə edən iki seriyada buraxılır.

«Yeni xarici kitabların biblioqrafik siyahısı» nın ictimai elmlər üzrə seriyası ildə iki dəfə çıxır. Biblioqrafik təsvirlərin düzülüşündə müəlliflərin familiyalarının və əsər adlarının əlifbasına əsaslanır. Təsvirdə kitab adlarının rus dilində tərcüməsi verilmir, lakin şifrə qoyulur. Oxucular bu şifrədən istifadə etməklə özlərinə lazım olan hər hansı bir xarici kitabı Mərkəzi Elmi Kitabxananın fondundan ala bilərlər (7).

Mərkəzi Elmi Kitabxananın elmi-köməkçi cari biblioqrafik vəsaitlərindən biri də Şərq dillərində çıxan jurnalların analitik təsvirini əks



etdirir. Burada fars, türk və Azərbaycan dilində olan jurnal məqalələri nəzərə alınır, ərəb əlifbası ilə təsvir olunurlar və təsvirlər məzmunlarına görə qruplaşdırılır. Məsələn, 1985-ci ildə buraxılmış vəsaitin birinci nömrəsində 1984-cü ilin axırı və 1985-ci ilin əvvəlində kitabxanaya daxil olmuş ictimai elmlər üzrə Şərq dillərində çıxan jurnallarda dərc olunan məqalələr əhatə edilmişdir ki, onların içərisində «Ədəbiyyat və ədəbiyyatşünaslıq materialları», «Folklor və folklorşünaslıq», «Dilçilik və ədəbiyyatşünaslıq» bölmələri də vardır (5).

M.F.Axundov adına Dövlət Kitabxanasının biblioqrafik fəaliyyətində elmi-köməkçi cari biblioqrafik informasiya nəşrləri içərisində «Azərbaycan SSRİ mətbuatında» adlı biblioqrafik vəsait diqqəti cəlb edir. Kitabxananın «Ölkəşünaslıq və milli biblioqrafiya» şöbəsi 1978-ci ildən ildə bir dəfə «Azərbaycan SSRİ mətbuatında» adlı yeni ədəbiyyatı əks etdirən informasiya göstəricisini tərtib edib nəşr etmişdir. Bu biblioqrafik informasiya göstəricisinin tərtibi zamanı kitabxananın fonduna mövzu üzrə daxil olan mütləq nüsxələr əsas götürülür. Vəsaitdə öz əksini tapmış bölmələrdən biri də «Ədəbiyyatşünaslıq. Bədii ədəbiyyat» adlanır. Bu bölmə daxilində əvvəlcə kitablar, sonra isə jurnal məqalələrinin biblioqrafik təsviri verilmişdir. Hər bir mənbənin biblioqrafik təsvirindən sonra qısa məlumat annotasiyası da verilmişdir (1).

Ədəbiyyatşünaslıq üzrə cari elmi-köməkçi biblioqrafik informasiya mənbələrindən bəhs edərkən «Xalq maarifi. Pedaqogika. Pedaqoji elmlər» adlı cari biblioqrafik göstəricini də qeyd etmək yerinə düşər. Biblioqrafik göstərici Respublika Elmi-Pedaqoji Kitabxanası tərəfindən tərtib olunub çap edilmişdir. Qəzet və jurnal məqalələrinin biblioqrafik təsvirini əks etdirən bu göstəricidə daha çox təhsil, təlim problemlərinə həsr edilmiş materiallarla yanaşı ayrı-ayrı fənlərin tədrisi metodikasına dair materialların da biblioqrafik təsviri verilmişdir. Cari biblioqrafik informasiya vəsaitinin müxtəlif buraxılışlarında «Azərbaycan ədəbiyyatının tədrisi metodikası»na dair müxtəlif dövri mətbuat səhifələrində çap olunmuş məqalələrin də biblioqrafik təsviri verilmişdir (6).

Ədəbiyyatşünaslıq sahəsində çalışan mütəxəssislərin biblioqrafik informasiya təminatında biblioqrafik mənbələr böyük rol oynayır. Təəssüflə qeyd etmək lazımdır ki, ayrı-ayrı elm sahələri üzrə, o cümlədən ədəbiyyatşünaslıq üzrə müstəqil cari elmi-köməkçi biblioqrafik informasiya mənbələri yox dərəcəsindədir.

Müasir dövrdə inforomasiya axınının genişləndiyi bir şəraitdə elmin müxtəlif sahələrinə dair informasiya mənbələrinin yaradılmasına ehtiyac duyulur.

Kitabxana-biblioqrafiya proseslərinin ənənəvi formalarından fərqli olaraq, hazırda informasiya texnologiyası, xüsusilə kompüterləşmə həyatımızın bütün sahələrinə sirayət etmiş və bizi maraqlandıran sahələr, mövzular üzrə lazım olan materialı İnternet şəbəkəsindən əldə etmək mümkün olur.

## ƏDƏBİYYAT


*1. Азербайджан в печати СССР / Информационный указатель о новой литературе за 1986 год.- Баку, 1991.-80 с.*

*2. Əliyev Z.H. Azərbaycanda elmi- köməkçi biblioqrafiya müasir mərhələdə // Bakı Universitetinin Xəbərləri: Humanitar elmlər seriyası.-1994.-№1.-S.120-127.*

*3. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq.-B.: Bakı Universiteti Nəşriyyatı,2001.-145 s.*

*4. Xalq marifi. Pedaqogika. Pedaqoji elmlər (qəzet və jurnal məqalələri): Cari biblioqrafik göstəricisi.- B., 1999.- 48 s.*

*5. Mərkəzi Elmi Kitabxanaya Azərbaycan və rus dillərində 2001-ci ildə daxil olan kitablar: IV buraxılış.- B., 2001.- 36 s.*

*6. Mərkəzi Elmi Kitabxanaya daxil olan yeni ədəbiyyat: Biblioqrafik informasiya bülleteni).2003. III-IV buraxılış.- Bakı: AMEA Mərkəzi Elmi Kitabxanası, 2004.- 132 s.*

*7. Yeni xarici kitabların biblioqrafik siyahısı / İctimai elmlər seriyası, №1.- B.,1985.- 22 s.*



***Сима Исмаилова***


## ТЕКУЩАЯ БИБЛИОГРАФИЧЕСКАЯ ИНФОРМАЦИЯ В ИНФОРМАЦИОННЫМ ОБЕСПЕЧЕНИИ ЛИТЕРАТУРОВЕДЕНИЯ


### *РЕЗЮМЕ*

*В статье рассматривается вопросы отражения литературоведческих материалов в научно-вспомогательных библиографических источниках. Особое внимание уделено на текущие указатели подготовленные и издание ЦНБ НАН Азербайджана.*

**Xuraman Verdiyeva**
*laboratoriya müdiri*

# DAHİ AZƏRBAYCAN ALİMİ NƏSİRƏDDİN TUSİNİN ƏSƏRLƏRİ BİBLİOQRAFİK MƏNBƏLƏRDƏ

Azərbaycanda pedaqoji biblioqrafiyanın yaranıb inkişaf etməsinin çox qədim tarixi vardır. Xalqımızın qədim mütəfəkkir və alimləri təlim, tərbiyə, tədris məsələlərinə böyük diqqət verir, bu mövzuda əsərlər yazır və eyni zamanda öz əsərlərində daha əvvəlki dövrlərdə yaşayıb yaratmış alimlərin əsərlərinə müraciət edir, bu əsərlərə isnadlar verirdilər. Məhz bu əsərlərdə biz Azərbaycan pedaqoji biblioqrafiyasının ilkin elementlərinə rast gəlirik. Bu baxımdan görkəmli Azərbaycan mütəfəkkiri, böyük alim Xacə Nəsirəddin Tusinin yaradıcılığı böyük maraq doğurur. Bildiyimiz kimi o, Marağa rəsədxanasını yaratmış və bu rəsədxananın nəzdində 400 min kitab fondu olan kitabxana təşkil edə bilMişdir. Bu haqda professor A.Xələfovun "Azərbaycanda kitabxana işinin tarixindən" adlı kitabında geniş məlumat verilir və qeyd edir ki, N.Tusi tərəfindən yaradılmış Marağa rəsədxanasının kitabxanası Azərbaycanda tarixi dəqiq məlum olmayan ilk elmi kitabxanadır (4.-S.23).

Nəsirəddin Tusi özündən sonra zəngin elmi irs qoyub getmişdir. Bu böyük alimin riyaziyyat, fizika, pedaqogika, astronomiya, mineralogiya, fəlsəfə, məntiq, musiqi, tibb, coğrafiya, ədəbiyyatşünaslıq və digər elmlərə dair yazdığı əsərlər ona dünya şöhrəti qazandırmış və o, orta əsr Şərq elminin inkişafında mühüm rol oynamış, dünya elminin və mədəniyyətinin inkişafına güclü təsir göstərmişdir.

Tanınmış türk alimi Saleh Zəki Tusi yaradıcılığından bəhs edərkən haqlı olaraq göstərir ki, əgər onun digər elmlərə aid əsərləri nəzərə alınmazsa belə, təkcə riyaziyyat və astronomiyaya dair əsərləri ayrıca bir kitabxana təşkil edərdi (3.-S.7).

Xacə Nəsirəddin Tusi yaradıcılığını əhatə edən əsərlərin heç də hamısı zəmanəmizə qədər gəlib çatmamışdır. Lakin mühafizə olunan

əlyazma nüsxələri belə, onun necə məhsuldar alim olması barədə kifayət qədər təsəvvür yaradır.

N.Tusinin yaradıcılığını mövzu orijinallığı baxımından bir neçə qrupa bölə bilərik:1. Orijinal ideyalar əsasında yazdığı əsərlər; 2. Özündən qabaqkı alimlərin ideyaları əsasında yazdığı əsərlər; 3. Özündən qabaqkı alimlərin əsərlərinə yazdığı şərhlər; 4. Tərcümələr (3.-S.7).

Tusi özündən qabaqkı orta əsrlər elminin nailiyyətlərindən bəhrələnərək, XIII əsr dünya elminin inkişafına təkan vermiş orijinal əsərlər yaratmaqla yanaşı, tarixdən əvvəlki dövrdə yaşamış antik alimlərin irsi ilə də maraqlanmış, onları yeni dövrün tələblərinə müvafiq tərzdə yenidən işləməklə təkmilləşdirmiş və bu yolla da əslində orijinal elmi əsərlər yaratmışdır. Bu məqsədlə o, biblioqrafiyanın vasitəçilik funksiyasından istifadə etmiş, biblioqrafik axtarış nəticəsində özündən əvvəl yaşamış görkəmli simaların əsərlərini toplamış və onlardan yararlanmışdır. Tusiyə görə müəddib, müdərris (müəllim) yalnız hazırki şeyləri deyil, həmin şeyləri həm özlərinə qədərki, həm də özlərindən sonrakı olanlarla əlaqələndirməyi və bu sahədə varisliyi qorumağı məqsudi-müqəddəs hesab etməlidir. Onun fikrincə, «öyrədiləcək hər nə varsa, bir-birinə müqabil və müvafiq gəlməli, bir-birinin mütəmmamı sayılmalıdır» (5.-S.71).

Bundan başqa, Şərqin İbn Sina kimi böyük korifeyinin məntiqə və hikmət elminə dair «Əl-İşarət vət-tənbihat» əsərini hərtərəfli şərh etmiş və fundamental bir elmi iş yazmışdır. Bu böyük alim təkcə dərin məzmunlu və geniş əhatəli elmi tədqiqat aparmaqla kifayətlənməmiş, tərcüməçiliklə məşğul olmuş və poetik əsərlər də yazmışdır (3.-S.7)

Tusinin qələmindən çıxmış «Əxlaqi-Nasiri», «Şəklül-qita», «Cəvahirnamə», «Təhriri-Məcəsti», «Zici-Elxani», «Si fəsl», «Bist bab», «Əsasül-iqtibas», «Təhriri-Öqlidis», «Ağaz və Əncam» kimi bir sıra əsərlər, onlara öz dövründə və sonrakı əsrlərdə başqa alim və tədqiqatçılar tərəfindən yazılmış şərhlər, haşiyələr, elmi sual-cavab şəklində yazılmış məktublar zəmanəmizə qədər gəlib çatmış, onların əlyazma nüsxələri bir çox ölkələrin kitab xəzinələrini nadir inci kimi zənginləşdirmişdir. Tam olmayan məlumata görə kitab xəzinələrində onun əsərlərindən «Təhriri-Məcəst»in 74, «Şərhül-İşarat»ın 76, "Övsatül-Əşraf»ın 91, «Əxlaqi-Nasiri»nin 165, «Si fəsl»in 194, «Bist-bab»ın 215, «Təhriri-Öqlidis»in 220 əlyazma nüsxəsi qeydə alınmışdır (3.-S.8).

Ensiklopedik biliyə malik dahi Azərbaycan aliminin əsərlərinin siyahısı, biblioqrafiyası əldə olan məlumata görə, hələ öz sağlığında hicri 664-cü (miladi 1266) ildən etibarən tərtib edilməyə başlamışdır. Həmin il Nizaməddin Nişapuri Tusi əsərlərinin ilk biblioqrafiyasını tər-



tib etmiş, buraya alimin 57 əsərinin adını salmışdır. Sonralar Katib Çələbi «Kəşfül-zünun» təzkirəsində onun 50 əsərinin, alman alimi Henrix Züter Leypsiqdə 1900-cü ildə çap etdirdiyi kitabda riyaziyyat və astronomiyaya aid 40-dan çox əsərinin, G.Sarto 3 cildlik «Elm tarixinə giriş» kitabında 64 əsərinin, türk alimi Saleh Zəki «Asari baqiyə»sində 28 əsərinin, İran alimi Ağa Bozorq Tehrani «Zəriə» təzkirəsində, həmçinin Əli Fazil Qaini Nəcəfi «Mücəmi-müəllifiş-şiə» kitabında 121 əsərinin, müasir Azərbaycan astronomu N.Məmmədbəyli rus dilində çap etdirdiyi «Marağa rəsədxanasının banisi Məhəmməd Nəsirəddin Tusi» kitabında 76 əsərinin, rus alimləri Q.R.Matviyevskaya və V.A.Rozenfeld «Orta əsr müsəlman riyaziyyatçıları və astronomları və onların əsərləri» adlı 3 cild ik kitabda 66 əsərinin, M.M.Rojenskaya, Q.R.Matviyevskaya və İ.O.Luiter «Nəsirəddin Tusi və onun riyaziyyat və astronomiyaya aid əsərləri» kitabında 62 əsərinin adını çəkmişlər. Eləcə də İran alimi Məhəmməd Təqi Müdərris Rəzəvi Tusinin həyat və yaradıcılığına həsr etdiyi monoqrafiyada onun 207 əsərinin siyahısını təqdim edir ki, bu da maksimum göstəricidir. Ancaq həmin rəqəm özünü doğrultmur, çünki bu siyahıda metodoloji qüsurlara yol verilmiş, bəzi adlar ümumi şəkildə «Risalə», «Risaleyi-digər» və s. kimi alimin eyni əsərləri isə müxtəlif adlar altında qeydə alınmışdır. Əslində Tusinin hər bir risaləsinin adı orijinala müvafiq tərzdə dəqiq göstərilməlidir. Burada «Risalə» və «Risaleyi-digər» və s. kimi adlar konkret deyildir və bu məxəzlər, sözsüz ki, adı məlum risalələrindən birinin tərkibindən çıxarılmış iqtibas ola bilər. Ancaq belə «risalə», «risaleyi-digər»lər Tusinin hansı risalələrindən iqtibasdır? –sualına cavab verə bilmək üçün alimin bütün əsərlərinin mətni əl altında olmalı, nəşr edilməli və hər birinin mətni müqayisəli şəkildə öyrənilməlidir. Bu isə hələlik heç kimə müyəssər olmamışdır. Təsadüfi deyil ki, tədqiqatçı əsərində 207 əlyazmanın adını qeyd etsə də başqa bir yerdə-Tusinin 1956-cı ildə Tehranda çap olunmuş «Əsasül-iqtibas» əsərinin tənqidi mətninə yazdığı müqəddimədə yalnız 113 əsərin adını çəkmişdir (3.-S.9).

Tusinin əsərləri təkcə əlyazma halında deyil, həm də çap şəklində yayılmışdır. Alimin ilk çap əsəri «Təhriri-Öqlidis»dir. Bu əsər ilk dəfə 1594-cü ildə Romada «Mediçi» mətbəəsində ərəb dilində çap edilmişdir. Hicri 645, miladi 1248-ci ildə qələmə alınmış bu əsər uzun müddət Avropa alimlərinin də diqqətini cəlb etmiş, 1657-ci ildə Londonda latın dilində, 1801-ci ildə İstanbulda orijinalın dilində nəşr edilmiş, geniş tədqiqatlara cəlb olunmuşdur. Sonrakı dövrlərdə alimin bu əsəri ilə yanaşı yaradıcılığının böyük maraq doğuran başqa nümunələri də dünyanın bir sıra ölkələrində dəfələrlə nəşr edilmişdir (3.-S.10.).

Görkəmli pedaqoq-filosofun "Kitabi-müdarik", "Məsaili-xəmsə fi üsuliddin", "Övsafül-Əşraf", "Adabül-mütəəllim", "Dərmərifate-üstürlab", "Əxlaqi-Nasiri", "Si-fəsl", "Təlümül-mütəəllim", "Cənahül-məzamin fi elmi-fəlsəfə" və s. kimi əsərləri yalnız Azərbaycanda deyil, dünya elmi tarixinə qiymətli hədiyyədir. Tusi Əbu Nasir əl Fərabinin, Əbu Əli ibn Sinanın, Bəhmənyar ibn Mərzibanın, İbn Xaldunun, İbn Büslan Muxtar, İbn Həsənin və s. digər sələflərinin əsərlərini dərindən öyrənmiş, onlardan lazım olan informasiyanı toplamış, beyin süzgəcindən keçirmiş, götür-qoy etmiş və belə bir hökm vermişdir ki, "heç bir şey təbiətin möhkəm qanununu dəyişdirə *bilməz*".(5.-S.78)

Tusi müxtəlif elmlərə, xüsusən də pedaqoji elmlərə dair fikirlərini özünün "Əxlaqi Nasiri", "Adabül-mütəəllim", "Təlimül-mütəəllim", "Övsafül-Əşraf", "Təhsuqnaməyi-Elxani", "Cənahül-məzamin fi elmi-fəlsəfə" və s. kimi risalələrində əks etdirmişdir.

Tədqiqat nəticəsində N.Tusinin 46 adda elmi-pedaqoji, ictimai-siyasi, fəlsəfi etik əsərləri müəyyən edilmişdir. Tusiyə görə "insanın varlığının məqsədi o vaxt kamil hesab olunur ki, o elm və əməldən ibarət olsun." O, "Adabül-mütəəllim" əsərinin müqəddiməsində yazırdı: "Elm elə bir fövqəlbəşər şeydir ki, təmndən da üstün tutulmalıdır. Ona görə də hamı elm, təhsil öyrənməyə istiqamət almalı, onun keşməkeşindən qorxmamalıdır" (5.-S.77).

Tusi "Əxlaqi-Nasiri" əsərində hər bir aqil insana elmləri öyrənməyi, yalnız öyrənməklə kifayətlənməyib, aldığı nəzəri bilikləri təcrübəyə necə və hansı yollarla tətbiq etməyi öyrədirdi. Maraqlı burasıdır ki, Tusi bunlar haqqında izahat verməklə bərabər, həmin elmləri təlim-tərbiyəyə necə tətbiq etməyi, necə tədris etməyi də öyrədirdi.

Tusi öz dövründə elmin, təhsilin, tədris və təlimin güman etdiyi pedaqoji səviyyədə aparılması üçün var qüvvəsini əsirgəməmiş, 25-dən çox ədəbiyyat, dil, leksikoqrafiya, riyaziyyat, həndəsə, triqonometriya, fəlsəfə, təbabət, mineralogiya, təlim, tərbiyə, musiqi, ictimai-siyasi, xəttatlıq, nəqqaşlıq, təbiət, pedaqogikaya dair əsər və dərsliklərini tərtib etmişdir. AMEA Əlyazmalar İnstitutu B-693 (15059) şifrəsi altında saxlanılan "Təlimül-mütəəllim" Tusi əsərində təlimi, tədrisi elm ilə əlaqədar hesab edərək, onun yollarını, üsullarını və vasitələrini öz dövrünə görə düzgün başa düşmüş və şərh etmişdir. Tusi bu əsərdə təlimin nə üsulları və nə də prinsipləri adı ilə heç bir fəsil verməmiş, lakin o, "Təlimin yolları" adı altında həmin üsul və prinsiplərdən çox ətraflı danışmışdır. Onun tədris və təlimə verdiyi təhlil göstərir ki, Tusi ya uzun müddət müəllimlik etmiş, öz məktəbi olmuş, yaxud da uzun müşahidə və təcrübələr apararaq təhsil, tədris və təlim məsələlərini incələyi-



nə kimi şərh edə bilmişdir. Tusinin fikrincə "Qeyd edilmiş bu və ya digər bir elm, fəqət tədrisin səmərəsi müdərris, yaxud müəllimin fəaliyyəti ilə ölçülməlidir. Müdərris (müəllim) nə qədər dərin, nə qədər geniş elmə sahibdirsə, mütəəllim də bir o qədər şövqlə və iqtidarla ondan öyrənəcəkdir." (5.-S 79)

Tusi "Əxlaqi-Nasiri" əsərində də "Ədəb iqtisadi fəsli", "Təlimi yaşatmaq fəsli", "Varisliyi qorumaq fəsli", "Elmi fiqh fəsli" və s. kimi fəsillər vermiş və hər fəsli ətraflı şərh etmişdir. Tusiyə görə "təlim yalnız öyrədilən şeyləri mənimsəməklə kifayətlənməməli, həm də öyrənilənləri yaşatmalı və gələcək nəslə verməyi qarşısına məqsəd qoymalıdır. Buna görə də o, "Təlimi yaşatmaq fəsli" vermiş və fikirlərini burada şərh etmişdir. O, bütün elm sahələrində, xüsusən pedaqogika tarixində orta əsrlərin pedaqoji sükut buzunu sındırmış ilk orta əsr pedaqoqudur (5.-S.76).

Azərbaycan xalqı milli elmimizin fəxri olan böyük alimin xatirəsinə həmişə hörmət ə yanaşmış, 1951 və 1981, 2000-ci illərdə anadan olmasının 750, 780, 800 illik yubileyləri geniş miqyasda təntənə ilə qeyd edilmişdir. YUNESKO bu yubileyin dünya miqyasında qeyd edilməsi barədə qərar qəbul etmişdir.

Azərbaycan MEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda "Xacə Nəsirəddin Tusi: Biblioqrafiya" adlı biblioqrafik vəsait hazırlanmış və 2004-cü ildə "XXI-Yeni Nəşrlər Evi"ndə 168 səhifədən ibarət çap olunmuşdur. Biblioqrafik göstəricini tarix elmləri namizədi A.Xəlilov və filologiya elmləri namizədi A.Musayeva tərtib etmişlər.

Biblioqrafik göstərici «Ön söz», «Əlyazmalar», «Əsərlərinin nəşri və haqqında ədəbiyyat» bölmələrdən ibarətdir.

A.Xəlilov və M.Adilov yazdıqları "Ön söz"də Xacə Nəsirəddin Tusi əsərlərinin nəşr tarixini işıqlandırmağa çalışmışlar.

"Əlyazmalar" adlanan birinci bölmədə Tusinin "Adabül-mütəəllim"in (Tələbəlik mədəniyyəti) ərəb dilində əsərinin köçürülmə tarixi xronoloji ardıcıllıqla verilmişdir. Bölmədən öyrənirik ki, onun bu əsərinin 1612-ci ildə köçürülmüş ən qədim nüsxəsi Qum Ayətullah Mərəşi kitabxanasında, ən son köçürülmüş nüsxəsi 6582 (3) şifrəsi ilə Tehran Milli Məclis kitabxanasında saxlanılır.

*QAMK-4682 Katibi: Həbib Lahicanı. Köçürülmə tarixi: H.1021 (M.1612/13) Xətti: nəsx. Həcmi vər. 52-63, ölçüsü 12,5x19 sm.*

Göründüyü kimi, biblioqrafik təsvirdə biblioqrafik informasiya tam əhatə olunmağa çalışılmış, əlyazmanın fondda saxlanılma şifrəsi qeyd olunmuş, əlyazmanı köçürən şəxs və köçürülmə tarixi, hətta xəttin

növü, həcmi qeyd olunmuşdur. Təsvirin mükəmməlliyi biblioqrafik axtarışı asanlaşdırır, vaxt itkisinin qarşısı alır.

Biblioqrafik göstəriciyə əsasən demək olar ki, həmin əlyazmanın 1825-26-cı ildə Məhəmməd Əli Molla Allahverdi oğlu tərəfindən nəstəliq xətlə köçürülmüş Bakı nüsxəsi Əlyazmalar İnstitutunda B-2608 şifrəsi altında saxlanılır. 1834-cü ildə köçürülmüş B-693 şifrəsi altında saxlanılan 2-ci nüsxənin katibi məlum deyil. B-520 şifəli 3-cü nüsxənin isə katibi və köçürülmə tarixi məlum deyildir.

Biblioqrafik göstərciyə əsasən demək olar ki, Tusinin "Ağaz və əncam" (başlanğıc və son) fars dilində əsərinin ən qədim, 1310-cu ildə köçürülmüş nüsxəsi S-1102 şifrəsi ilə Rusiya EA-nın Şərqşünaslıq institutunun Sankt-Peturburq bölməsində saxlanılır.

Nəsirədddin Tusinin "Əxlaqi-Nasiri" əsərinin (666) 1267-ci ildə ilk köçürülmüş 200 vərəq həcmində olan nüsxəsi Tehran Səna Məclisi Kitabxanasında 905 şifrəsi altında saxlanılır. Katibi Bin Əli Əkbər Həbibullah Əl-Hüseyni olan, (1041) 1631-ci ildə köçürülmüş ən qədim Bakı nüsxəsi isə Əlyazmalar İnstitutunda 4255 şifrəsi altında saxlanılır.

Biblioqrafik vəsaitdən yararlanaraq Tusinin hər bir əsəri haqqında mükəmməl biblioqrafik informasiya əldə etmək olar. Onun hər bir əsərini ayrıca xarakterizə etmək imkan xaricindədir. Ümumiyyətlə, biblioqrafik göstərici çox böyük, gərgin əməyin bəhrəsidir və yüksək peşəkarlıq bacarığı ilə yazılmış biblioqrafik əsərdir. Burada tərtibçilərin çox böyük zəhməti, əziyyəti vardır. Tusinin dünya elminə məlum olan əsərlərinin hansı kitabxanada neçə nüsxədə toplandığını araşdırmaq, onları həm də şifrəsilə birlikdə informasiya istifadəçilərinə çatdırmaq əsl peşəkarlıq tələb edir.

Biblioqrafik göstəricinin ikinci bölməsinin biblioqrafik tədqiqi nəticəsində məlum olur ki, Tusinin Azərbaycan dilində 8 əsəri nəşr olunmuş və haqqında Azərbaycan dilində 250, türk dilində 1 əsəri və 15 haqqında yazılmış mənbə, rus dilində 11 əsəri və haqqında yazılmış 236 mənbə, alman dilində haqqında yazılmış 25 mənbə ingilis dilində 3 əsəri və 23 haqqında yazılmış mənbə, fransız dilində 1 əsəri və 11 haqqında yazılmış mənbə, italyan dilində 5 haqqında yazılmış mənbə, latın dilində 3 əsəri, yunan dilində 1 haqqında yazılmış mənbə, gürcü dilində 1 haqqında yazılmış mənbə, çex dilində 1 haqqında yazılmış mənbə, ərəb dilində 12 əsəri və 13 haqqında mənbə, fars dilində 54 əsəri və 43 haqqında yazılmış mənbə öz əksini tapır.

Biblioqrafik vəsaitə elmi-metodik aparat verilmişdir ki, bu da «İxtisarların siyahısı"dır. Burada biblioqrafik göstəricinin daxilində qısaldılmış, ixtisar edilmiş sözlər açılır və tam adı qeyd olunur.



Ensiklopedik biliyə malik olan, məşhur Azərbaycan alimi Məhəmməd Nəsirəddin Tusinin yaradıcılığının biblioqrafik tədqiqi olan "Xacə Nəsirəddin Tusi" biblioqrafik göstəricisi onun yaradıcılığı ilə maraqlanan informasiya istifadəçiləri üçün çox vacib biblioqrafik informasiya mənbəyidir və pedaqoji elmlərin biblioqrafik informasiya təminatında mühüm rol oynayır.

## ƏDƏBİYYAT


*1. Библиографическая работа в библиотеке: организация и методика.- М., 1990.- 246 с.*

*2. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq: Dərs vəsaiti.- B.: BUN, 2001.- 143 s.*

*3. Xacə Nəsirəddin Tusi: Biblioqrafiya / Tərt ed.: A.Xəlilov, A.Musayeva.-B.: XXI -Yeni Nəşrlər Evi, 2004.-168 s.*

*4. Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixindən.-Bakı, 1986.-51 s.*

*5. Mollayev İ.A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında / Elmi red.: Ə.Ağayev.-B.: Maarif, 1996.-304 s.*


***Хураман Вердиева***

## ПРОИЗВЕДЕНИЕ НАСИРЕДДИНА ТУСИ В БИБЛИОГРАФИЧЕСКИХ ИСТОЧНИКАХ


### *РЕЗЮМЕ*

***Творчество крупного исторического деятеля и ученого средневековья Азербайджана Хадже Насиреддина Туси вызывал и продолжает вызывать особый интерес исследователей. По этой причине произведения Н.Туси были неоднократно издавались.***

***Источники библиографической информации о жизни и творчестве про Н.Туси весьма разнообразны. В статье проделан анализ этих источников и их сравнительная оценка с точки зрения библиографической методики.***

***В статье особенное внимание уделено персональному библиографическому указателю посвященному жизни и творчеству Н.Туси.***

**Leyli ABBASOVA**
*Magistr*

# AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ NƏŞRLƏRİNƏ DAİR BİBLİOQRAFİK İNFORMASİYA MƏNBƏYİ

Müasir cəmiyyətin formalaşmasında müxtəlif növ ədəbiyyat mühüm rol oynayır. Bunların içərisində elmi ədəbiyyat xüsusi yer tutur. Bu ədəbiyyatın meydana gəlməsində Azərbaycan Milli Elmlər Akademiyasının «Elm» nəşriyyatının nailiyyətləri xüsusilə diqqətəlayiqdir. 1945-ci ildə yaradılmış Akademiya nəşriyyatının davamçısı olan bu nəşriyyat Azərbaycanda çap məhsulunun inkişafında özünəməxsus yer tutur (1, s.9). Akademiyanın yarandığı gündən apardığı bütün elmi-tədqiqat işlərinin nəticələri öz əksini nəşriyyat tərəfindən çap olunan əsərlərdə tapır. Nəşriyyatda Azərbaycan alimlərinin elminin bütün sahələrinə dair orijinal əsərləri, monoqrafiyaları, məcmuələri, elmin müxtəlif sahələrinə dair dövri nəşrlər, elmi-kütləvi əsərlər, terminoloji və tərcümə lüğətləri çap olunur (2, s. 122).

Nəşriyyatın nəşrlərinin mövzu dairəsinin genişlənməsi, sayının fasiləsiz olaraq artması onlar haqqında biblioqrafik informasiya mənbəyi yaradılmasını zəruriləşdirir. Bu vəzifənin əməli olaraq həyata keçirilməsi ilə MEA-nın Mərkəzi Elmi Kitabxanası yaxından məşğul olur. Bunun nəticəsi olaraq «Azərbaycan Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası» adlı xüsusi bir biblioqrafik göstərici meydana gəlir. Bu göstəricinin çoxsaylı buraxılışlarında Akademiya nəşrlərinin biblioqrafik qeydi aparılmış, ayrı-ayrı elmi-tədqiqat institutlarının əsərlərinin biblioqrafik təsvirləri əks olunmuşdur. Təsadüfi deyildir ki, bu biblioqrafik mənbə Mərkəzi Elmi Kitabxananın əməkdaşları arasında «uçot-qeyd biblioqrafiyası» adını almışdır.

Göstəricinin əsas məqsədi elmi işçiləri, aspirantları, tələbələri, elmi-tədqiqat müəssisələrinin və kitabxanaların işçilərini adları çəkilən elmi müəssisələrin əsərləri ilə tanış etməkdən ibarətdir.

Göstəricinin bütün buraxılışları quruluş etibarı ilə demək olar ki, eynilik təşkil edir. Burada ədəbiyyat elm sahələri üzrə sistemləşdirilmiş, hər bir sahə daxilində biblioqrafik təsvirlər əlifba sırası ilə və oricinal əsərin dilində verilmişdir. Köməkçi aparat kimi müəlliflərin əlifba göstəricisi və ixtisarların siyahısı verilmişdir.

Müxtəlif buraxılışlardan ibarət olan göstəricinin II buraxılış hesab edilən ilk nəşri 1962-ci ildə, I buraxılış hesab edilən sonrakı nəşri 1984-cü ildə, 7 kitabda çapdan çıxmış III buraxılışı 1982-1984-cü ildərdə, sonrakı nəşrlər isə 1983-cü ildən illiklər şəklində çapdan çıxmışdır.

Qeyd etdiyimiz kimi, göstəricinin ilk nəşri 1962-ci ildə çap olunmuş və 1945-1959-cu illərin nəşrlərini əhatə etmişdir. Lakin kitabxana işçiləri və bu göstəricinin çap olunmasının təşəbbüskarları çox haqlı olaraq belə hesab etmişlər ki, Azərbaycanda elmi-tədqiqat müəssisələri 1945-ci ilə qədər də mövcud olmuş və onların tərəfindən də xeyli elmi ədəbiyyat çap etdirilmişdir. Ona görə də kitabxana əməkdaşları Akademiyanın bir elmi mərkəz kimi fəaliyyətə başladığı günə qədər çap olunan elmi ədəbiyyatın müəyyənləşdirilməsini, aşkar edilməsini və onun əsaslı biblioqrafik göstəricisini yaratmağı məqsədə müvafiq hesab etmişdir.

Beləliklə, EA-nın nəşrlərinin biblioqrafik göstəricisinin ilk buraxılışını hazırlayıb 1984-cü ildə çap etdirmişlər. Bu buraxılış (tərtib edənləri T.D.Sadıxova, M.Q.İbrahimova, D.Q.Məhərrəmli) 1923-1945-ci illərdə, yəni Azərbaycan EA-nın yaranmasına qədər fəaliyyət göstərən elmi müəssisələrin əsərlərinin biblioqrafik təsvirini əks etdirir. Göstəricinin həmin buraxılışı vasitəsilə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti, Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu, SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan şöbəsi, SSRİ Elmlər Akademiyası Filialının nəşrləri haqqında ətraflı biblioqrafik informasiya almaq mümkündür.

2518 adda ədəbiyyatın biblioqrafik təsvirini əhatə edən bu göstərici «Elmin inkişafının ümumi məsələləri», «Fizika-riyaziyyat, təbiət və texniki elmlər», «Yer haqqında elmlər», «Bioloji elmlər», «İctimai elmlər» kimi əsas bölmələrə malikdir.

Göstəricinin 1962-ci ildə nəşr olunmuş II buraxılışı (tərtib edən T.D.Nağıyeva, N.Q.Qorojanskaya, M.A.Karpinskaya) Azərbaycan Elmlər Akademiyasının yarandığı ildən, yəni 1945-ci ildən 1959-cu ilədək Akademiya nəşriyyatında çapdan çıxmış 10 mindən çox monoqrafiya, əsər toplusu, elmi-kütləvi kitab, kitabça və Akademiyanın dövri mətbuatında çapdan çıxmış məqalələri əhatə edir. Akademiyanın çap məhsulunun toplanmasında ilk cəhd hesab olunan II buraxılış aşağıdakı bölmələrdən ibatədir:

1. Dialektika. Tarixi materializm Elm haqqında marksizm – leninizm. Fəlsəfə;
2. Fizika- riyaziyyat, təbiət və texniki elmlər;
3. Geofizika elmləri;
4. Kimya elmləri;
5. Geologiya elmləri;
6. Coğrafiya elmləri;
7. Biologiya elmləri;
8. Fiziologiya;
9. Kənd təsərrüfatı;
10. Texniki elmlər;
11. İctimai elmlər;

Biblioqrafik mənbənin 1960-1965-ci illəri əhatə edən III buraxılışı 1982-1984-cü illərdə 7 kitabda çapdan çıxmışdır. Göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə ayrı-ayrı elm sahələrinə bölünmüş hər bir kitab 5 illik bir dövrü əhatə edir. Elm və texnikanın inkişafı ilə əlaqədar olaraq çap məhsullarının sürətlə artımı və eləcə də poliqrafiya çətinliyi toplanmış küllü miqdarda ədəbiyyatın uzun bir dövrü əhatə etməsinə imkan vermir.

Quruluş etibarilə əvvəlki buraxılışlarla eynilik təşkil edən III buraxılışın 7 kitabı aşağıdakı elm sahələrini əhatə edir:

I kitab – Elm. Fizika-riyaziyyat və texniki elmlər;
II kitab – Kimya elmləri;
II kitab – Yer haqqında elmlər;
IV kitab – Biologiya və tibb elmləri;
V kitab – Aqrokimya, torpaqşünaslıq və kənd təsərrüfatı elmləri;
VI kitab – Tarix, iqtisadiyyat, fəlsəfə və hüquq elmləri;
VII kitab – Filologiyaya, dilçilik, memarlıq, incəsənət, mətbuat və kitabxana işi.

Göstəricilərin təhlilindən aydın olur ki, 5 illik bir dövr ərzində Elmlər Akademiyasının «Elm» nəşriyyatı tərəfindən müxtəlif elm sahələrinə dair 7300-ə yaxın ədəbiyyat nəşr olunmuşdur. Bu kəmiyyət adı çəkilən nəşriyyatın 5 illik dövrdəki fəaliyyətinin əldə etdiyi nailiyyətinin əvvəlki illərə nisbətən nə qədər böyük olduğunu göstərir.

60-cı illər və ondan sonrakı dövr Akademiyanın fəaliyyətində məhsuldar dövr olduğundan Akademiya nəşrlərini əhatə edən biblioqrafik göstəricinin illiklər şəklində buraxılmasına qərar verilmişdir. Akademiyanın «Elm» nəşriyyatında bir il müddətində çapdan çıxmış elmi əsərləri əhatə edən bu buraxılışların nəşrində çox təəssüf ki, xronoloji ardıcıllıq göstərilməmişdir. Məsələn, 1966-cı ilin nəşrlərini əhatə edən



buraxılış 1987-ci ildə, 1972-ci ili əhatə edən 1986-cı ildə, 1978-ci ili əhatə edən 1985-ci ildə, 1980-cı ili əhatə edən 1983-cü ildə hazırlanıb nəşr edilmişdir.

İlliklərin sonuncu buraxılışı 1986-cı ili əhatə edərək 1991-ci ildə çapdan çıxmışdır. Sonrakı illərdə müəyyən çətinliklərlə əlaqədar olaraq buraxılışların nəşri dayandırılmışdır.

Bütün adları çəkilən buraxılışların təhlili göstərir ki, Akademiya nəşrlərinin öyrənilməsində «Azərbaycan SSRİ Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası» adlı vəsaitin əvəzsiz rolu olsa da onun ayrı-ayrı buraxılışlarının tərtibində nöqsanlara yol verilməmiş deyildir.

İlk olaraq qeyd etməliyik ki, göstəricinin 1991-ci ildə çap olunan son buraxılışı 1986-cı ilin nəşrlərini əhatə edir. 1986-cı ildən bu günədək 18 illik bir dövrdə Akademiyanın nəşriyyatçılıq fəaliyyətini əks etdirən bir dənə də o sun biblioqrafik göstəricisi çap olunmayıb.

Mərkəzi Elmi Kitabxanadan verilən məlumata görə bu göstəricilərin 1986-cı ildən sonrakı dövrü əhatə edən buraxılışları kitabxananın əməkdaşları tərəfindən artıq hazırlanmışdır, lakin təəssüf ki, bir sıra maliyyə çatışmazlıqları bu göstəricilərin nəşrini davam etdirməyə imkan vermir. Bu hal isə göstəricilərin aktuallığına və operativliyinə mənfi təsir göstərir.

Göstəricilərdə digər bir nöqsanlı hal onların fəsillərində girişin çox səthi və rus dilində yazılmasıdır. Nəzərə alsaq ki göstəricinin 10 mindən çox ədəbiyyatın biblioqrafik təsvirini əhatə edən II buraxılışı iri həcmli göstərici olmasına baxmayaraq ona yarım səhifəlik qısa, göstəricinin məqsədini və daxili quruluşunu tam açmayan girişin yazılması təəssüf doğurur. Bununla yanaşı III buraxılışın yeddi kitabı və illiklərə yazılmış giriş hissəsi demək olar ki, eynilik təşkil edir.

Bundan başqa göstəricilər daxilində rus dilində olan ədəbiyyatın çoxluq təşkil etməs nəzərə alınaraq bölmələrin əksəriyyətinin adları yalnız rus dilində verilmişdir. Xüsusilə göstəricinin II buraxılışında bölmələrinin adlarının rus dili ilə yanaşı Azərbaycan dilində də verilməsi daha məqsədəuyğun olardı.

Göstəricilərin nəşrində nəzərə çarpan ən böyük nöqsanlı hal buraxılışların çapında xronoloji ardıcıllığın gözlənilməməsidir. Daha yaxşı olardı ki, 1983-cü ildə nəşrinə başlanılan illiklər 1966-cı ildən başlayaraq ardıcıllıqla bütün illərin nəşrlərini əhatə etməklə çap olunsun. Eyni zamanda buraxılışlar arasında 1984-cü və 1985-ci illərin nəşrlərini əhatə edən illiklərin nəşr olunması və 1983-cü ildən sonra 1986-cı ilin buraxılışının nəşr olunması illiklərin nəşrində ardıcıllığı pozmuşdur.

Lakin bütün bunlara baxmayaraq «Azərbaycan SSR Elmlər Akademiyası nəşrlərinin biblioqrafiyası» adlı göstərici Akademiyanın ayrı-ayrı elmi-tədqiqat institutlarında hazırlanmış və «Elm» nəşriyyatında çapdan çıxmış əsərlərin retrospektiv biblioqrafik axtarışında əvəzi olmayan bir biblioqrafik informasiya mənbəyidir.

## ƏDƏBİYYAT


1. *Azərbaycan Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası: Bələdçi / Tərt. edəni M.M.Həsənov, N.B.Listenqarten.- B.: Elm, 1990.- 68 s.*

2. *Azərbaycanda nəşriyyat işi. – B.: Yeni Nəsil, 2000.-160 s.*

3. *Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Elmi Kitabxanası əməkdaşlarının çap işləri: 1924-1986.-B.: Elm, 1987.*

4. *Əliyev Z.H. Azərbaycan biblioqrafiyasının tarixi: Dərs vəsaiti. –B., 1978.-77 s.*



***Лейли Аббасова***


## ИСТОЧНИК БИБЛИОГРАФИЧЕСКОЙ ИНФОРМАЦИИ ОБ ИЗДАНИЯХ АЗЕРБАЙДЖАНСКОЙ НАЦИОНАЛЬНОЙ АКАДЕМИИ НАУК


### *РЕЗЮМЕ*

***В статье анализируются все выпуски библиографического информационного источника об изданиях Азербайджанской Национальной Академии Наук. Она создает определенное представление о ценности таких крупных библиографических указателей имеющих большое практическое значение в ретроспективных библиографических поисках изданий отдельных ученых и специалистов.***

**Seymur ŞEYDAYEV**
*MTN-in əməkdaşı*

# ORUCOV QARDAŞLARININ NƏŞRİYYATÇILIQ FƏALİYYƏTİ

XX əsrin əvvəllərində Azərbaycanda kitab nəşrinin inkişafı xalq maarifinin, mədəniyyətin, elmin, ədəbiyyatın inkişafı ilə həmahəng idi. Belə mühit şübhəsiz ki, kitab təbliğinin çox mühüm vasitələrindən olan çap kataloqlarının da meydana gəlməsinə zəmin yaradırdı.

Bu dövrdə, dəqiq desək, 1912-1914-cü illərdə Azərbaycanda 5 çap kataloqu müəyyən edilmişdir ki, bunların da içərisində Oruc, Qənbər və Abuzər Orucov qardaşlarının 1912, 1913, 1914-cü illərdə nəşr etdirdiyi 3 kitab kataloqu xüsusi əhəmiyyət kəsb edir. Bu kataloqun ilk buraxılışı 1912-ci ildə olmuş, 1913 və 1914-cü illərdə təkrar çap olunmuşdur. 1913-cü il çapının müqəddiməsində yazılıb: "...keçən il açmış olduğumuz kütübxananın üzərinə əlavə edilmiş bir çox yeni kitabları əks etdirir" (1, s.2). Kataloqda Orucov qardaşları mətbəəsi tərəfindən 1906-1913-cü illərdə nəşr edilmiş elmin müxtəlif sahələrinə dair 300-dən artıq ədəbiyyatın təsviri verilmiş və onlar müvafiq qaydada sistemləşdirilmişdir.

Bədii və dinşünaslıq ədəbiyyatı kataloqun əvvəlində verilmişdir. Kataloqda əks etdirilən ədəbiyyatın əksəriyyətinə mülahizələr, şərhlər verilmişdir. Bədii və dini ədəbiyyatdan sonra kataloqda əks etdirilən elmi, elmi kütləvi və tədris ədəbiyyatı elm sahələri üzrə aşağıdakı kimi sistemləşdirilmişdir:

Tarix;
Coğrafiya;
Səyahətlər;
Ana dili;
Hesab;
Təsərrüfat;

Təbiətşünaslıq və s.

Kitabların biblioqrafik təsvirində vahid metodikaya riayət olunmadığından bəzi nəşrlərin müəllifləri göstərilməmiş, bəzilərində isə əksinə, sərlövhəyə aid əlavə məlumatlar öz əksini tapmamış, digər təsvirlərdə isə hətta kitabın mündəricatı və orada qalan illüstrasiyalar haqqında da qısa məlumatlar verilməmişdir. Kataloqun tərtibində vahid metodikanın tətbiq olunmaması özünü təsnifləşdirmədə və annotasiyalarda da göstərir.

Əlbəttə, müasir kataloqlaşdırma nəzəriyyəsi və metodikası baxımından bu buraxılışlarda tətbiq edilən təsvir və təsnifləşdirmə, eləcə də kitabların sistemləşdirilməsi üsulları bir qədər ibtidai görünə bilər. Lakin bunlara baxmayaraq, Orucov qardaşlarının kitab kataloqları Azərbaycanda ədəbiyyatın kataloqlaşdırılması fəaliyyətinin formalaşmasında irəliyə atılan ciddi addım idi.

Tanınmış kitabşünas alim H.Həsənovun haqlı olaraq qeyd etdiyi kimi, "...həmin kataloqlar Orucov qardaşları mətbəəsində çap olunmuş ədəbiyyatın məzmun və mündəricəsini geniş təhlil etməyə imkan verir" (2, s.54)

Azərbaycanda kitab çapının və nəşriyyat işinin inkişafında əvəzedilməz xidmətləri olmuş Orucov qardaşlarının XX əsrin əvvəllərində Bakıda yaratdıqları mətbəə-nəşriyyatı milli kitab xəzinəmizin zənginləşdirilməsində və çap mədəniyyətinin inkişafında müstəsna rolu olmuşdur.

Təəssüflər olsun ki, Azərbaycanda ilk dəfə çap (bəzən kitab kataloqları da deyilir) kataloqlarını nəşr etdirən qardaşların sonrakı taleyi tam araşdırılıb xalqa çatdırılmamışdır. Azərbaycan kitabşünaslığının görkəmli tədqiqatçılarından professor Bayram Allahverdiyev, dosent Hacı Həsənov, dosent Əmin Əfəndiyev, Əli Zeynalov və öz əsərlərində Orucov qardaşlarının kitab çapı sahəsindəki fəaliyyətlərini xeyli işıqlandırmışlar. Lakin bütün araşdırmalar bolşeviklər tərəfindən Azərbaycanda Milli Hökumətin devrilməsinə qədərki dövrü əhatə edir.

Əmin Əfəndiyev və Zakirə Əliyeva birgə tərtib etdikləri "Orucov qardaşlarının mətbəəsi" biblioqrafik göstəricisində bu məsələyə az da olsa aydınlıq gətirərək yazırlar: "Müstəqil Azərbaycan Cümhuriyyəti süqut etdikdən sonra M.Ə.Rəsulzadənin bütün məslək dostları kimi Orucov qardaşları da bolşeviklər tərəfindən təqiblərə məruz qaldıqları üçün Bərdəyə, dədə-baba ocağına qayıdırlar. Lakin onlar kənddə də təqibdən yaxa qurtara bilmirlər. Təhqir və təqiblərə məruz qalan Qənbər, Ağdamda kitabxana müdiri işləyən kiçik qardaşı Abuzər 30-cu illərdə dünyalarını dəyişmişlər. İki qardaş itirib, böyük faciələr yaşayan, doğma yurduna qayıtdıqdan sonra yalnız təsərrüfat işləri ilə məşğul olan Oruc Orucov isə 1954-cü ildə vəfat etmiş və Bərdədə dəfn olunmuşdur" (3).



Azərbaycan Respulikası Milli Təhlükəsizlik Nazirliyinin arxivində apardığım araşdırmalar zamanı əldə etdiyim sənədlərdə isə Abuzər Orucovun 29 iyun 1930-cu il tarixində Azərbaycan Dövlət Siyasi İdarəsi (DSİ) tərəfindən həbs edilməsi göstərilir (MTN-nin arxivi. PR 34369. Abuzər Orucov istintaq işi). Bu, Orucov qardaşlarının sonrakı taleyinin qaranlıq məqamlarına aydınlıq gətirdi.

İstintaq işində göstərilir ki, Abuzər Orucov DSİ tərəfindən 1930-cu il iyun ayının 29-da 77 saylı orderlə həbs olunub. 2 iyul 1930-cu ildə Abuzər Orucovun özünün doldurduğu həbs olunanın anket vərəqəsində qeyd edir ki, həbs olunan vaxtı onun 52 yaşı olub. Deməli, Abuzər Əli oğlu Orucov 1878-ci ildə anadan olub.

Bəs Azərbaycan kitab mədəniyyətinə böyük töhfələr vermiş bu insanın həbsinə səbəb nə olmuşdur?

DSİ-nin əməkdaşları Balapolov və Markaryanın tərtib etdikləri 14 iyul 1930-cu il tarixli ittihamnamədə Abuzər Əli oğlu Orucov aşağıdakılarda ittiham olunur:

"52 yaşlı, Bərdə rayonunun Alpoudlu kəndində anadan olmuş, Ağdam şəhər sakini, vətəndaş Abuzər Əli oğlu Orucovun Bakıda Çar və Müsavat hakimiyyəti dövründə özünün şəxsi mətbəəsi və 2 kitab mağazası olmuşdur. Azərbaycan sovetləşəndən sonra mətbəə və mağazalar onun əlindən alınmışdır. Bundan sonra öz kəndlərinə gedərək işsiz qalmış, yalnız 1927-ci ildə AzQİZ-in Ağdam şöbəsinin müdiri vəzifəsinə işə düzəlmişdir. Qardaşı Oruc Orucov Müsavat hökuməti zamanında parlamentin üzvü olmuşdur. Azərbaycan sovetləşəndən sonra isə 1927-ci ilədək Bakıda yaşamış, ticarətlə məşğul olmuşdur. Məlumatlara görə hakimiyyətdən gizlənir. Abuzərlə sıx əlaqəsi vardır, onunla yazışır və hətta təxminən mart ayının axırlarında qeyri-müəyyən məqsədlə Ağdama, qardaşı Abuzərin yanına gəlmişdir. Onun yanında 10-15 gün qaldıqdan sonra geriyə qayıtmışdır.

Abuzər Orucov hakimiyyətin qatı düşmənidir. Onun bu hərəkətləri Ağdamda işləyərkən daha qabarıq büruzə vermişdir. Belə ki, o, həmişə öz ətrafına sovet hakimiyyətinin əleyhinə olan elementləri: Yusif Musayevi, İsgəndər Cəfərovu, Qulam Əzimovu, Məşədi Həsəni və Musa Hacıyevi toplayır, onlarla gizli söhbətlər aparır.

Abuzər Orucov eyni zamanda sovet hakimiyyətinin əleyhinə müharibə olacağı, sovet hakimiyyətinin yıxılacağı və s. bu kimi təxribat xarakterli böhtanlar, şayələr yaymışdır. Apardığı söhbətlər zamanı

demişdir ki, Qırmızı Ordu Qarabağa ona görə gətirilib ki, Qarabağda sovet hakimiyyətini devirmək üçün İran sərhəcinə toplaşmış 3 türk korpusunun qarşısını alsın.

İstintaq zamanı verdiyi bütün ifadələrdə Abuzər Orucov ona qarşı irəli sürülən bütün ittihamları rədd etmiş və hətta kimlər arasında iş apardığını da deməkdən imtina etmişdir. Bütün bunlara baxmayaraq onun günahı və antisovet ünsürlərlə əlaqədə olması şahid ifadələri ilə sübuta yetirilmişdir.

Bütün bu göstərilənləri nəzərə alaraq istintaq işi bitmiş hesab edilsin: Vətəndaş Orucuv Abuzər Əli oğlunun Azərbaycan SSR CM-nin 72-ci maddəsinə əsasən cinayətkar fəaliyyəti sübuta yetirilmişdir. İş baxılmaq üçün Fövqəladə Siyasi Yeddiliyə göndərilsin".

Göründüyü kimi, Abuzər Əli oğlu Orucovu Dövlət Siyasi İdarəsinin əməkdaşları belə gülünc və heç bir əsası olmayan ittihamlarla cinayət məsuliyyətinə cəlb etmişdilər

Fövqəladə Siyasi Yeddiliyin 17 iyul 1931-ci il tarixli iclasında Abuzər Əli oğlu Orucovun 10 il müddətinə cəza çəkmək üçün sürgünə göndərilməsi barədə qərar çıxarılmışdır.

İstintaq işində saxlanılan Azərbaycan Dövlət Siyasi İdarəsinin bir məktubunda göstərilir ki, Abuzər Əli oğlu Orucov cəzasını çəkmək üçün birinci etapla Kem şəhərinə göndərilib.

Azərbaycanda kitab çapının və nəşriyyat işinin inkişafında əvəzedilməz xidmətləri olmuş Orucov qardaşlarından biri Abuzər Əli oğlu Orucov yalnız həbs olunduqdan 59 il sonra, yəni 6 iyun 1989-cu ildə bəraət aldı.

XX əsrin əvvəlində Bakıda yaratdıqları mətbəə-nəşriyyatı ilə milli kitab xəzinəmizin zənginləşdirilməsində və çap mədəniyyətinin inkişafında müstəsna rolu olmuş Orucov qardaşları Azərbaycanın kitab mədəniyyəti tarixində ədəbi qalacaqlar.

## ƏDƏBİYYAT

*1. Bakı, Bəradərani Orucov kütübxanəsinin əsamiül-kütubu.- B., 1913.*

*2. Həsənov H. Azərbaycan kitabının inkişaf mərhələləri.-B.: Azərnəşr, 1985.*

*3. Əfəndiyev Ə., Əliyeva Z. Orucov qardaşlarının mətbəəsi. – B., Qartal, 1999.-98 s.*

**Zülfiyyə ƏSGƏROVA**
*Magistrant*

# M. F. AXUNDOV ADINA AZƏRBAYCAN MİLLİ KİTABXANASININ «ELMİ ƏSƏRLƏRİ»NİN NƏŞR TARİXİ

Keçmiş Sov. İKP XXVI qurultayının çağırılması ilə əlaqədar olaraq əhaliyə kitabxana xidməti sisteminin təkmilləşdirilməsi, mərkəzi elmi kitabxanaların elmi-metodik və elmi-tədqiqat fəaliyyətini daha da yaxşılaşdırmaq mühüm vəzifə kimi qarşıya qoyulmuşdu. Bu məqsədlə kitabxanaşünaslığın və biblioqrafiyanın ən aktual problemlərinə dair materialları elmi ictimaiyyətin nəzərinə çatdırmaq üçün mühüm bir nəşri ortaya çıxarmaq zərurəti yaranmışdı. Belə bir zərurəti nəzərə alaraq, M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının «Elmi əsərləri»nin nəşrinə diqqət göstərildi.

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının «Elmi əsərləri» kitabxanaşünaslıq və biblioqrafiya ilə maraqlanan elmi işçilər, aspirantlar, tələbələr üçün informativ mənbə kimi mühüm əhəmiyyət kəsb edir. Bu nəşrlərdə kitabxananın tarixi, əsərlərin təbliği, oxucu oriyentasiyasının müəyyənləşdiril-məsi, kitabxanaşünaslığın və biblioqrafiyanın problemlərinə dair mühüm məsələləri, kitabxananın elmi əsərləri, topluları və digər fəaliyyətləri haqqında konkret məlumatlar verilir.

I buraxılışı «Əsərləri» adı altında nəşr edilən «Elmi əsərləri»n hər nəşrinin daxili quruluşu demək olar ki, eyni qaydada, ardıcıl tərtib olunmuşdur. Yəni məqalələr ardıcıl düzülmüş və sanki sıralanmış məqalələr bir-birini tamamlayırlar. Adətən bu məqalələrin düzümü, adları, məqsədləri dəyişdirilmir, yalnız hər il üçün cari məlumatlar verilir. Mövzu ilə bağlı əsaslı dəyişikliklər daha çox sonuncu, VI nəşrdə (1992-ci il) nəzərə çarpır. Milli Kitabxananın «Elmi əsərləri»nin 1980-ci ildə çapdan çıxmış I buraxılışında məqalələr aşağıdakı ardıcıllıqla düzülmüşdür:

– «Mənəvi sərvətimizin böyük xəzinəsi» (M.F.Axundov adına Respublika Dövlət Kitabxanasının tarixindən (1920-1940-cı illər) bəhs edir) elmi məqaləsi bir neçə nəşrdə yeni adla, lakin məqsəd və mahiyyət eyni olmaqla verilmişdir. Məsələn, əgər birinci nəşrdə eyni adlı məqalədə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının

yaranma tarixindən bəhs edilmişsə, növbəti məqalələrdə (II, III, V nəşrlərin birinci məqaləsi) kitabxananın inkişaf (illər üzrə bölünür) tarixindən bəhs olunmuşdur.

– «Elmi işçilərə və mütəxəssislərə kitabxana xidmətinin təşkili və onun gələcək inkişaf yolları» adlı məqalənin adından görünür ki, burada kitabxana xidmətinin istiqamətli təşkili və onun perspektivi haqqında bəhs edilmişdir.

– «Azərbaycanda ölkəşünaslıq biblioqrafiyasının inkişafı (1926-1932-ci illər)» adlı məqalədə hər buraxılışda ayrı-ayrı illər üzrə ölkə biblioqrafiyasının inkişafı, onun əsas problemləri və eləcə də müvəffəqiyyətləri haqqında məlumat-lar verilmişdir.

– «Biblioqrafiya termini haqqında», «M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının kataloqlarda yeni kitabxana-biblioqrafiya təsnifatı (KBT)», «Respublikanın görkəmli biblioqrafı Əliheydər Qəhrəmanov», «İllər və tədqiqatlar» (1920-1970-ci illər) və hər nəşrdə demək olar ki, analoci maraqlı materiallar nəşr olunmuşdur.

1983-cü ildə çap edilən II buraxılışda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının inkişaf tarixindən (1941-1958-ci illər), biblioqrafik göstəricilərin rolundan, «Əkinçi» qəzetindən, Azərbaycan kəndlərində kitab və mütaliə problemləri və s. tədqiqatlardan bəhs edən məqalələr diqqəti cəlb edir.

1986-cı ildə çap edilən «Elmi əsərləri»n növbəti – III buraxılışında M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının inkişaf tarixinə (1959- 1965-ci illər), mərkəzləşdirilmiş kitabxana sistemi şəraitində filial kitabxanalarda xidmətin təşkilinə, Azərbaycanda diyarşünaslıq biblioqrafiyasına (1920-1925-ci illər) və eləcə də kitabxanaşünaslıq və biblioqrafiyaya dair elmi əhəmiyyəti olan bir sıra maraqlı materiallar kitabxana ictimaiyyətinin nəzərinə çatdırılmışdır.

1988-ci ildə nəşr olunan IV buraxılışda respublika kitabxanalarında kitabxana-biblioqrafiya təsnifatının tətbiqinə, kitabxana işinin tarixinə, metodik işlər və onun problemlərinə, elmi-texniki məlumatın təbliğinin forma və metodlarına, Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin inkişafına (1946-1952-ci illər), sənədlərin biblioqrafik təsvirinə və s. həsr olunmuş məqalələr diqqəti cəlb edir.

1990-cı ildə çıxan V buraxılışda M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının inkişaf tarixinə (1966-1974-cü illər), N.Nərimanovun əsərlərinin nəşri tarixinə, kütləvi kitabxanalarda fonotekanın təşkili məsələlərinə, kitabxanalarda oxucu marağının öyrənilməsinə, elmi-texniki informasiyanın səmərəliliyinin yüksəldilməsinə, mərkəzləşdirilmiş kitabxana sistemində vahid fondun komplektləşdirilməsinə, kitabxanalarda əməyin elmi təşkilinə və s. problemlərə həsr olunmuş məqalələr cəmləşmişdir.



1992-ci ildə çap edilən sonuncu – VI buraxılış isə Nizami əsərlərinin nəşri tarixindən, kitabxana fondunun formalaşdırılmasına dair məsələlərdən, Milli Kitabxananın elmi-köməkçi biblioqrafiyanın inkişafındakı rolundan, mütaliə tədqiqi üzrə kitabxananın sosioloci xidməti problemləri və inkişaf perspektivlərin-dən, Azərbaycanda pedoqoci ədəbiyyatın nəşri tarixindən (1920-ci ilə qədər), Dağlıq Qarabağ Muxtar Vilayətində kitabxana işinin inkişaf tarixindən (1923-1928-ci illər) və s. bəhs edilmiş məqalələrdən ibarətdir.

«Elmi əsərləri»n hər nəşrinin sonunda bir qayda olaraq, «Kitabxanamızın nəşrləri haqqında» cari il üçün M.F.Axundov adına Milli Kitabxananın çapdan çıxan məhsulları haqqında məlumat verən seriyal məqalələr verilmişdir. Yəni bütün altı buraxılışın hər birinin sonu eyni adlı məqalə ilə bitir.

Göründüyü kimi, bölmələrin əksəriyyətinin adları və prinsipləri saxla-nılmaqla, məzmunu və mövqeyi hər il üçün yeniləşdirilmiş və əlavələr edilmişdir.

«Elmi əsərləri»n M.F.Axundov adına Azərbaycan Milli Kitabxana tərəfindən buraxılan nəşrlər haqqında məlumatlar 1978-1991-ci illəri əhatə edir. Göründüyü kimi, 1992-ci ildən sonra bu silsilə nəşrin – «Elmi əsərləri»n çapı dayandırılmışdır. Nəticədə bu cür mühüm nəşrlərin, müasir dövrümüzdə tələbatın olmasına baxmayaraq, buraxılışı azalmış, milli kitabxanamızın nəşriyyat sahəsində bir boşluq əmələ gətirmişdir. Əslində bu cür informativ, eyni zamanda hesabat xarakterli nəşrlər mümkün qədər ardıcıl nəşr olunmalı, elmi oxucunu kitabxana fəaliyyəti ilə mütəmadi olaraq tanış etməlidir. Ümumiyyətlə, hər hansı bir kitabxananın, elmi müəssisənin, təşkilatın, birliyin və s. öz fəaliyyəti haqqında nəşrlərinin buraxılması zəruri və təqdirəlayiq bir haldır. Onu da qeyd edək ki, hər bir nəşrin, çap məhsulunun nüfuz və dəyər qazanması – maarifləndirmə, təfəkkürün inkişafı, ümumi təkamül, dünyagörüşünün artırılması baxımından xalqımızın uğurudur.

### ƏDƏBİYYAT

*1. Əsərləri. Buraxılış 1. – B., M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1980. – 183 s.*

*2. Elmi əsərləri. Buraxılış 2. – B., M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1983. – 175 s.*

*3. Elmi əsərləri. Buraxılış 3. – B., M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1986. – 141 s.*

*4. Elmi əsərləri. Buraxılış 4. – B., M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1988. – 116 s.*

*5. Elmi əsərləri. Buraxılış 5. – B., M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1990. – 138 s.*

*6. Elmi əsərləri. Buraxılış 6. – B., M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1992. – 105 s.*

*7. Bədəlov E. Kitabxananın elmi əsərləri // Azərbaycan gəncləri. – 1982. – 26 yanvar. – S. 3.*

*8. İsmayılov X. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasının elmi-tədqiqat fəaliyyəti (1970-1990) // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal. – B.: BDU, 2002. – №1. S. 3-9.*

*9. Rüstəmov Ə. Sov. İKP XXVI qurultayının çağırılması ilə əlaqədar olaraq kitabxanaların vəzifələri: Təlimati-metodik məktub. – B., M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanası, 1980. – 7 s.*

***Зульфия Аскерова***

## ИСТОРИЯ ИЗДАНИЙ «НАУЧНЫЕ ТРУДЫ» АЗЕРБАЙДЪАНСКОЙ НАЦИОНАЛЬНОЙ БИБЛИОТЕКИ ИМ. М.Ф.АХУНДОВА

*РЕЗЮМЕ*

*В статье дается краткий обзор об истории изданий «Научные труды» Азербайджанской Национальной Библиотеки им. М.Ф.Ахундова, нынешние обстоятельства их изданий, конкретные информации касающихся материалов в «Научных трудах», о тематической структуре и общие принципе этих изданий и т. д.*

*Несмотря на то, что есть нужды на их печатания, «Научные труды» больше не печатаются. В связи с этим в конце статьи отмечаются проблемы возникновении пустоты в научно-исследовательском и издательском деле Азербайдъанской Национальной Библиотеки им. М.Ф.Ахундова.*

*В статье особенно осматривается сегодняшние обстоятельства «Научные труды», проблемы их изданий.*

## TACƏDDİN FƏRHAD OĞLU QULİYEV



2005-ci ilin payızında amansız ölüm unudulmaz bir iş yoldaşımızı – Bakı Dövlət Universiteti Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri, tarix elmləri namizədi, dosent Tacəddin Fərhad oğlu Quliyevi sıralarımızdan apardı.

*Tacəddin Fərhad oğlu Quliyev 1929-cu il sentyabrın 25-də Goranboy rayonunun Zeyvə kəndində dünyaya göz açmışdı.*

*Böyük Vətən müharibəsi başlayan günə qədər kənddəki natamam orta məktəbdə təhsil almış, sonra isə kolxozda işləyə-işləyə 7-ci sinfi bitirmişdi. Bir müddət Goran dəmiryolunda fəhləlik etdikdən sonra Gəncədəki Pedaqoji Texnikumda təhsil almış, Goranboy rayonunda mədəni-maarif şöbəsində təlimatçı işləmişdi.*

*T.Quliyev 1949-cu ildə N.K.Krupskaya adına Bakı Kitabxanaçılıq Texnikumunda (indiki Bakı Mədəni-Maarif Texnikumu) orta ixtisas təhsilini başa vuraraq, Bakı Dövlət Universitetinin Filologiya fakültəsinin kitabxanaçılıq şöbəsinə daxil olmuş və 1949-1954-cü illərdə burada ali təhsil almışdı. O, bir neçə il müxtəlif kitabxanalarda işlədikdən sonra 1954-cü ildə ali təhsilli gənc mütəxəssis kimi Bakı Kitabxanaçılıq Texnikumunda müəllim vəzifəsinə dəvət edilmişdi. Eyni zamanda 1958-*

*ci ildən Respublika Kitabxana Kollektorunun müdiri kimi səmərəli fəaliyyət göstərmişdi.*

*Artıq 1965-ci ildən BDU-nun Kitabxanaşünaslıq kafedrasının müəllimi olan gənc mütəxəssis cəmi bir neçə il sonra - 1969-cu ildə professor A.Xələfovun elmi rəhbərliyi ilə "Azərbaycanda Həmkarlar İttifaqı kitabxanalarının tarixi (1920-1941)" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək, tarix elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdü.*

*1973-cü ildən 1986-cı ilin sonlarınadək Kitabxanaçılıq fakültəsində dekan müavini vəzifəsində böyük səy və enerji ilə çalışan dosent T.Quliyevin işgüzarlığı, prinsipiallığı, obyektivliyi, fakültənin o dövrdəki dekanı, professor A.Xələfovla birgə səmərəli fəaliyyəti bütövlükdə kadr hazırlığına müsbət təsir göstərmişdi.*

*1990-cı ildə dosent T.Quliyev BDU-da təzəcə yaradılmış Kitabxana fondu və kataloqların təşkili kafedrasının müdiri seçilmişdi. Ona göstərilmiş yüksək etimadı layiqincə doğruldan alim rəhbərlik etdiyi kafedranın fakültənin aparıcı qurumlarından birinə çevrilməsi, kitabxanaşünaslıq elminin inkişafına özünəməxsus töhfə verməsi sahəsində özünün bilik və bacarığını əsirgəmirdi.*

*Dosent T. Quliyev tanınmış kitabxanaşünas alim kimi dəfələrlə respublika və beynəlxalq miqyaslı elmi tədbirlərdə iştirak etmişdi.*

*Təxminən 50 il səmərəli elmi-pedaqoji fəaliyyətlə məşğul olan alimin qələmindən yüzdən çox elmi əsər, o cümlədən bir sıra dərslik, dərs vəsaiti, monoqrafiya və elmi məqalələr çıxmışdı. Bunlardan 2 cildlik "Azərbaycanda kitabxanaçılıq işi" adlı sanballı dərs vəsaiti ölkəmizdə Həmkarlar İttifaqı kitabxanalarının tarixini və bugünkü vəziyyətini çox geniş şəkildə əhatə edir.*

*Dosent T.Quliyev BDU-nun ictimai həyatında da fəal iştirak edir, ona tapşırılan işlərin öhdəsindən bacarıqla gəlirdi.*

*Tacəddin müəllim istedadlı alim olmaqla yanaşı, həm də sədaqətli dost, qayğıkeş yoldaş, gözəl ailə başçısı idi. Onun həyat şüarı xeyirxahlıq, səmimiyyət və insanpərvərlik idi. Belə nəcib insanın, səriştəli müəllimin, gözəl ailə başçısının, qayğıkeş babanın dünyadan vaxtsız köçməsi hamımızı qəlbən kədərləndirdi. Lakin onun yaxşı əməlləri, xeyirxah işləri həmişə qədirbilən insanların ürəyində yaşayacaq.*

*Qəbri nurla dolsun!*

BDU-nun Kitabxanaçılıq-informasiya
fakültəsinin kollektivi
«Kitabxanaşünaslıq və biblioqrafiya»
jurnalının redaksiya heyəti

# ZÖHRAB İSA OĞLU BAXŞƏLİYEV



2005-ci ilin payızında amansız və faciəli ölüm unudulmaz bir iş yoldaşımızı – Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi Zöhrab İsa oğlu Baxşəliyevi sıralarımızdan apardı.

*Zöhrab İsa oğlu Baxşəliyev 1947-ci ilin avqustun 3-də Azərbaycan Respublikasının Ağdam rayonu Çəmənli sovetliyinin Sarıcalı kəndində kolxozçu ailəsində anadan olmuşdu.*

*1965-ci ildə Çəmənli kənd orta məktəbini bitirmişdi.*

*1966-cı ilin aprel ayından Bakı şəhərində keçmiş P.Montin adına Neft Mədən Maşınqayırma Zavodunda fəhlə kimi işə başlamışdı.*

*1966-cı ilin iyun ayından 1968-ci ilin dekabrınadək ordu sıralarında hərbi xidmətdə olmuşdu. Hərbi xidmətdən sonra - 1969-cu ildə yenidən zavoda qayıdaraq fəhlə işləmişdi.*

*Z.Baxşəliyev 1970-ci ildə Bakı Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsinin əyani şöbəsinə daxil olmuş və 1975-ci ildə oranı bitirmişdi. Ailənin maddi vəziyyəti ağır olduğu üçün təhsil müddətində dərsdən kənar vaxtlarda zavodlarda işini davam etdirmiş və universiteti bitirdikdən sonra həmin zavodda mühəndis-informator vəzifəsini tutmaqla müəssisə elmi-texniki kitabxanasının müdiri işləmişdi. O özünü bacarıqlı kitabxana işi təşkilatçısı kimi göstərə bilmiş, dəfələrlə zavod rəhbərliyinin təşəkkürlərinə və fəxri fərmanlarına layiq görülmüşdü.*

*1977-1978-ci illərdə «Azərittifaq»ın kitab ticarəti idarəsində əmtəəşünas və təlimatçı vəzifəsində çalışmışdı.*

*Z.Baxşəliyev 1978-ci ilin sonlarından dünyadan köçənə qədər Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasında işləyirdi. İlk vaxtlar kafedranın baş laborantı, 1980-1983-cü illərdə aspirantı, 1983-cü ilin sentyabrından kafedranın müəlimi olmuşdu.*

*1970-1990-cı illərdə Kommunist Partiyasın üzvü olan Z.Baxşəliyev 1990-cı ilin yanvarında Sovet rəhbərliyinin xalqımıza qarşı törətdiyi qanlı cinayətlərdən sonra nümayişkaranə şəkildə partiya sıralarından çıxmışdı.*

*1989-cu ildə professor A.Xələfovun elmi rəhbərliyi ilə namizədlik dissertasiyasını uğurla müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdı, 1994-cü ildən kafedranın dosenti vəzifəsini tuturdu. 1994-cü ildən 2004-cü ilə qədər Kitabxanaçılıq-informasiya fakültəsinin dekan müavini vəzifəsində çalışırdı.*

*Dosent Z.Baxşəliyev dövri mətbuatla sıx əlaqə saxlamış, bir sıra aktual məqalələrlə çıxış etmiş və öz maraqlı yazıları ilə oxucuların rəğbətini qazanmışdı. Onun kitabxanaşünaslığın aktual problemləri ilə bağlı məqalələri jurnal və məcmuələrdə müntəzəm çap olunmuş, elmi ictimaiyyətin diqqətini cəlb etmişdi. Onun «Kitabxanaşünaslığa giriş» adlı dərs vəasiti bu baxımdan mütəxəssislər tərəfindən layiqincə qiymətləndirilmişdi. Yeri gəlmişkən, həmin kitab bu gün də lazımlı dərs vəsaiti kimi tələbələrin köməyinə gəlir.*

*Bakı Dövlət Universitetinin Kitabxanaşünaslıq kafedrasında çalışan dosent Z.Baxşəliyev uzun illər ərzində qazandığı əməli təcrübəsini pedaqoji fəaliyyətlə əlaqələndirməyə başlamış, qısa müddət ərzində qabiliyyətli və həmişə axtarışda olan pedaqoq kimi iş yoldaşlarının və tələbələrin dərin hörmətini qazanmışdı.*

*Dosent Z.Baxşəliyev prinsipial, obyektiv və işgüzar bir alim və pedaqoq kimi tanınırdı. Onun qayğıkeşliyi, insanpərvərliyi və səmimiliyi hamı tərəfindən razılıqla qarşılanırdı. Zöhrab müəllim kimi yüksək səviyyəli ziyalının, təcrübəli müəllimin, qayğıkeş ailə başçısının və cavan babanın bizi qəfildən və faciəli şəkildə tərk etməsi hamımızı sarsıtdı. Təsəllimiz budur ki, səmimi iş yoldaşımız Zöhrab Baxşəliyevin yaxşılıqları, xeyirxahlıqları qədirbilən insanların ürəyində həmişəlik yaşayacaq.*

*Qəbri nurla dolsun!*

BDU-nun Kitabxanaçılıq-informasiya
fakültəsinin kollektivi
«Kitabxanaşünaslıq və biblioqrafiya»
jurnalının redaksiya heyəti



## BİZİM MÜƏLLİFLƏR

*Abuzər Alı oğlu Xələfov* – *Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Bakı Dövlət Universiteti Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor*

*Zöhrab Hüseyn oğlu Əliyev* - *BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müdiri, Əməkdar mədəniyyət işçisi, professor*

*Əşrəf Teymur oğlu Xələfov* - *BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

*Rasim Əhməd oğlu Kazımov* - *BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

*Əli Musa oğlu Rüstəmov* - *BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

*Zöhrab İsa oğlu Baxşəliyev* – *BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, tarix elmləri namizədi*

*Knyaz İlyas oğlu Aslan* – *BDU-nun Kitabxanaşünaslıq kafedrasının dosenti, pedaqoji elmlər namizədi*

*Sevda Abbasqulu qızı Xələfova* - *BDU-nun Kitabxana fondu və kataloqların təşkili kafedrasının müəllimi*

*Sima Paşa qızı İsmayılova* - *BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının müəllimi*

*Xuraman Telman qızı Verdiyeva* - *BDU-nun Biblioqrafik informasiya-axtarış sistemləri tədris laboratoriyasının müdiri*

*Nuriyə Zakir qızı Mustafayeva* – *BDU-nun Kompüter mərkəzinin mühəndisi*

*Leyli Şəmsəddin qızı Abbasova* - *Biblioqrafiyaşünaslıq üzrə magistr*

*Çinarə Sahib qızı Məmmədova* – *BDU-nun Kitabxanaşünaslıq kafedrasının magistrantı*

*Seymur Şeydayev* – *Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşı*

*Zülfiyyə Əsgərova* – *BDU-nun Kitabşünaslıq və nəşriyyat işi kafedrasının magistrantı*

*ББК – 78*
*К 73*

**Учредитель и Главный редактор**
**Профессор**
**Халил ИСМАЙЫЛОВ**

**Ответственный редактор**
**Доцент**
**Князь АСЛАН**

**Редакционная коллегия:**

**Профессор Абузар Халафов**
**Профессор Зохраб Алиев**
**Профессор Байрам Аллахвердиев**
**Доцент Ашраф Халафов**
**Доцент Расим Казымов**
**Доцент Надир Исмайылов**

**К 73** *Библиотековедение и Библиография: Научно – теоретический, методический и практический журнал.- Б., Изд- во Бакинского Университета, 2005. - №2. –152 с.*

*Адрес редакции:*
*Аз – 1073/1 г.Баку, ул.Захида Халилова, 23,*
*учебный корпус №2, этаж ЫВ, Библиотечно – информационный факультет,*
*редакция журнала «Библиотековедение и библиография».*
*Тел: 439-05-47; 439-03-66*

**© «Библиотековедение и библиография». 2005**

| | |
|---|---|
| Mətbəənin müdiri: | Ələs QASIMOV |
| Texniki redaktor: | Cabir MƏMMƏDLİ |
| Bilgisayar tərtibçisi: | Anar ŞABANOV |
| Bilgisayar yığıcısı: | Maisə RƏHİMOVA |
| Korrektoru: | Solmaz SADIQOVA |

*Jurnal Azərbaycan Respublikası*
*Mətbuat və İnformasiya Nazirliyində*
*qeydə alınmışdır.*
*Şəhadətnamə № 575. 27 mart 1997.*

*Yığılmağa verilmişdir: 25.11.2005.*
*Çapa imzalanmışdır: 25.12.2005.*
*Kağız formatı 60x84 1/16*
*Fiziki ç.v. 9,5*
*Sayı 200*
*Qiyməti müqavilə ilə.*

*Ünvan: Az – 1073/1. Bakı şəhəri, Zahid Xəlilov küçəsi, 23.*
*Bakı Universiteti Nəşriyyatı.*
*Bakı Universiteti Nəşriyyatının mətbəəsi.*